M.T. OLƏNJEV

MIQROBIOLOGIJA QURSU

Azərnəşr
Kənd təsərrüfat şöbəsi
BAKı – 1937

Naqi Məhəmmədzadə tərəfindən elektronlaşdırılmışdır.

Redaqtor: **Xalimbəjov**
Subredaqtor: **M. Ə. Kərimov**
Texredaqtor: **M. Zejnalzadə**
Qorreqtor: **M. Məhərrəmov**

İstehsalata verilmiş 21/III-37
Capa imzalanmış 28/IV-37.
Cap listi 19. Kaqız formatı 62×94 1/16.
Bir cap listində getmiş hyrufat 57936.
Baş Mətbuat Mydirliji Myvəkkilliji № 9009.
Azərnəşr № 807.
Tiraz 3500. Sifariş № 571.

Azərnəşr mətbəəsində basıldı. 26-lar adına „Kitab Sarajı"
Bakı, Əli Bajramov kycəsi.

BIR NECƏ SΘZ.

Azərbajçan dilində fənni, xysusən tibbə dair kitablarьn az olmasь hamьja bəllidir. Başqa fənnlərə dair istər tərçymə, istərsə original ədəbijjat coqdur; lakin miqrobiologija fəninə aid bu vaqta qədər azərbajçan dilində nə tçrymə və nə də original əsər buraqьlmamьşdьr. Joldaş Qlənijevin 1933-çy ildə, «Ymumi miqrobiologija əsaslarь» əsəri miqrobiologija elminə dair azərbajçança ədəbijjatьn ortaja cьqmasьna jol acьr. Myəllifin bu dəfə tərtib etdiji kitab birinçijə nisbətən daha genişdir, bu dəfə buraqьlan kitaba miqrobiologijanьn xysusi hissəsi də ilavə edilmişdir. Xəstəliklərin tərədiçiləri ətraflь surətdə təsvir edilmişdir; bundan başqa myəllif bə'zi momentləri nəzərə alaraq bir qisim xəstəlikləri epizootolozi təmajyl ilə təsvir etmişdir. Myəllif çavan olmasьna baqmajaraq, tələb edilən vəzifəni lajiqinçə jerinə jetirmişdir. Bu kitab bajtarlьq institutu və texniqumlarь tələbələri ycyn buraqьlьr.

Çavan myəllif, bu ilk əsərilə tyrk ali məktəbi oqujuçularьnь dərs kitablarь ilə tə'min etmək işində bəjyk xidmətlər gəstərə biləçəkdir. Jeni jetişmiş qadrolarьmьzьn bizə azərbajçan dilində belə qijmətli bir əsər verməsi Lenin-Stalin partijasьnьn milli sijasətinin parlaq nətiçəsidir.

Bu ilk addьmda qazandьqь bu bəjyk myvəffəqijjətdən dolajь çavan azərbajçan baqterioloqunu təbrik edər və daha bəjyk myvəffəqijjətlər əldə etməsini arzь edərik.

Bajtarlьq Idarəsi elmi soveti.

MYƏLLIFDƏN.

Mə'lum olduqu kibi Azərbajçan dilində miqrobiologija elminə dair ədəbijjatьn olmamasь və ejni zamanda ona hiss edilən ehtijaç, bizi iki il bundan əvvəl «Ymumi miqrobiologijanьn myxtəsər əsaslarь» adlь bir kitabca buraqmaqa təhrik etmişdi.

Ejni ehtijaç və tələbat, iki il bundan əvvəl buraqdьqьm kitabcanьn jenidən baqьlmasьnь, ymumi hissə yzərinə xysusi hissənin və miqrobiologija texniqasьnьn da ilavə edilməsini diqte etdijindən həmin kitabca indi bir az daha gərkəmli, bir az daha dolqun olaraq mejdana cьqdь.

Kitabdakь mə'lumatьn tələbə joldaşlarь tə'min edə biləçək bir həçmdə olduquna baqmajaraq mən, gələçəkdə kitabь nəzərdən kecirərək onu jeni mə'lumat və lazьmi materiallarla zənginləşdirib mykəmməl bir hala salmaq umudundajam.

Partija və hykumətimizin qərarlarьna gərə ikinçi beşillik icərisində maldarlьqьn gərək kejfijjət və gərəksə miqdarça jyksəlməsi məsələsi qət'i surətdə həll edilməlidir. Bu əsas məsələnin həll edilməsində biz xysusilə joluquçu xəstəliklərin qarşьsьnь almaqla məşqul olmalь, profilaqtiqanь genişləndirməlijik.

Kitabь tərtib etdijim zaman, həmin juqarьda gəstərilən momenti, tədris gedişində təsadyf edilən cətinlikləri və tələbələrin ehtijaç hiss etdikləri məsələləri nəzərdə dutmuşam.

Oqujuçular, bu kitabda ymumi hissə ilə tanьş olmaqdan ilavə xəstəlik tərədənlərin təsviri, xəstəlijin diaqnozu və biolozi preparatlarьn hazьrlanьb işlədilməsi xysusunda da xysusi mə'lumat ala bilərlər.

Kitab, ymumi və xysusi hissələrdən ibarət olmaqla hər iki hissəjə aid mə'lumatь havi olaraq, miqrobiologija elminə dair lazьmi məsələlərə mynasib mə'lumat verir.

Həmin kitabьn dərç edilməsində məndən joldaşlьq jardьmьnь əsirgəməjən doqtor Qulijev Aslana son dərəçədə minnətdaram.

Kitabьn noqsanlarь barəsində oquçularьmьzьn verəçəkləri göstəriş və məsləhətləri məmnunijjətlə qəbul edəçək və gələçək təb'i ycyn nzərdə dutaçaqam.

MYƏLLIF

Bakь, 2 ijul 1934-çy il.

Qejd.[1] Kitabьn tərtibində istifadə edilən ədəbijjat:
Uvarov «Miqrobiologija qursu»;
Mixin «Miqrobiologija qursu»,
Uvarov «Baqteriologija qursu».

---

[1] Rus dilində.

YMUMI MIQROBIOLOGIJA

GIRIŞ

Miqrobiologija adi gəzlə gəryłməjib xysusi lupalar vasitəsilə gərylə bilən miqroblardan və onlarьn həjat fəalijjətindən bəhs edən elmdir. Miqrobiologija sözy: *miqro*—balaça, *bio*—həjat, *logija*—elm kəlmələrindən ibarətdir. Bu kibi çanlьlar demək olar ki, təbiətin hər jerində təsadyf edilir. Məsələn topraqda, suda, havada, orqanizmdə, bitgilərin xariç və daxilində və jem məhsullarьnda bunlarь gərmək mymkyndyr. Bir hyçejrədən təşkil olunmuş bu çanlьlar funqsija e'tibarilə iki jerə bəlynyrlər: bunlarьn bir qrupu çanlьlarьn həjatьnda əsas rol ojnajьb, onlar ycyn mənfəətli olduqlarь halda, digər qrupu əksinə, həmin çanlьlar ycyn zərərlidirlər. Quruluşça sadə olmalarьna baqmajaraq insan və hejvanlar arasьnda myşahədə edilən tələfata bunlar səbəb olurlar.

Miqroblarьn təbiətdəki fəalijjət və rollarь olduqça qijmətlidir. Bunlarьn təbiət miqjasьnda—həjatdakь rollarь coq myhymdyr. Miqroorqanizmlər kəşf edilənə qədər onlarьn təbiətdəki rollarь xysusunda hec bir mə'lumat joq idi, bunlar kəşf edildikdən sonra, təbiətdəki rollarь get-gedə ajdьnlaşьr və bu dairədə bir coq məsələlər həll edilir.

Kecmiş tarixlərə baqdьqda qədim insanlarьn joluquçu xəstəliklərlə mybarəzə etdiklərini göryryk. Musa, joluquçu xəstəliji belə təsvir edir: «... bu vaqt insanlar ölənlərin çəsədlərini jandьrьr və ja dərin qazьlmьş qəbrlərə basdьrьrlardь» (jəqin ki, göstərilən xəstəlik taun imiş). O zaman onlarьn etdikləri mybarəzə məqsəd e'tibarilə bu devrdə joluquçu xəstəliklərlə edilən mybarəzəjə oqşajьr. Şybhəsiz ki, indi aparьlan mybarəzə miqrobiologijanьn bu gynky tərəqqisi sajəsində daha myrəkkəb və mykəmməldir.

Miqroblarьn əksərijjəti bir hyçejrədən ibarətdir. Bunlar təbiətdə gördyjymyz çanlьlar arasьnda quruluşça nisbətən sadə olduqlarьndan, zoolozi təkamyl pilləsinin aşaqь dərəçəsinə daxil edilirlərdi. Indi isə miqrobiologija adlanan xysusi bir elm vasitəsilə ojrənilirlər.

Miqrobiologija I **ymumi** və II **xysusi** olmaq yzrə iki hissəjə bəlynyr.

Ymumi miqrobiologija—miqroblarьn morfologija və fiziologijasьndan bəhs edir. Bundan ilavə miqroblarьn maddələr dəvəranьn-

da gördükləri işlər, göbələkçiklər, baqterija ilə protozoolar arasında orta vəzijjət dutub biologija elminin məşqul olmadığı spiroxetlər, syzylən miqroblar, infeqsija, immunitet və onun reaqsijalarь, sero-vaqsino-terapija preparatlarьnьn hazьrlanьb işlənməsi kibi məsələlər də ymumi miqrobiologijaja daxil edilə bilər.

Xysusi hissə—joluquçu xəstəlik tərədən miqroblardan bəhs edir. Təklikdə xysusi hissəni miqrobiologija adlandьrmaq doqru olmaz, cynky bu hissə ymumi hissə kibi miqroblarьn həjatilə ətraflь tanьş olmajьr; lakin bu hissələrin hər ikisini bir jerdə miqrobiologija adlandьrmaq olar və ymumi hissə xysusijə nisbətən daha genişdir. Miqroblarla məşqul olan elmə miqrobiologija adь L u i P a s t e r tərəfindən verilmişdir. Miqrobiologija tarixinin çavan olmasьna baqmajaraq hali-hazьrda miqroblardan bir coq sahələrdə istifadə edilir və buna görə də miqroblarьn iştirak etdikləri jerlərə görə onlara myxtəlif adlar verilir.

Bu vaqta qədər dört mystəqil baqteriologijanьn olduqunu qejd etmək olar ki, bunlar da t i b b i, b a j t a r lьq, k ə n d t ə s ə r r y f a t və s ə n a j e baqteriologijasьndan ibarətdir.

Təbiət elminin bir qolu olan miqrobiologijanьn axьr vaqtlarda iri addьmlarla ilərilәməsi, onun myxtəlif sahələrə bөlynməsinə səbəb olmuşdur.

Miqrobiologija botaniqa və zoologija elmlərinə olduqça jaqьndьr və bə'ziləri hələ də miqrobiologijanь, botaniqa və ja zoologijanьn şө'bəsi dejə qəbul edirlər, lakin həqiqətdə isə miqrobiologija botaniqa və zoologija elmlərinə nisbətən daha iləri və daha tərəqqi etmiş olmaqla barabar patogen protozoalar, qьçqьrdьçь və kif göbələkçiklərini өz sьrasьna alьb, onlarь ətraflь surətdə өjrənir və göstərilən elmləri mymkyn qədər zənginləşdirir.

Təbabət miqrobiologijasьnьn məqsədi insanlarь joluquçu xəstəliklərdən mydafəə etmək ycyn patogen miqroblarla xysusi ysullarla mybarəzə aparmaqdan ibarətdir.

Bajtarlьq miqrobiologijasь da bu məqsədi daşьjьr; lakin bu hejvanlarь qorumaqdan başqa, insanlarьn bə'zi xəstəliklərdən mydafəə edilməsilə də məşqul olur. Bu səbəblərə görə tibbi və bajtarlьq miqrobiologijasь mystəqil olmalьdьr.

Tibbi və bajtarlьq miqrobiologijasь miqroorqanizmlər arasьnda olan mynasəbəti өjrənir və xəstəlik əmələ gətirən miqroblarla mybarəzə aparьr.

Miqrobiologijanьn zoologija və botaniqadan başqa kimja ilə sьqь əlaqəsi vardьr. Miqroblarьn əmələ gətirdiji kimjəvi proseslərin bir coqu bizə—hələ də mə'lum dejildir. Coq vaqt kimjəvi reaqsijalarьn mejdana gətirə bilmədiklərini miqroblar əmələ gətirir.

Kimja sənajeinin hazьrladьqь bir coq məhsullar jalьnьz miqroblar vasitəsilə əldə edilir.

Miqroblarьn apardьqlarь proseslərə əsaslanaraq, bir coq məmləkətlərdə azot, limon və başqa turşularьn hazьrlanmasь miqrob-

mynasəbəti öjrənməlijik və buna görə də bajtarlıq miqrobiologijasы öz qarşьsьnda duran bu məsələlərin həll edilməsilə geniş surətdə məşqul olur. Sovet Sosialist Respubliqalarь Ittifaqьnda bajtarlıq işlərilə bir jerdə bajtarlıq miqrobiologijasь da inkişaf edir. Gələçəkdə bir neçə şiddətli joluquçu xəstəliklərin aradan qaldьrılmasьnьn bajtarlıq miqrobiologijasь ilə sıqь əlaqəsi vardьr. Birinçi beşillik planьna daxil edilmiş bajtar-sanitar tədbirlərinin həjata kecirilməsi bajtarlıq miqrobiologijasьnьn sajəsində oldu. Ittifaqьn bə'zi rajonlarьnda davam edib sosialist maldarlıqьna zərər verən bir neçə xəstəliklərin ləqv edilməsi birinçi beşillijin planьna daxil edilmişdi. Bunun nətiçəsində Zaqavqazijada, Orta Asijada və sairədə hejvandarlıqa böjyk zərər verən qaramal taunu ölkəmizdə tamamilə aradan qaldьrılmьşdьr; lakin revolysijadan qabaq əski Rusijada isə qaramal taunu hejvandarlara böjyk zərbə vururdu və bunun ləqv edilməsinə hec diqqət verilməjirdi.

Sovet Ittifaqьnda bajtarlıq miqrobiologijasьnьn çavan olmasьna baqmajaraq 19 ilin zərfində qaramalьn vərəm, donuzlarьn qarajara, brusellez və manqo kibi əsas xəstəliklərin ləqv edilməsinə calьşmьş və mybarəzə ysullarьnь göstərmişdir; bunun sajəsində də bu xəstəliklərin verdiji zərərlər birə on azalmьşdьr.

MIQROBIOLOGIJANЬN TARIXI.

Miqrobiologija olduqça çavan elmdir; bunun jaşadьqь vaqt təxminən yc jyz ilə jaqьndьr. Bunun bu qədər çavan olmasь coq da təəççybly olmamalьdьr; cynky bunun başlanqьçь və tərəqqi etməsi optiqa ilə sıqь əlaqədə olmuşdur. Xəstəliklərin joluquçu olmasьnь o vaqtkь insanlar da bilir və hətta xəstəlikləri əmələ gətirən miqroblar insanlara mə'lum olmadan əvvəl onlar çyr-bə-çyr xəstəliklərlə mybarəzə aparьrlarmьş.

Miqroblarьn həjat fəalijjəti nətiçəsində əmələ gətirdikləri proseslər o devrin insanlarьna da bəlli idi və onlardan geniş surətdə istifadə edirlərdi. Xəmirin qьçqьrmasьnda, caxьrcьlьq sənajeində, qatьqьn və qьmьzьn hazьrlanmasьnda xysusi miqroblardan istifadə edilirdi; lakin bu maddələrin nə vasitə ilə hazьrlanmasьnь bilməjirdilər. Maddələrin icərisində gedən prosesi öjrənib və onunla jaqьndan tanьş olmaq ycyn optiqa tələb olunurdu. Jyksək dərəçədə böjydyçy optiqalara o zaman coq böjyk ehtijaç var idi, hətta indiki optiqa texniqasьnьn bu mərtəbəjə qalqmasьna baqmajaraq daha jyksək böjydyçy optiqalara olan ehtijaç hiss edilir. Hali-hazьrda bir coq joluquçu xəstəliklərin tərədiçilərinin tapьlmamasьnьn əsas səbəblərindən biri də indiki optiqanьn kifajət dərəçədə olmamasьdьr.

Miqrobiologija bir hyçejrəli bəsit çanlılardan bəhs edir və buna görə bu bəsit çanlьnь öjrənmək ycyn optiqa—lupa tələb edilirdi və bunu da əldə etmək o zaman qejri-mymkyn idi. Birinçi dəfə 1659-çu ildə «lupa» vasitəsilə suda, havada, cyrymyş bitgilər və hətta taun-

dan tələf olan insan qanında miqrobu (qanda miqrobların gərylməsini bə'ziləri təsdiq etməjirlər) gərən A f a n a s i K i b x i n e r olmuşdur.

A f a n a s i K i b x i n e r i n lupası kifajət dərəçədə bəjydyrdy; maddələrdə gərdyjy miqrobları «xırda qurtçuq» dejə adlandırırdı. K i b x i n e r gərdyjy miqrobları lajiqinçə təsvir etməjirdi. Miqrobların daha ajdın gərylməsi ycyn daha bəjydyçy lupalar tələb olunurdu. K i b x i n e r i n lupasından daha coq bəjydən lupa A n a t o l i L e v e n q u q tərəfindən əldə edilir. L e v e n q u q şişə zavodunda calışarkən şişələri bir-birinə birləşdirməsi nətiçəsində 160 dəfə bəjydən lupa əldə edir. A f a n a s i K i b x i n e r i n əldə etdiji lupa ilə göstərilən maddələrdə miqrobları gərməsini bir coqları təsdiq etməjirlər; demək olar ki, bu məsələ hələ bu vaqta qədər də həll edilməmişdir.

Şəkil 1. Levenquq devrində miqrosqop.

Bu qədər bəjydən lupanı L e v e n q u q tədriçlə əldə etmişdir; göstərişlərə görə əmrynyn coq hissəsini bu lupanın hazırlanmasına sərf etmişdir. L e v e n q u q u n miqroblar yzərində apardığı tədqiqat daha mykəmməl olmuşdur; bunun əldə etdiji lupa ilə miqrobların gərynməsi barəsində hec bir şybhə olmamalıdır. L e v e n q u q u n əldə etdiji lupanın bəjydyçy qyvvəsi o devrin myrəkkəb miqrosqoplarına nisbətən daha jyksək idi.

L e v e n q u q darylfynun təhsili almamışdı. Apardığı işin yzərində diqqətli calışan şəxslərdən biri idi. L e v e n q u q u n devrində təbiət elmləri hənuz tərəqqi etməjə başlamış idi və mevhumat bytyn elmlərin yzərində hakim idi. L e v e n q u q myxtəlif nev' maddələri tədqiq etməjə başlajır, tədqiq etdiji kif, jaqış, bataq suju, diş şirəsi, cyrymyş məhsullar və bu kibi maddələr olmuşdu. Göstərilən maddələr tədqiq edilib orada gərylən miqroblar xysusunda lazımi materiallar vardı. Bunları və xysusən başqa maddələri bir dəfə dejil, bir coq dəfə tədqiq etdikdən sonra orada gərdyjy çanlıları mykəmməl dərəçədə təsvir etməklə barabar şəklini belə cəkmişdir.

L e v e n q u q tədqiq etdiji maddələrdə, dəjirmi uzunsoj və qıvrım formaja malik myxtəlif miqroblar germyşdyr və olduqu kibi də təsvir etmişdir. L e v e n q u q gərdyjy miqrobların şək-

lini cəkdiji və təsvir etdiji ycyn miqrobiologija miqroqrafijasьnьn əsasьnь qojmuş olur. L e v e n q u q miqroblarьn myxtəlif formada olmasь barəsində verdiji mə'lumatdan sonra miqrobiologijada morfolozi devr başlanьr. L e v e n q u q kəşfijjatь barəsində London qralicəsinə mə'lumat verdikdən sonra 1673-çy ildə həmin işi capa vermişdir.

L e v e n q u q u n bu kəşfijjatь elmi şuralarda bəjyk maraq ojandьrьr və beləliklə L e v e n q u q u n etdiji kəşfijjat təsdiq olunur. Lupalar tərəqqi etdikçə, miqroblar yzərində aparьlan tədqiqat da məhkəmlənir. O zaman tapьlan miqroblar myəjjən sistemə dyşməmişdi; bə'zən ən sadə orqanizm miqroblar sьrasьna daxil edilirdi.

Miqrobiologija tərəqqi etdikçə bir neçə devrlər kecirir; bunlardan biri morfolozi devrdir.

Morfolozi devr çiddi və onunla barabar ən maraqlь devrlərdən biridir; tapьlan miqroblarьn miqdarь tədriclə coqalьrdьsa da, miqroblar myəjjən sistemə salьnmajьrdь. Lupalarьn az bəjytməsi, miqroblarьn formaça bir-birlərindən ajrьlmasьna mane olurdu.

Bu devrdə tədqiqatcьlar kəşf etdikləri miqroblarьn təbiətdəki fəalijjətindən və tərətdikləri xəstəliklərdən qabaq, jalьnьz onun xariçi gərynyşy ilə məşqul olurdular. Alimlər tədqiq edilən miqroblarь bir-birindən mymkyn qədər ajьrьrdьlar. Şybhəsiz ki, bunun myəjjən formalara ajrьlmasь barəsində bəjyk mybahəsələr olurdu və bunlar hamьsь nəticəsiz qalьrdь.

Morfolozi devrdə aqtiv iştirak edən alimlərdən O t t o M y l l e r i (1795-çi il) və E r e n b e r q i (1732-çi il) qəstərmək olar. M y l l e r dərç etdiji kitabda myxtəlif nev' formalara malik olan miqroblarь qejd etmişdi. Həmin formalara gyndəlik təçribədə təsadyf edilir.

E r e n b e r q i n infuzorlar yzərində apardьqь tədqiqat daha mykəmməl olmuşdur; belə ki, infuzor sьnfьnь bir neçə fəsiləjə ajьrmьşdьr. Indiki miqrobiologijada təsadyf etdijimiz baqterija və spirill adlarь ilk dəfə E r e n b e r q tərəfindən işlədilmişdir. E r e n b e r q bir neçə kykyrd və dəmir mənimsəjən baqterijalarь, *(Bac. subcilis, spirillum voltans. Bac. prodigiosum)* və başqa miqroblarь təsvir etmişdir. Morfolozi devrdə tədqiqatcьlar miqroblarьn xariçi gərynyşynə fikir verməklə barabar miqroblarda təbii formanьn xariçi şəraitə nə dərəçədə davamlь olub onun xariçi tə'sirindən formaça dəjişilib-dəjişilməməsi məsələsi (tədqiqatcьlar arasьnda bəjyk elmi mybahəsənin ortalьqa atьlmasь nəticəsində) iki nəzərijjənin mejdana cьqmasьna səbəb olmuşdur. Nəzərijjələrdən biri m o n o m o r f i z m d i r ki, bunun yzərində Q o n (1856-çь il), ikinçisi p o l i m o r f i z m d i r ki, bunun yzərində N e q e l (1858-çi il) calьşmьşdьr.

Q o n quruluşça ali olan orqanizmlərdəki **daimi gərynyşyn baqterijalarda** da olduqunu qejd edirdi. M o n o m o r f i z m nəzərijjəsi miqroblarьn daimi formaja malik olub hec bir şərait tə'sirindən bir formanьn başqa formaja kecmədijini isbata calьşьrdь.

Polimorfizm nəzəriyyəsi bunun əksini qeyd edirdi, yə'ni miqroblar xariçi şəraitin tə'sirindən əsas formalarını dəyişib qoqlar batsillərə, batsillər—qıvrımlı formaya və əksinə cevrilə bilərlər. Polimorfistlər xariçi formanın dəyişilməsindən başqa, dəyişilməni miqrobların fiziolozi xysusiyyətlərində də göryrdylər; yə'ni eyni miqrob şəraitdən asılı olaraq myxtəlif nev' qıçqırmanı, cyryməni və yoluquçu xəstəlikləri əmələ gətirə bilər. O devrdə aparılan tədqiqatlara əsaslanıb polimorfizm nəzəriyyəsinin doqru olduqunu sybut etmək mymkyn deyildi. Buna görə monomorfizmin doqru olması monomorfizm tərəfdarı olanların tərəfindən sybut olunurdu.

Miqrobları həm forma və həm də fiziolozi tərəfdən öyrəndikdən sonra onlarda dəyişilmənin olması barəsində olan materialların miqdarı coqalır. Miqrobların dəyişilməsinə dair materialların kifayət dərəçədə olmasına baqmayaraq hələ də bu məsələ qət'i surətdə həll edilməmişdi; lakin axır vaqtlarda polimorfizm nəzəriyyəsilə razılaşan şəxslərin miqdarı coqalmadadır.

B i i e r o t a 1874-çy ildə *cocoobaqteria septica*-nın myxtəlif şəkillərə dyşməsini qeyd edir. Hali-hazırda polimorfizm nəzəriyyəsi bir qədər sybuta jaqınlaşmaqdadırsa da, lakin hər çins miqrobun nisbətən daimi formaya malik olmasını nəzərdə dutmalıyıq. Bir coq səbəblərdən bir qisim miqrobların xariçi görynyşlərində dəyişiklik əmələ gəlirsə də, bu dəyişiklik onun ycyn daimi olmayıb myvəqqəti dəyişilmədən ibarət olur.

Dəyişilmə zamanı nisbətən daimi formaya malik olan miqroblar, formasını itirib daimi olaraq başqa şəklə kecməyir (bu hal hələ bu vaqta qədər hec bir kimsə tərəfindən qeyd edilməmişdir); hər çins miqrob myəyyən formaya malikdir. Miqroblar aləmində myşahədə edilən bu nisbi daimi forma—miqroblar hec dəyişkənliyə oqramayırlar—fikrini tərətməməlidir; əksinə olaraq bytyn çanlılar aləmində təkamyly sybut edən dəyişgənliyə dair coqlu faqtları miqroblar verir. Deməli bunlarda istər irsən kecən və istərsə də irsən kecməyən dəyişgənliklərə coq təsadyf edilir.

Morfolozi devrdə və ondan qabaq tapılan miqrobların görynyşçə bir sistemə salınması məsələsi uzun myddət syryrsə də, lakin bu məsələ 1854-çy ildə Qon tərəfindən qət'i olaraq həll edilir və o bölynmə hələ də bu vaqta qədər davam etmədədir. Qon miqrobları, xariçi görynyşçə yc şəklə (formaya) yə'ni kyrəvi, cubuqa bənzər və qıvrım (qoq, batsil, spirill) formalara ayırır.

Bu əsas bölynməyə, sonralar Erenberq vibrion və qoqqobaqterriyanı da ilavə etmişdir.

Xəstəlik tərədən miqrobların əmələ gəlməsini tədriyən saprofit miqrobların patogen həyata kecməsində göryrlər. Təcribədə bu hala təsadyf edilir, yə'ni miqrob uzun myddət təbiətdə saprofit halında yaşayıb mynasib momentdə orqanizmin xəstəliyinə səbəb olur. Miqrobların morfologiyasilə məşqul olan şəxsləri bir hyceyrədən təşkil olunmuş miqrobların təbiətdə apardıqları proseslər və onların həyat fəaliyyəti maraqlandırmayırdı; bu prosesin ətraflı öyrənilməsi ycyn dərin bilikli və miqrobiologiyanı pis vəziyyətdən çıqarıb

onun myntəzəm bir qaydaja salınmasъ ycyn o elmin banisi tələb edilirdi. Hər bir elmin banisi olduqu kibi miqrobiologijanъn banisi L u i P a s t e r olmuşdur. L u i P a s t e r ə qədər tərəqqijə yz qojmaqda olan çavan miqrobiologijanъn tarixində coq tədqiqatcъlar iştirak etmişdilər; lakin o tədqiqatcъlarъn gərdykləri işlərlə L u i P a s t e r i n gərdyjy işlər arasъnda bəjyk fərq olmuşdur.

Miqrobiologijanъn daha məşhur və mystəqil bir elm olmasъ ycyn onun bir necə problemləri həll edilməli idi; bu myrəkkəb məsələlər miqrobiologijanъn sevimli və unudulmaz işcilərindən, məşhur fransъz alimi L u i P a s t e r tərəfindən myvəffəqijjətlə həll edilir. L u i P a s t e r miqrobiologija çəbhəsinə atъldъqdan sonra miqrobiologijada jeni dəjişikliklərdən başqa az myddət icərisində coqlu işlər əldə edilir. Kecən əsrin 60-cъ illərində L u i P a s t e r i n işə başlamasъ ilə miqrobiologija tarixində fiziologi devr başlanъr.

Əgər birinçi devrdə tədqiqatcъlar jalъnъz miqroblarъn morfologijasъ ilə məşqul olurdularsa, fiziologi devrdə miqroblarъn həjat fəalijjəti və onlarъn əmələ gətirdikləri kimjəvi proseslərlə məşqul olurlar. Bu devrin ən gərkəmli tədqiqatcъsъ L u i P a s t e r olmuşdur, japdъqъ bir coq qijmətli tədqiqatlar nətiçəsində jaşajъşъn əsasъnъ təşkil edən bir necə məsələləri həll etmişdir. Indiki miqrobiologjanъn bu mərtəbəjə qalqmasъnda P a s t e r i n xidmətlərinin bəjyk rolu olmuşdur; buna gərə P a s t e r i n adъ unudulmaz və son dərəçədə qijmətlidir.

P a s t e r miqroblarъn morfologi, hətta fiziologi həjat fəalijjətlərinə və əmələ gətirdikləri kimjəvi proseslərə gərə bir-birlərindən ajrъldъqlarъnъ qejd edirdi. P a s t e r i n miqrobiologija sahəsindəki xidmətləri, qъçqъrma, cyrymə baqterijalarъnъ tapmaq, əz-əzynə tərəmənin olmamasъnъ göstərmək, caxъr, pivə qъçqъrmasъnъ, joluquçu xəstəliklərə qarşъ vaqsinlərin hazъrlanmasъ və quduzluqdan qorunma məsələlərinə dair olmuşdur.

P a s t e r az vaqt icərisində xəstəlik tərədən miqroblarla məşqul olur. O, çənubi Fransada hər il ipək qurdlarъnъn tələf olmasъna səbəb, miqroblar olduqunu sybut etmiş. Pivə və caxъrъn qъçqъrmasъnda əmələ gələn xəstəlijin qъçqъrma ilə hec bir əlaqəsi olmajan miqroblar tərəfindən əmələ gəlməsini qejd etmişdir.

P a s t e r, bu xəstəliklərə qarşъ göstərdiji tədbirləri Fransa devləti həjata tətbiq etdikdən sonra hər iki sənaje inkişaf etməjə başlajъr.

P a s t e r d ə n qabaq insanlar qəndin (şəkərin) və alqoqolun qъçqъrmasъnъ bilirdilərsə də, ançaq nəjin vasitəsilə əmələ gəlməsini dyşynməjirdilər.

P a s t e r nə inki qъçqъrmanъn miqroblar vasitəsilə əmələ gəlməsini və hətta tək-tək miqroblarъn ajrъ-ajrъ qъçqъrmada iştirak etdijini belə sybut tmişdir. C y r y m ə m ə s ə l ə s i də o devrin maraqlъ mevzu'larъndan biri idi, şybhəsiz ki, Pasterə qədər cyrymə prosesləri davam edirdi, lakin bunun kim tərəfindən

əmələ gəlməsi haqqında ətraflı mə'lumat joq idi, bu məsələni də P a s t e r ətraflı öjrənib prosesin miqroblar tərəfindən əmələ gəlməsini qejd etmişdir. P a s t e r birinçi dəfə miqrobların qıçqırma və cyrymədəki rolunu göstərib jazmış və bu hadisələrin miqroblar vasitəsilə əmələ gəldijini qejd etmişdir.

P a s t e r tədqiqatının dajandırmajıb başqa və daha maraqlı məsələnin yzərində calışmaqa başlajır. Ondan qabaq və onun devrində **öz-özynə törəmə** o vaqtkı devrin ən maraqlı məsələlərindən biri idi. O vaqtdakı mevhumatcılar h ə j a t ı n a l l a h t ə r ə f i n d ə n jaranmasy d y ş y n ç ə s i n d ə davam edirdilər. Təbii elmlərin lazımi dərəçədə tərəqqi etməməsi, əsrlərçə bu məsələnin həll edilməməsinə səbəb olurdu. O devrin məşhur alimləri öz-özynə törəmənin həll edilmə məsələsini də ruhanilərin fikri ilə razılaşdırırdılar. Xırda hejvan və həşəratın topraq, su, toz və cirkli maddələrdən əmələ gəldiklərini təsdiq edirdilər.

A r i s t o t e l, qurbaqa, sıcan və ilanın bataqlıqdan əmələ gəldijini qejd edirdi. Alimlər tərəfindən myxtəlif hejvanların əmələ gəlməsi xysusunda reseptlər verilirdi. Öz-özynə törəmə xysusunda olan bu fikir xejli vaqt syrdykdən sonra R e d i n i n bu barədə japdıqı təçribə öz-özynə törəmə məsələsini bir qədər ajdınlaşdırmışdır. Maje'in xarab olmasy, ətdə qurdun əmələ gəlməsi insanları və hətta o zamanın alimlərini dyşyndyryrdy. Redi iki parça ət götyryb birini ysty acıq, o birinin yzərini bir neçə qat tənzifllə sarıdıqda aşaqıdakı hala təsadyf etmişdir: ysty acıq ətdə az vaqtın icərisində qurdlar əmələ gəldiji halda ikinçi parça ətdə qurdun əmələ gəlməsi birinçijə nisbətən geç olmaqla barabar ətin yzərində dejil, qurdlar tənzifin yzərində əmələ gəlirlər. Öz-özynə törəmə məsələsi tədriçlə çiddiləşir; belə ki, öz-özynə törəmənin olmasının sybut etməjə calışanlardan N i q d a m adlı bir şəxs belə təçribə japır: bir neçə qaba xarab olan maje'lərdən tökyb majei qajnatdıqdan sonra, maje'də olan miqrobları tələf edirsə də, bir neçə vaqtdan sonra qajnadılmış maje'də jenidən miqrobların əmələ gəldijini görmyşdyr. Bu teçribənin noqsanı orasında idi ki, maje'i qajnatmadan qabaq aqızını baqlamaq lazım idi; acıq qaba hava ilə bir jerdə miqrob daxil olduqu ycyn maje'də miqroblar əmələ gəlmişdi. N i q d a m japdıqı təçribənin noqsan tərəfləri S p a l a n t s a n i tərəfindən qejd edilmişdir. S p a l a n t s a n i aqızı baqlı qabda qajnadılmış majein icərisində miqrobun əmələ gəlməməsini sybut etmişdir. N e q e l və P u ş kibi alimlər öz-özynə törəmənin olmasını təsdiq edirdilər, belə ki, onların zənninçə «majein xarab olmasy və ətdə qurdun əmələ gəlməsi jalnız onların öz icərilərindən əmələ gəlir».

L u i P a s t e r jenə də dərin biliji sajəsində bu maraqlı məsələnin həllinə calışır. Fransa devləti öz-özynə törəmə məsələsinin həll edilməsi ycyn xysusi mykafat ajırmışdı. Tə'jin edilən xysusi qomisijanın qontrolu altında P a s t e r bu məsələnin həll edilməsinə söz verdi.

L u i P a s t e r myvəffəqiyyətli bir təcrübəsilə qət'i olaraq öz-özünə tərəmənin olmamasını, çanlıların çanlılardan əmələ gəlməsini (Qorvej 1650-ci ildə bunu qeyd etmişdi) bytyn dynjada sybut etdi.

Qab icərisindəki sterilize edilmiş maje ilə hava arasında hec bir maneə joqdu, ançaq xariçdən miqrobların maje'ə daxil olmaması ycyn—S—bənzər boru gətyrylmyşdy. Bu səbəblərə gərə xariçdən miqroblar sterilize edilmiş majeə daxil olmajıb, maje'də hec bir tərəmənin əmələ gəlməməsi sybut olunmuşdur. II Mosqva darylfynunu tərəfindən qojulmuş təçribədəki maddənin 20 ilə jaqın bir myddətdə xarab olmadığını gərmək mymkyndyr. Bu təçribənin verdiji nəticə tərəqqi edən miqrobiologijanın tarixinə jeni materiallar verir. Çərrahlıq bu təçribədən daha geniş istifadə edir. O zamanın məşhur çərrahlarından L i s t e r bu təçribəjə əsaslanaraq çərrahlığa antiseptiqa və aseptiqa ysullarını ilavə etmişdir (əvvəllər tə'jin olunmuş jeri jarmadan qabaq kimjəvi dərmanlarla jujardılar; sonralar bu kibi kimjəvi dərmanlar toqumalara zərər verdiji ycyn, operasijanı etmədən qabaq operasijada iştirak edən alətlər sterilizasija və operasija ediçi şəxsin əlləri və otaq dezinfeqsija edilirdi—aseptiqa).



Şəkil 2. Lui Paster.

P a s t e r i n jenə qijmətli işlərindən biri quduzluq xəstəlijinə qarşı hazırladığı vaqsindir; bu vaqsinin xysusən insanlar ycyn böjyk əhəmijjəti vardır. Hali-hazırda hər bir məmləkətdə quduzluq xəstəlijinə qarşı aparılan mybarəzə P a s t e r i n pejvənd stansijaları vasitəsilə aparılır; quduzluqa tutulanlar və ja şybhəli olanlar hamısı pejvənd ijnələri qəbul edirlər. P a s t e r hazırladığı vaqsinin xəbəri bytyn dynjaja jajılır. Uzaq məmləkətlərdən quduz insanlar Parisə pejvənd materialı qəbul etməjə göndərilir, pejvənd materialını qəbul edən şəxslərin, aqır formada xəstə olmalarına baqmajaraq əksərijjəti saqalıb qajıdırlar. Rusijadan (revolysijadan qabaqkı) gəlmiş 19 nəfər quduz adamların 16-sı xəstəlikdən saqalır. Quduzluqun verdiji tələfat birdən-birə azalır. 19-çu əsrdə əmələ gələn sənaje' revolysijası ilə əlaqədar olaraq miqrobiologijaja verilmiş içtimai sifariş əsas e'tibarilə Paster tərəfindən jerinə jetirilmişdir. L u i P a s t e r ilk dəfə ev heyvanları arasında olan qarajara və quşların vəbasına qarşı aşı materialı hazırlamış və təmiz qultura (Paster

tərəfindən təmiz qultur buljonda alınduğu yoyn bir coqları onun təmiz qultura olması barəsində şybhələnirlər) almışdır.

Lui Pasterin başqa qijmətli işləri vardır; lakin onların yzərində jeri gəldikdə dajanaçajıq.

Miqrobiologija tarixində Pasterin ojnadığı rol o dərəçədədir ki, bə'zi alimlər hissijjata qapılaraq «Miqrobiologija tarixi Pasterin tərçymeji-hali deməkdir»—dejən fikri mejdana atırlar, cynky Lui Paster az vaqtın icərisində indi gördyjymyz miqrobiologijanı bu mərtəbəjə qaldırmışdır. Əldə etdiji qijmətli işlərinə görə ymumi miqrobiologija dahisi jalnız Lui Pasterdir.

Miqrobiologija tarixi səhifələrində Robert Qoxun adı da qejd edilməlidir. Robert Qox doqtor idi; onun jaşadığı devrdə indi gördyjymyz şərait joq idi. Əgər Pasterin apardığı tədqiqatın əksərijjəti ymumi miqrobiologijaja aid idisə, Robert Qoxun calışdığı sahə jalnız tibb miqrobilogijası yzərində olmuşdur.

Miqrobiologija texniqasının tərəqqisində Robert Qox az iş görməmişdir, Qoxa kibi Lui Paster təmiz qulturanı almışdısa da, lakin onun alınmasında böjyk şybhə vardı; lakin Qoxun zelatini duru qida myhitinə ilavə edib aldığı təmiz qultura barəsində hec bir şybhə ola bilməz; buna görə təmiz qulturanın alınması Robert Qox tərəfindən olmuşdur. Davamlı qulturanın əhəmijjəti coq böjykdyr. Davamlı qida myhitinin əldə edilməsi bir coq xəstəlik tərədiçilərin tapılmasına səbəb olmuşdur. Qox davamlı qida myhitilə işlərkən bir coq patogen baqterijaların təmiz qulturasını almışdır. Robert Qox Asija vəbasının vibrionunu, vərəm xəstəliji tərədiçisini və onun jaqın joldaşları tərəfindən jatalaq (Ebert), difterija (Lefler) kibi xəstəliklərin baqteriaları alınmışdır. Daha sonra Qox immersion (jaq) sistemini və anilin bojalarını ilavə etmişdir.

Şəkil 3. Robert Qox.

Robert Qoxun yc şərtindən *(triat Qox)* istifadə etmək lə hər bir xəstəliji ajdın etmək mymkyndyr.

1. Xəstə bədəndə tərədiçinin tapılması ilə barabar təmiz qulturasının alınması.
2. Qultura ilə saqlam orqanizmdə ejni xəstəliji əmələ gətirmək.
3. Təkrar ikinçi şərtdə göstərilən xəstədən haman qulturanı (təmiz) almaq.

XIX əsrin jarısından bəri miqrobiologija sahəsində calışan işçilərin miqdarı coqalmaja başlajır.

Mecniqov və Erlix kibi alimlərin immunitet xysusundakı nəzərijjələri (Mecniqovyn hyçejrə və Erlixin humoral) bu elmin diqqət və əhəmijjətini ajdın göstərir.

571—2

Vinoqradskinin japdьqь tədqiqatьn hamьsь azot dəvəranьnda iştirak edən miqroblarьn haqqьnda olmuşdur.

SISTEMATIQA.

Baqterijalarьn morfologija və fiziologijasь az vaqtdan bəri miqrobiologijaja daxil olmuşdur; əvvəllər bu bəlgylər joq idi. Orqanlarьn vəzifəsi nə qədər jyksək olursa, o qədər də onun quruluşu cətinləşir. Miqroblar coq xьrda olduquna gərə bunlarьn morfologijasьnь və fiziolozi funqsijalarьnь öjrənmək cətinlik tərədir. Xariçi gərynyş e'tibarilə bunlar maddədirlər: bunlarьn icərisində bir hyçejrəli və coq hyçejrəlilər vardьr ki, birinçilərə b a q t e r i j a l a r , qьçqьrdьçьlar və p r o t o z o a l a r , ikinçijə k i f və ə s l (saplь) göbələklər daxildirlər. Syzylən viruslar da miqroblarьn sistematiqasьna daxil edilir; lakin onlar formaça bizə hələ mə'lum dejillər.

MIQROORQANIZMLƏRIN MORFOLOGIJASЬ.

Söjlədijimiz kibi miqrosqop altьnda gərylən xьrda çanlьlar iki qismə bəlynyrlər: 1) bitgi və 2) hejvan. Bitgijə saplь və qьçьrdьçь göbələklərin və hejvanilərə isə protozoalarьn daxil olmasь mə'lumdur. Baqterijalarьn, spiroxetlərin və syzylən miqroblarьn hansь qismə aid olduqlarь bu vaqta kibi həll edilməmişdir. N e q e l bytyn baqterijalara *(Schizomycetes)*—xьrdalananlar adьnь vermişdir.

Şəkil 4. Mecniqov.

Miqroblarьn myəjjən sistemə salьnmasь cətinlik tərədir; bə'zən ejni sistemə baqterija və protozoalarь daxil edirdilər; xejli tədqiqatdan sonra Q o n qət'i olaraq bytyn miqroblarь yc formaja: girdə (qoq), cubuqa bənzər (basil) və qьvrьm (spiril) bəlmyşdyr. Qoqlar bəlyndykləri vaqt aşaqьdakь adlarь alьrlar.

Qoq bəlyndyjy vaqt juvarlaq top şəkli alьrsa, o zaman buna **miqroqoq,** əgər bəlynmə bir sahə yzərində daima perpendiquljar olmaq şərtilə diametrlərin birində davam edib iki qoq bir jerdə qalarsa (şəkil 5), buna **diploqoq,** bəlynmə bu qajda ilə davam edib bojunbaqь şəkli əmələ gətirərsə, **streptoqoq,** iki qarşьlьqlь per-

pendiquljar yzərində davam edərsə (4, 8, 16 və j. a.) **tetraqoq**, bəlynmə yc sahə yzərində davam edib mal tajь əmələ gətirirsə (8--dən 32, 128), **sarsinija** və bəlynmə çyr-bə-çyr sahələr yzərində davam edib myəjjən formaja malik olmajan bə'zən yzym salqьmьna bənzəjənlərə **stafilaqoq** dejirlər.



Şəkil 5. Girdə formalarь:
1—miqroqoqlar, 2—diploqoqlar, 3—streptoqoqlar, 4—tetraqoqlar, 5—sarsinijalar, 6—stafiloqoqlar.

Basillər (şəkil 6) iki nev olurlar ki, bunlarьn bə'zilərinin uçlarь dyz və bə'zilərindəki jumuru olur *(B. coli* jumru və *B. anthrax*—dyz); elə baqterijalar vardьr ki, onlarь qoqlardan ajьrmaq çətinlik tərədir, belələrinə **qoqqobaqterijalar** dejirlər. Bunu təçribədə tə'jin etmənin çətinlik tərətməməsi ycyn L e m a n və N e u m a n



Şəkil 6. Cubuqa bənzər formalar.

tərəfindən **spor əmələ gətirənlərə** basil, **gətirməjənlərə** isə baqterija dejilmişdir (axьrьnçьlar isə axьr vaqtlarda qəbul edilmədədir).

Baqterijalar hilal şəklində olarsa, **vibrion** *(vibrio cholerae asiaticae),* bir neçə spiral qьvrьmlarь olan az-coq uzun sap təşkil edən-

lərə **spiril,** sejrək qıvrımlı, coq nazik spirillərə **spiroxet** dejirlər.

Şəkil 7. Qıvrım formaları:
1, 2 və 3—spiroxetlər, 4—*vibriocholerae asiaticae,* 5—*spirillum volutans.*

Baqterijaların böjyklyjy.

Əsil baqterijaların böjyklyjy myxtəlifdirsə də, lakin əksərijjətinin boju bir necə miqrondan[1] böjyk olmajır. Bunların boju 0,06 μ-dan *(Psevdo-monas indgrofera),* 0,1 μ *(spirilum jenense)* qədərdir. Patogen baqterijaların icərisində ən böjyjy *b. oedamatis malignae*-dır ki, bunun uzunluqu 9,0 μ və eni 0,8—0,9 μ -na kibidir. Girdələrin boju 0,2 μ-dan 2,0 μ kibidir. Bu ölcylər hamısı bunların xırda olmalarını göstərir. Bə'zi xəstəlikləri əmələ gətirən baqterijalar bu vaqta kibi tapılmamışdır və buna bir necə səbəb vardır; bunlardan biri indiki miqrosqopların böjydyçy qyvvəsinin az olması, ikinçisi onların təmiz qulturalarının, qıda myhitlərində alınmaması və buna da səbəb bizim qultura beçərməji mykəmməl bilməməjimizdir; digər tərəfdən isə bir necə baqterijaların adi qida myhitlərində bitməməsidir.

Şəkil 8. Vinoqradski.

MIQROSQOP VƏ ONUN QURLUŞU.

Miqrobların bir hyçejrədən ibarət olmasını jıqarıda qejd etmişdik. Miqrobların xysusunda mə'lumatı daha da qyvvətləndir-

[1] Miqron 0,001-mm-dur; junan hərfi μ ilə göstərilir.



Şəkil 9. Miqrosqop.

mək, jə'ni onlarь morfolozi quruluşça bir-birindən ajьrmaq ycyn xysusi myrəkkəb lupalardan—miqrosqoplardan—istifadə etmək lazьmdьr. Miqrosqop gəzyn kəməkcisi deməkdir və bunun əmələ gəlməsindən sonra myxtəlif nev' miqroorqanizmlər kəşf edilmişdir.

Miqrobiologijanın myvəffəqijjətləri və onun tarixi miqrotexniqanın inkişafilə sıqı əlaqədə olmuşdur. Miqrosqopija jə'ni miqrosqopun barəsində bəhs edən hissə iki mystəqil şö'bəjə ajrılır: birinçisi miqrosqopija, bu jalınız miqrosqop xysusunda və ikinçisi isə miqrotexniqa, jə'ni preparat barəsində bəhs edir.

Miqrosqop (şəkil 9), çismi bəjydən optiqa alətinə dejilir. Miqrosqop sadə və myrəkkəb olur; sadələrə lupa dejilir. Əgər miqrosqopun bir neçə optiqa hissəsi varsa, bu myrəkkəb miqrosqop olaçaqdır.

Miqrosqopun gözə jaqın olan hissəsinə o q u l j a r, çismə jaqın olan hissəsinə o b j e q t i v dejilir. Miqrosqopda iştirak edən bəjydyçy şişələr insanlara əski tarixlərdə də bəlli idi. Ilk dəfə K i b x n e r və L e v e n q u q, kəşfijjatlarının sadə lupaların köməklijilə etmişdilər. Indiki myrəkkəb miqrosqopların mejdana çıqması bununla əlaqədar olan elmlərin tərəqqi etməsindən asılı olmuşdur.

Işıqın miqrosqopa .coq daxil olması onun bəjydyçy qyvvəsini artırır. Miqrosqopda çisimlər miqronla ölcylyr; ultra miqrosqopda isə ölcy millimiqronla aparılır (millimiqron miqronun mində biridir).

Miqrosqop ştativlə optiqa hissəsindən ibarətdir. Bu ştativ möhkəm materialdan olmalıdır, cynky miqrosqopun başqa hissələri onun yzərində dajanır.

Son firmaların buraqdıqı miqrosqoplarda dajanaçaq—ştativ mytəhərrik olur. Bu hal miqrosqopdan istifadə edən şəxslərin miqrosqopu istədikləri qədər əjib dyzəltmələrinə imkan verir.

Ştativ tubus və ja vizir borusu ilə təçhiz edilmişdir və çismi coq və ja az bəjytmək ycyn vizir borusunu çismə jaqınlaşdırmaq və çismdən uzaqlaşdırmaq mymkyndyr.

Vizir borusunun qalqıb enməsi xysusi alətin köməklijilə olur, bu işdə iki çyr vint iştirak edir: biri incə işlərdə miqrometrik və qaba işlərdə isə maqrometrik vintdir. Miqrometrik vintlə ehtijatla dolanmaq lazımdır; ilk əvvəl işə başlarkən maqrometrik vintlə işləjib çismi tapdıqdan sonra çismin daha ajdın gərynməsi ycyn miqrometrik vintə myraçəət edilir, bunu coq fırlatmaq olmaz. Bə'zən çismi coq bəjytmək ycyn, xysusən jaq sistemi (immersija) ilə işlədikdə vizir borusunun uzanması lazım gəlir və çismin iri gərynməsi vizir borusu ilə əlaqədardır. Vizir borusunun vəzijjətini dəjişmək ycyn vizir borusunun icərisində olan ikinçi bir borunu juqarı qaldırmaq lazımdır.

Vizir borusunun uzunluqu myxtəlif miqrosqoplarda oquljardan objeqtivə kibi, 250 *mm*-ja mysavi olur. Tsejs və Rejxert miqrosqoplarında 160 *mm*, L e i s i (Lejs) də isə 170 *mm*-dur.

Miqrosqopun ştativində cism masası vardır. Preparat masanın yzərində möhkəmləndirilir. Bir coq firmaların buraqdıqları miqrosqoplar mytəhərrik masalarla təçhiz edilmişdir və masa mehvəri yzərində hərəkət edir. Mytəhərrik masanın jardımı ilə preparatı bir-birinə perpendiquljar olan səth yzərində gəzdirmək olar və bu isə aparılan tədqiqatı olduqça jyngylləşdirir.

Miqrosqopun optiqa hissəsi qondensordan, dyz və myqə'ər gyzgydən, oquljar və objeqtivdən ibarətdir.

Qondensora ən qyvvətli linzalar daxildir və əsas vəzifəsi gyzgydən buraqılmış işıqı əzynə jıqmaqdır. Qondensoru aşaqı və juqarı qaldırmaq mymkyndyr.

Təbii ışıqla işlədikdə qondensoru mymkyn qədər juqarı qaldırmaq lazımdır və onun juqarı hissəsi masanın səthilə barabar olmalıdır. Qondensor jıqdıqı ışıqı bu qajda yzrə preparat şişəsinə kecirir.

Syn'i ışıqda qondensor, aşaqı endirilməklə istifadə edilir. Işıqdan lazım olan qədər istifadə etmək ycyn diafraqma vardır, bunu jıqdıqımız zaman ətraf şya'ları icəri buraqmajıb jalnız mərkəzi şya'ları qondensora buraqır, diafraqma tamam acıq olduqda şya'nın hamısı icəri kecir. Objeqtivin bəjydyçy qyvvəsi ona daxil olan ışıq dalqalarının daha qıssa və ışıqın coq olmasından asılıdır.

Indiki **axromat** objeqtivlərə nisbətən **apoxromat** objeqtivlər daha əlverişlidir, cynky apoxromatda optiqa texniqası mykəmməl olmaqla barabar, kejfijjətçə daha jyksəkdir. Bunlar, olduqu kibi çismin əksini verirlər. Apoxromat objeqtiv gəryləçək çismi daha ajdın göstərir. Apoxromatlarla qompensasija edilmiş oquljarlar işlədilir və bu kibi oquljarların əsas məqsədi axromat oquljarlarda olan noqsanları dyzəltməkdən ibarətdir.

Coq bəjydyçy sistemlərdə qompensasija edilmiş oquljardan istifadə edirlər; qompensasija oquljarlarında foqus məsafəsi mytləq ejni jerdə qalır; belə ki, bir qompensasija oquljarını o birilə əvəz etdikdə jenidən miqrosqopu foqusa dyzəltmək lazım gəlməjir; halbu ki, başqa oquljarlarda bu hal əksinə olur.

Objeqtivin bəjytmə qyvvəsi foqus məsafəsindən asılıdır və bu məsafə myxtəlif objeqtivlərdə myxtəlifdir. Coq bəjydən objeqtivlərdə bu məsafə 1,5 *mm*—3 *mm* və ja 5—12 *mm* və bə'zən 25 *mm* mysavi olur. Foqus məsafəsi nə qədər jaqın olursa, objeqtivin bəjydyçy qyvvəsi bir o qədər coq olur.

Objeqtivin bəjydyçy qyvvəsini bilmək ycyn vizir borusunun uzunluqunu onun foqus məsafəsinə bölmək lazımdır; əgər vizir borusunun uzunluqu 250 *mm* və foqus məsafəsi 1,5 *mm*-dur; o zaman 250:1,5=167 rəqəmini alarıq və 167 objeqtivin bəjydyçy qyvvəsi olur. Oquljarın nə qədər bəjydməsi onun yzərində jazılmışdır.

Miqrosqopun bəjydyçy qyvvəsini bilmək ycyn objeqtivin foqus məsafəsini vizir borusuna vurub alınan vurma hasilini bir də oquljarın nymrəsinə vururlar; aldıqımız 167 rəqəmini—objeqtivin bəjydyçy qyvvəsini—oquljarın nymrəsinə vuraraq miqrosqopun bəjytmə qyvvəsini bilirlər.

Indiki qompensasija oquljarlarının ən juqarısı 18—20 dəfə bəjydyrsə, objeqtivdən aldıqımız rəqəmi bunların birinə vurub miqrosqopun bəjydyçy qyvvəsini taparıq, məsələn $18 \times \frac{250}{1,5}$ və buradan aldıqımız rəqəm miqrosqopun bəjydyçy qyvvəsidir.

Indiki miqrosqoplarьn coq bəjytmələrinə (3000 dəfə) baqmajaraq jenə də bir necə xəstəlik tərədiçilər tapьlmamьşdьr. Dabaq və qaramalda olan joluquçu aqçijər iltihabь xəstəliklərinin tərədiçiləri qida myhitində jetişirsə də, lakin bunlarь, xysusilə dabaq tərədiçisini miqrosqop altьnda gərmək mymkyn olmajьr.

Juqarьda səjlədijimiz kibi miqrosqopun bəjydyçy qyvvəsi ьşьq dalqalarьnьn qьsa olmasьndan asьlь olduqu ycyn mymkyn qədər qьsa dalqalardan istifadə edirlər.

Ultra-bənəfşəji şya'larьn dalqalarь gynəş şya'larьndan iki dəfə qьsa olduqundan ultra miqrosqopun əmələ gəlməsində başlьça rol ojnajьr.

Bu miqrosqopun bəjydyçy qyvvəsi adi miqrosqoplara nisbətən jyksəkdir. Ultra-miqrosqoplarda çismin daha iri gərynməsi ycyn preparat şişəsinin yzərinə jandan qyvvətli ьşьq buraqьrlar və bu qisim miqrosqopun gərdyjy iş daha qijmətlidir.

MIQROBLARЬN QURULUŞU.

Optiqanьn bu dərəçədə inkişaf etməsinə baqmajaraq, hələ miqrobun quruluşuna dair bə'zi məsələlər bu vaqta kibi ajdьn edilməmişdir; səbəbi isə onlarьn bir hyçejrədən ibarət olmasьdьr. Bojanmьş miqrob preparatilə bojanmamьş preparatьn (ejni miqrob yzərində) arasьnda bəjyk fərq olur və ja tədqiq edilən miqroblara jabancь maddə ilə tə'sir etdikdə onlar xariçi quruluşunu dəjişib adi normal formasьnda gərylə bilərlər və şybhəsiz ki, bu kibi hallar tədqiqatcьnь aldada bilər; lakin buna baqmajaraq miqroblarьn quruluşu barəsində ətraflь da olmasa, kafi dərəçədə mə'lumat vardьr.

BAQTERIJALARЬN QILAFЬ.

Bytyn hyçejrələr xariçdən qilaf ilə ərtyldyjy kibi baqterijalar da belə qilafa malikdirlər. Bə'ziləri qilafьn olmasьnь inkar edirlərsə də, ançaq qilafьn qidada gərdyjy vəzifəni unutmamaqla barabar onun baqterijalarь mydafəə etməsini xysusilə qejd etməlijik. Baqterijanьn qilafьnь gərmək ycyn plazmoliz hadisəsindən istifadə edirlər. F i ş e r i n göstərməsinə görə baqterijalarьn plazmoliz hadisəsi—1—2% NaCl məhlulunda daha jaqşь əmələ gəlir.

Qilafь gərmək ycyn başqa bir ysul da vardьr; miqroblar uzun myddət qida myhitində qalьb qidanь sərf etdikdən sonra protoplazmalarьnьn sajəsində jaşajьrlar *(avtoliz)*, buna görə miqrobun daxilində hec bir şej olmadьqь ycyn pərdəni ajdьn gərmək olur (bə'ziləri bojanmasьnь məsləhət göryrlər).

Patogen baqterijalarьn bə'zilərinə *(B. anthrax)* rənglənmiş qultura damçьlarьnda adi miqrosqoplarьn altьnda baqdьqda qilafь gərmək mymkyndyr. Baqterijalarda qilaf protoplazmadan əmələ gəlir. Kimjəvi tərkibçə baqterijalarьn qilafь bitgilərin qilafьndan

BOJALARЬN HAZЬRLANMASЬ TEXNIQASЬ.

Miqroblarьn morfolozi tərəfdən öjrənilməsi (miqrobu iki çyr gərmək olar: ja bojanmьş və ja bojanmamьş halda) onun bojanmasьnь tələb edir və bu kibi bojalardan miqrobiologija texniqasьnda istifadə edirlər. Bojalar iki jerə bölynyr: biri qələvi və ikinçisi turş bojalardьr. Turş bojalar miqrobilogija laboratorijalarьnda coq az işlədilir; burada işlədilən bojalarьn əksərijjətini qələvi bojalar təşkil edir. Bojalar xysusi zavodlar tərəfindən hazьrlanьr; bunlardan bir necəsi patentlənmiş olduqu ycyn kimjəvi tərkibi mə'lum dejildir. Bojalarь sərbəst satьşda almaq mymkyndyr; bunlar toz və maje halьnda olurlar; bunlarьn əksərijjəti suda əriməjib jalьnьz spirtdə ərijirlər. Gyndəlik təçribədə bojanьn su məhlulu işlədilir; lakin spirt məhlulu su məhlulуna görə coq saqlanьla bildiji ycyn bojanьn dojdurulmuş spirtli məhlulunu ehtijat ycyn hazьrlajьr və tələb olunan zaman bunun su məhlulunu hazьrlajьrlar.

Hazьr edilmiş bojalar ьşьqьn tə'sirindən xarab olduqlarь ycyn bunlarь qaranlьq jerdə saqlamaq lazьmdьr və mymkyn qədər bojanь tələb olunan miqdarda hazьrlamaq lazьmdьr ki. jerdə qalan hissəsi xarab olmasьn; cynky bir qisim bojalar coq cətinliklə əldə edilir.

AJRЬ-AJRЬ BOJALARЬN HAZЬRLANMASЬ.

Juqarьda qejd etdijimiz kibi ilk əvvəl spirt məhlulunu hazьrlajьb sonra su məhlulunu hazьrlajьrlar.

1. Qarвollu gentsian violet

Gentsian violetin tozundan	1,0.
Qarвol turşusunun qristalь	5,0.
Spirt 96°	10 *quв sm.*
Saf su	100 *quв sm.*

Gentsian violet tozunu həvəngdə mykəmməl dərəçədə parcalajьb spirtdə əridirlər; qarbol turşusunun qristalьnь ilavə etdikdən sonra məhlulu filtr kaqьzьndan kecirirlər (bojanьn spirtdə jaqşь əriməsi ycyn məhlulu bir necə saat termostat hərarətində saqlajьb sonra syzməli). Əldə edilən məhlul spirtin dojdurulmuş məhlulu olaçaqdьr və su məhlulunu hazьrlamaq lazьm gələrsə juqarьda gөstərilən saf suju spirt məhlulunun yzərinə ilavə edirlər.

2. Tsiljanьn qarвollu fuqsini

Fuqsin qristalь	1,0.
Qarвol turşusunun qristalь	5,0.
Spirt 96°	10 *quв sm.*
Saf su	100 *quв m.*

Tsiljanьn fuqsini gentsian violeat kibi hazьrlanьr.

3. Lefler sinqasь

NaOH-ьn 1% məhlulu	1 *quв sm.*
Metilen sinqasьnьn dojdurulmuş spirt-məhlulu	30 *quв sm.*
Saf su	100 *qub sm.*

571—3

Göstərilən yc məhlulu bir jerə qarьşdьrdьqdan sonra Lefler sinqasь hazьrlanmьş olur.

4. Ljunqol məhlulu

Iod qristalь	1,0.
Qalium iodat	2,0,
Saf su	300 *qub sm.*

Ilk əvvəl az hissə suda qalium iodatь əridib sonra yzərinə iod qristalьnь ilavə edirlər, qalium iodat sajəsində iod qristalь ərijir və nətiçədə alьnmьş məhlulun yzərinə jerdə qalan saf suju ilavə edirlər.

5. Nejsler bojasь

1. Metilən sinqasь[1]	1,0.
Spirt 96°	20 *qub sm.*
Sirkə turşusu	50 *qub sm.*
Saf su	950 *qub sm.*
2. Violet qristalь	1,0.
Spirt 96°	10 *qub sm.*
Saf su	300 „ „

Göstərilən maddələri tərtib yzrə qarьşdьrьb qaranlьq jerdə saqlajьrlar.

Preparatь 1 dəqiqə məhlulla bojajьb su ilə jujurlar, bu preparata 30 sanijə Lyqol məhlulilə tə'sir etdikdən sonra sojumamьş vezuvin[2] ilə 10—15 dəqiqə tə'sir edib su ilə jujurlar (Babes-Ernstin metexromatik kyrəciklərini bojamaq ycyn işlədilir). Xysusi bojalarьn hazьrlanmasь xysusunda lazьmi jerlərdə qejd edəcəjik.

MIQROB PREPARATLARЬNЬN HAZЬRLANMASЬ VƏ BOJANMASЬ.

Preparatlarьn hazьrlanmasьnda iştirak edən əşja və ərtyçy şişələr aşaqьdakь qajda yzrə təmizlənirlər:

Işlənmiş şişələrə t y n d k y k y r t t u r ş u s u *(Ac. sulfur. crud)* ilə tə'sir edib su ilə juduqdan sonra 2—5% soda məhlulu və ja sabun sujunda qajnadьrlar, su ilə jujub quruladьqdan sonra spirt və efirin icərisində saqlajьrlar. Burada əsas məqsəd şişələri jaqdan təmizləməkdir.

Preparatlar iki çyr hazьrlanьrlar: biri qan və daxili orqanlardan, ikinçisi isə qulturalardan[3] hazьrlanьr.

---

[1] Metilen sinqasь da ejni prinsip yzrə hazьrlanьr. Metilen sinqasь tozunun 1 qramьnь 10 qyb santimetr 96° spirtdə əridib kaqьz filtrdən keciriirlər və əldə edilən məhlul metilen sinqasьnьn dejdurulmuş spirtli məhlulu olaçaqdьr.

[2] 2.0 vezuvin+60 qub *sm* 96° spirt+40 qub *sm* saf su; bunu qajnadьb sojutduqdan sonra syzyb yzərinə 0,3% fenol ilavə edirlər.

[3] Bunun nə qajda yzrə və nədən hazьrlanmasь barəsində aşaqьda bəhs edəcəjik. Qultura miqrobun mynasib qida myhitlərində jetişməsinə dejilir.

Qan preparatlarьnь hazьrlamaq ycyn təmiz predmet şişələrinin yzərinə xəstə və ja tələf olmuş insan və hejvanьn tələb edilən jerindən bir qədər (xysusi qapiljar boru və ja başqa vasitələrlə) qan qojub başqa bir hamar şişə və ja ərtyk şişəsi ilə qanь predmet şişəsinin yzərinə mymkyn qədər nazik jaxmaq lazьmdьr.



Şəkil 17. Platin ijnə.



Şəkil 18. Miqrob preparatlarьnьn alav yzərində məhkəmlənməsi.

Bə'zən orqanlardan da preparatlarьn hazьrlanmasь lazьm gəlir. Preparat hazьrlamaq istədijimiz orqanьn (dalaq, qaraçijər, aqçijər, yrək, bəjrəklər, limfatik vəzilər və i. a.) ilk əvvəl yzərini jyksək alav yzərində qьzdьrьlmьş metal parcasilə daqlajьb sterillənmiş sqalpellə həmin jeri jardьqdan sonra icərisindən Pasterin pipetqasь (şəkil 16) və ja platin ijnə ilə (şəkil 17) jьqьlmьş materialь predmet şişəsi yzərinə jaxьrlar (materialьn jaxьlmasь şişə və orqanlardan kəsilmiş hissə ilə də ola bilər). Istifadə edilən platin ijnə və Paster pipetqasьnь hər dəfə alav yzərində sterilizasija etmək lazьmdьr. Platin ijnəsinin jaqşь tərəflərindən biri onun alav yzərində tez qьzmasьdьr. Platin ijnələri bir neçə şəkildə: comaqa bənzər və dyz formada olurlar. Platin taqьlan cubuq mymkyn qədər metaldan olmalьdьr (şişə cubuqla da əvəz etmək olar).

Platin ijnələr, qulturalardan hazьrlanan preparatlar ycyn də lazьmdьr. Əgər preparat bərk qulturadan hazьrlanьrsa, o zaman predmet şişəsinin yzərinə bir-iki damcь fiziolozi məhlul[1] ilavə edib platin ijnə ilə jьqьlmьş (aqar və ja zelatin) qulturanь damcьnьn icərisində emulsija əmələ gətirdikdən sonra predmet şişəsinin yzərinə jaxьrlar (emulsijanь nazik jajmaq lazьmdьr; cynky miqroblarьn bir jerə toplaşmasь əlverişli dejildir; nə qədər sejrək olsalar, o qədər

1 99,1 sm^3 saf suja 0,85 NaCl (kimjəvi, təmiz) ilavə edib 120° hərarətdə 15 dəqiqə sterilizasija edirlər.

onları jaqşı tanımaq olar). Qan, orqan və qulturadan hazırlanan preparatlar havada qurudulmalıdır.

Şəkil 30. Farfor filtrlərin myxtəlif sistemləri.

TƏMIZ QULTURANIN ALINMASI.

Diaqnoz məqsədilə göndərilən materialların bə'zən jabancı miqroblardan təmizlənməsi lazım gəlir, buna təmiz qulturanın alınması dejilir. Təmiz qultura jalnız sylb qida myhitlərində alınmalıdır və sylb qida myhitinin miqrobiologi texniqaja ilavə edilməsinə kibi təmiz qulturanın alınması ən cətin problemlərdən biri idi, daha doqrusu bu işlə məşqul olmajırdılar.

Təmiz qulturanı iki çyr qabda almaq olar; biri mixbər, ikinçisi petri finçanlarıdır. Fınçanlarda qulturanı almaq mixbərə görə daha əlverişlidir. Finçana qida myhitini tökmədən qabaq sterilize etməli və sonra steril edilmiş finçanlara açarı tökməlidir. Açarı finçanlara jajarkən açzını təmamilə acmaqa ehtijaç joqdur. Mixbər jerləşən qədər finçanın açzını acıb açarı ora tökyrlər. Qida myhitində olan majein buxarlanmaması ycyn qida myhitini bir qədər termostat hərətətində saqlajırlar. Qulturanın təmizlənməsində bir finçan və ja birdən artıq finçan iştirak etməlidir. Finçanın miqdarı

coq olduqça (5-ə qədər) bir o qədər nəticə ajdьn alьnaçaqdьr. Material cirklənmiş olduqu zaman onun icərisində necə çins miqrob olur və bu miqroblar da xysusijjətlərinə gərə hərəsi təklikdə qida myhitində başqa-başqa (şəkil 31) əlamətlər verəçəklər. Finçanlarь nymrələjib (1, 2, 3, 4 və 5) çərgə ilə dyzdykdən sonra fiziologi məhlulla qarьşьlmьş materialdan steril Paster pipetqasilə bir-iki damçь birinçi nymrəli finçana ətyryb, başqa finçanlara dəjmirlər; materialь fiziologi məhlul ilə qarьşdьrdьqda miqrobun qidada sejrək alьnmasьna diqqət jetirməlidir. Sterilize edilmiş şpadel (şişə cubuqundan dərjaza bənzər forma əmələ gətirmək) cubuqunu aqzь az acьlmьş bir nymrəli finçana salьb damçьnьn mykəmməl surətdə finçanьn hər bir jerinə jajьlmasьna diqqət edirlər. Birinçi finçandan şpadel cubuqunu cьqarьb hec bir jerə toqundurmadan ikinçi nymrəli finçana, ikinçidən ycynçyjə və i. a. bu qajda yzrə cubuqu hamьsьna ətyryb onlara syrtyrlər (cubuqu syrtərkən qida myhitini zədələməməlidir).

Şəkil 31. Qida myhitində myxtəlif qolonijalarьn gərynyşy.

Materialьn coq hissəsi birinçi finçana dyşdyjy ycyn qolonijalarьn miqdarь birinçi finçanda coq olaçaqdьr. Buna gərə birinçi finçandan istifadə etmənin hec bir mə'nasь joqdur. Ikinçi finçanda birinçijə nisbətən qolonijalar bir qədər sejrək olaçaqdьr. Ycynçy ikinçijə, dərdynçy ycynçyjə və bu qajda yzrə axьrьnçь finçanlarda qolonijalar sejrək olduqu ycyn onlarьn yzərində dajanmalьdьr.

Axьrьnçь finçanda qulturanьn miqdarь bə'zən o qədər az olur ki, finçanda myxtəlif jerlərində tək-tək myxtəlif çins miqroblarьn qolonijasь alьnьr. Finçanlarь termostata jьqarkən finçanь arqasь ystə (tərsinə) cevirib sonra jьqmalьdьr, cynky qida myhitindən ajrьlan su buxarь jenidən suja cevrilib qulturanьn yzərinə təkylyr və bu hal qulturanьn təmiz alьnmasьna mane olur. Qolonijalarь bir-birindən ajьrmaq ycyn qolonijalarьn verdikləri piqmentlərə, qolonijalarьn formasьna, həçminə və 3 nəmrəli objeqtivin altьnda myajənə edilməsinə diqqət etməlidir. Şybhəsiz ki, qolonijanь ajьrmadan qabaq qolonija haqqьnda olan mə'lumat mykəmməl olmalьdьr; sonra verdiji əlamətlərə əsaslanaraq secilən qolonijanьn həmin qolonijadan olmasьnь səjləmək lazьmdьr. Ajrьlmьş qolonijadan miqrob preparatьnьn hazьrlanьb bojanmasь lazьmdьr. Hərəkətə diqqət verilməlidir. Təmiz qulturanьn qət'i formada olmasь ycyn secilən qolonijadan steril aqar qьda myhitinə əkib təmiz qulturu mixbərdəki aqarda da alьrlar.

MIQROBLARЬN TƏBIƏTDƏ JAJЬLMASЬ.

Miqroblar təbiətdə myxtəlif jerlərdə, myxtəlif bir tərzdə jajьlmьşdьrlar; bunlarьn miqdarь bə'zi jerlərdə coq, bə'zilərində olduq-

ça azdır. Bunların müxtəlif yerlərdə, müxtəlif miqdarda olmalarının başlıca səbəblərindən biri onlara lazım olan şəraitin münasib olmamasıdır. Şərait əlverişli olduqu yerdə bunların miqdarı coq, əksinə olduqda isə az olur. Təbiətdə miqrobların nə dərəcədə yaşlması məsələsi Pasterin öz-özünə tərəmənin olmamasını sübut etdikdən sonra ətraflı surətdə aydın edilmişdir. Miqroblar topraq, su, hava, peyin, bitgi və orqanizmin çürüyən maddələri, sidik, müxtəlif yem məhsulları və bu kibi materiallarda təsadüf edilir. Göstərilən materialların bir qismi miqroblar üçün əlverişli deyildir; məsələn havada miqrob müvəqqəti həyat sürür, günəşin işığı və qurumaq onları tələf edir. Lakin yuqarıda göstərilən digər maddələr miqrobların yaşaması üçün əlverişli olduqlarından orada uzun müddət yaşayırlar.

Miqrobların üzvi maddələrə ehtiyaçları olduqundan onun coq olduqu yerlərdə miqroblara daha coq təsadüf edilir. Bundan başqa miqrobların bu tezlikdə coq yerlərdə yayılmasl, onların az vaqt içərisində sür'ətlə coqalmalarından olur. Miqrobların təbiətdə yayılmasının əsas səbəblərindən biri də çanlı orqanizmdir; bə'zən epidemiya və epizootiyanın bir rayondan başqa bir rayona və ya bir dövlətdən başqa bir dövlətə kecməsinə insan və ya heyvan səbəb olur. Bu qisim yoluquçu xəstəlik törədiçilər yalnız çanlı orqanizmin deyil hətta çür-bə-çür məhsullar vasitəsilə də bir yerdən başqa yerə köcürülür. Miqroblar təbiətdə mübarizə etmək qabiliyyətinə malikdirlər; belə ki, düşdüyü müxit miqrobun yaşaması üçün uyqun olmadıqda, bu pis şəraitdən özünü qorumaq üçün sporlama hadisəsini əmələ gətirir. Bunların bir hissəsi oqsigenin olduqu və digər hissəsi olmadıqı müxitdə də yaşayır; bə'ziləri alcaq, bə'ziləri yüksək hərarəti sevirlər. Isti çöllərdə, daima üzəri buzla örtülü yerlərdə, hündür daqlarda və dənizlərin dibində də miqroblara təsadüf edilir. Orta iqlimə malik olan yerlərdə miqroblara daha coq təsadüf edilir. Coq soyuq yerlərdə miqrobların miqdarı isti yerlərə nisbətən azdır. Daima buzla örtülü olan yerlərdə miqrob coq az tapılır. Yay aylarında olan hərarət miqrobları tələf etdikdən isti aylarda onların miqdarı bir qədər azalır. Bitgi və çanlı orqanizmin coq olduqu yerlərdə miqroblar da coq olur. Miqrobların yaşaması üçün tələb edilən minimal şərait onların daima müxtəlif yerlərdə tapılmalarına səbəb olmuşdur. Məsələn: kükürtlü sularda kükürt baqterijaları, dəmir sularında dəmir baqterijaları, göl və dənizlərdə anaerob baqterijalar və çanlı orqanizmlərdə də patogen miqroblar tapılır.

HAVANIN MIQROFLORASI.

Havada miqrobların miqdarı yaqış, külək və digəri səbəblərlə əlaqədardır. Başqa yerlərə nisbətən havada miqrobların miqdarı o qədər də coq deyildir. Miqrobun havaya yayılması, külək və su damçıları kibi bir coq vasitələrlə ola bilər. Hava təmiz və şəffaf olduqca onda miqrob az tapılır və bundan başqa havaya qalqmış miqrob uzun müddət orada yaşamayır, cünki günəş işığı və qu-

rumaq onu tələf edir. Jyksək daqlarьn, dənizlərin və yzəri qarla ərtyly jerlərin yzərində olan havada miqrob olduqça azdьr. Bəjyk şəhərlərin və ymumijjətlə çanlьlarla əlaqəsi olan jerlərin havasьnda miqrob coq olur. Havada tapьlan miqroblar əksərijjətlə saprofitdirlər. Hava miqroblarьnь öjrənmək məqsədilə aparьlan tədqiqat, havada qьçqьrdьçь miqroblarьn, stafiloqoq, streptoqoq, kif və qьçqьrdьçь göbələkçiklərin və myxtəlif nev' piqmentli miqroblarьn olduqunu sybut etmişdir. Mö'tədil iqlimli havada miqrob, quru və sojuq havaja nisbətən daha coq tapьlьr. Dərə və daq ətəjində miqrob daqьn ystynə nisbətən daha coqdur. Havanьn ən jyksək təbəqəsində jerin yzərində olan havaja nisbətən miqrob az olur. Juqarьda sojlənildiji kibi, miqrobun havada miqdarь, bir coq hallardan asьlьdьr. M i ş u s t i n i n göstərməsinə görə bir az jaqьşdan sonra Mosqvanьn 500 *m* hyndyrlyjyndəki havanьn hər 1 *mm*də 2100 miqrob, 5000 *m* Mosqavadan uzaq jerdə isə bunun miqdarь 700—800 miqroba mysavi olmuşdur.

Başqa bir tədqiqat bunun başqa bir şəkildə olduqunu göstərir; belə ki, Mosqvadan 500 *m* hyndyrlykdə aeroplan 10 dəqiqə ucarkən Petri finçanьna 135, və 1000 *m*-də isə 85 miqrob dyşmyşdyr. Jaqьş jaqdьqdan sonra bu miqdar daha da azalьr. 500 *m* hyndyrlyjyndə 43 və ejni hyndyrlykdə Mosqvadan dört kilometr uzaqda 14 miqrob dyşmyşdy.

M i q e l i u n u n japdьqь təçribəjə görə Parisin Monsorro parqьndakь havanьn miqroblarь hər fəslə görə myxtəlifdir. Onun göstərməsinə görə havanьn 1 qub. *sm*-də aşaqьda göstərilən miqdarda baqterija alьnmьşdьr.

	Baqterija	Kif göbələkçiji
Qьşda	170	145
Jazda	295	195
Jajda	345	245
Pajьzda	195	230

Bu miqdar şəhərin havasьna görə bir qədər coqalьr; jə'ni Parisin mərkəzində Miqeliun hər 1 qub. *sm*-da aşaqьdakь miqdarь almьşdьr:

	Baqterija	Kif göbələkçiji
Qьşda	4305	1345
Jazda	8080	2225
Jajda	9845	2500
Pajьzda	5665	2181

Nəticədə isə şəhərin havasьnda olan miqroblar, parqьn havasьnda olan miqroblardan 10—30 dəfə coq olmuşdur.

Ymumi jaşajьş jerlərindəki havanьn miqroblarь acьq havaja nisbətən daha coqdur. Hejvanlarьn töjləsində də miqroblarьn miqdarь az dejildir; hejvanlara quru ələf verdikdə bunun miqdarь nisbətən coqalьr.

Baqlь damlardakь və xysusən töjlədəki havada miqroblarьn nə qədər coq olmasьnь bilmək ycyn bə'zən onun yzərində təçribə apa-

rılır. Bu çyr havada saprofit (qьçqьrdьçь, kif göbələkçikləri, stafiloqoq, streptoqoq və piqment əmələ gətiriçilər) miqroblardan başqa patogen miqroblara da təsadyf edilir. Bunlardan başlьçalarь *B. tuberculosis, B. tetani, B. Anthracis*-in sporu və qejriləridir.

Havanьn miqroblarьnь öjrənməkdən əsas məqsəd havanьn hər bir qub santimetrindəki miqrobun miqdarьnь öjrənməkdir. Təjlədəki havada nə qədər miqrob olduqunu öjrənmənin böjyk əhəmijjəti vardьr; bunun öjrənilməsi iki məqsəd yzrə ola bilər: birinçi halda havada miqrobun miqdarьnь və ikinçi halda isə havada hansь miqroblarьn olmasьnь myəjjən etməkdir. Ən sadə ysullardan biri Q o x ysuludur. Icərisinə steril zelatin və aqar tökylmyş petri finçanlarьndan myəjjən miqdarda təjlənin (və ja otaqьn) myxtəlif jerinə dyzyb aqzь acьq halda 5—30 dəqiqəjə kibi saqlajьrlar. Bu vaqtьn icərisində havada olan miqroblardan finçanlarьn yzərinə cökyrlər, sonra bunlarьn aqzьnь baqlajьb mynasib hərarətdə bir gyndən beş gynə qədər saqlajьb, sonra finçanьn yzərində olan qolonijalarь xysusi alətlərin vasitəsilə sajmalьdьr.

SUJUN BAQTERIOLOZI TƏDQIQI.

Sujun miqroblardan nə dərəçə azad edilməsinin böjyk əhəmijjəti vardьr: xysusən patogen miqroblarьn suda olmasь hejvan və insanlar ycyn coq zərərdir, cynky joluqma xəstəlijin myəjjən jerlərdə baş verməsinə bə'zən su səbəb olur. İnsan və hejvanlarь tə'min edən su, mymkyn qədər miqroblardan təmiz olmalьdьr. Maldarlьq təsərryfatь ycyn bunun əhəmijjəti coqdur. Əgər qabaqçadan sujun nə halda olduqunu bilməsək, həmin təsərryfata patogen miqroblarla cirklənmiş su böjyk zərbə vura bilər.

Bunun əmələ gəlməməsi ycyn bə'zən sujun təhlil edilməsi lazьm gəlir və tədqiqat nətiçəsində sujun nə vəzijjətdə olduqunu bilən təsərryfat, sujun saqlamlaşdьrьlmasьna calьşaçaqdьr.

Su miqroblarьn jaşamasь ycyn əlverişli şəraitdən biridir. Miqrob suda pis şəraitdən myhafəzə edilir və miqrob özyny suda jaqşь hiss etməklə barabar orada coqalьr.

Miqroblarьn suda bulunmasьnьn əsas səbəbi topraqdьr; buna göra cajьn qьraqьnda miqrobun miqdarь cajьn ortasьna nisbətən daha coqdur. Suja miqroblarьn bir qismi də havadan tozun suja cökməsi və jaqьşьn vasitəsilə dyşyr və başqa hallarda fabrik-zavod və ja ev tullantьlarь və sair bu kibi vasitələr sujun cirklənməsinə səbəb olurlar.

Təhlil edilən suda myxtəlif qisim patogen miqroblar tapьla bilər. Saprofit miqroblardan başqa suda insan və hejvanlara patogen olan miqroblardan *B. Anthracis, B. tuberculosis, B. tetani, B. oedemat maligna B. typhi abdom, Proteus vulgaris,* myxtəlif nev' stafiloqoqlar, *B. coli comm* və qejriləri də tapьla bilər.

Suju baqteriolozi çihətdən təhlil etdikdə bir neçə əsas moment nəzərdə tutulmalьdьr: birinçisi təhlil ediləçək su steril şişə qablara jьqьlmalь və mymkyn qədər təhlil ediləçək suju bir qədər coq gö-

tyrməlidir. Belə ki, ymumi miqdarь təxminən iki litrə mysavi olsun. Ikinçisi təhlilə tə'jin edilmiş su mymkyn qədər tez təhlil edilməlidir, cynky su nə qədər coq qalarsa, bir o qədər sujun icərisində miqroblar coqalьrlar. Q r a m e r i n göstərməsinə görə gətyryldyjy dəqiqədən təhlilə başladьqda miqrobun miqdarь 143-ə mysavi olmuşdur, halbu ki, təhlil edilən su bir saat saqlanьldьqdan sonra onda miqrobun miqdarь 12457-ə, yc gyndən sonra ejni suda miqrobun miqdarь 328 543-ə catmьşdьr. Ilk dəfə coqalma syr'ətli davam edirsə də, qьda myhiti kəhnəldikçə miqrobun coqalmasь da dajanьr. Həmin şəxs 70 gyndən ejni sujun 1 qub. *sm*-də 2500 miqrob tapmьşdьr. Sujun təhlili bir necə məqsədlə ola bilər: 1) suda miqrobun miqdarьnь, 2) suda hansь patogen miqroblarьn olduqunu myəjjən etmək ycyn sujun nə dərəçədə cirklənməsindən asьlь olaraq təhlil edilən su myxtəlif bəlmələrdə əkmək olar. Sujun cirklənməsi tədqiqatcьja mə'lum olduqda 1,0 və 0,01 qub *sm* əkmək mymkyndyr.

Sujun əkildiji qьda myhiti həmişə sabit reaqsijaja *(Ph)* malik olmalьdьr. Sujun təhlil edilməsi iki çyr qьda myhitinin yzərində aparьla bilər, bunlardan biri aqar-aqar, ikinçisi zelatin qida myhitidir. Qida myhitinin tərkibi və reaqsijasь myxtəlif laboratorijalar tərəfindən myxtəlif hazьrlanarsa, ejni suju təhlil edən laboratorijalar myxtəlif nətiçə ala bilərlər ki, bu hal tədqiqat işini bir qədər çətinləşdirə bilər.

Təhlil edilən sujun myxtəlif qonsentrasijasьnь (1 : 10, 1 : 100, 1 : 1000 və 1 : 10000) almaq ycyn ilk əvvəl bir necə mixbərə 9,0 qub *sm* miqdarьnda steril su tökyb sonra tələb edilən qonsentrasijalarь hazьrlajьrlar. 1 : 10 qonsentrasijasь hazьrlamaq ycyn 9,0 *sm* steril sujun yzərinə 1,0 qub *sm* təhlil edilən sudan ilavə etmək lazьmdьr. 1 : 100 qonsentrasijasьnь 1 : 10 qonsentrasijasьndan hazьrlajьrlar.

9,0 *sm* steril sujun yzərinə 1,0 *sm* qabaqçadan 1 : 10 qub *sm* sьjьqlaşdьrьlmьş maje'dən ilavə etdikdən sonra 1 : 100 qonsentrasijasь hazьrlanaçaqdьr. 1 : 1000 qonsentrasijasь əldə etmək ycyn 9,0 qub *sm* steril sujun yzərinə 1,0 qub *sm* köməkci mixbərdən, jə'ni 1 : 100 olan məhluldan ilavə etmək kifajətdir və bu qajda yzrə başqa qonsentrasijalar da hazьrlamaq mymkyndyr.

Hazьrlanmьş qonsentrasijalarda miqrobun miqdarьnь bilməkdən ətry tələb edilən qədər Petri finçanlarьna hər məhluldan ajrь-ajrь 1,0 qub *sm* miqdarьnda tökyb (mymkyn qədər 1,0 qub *sm* təhlil ediləçək suju finçanьn bytyn sahəsinə jajmalь) sonra—42—44°-jə kibi sojudulmuş (zelatin daha az) aqar və zelatin qida myhitlərindən birini finçana tökyrlər. Qida myhiti finçanьn bytyn sahəsini, daha doqrusu sujun yzərini ərtməlidir. Qida myhitinin jajьlmasь ycyn finçanь əlin icərisində bir necə dəfə fьrlamaq lazьmdьr. Əkilən suda miqroblarьn qida myhitlərində jetişməsi ycyn finçanlar 24—48 saat 37° və ja 22° hərarətdə saqlanьlmalьdьrlar. Qida myhitində jetişən qolonijalarьn miqdarьnь bilməkdən ətry Volfqjuqelin qolonijalarь sajmaq xysusunda təklif etdiji xysusi alətdən istifadə etmək

lazımdır. Bunun aləti olduqça sadədir: adi şüşənin yzərində şəbəkə (tor) şəklində müəjjən qvadratlar qurulmuşdur; hər bir qvadratın eni və uzunluqu bir santimetrə mysavidir. Bu şəbəkənin uzunluqu və eni 10 santimetrə mysavidir; finçanda olan kolonijanın miqdarını tə'jin etmək ycyn finçanı qvadratlara bölynmyş şəbəkənin altına jerləşdirirlər. Finçan sajıcı şüşə şəbəkəjə mymkyn qədər jaqın olmalıdır. Kolonijanın miqdarını sajarkən hər iki hissənin yzərinə jandan qyvvətli üşüq buraqmaq lazımdır. Kolonijaları sajarkən bytyn qvadratlardakı kolonijaların hamısının sajılmasına ehtijaç joqdur. Orta rəqəm almaq ycyn bir neçə kolonija sajıb, sajılan qvadratlarda alınan kolonijanın miqdarını qavdratın miqdarına təqsim etmək lazımdır: məsələn diametri 10 santimetrə mysavi olan finçana 0,1 qub *sm.* su əkilmişdir. Finçanın sahəsindən 8 qub santimetr götyryb sajarkən aşaqıdakı rəqəmləri 9—7—3—2—8—6—1—4 almışıq. Sajılan 8 qvadratın icərisində olan kolonijaların miqdarı 40-a mysavidir. Orta rəqəmi tapmaq ycyn alınan kolonijanın miqdarını 8-ə təqsim (40:8=5) edib nəticədə orta hesabla hər qv. santimetrə 5 kolonijanın dyşdyjy ajdın edilir. Finçanın sahəsində olan kolonijanın miqdarını tə'jin etməkdən ötry πr^2 formulundan istifadə edirlər. Ilk dəfə finçanın diametrini tapıb sonra radiusu tə'jin edirlər. Əgər finçanın diametri 10 santimetrə mysavi isə, radiusu 5 santimetrə mysavi olaçaqdır.

Finçanın bytyn sahəsini tapmaq ycyn 3,14-i 5^2-a vurub sahənin 78,5 sm^2 mysavi olduqunu göryryk. Finçanın sahəsində jetişən kolonijanın miqdarını bilmək ycyn 78,5-i 5-ə vurub ymumi kolonijanın miqdarını tapırıq. 392,5 kolonija 0,1 qub *sm* suja aid olaçaqdır. 1 qub *sm* suda nə qədər miqrobun olduqunu bilmək ycyn 392,5-i 10-a vurub 1 qub santimetrdə olan miqrobun miqdarının 3925 olduqunu tapırıq.

INFEQSIJA HAQQINDA YMUMI MƏ'LUMAT.

Baqterijalar xysusijjətçə iki qısma ajrılırlar: parazitlər və saprofitlər. Parazitlərə patogenlər də dejilir. Bizim ycyn öjrənilməsi lazım gələnlər patogenlərdir; cynky insan və hejvanlar arasında baş verən bir coq myxtəlif xəstəliklərin səbəbləri bunlardır. Patogenlər, xəstəliji törədənlər deməkdir ki, bunların bədənə daxil olmasına infeqsija və xəstəlijin özynə isə **joluquçu xəstəlik** dejilir. Patogen baqterijaların ilk dəfə haradan törəmələri haqqında qət'i mə'lumat joqdur, jalnız ehtimal edilir ki, vaqtı ilə saprofitlər dönüb patogen halına kecmişdirlər. Həjatda patogenlər bə'zən müvəqqəti olaraq çansız materiallardan istifadə edirlər, bə'zi patogen baqterijalar saprofit tərzində bədənə daxil olub, orada uzun müddət belə saprofit halında jaşadıqdan sonra tə'sir edə biləcəkləri mynasib bir momentdə, xəstəlik əmələ gətirirlər. Başqa çanlılarda simbiozluq—jə'ni çanlı iki orqanizmin bir işdə bir-birinə

jardəm nəticəsində hər ikisinin ehtijaçənən tə'mini ysulu—olduqu kibi miqroblarda da ola bilir. Səjlədijimiz patogen baqterijalar, bə'zən başqa baqterijalarla və hətta ali orqanizmlə (hejvan və bitgilərlə) bu kibi əlaqəjə girirlər. Denitrifiqasijada iştirak edən baqterijalar anaerob olduqlarə halda, əmələ gətirdikləri oqsigeni aerob baqterijalar sərf edirlər, jə'ni bu oqsigendən istifadə edirlər. Patogen baqterijalarən bədəndə apardəqlarə dəjişikliklər və reaqsijalar artəq dərəçədə myxtəlif olduqlarə ycyn indiki kimjəvi ysullarla bunu ajdən etmək qejri-mymkyndyr. Saprofitlər qəçqərmanə əmələ gətirdikləri kibi, patogen baqterijalarən buraqdəqlarə spesifik zəhərlər də enzimlərə jaqənlaşər və bunlarən tə'sirləri də əvvəlkilərdən az dejildir. Saprofitlər çansəz maddələrə dyşyb bunlarə qəçqərtdəqə və oqsidləşdirdiji zaman, bu proseslər qəçqərmadan və qəçqərəlaçaq məhsulun xysusijjətindən asələ olduqu kibi patogen baqterijalarən bədənə daxil olub, inkişaf etməsi də dyşdyjy toqumanən anatomik-fiziologik xysusijjətindən asələ olmaqla barabar xəstəliji jaradan baqterijalarən spesifiklijindən və xəstənin oz haləndan asələ olur. Saprofitləri çansəz maddələrə daxil etdikdə lazəmənça inkişaf edirlər və buna qarşə hec bir mane'cilik olmajər; halbu ki, patogen baqterijalar bədənə daxil olduqdan sonra orqanizm baqterijaja qarşə lazəmi mane'cilik gəstərir; nəticədə isə orqanizm qalib gəldiji vaqt bədən bu xəstəlikdən azad olur, əksinə olaraq baqterijalar qalib gələrsə, orqanizm mytləq xəstələnir. Infeqsija hadisəsində iki faqtor iştirak edir: bir tərəfdən miqrob, ikinçi tərəfdən isə orqanizm; bu xysusda bir coq daxili və xariçi şərait də az rol ojnamajər.

Miqrob bədənə daxil olduqdan sonra inkişaf etməlidir və bununla barabar ilk əvvəl hansə hyçejrəjə daxil olursa, myəjjən vaqt icərisində miqdarlarənə artərdəqça başqa hyçejrələrə daqələrlar. Patogen baqterijalarən əksərijjəti bədəndə bu qajda ilə inkişaf edirlər; jalənəz elələri vardər ki, *(B. tetani, difteria),* bunlar bədəndə başqa toqumalara jajəlmajəb ançaq bir toqumada inkişaf edərək toqsinlərini oradan bədənin başqa jerlərinə kecirirlər.

INFEQSIJANƏN BƏDƏNƏ DAXIL OLMASƏ JOLLARƏ.

(Giriş qapəsə).

Patogen baqterijanən ilk əvvəl hansə orqan və toquma vasitəsilə bədənə daxil olduqu jola **infeqsijanən giriş qapəsə** dejilir. Belə qapəlar bytyn baqterijalar ycyn bir dejildir. Bə'zi baqterijalar saqlam dəridən də kecə bilirlər *(B. mallei və Staphilococ. pyogenies).* Bu ysulla bədənə kecmək başqa baqterijalara mymkyn olmajər. *B. tetanus B. oedematis maligni* kibi baqterijalar ycyn giriş qapəsə jalənəz acəq jaralar ola bilir. *B. tuberculosis, B. antihracis* dəridən dejil, saqlam selik qatəndan bədənə daxil olurlar. Xariçi myhitlə əlaqəsi olan orqanlar da baqterijalarən giriş

qapьsь ola bilirlər. Baqterijalar əksərijjətlə saqlam dəridən kecə bilməjirlər; dəri bir qədər zədələndikdən sonra miqroblarьn daxil olub xəstəlik jaratmaqlarь mymkyndyr. Baqterijalarьn me'də və baqьrsaq selikli qişasьndan kecdikləri sybut olunmuşdur. Me'dəjə daxil olan patogen baqterijalardan bir qьsmь HCl və başqa həzm seqretlərinin və habelə baqьrsaqlarda olan myxtəlif antibaqterijalarьn tə'siri altьnda tələf olursa da, vərəm və qarajara baqterijalarь kibi bə'ziləri də baqьrsaqdan qana kecirlər.

Baqьrsaqьn selik qişasь cizilmiş və xəstə olduqu zaman taun, vəba və Banq baqterijalarьnьn kecib xəstəlik jaratdьqlarьnь qejd etməlijik. Saqlam selik qişa isə mymkyn qədər baqterijalarьn qana kecməsinə mane'cilik gəstərir, jeni doqulmuş və çavan hejvanlar icərisində selik qatь vasitəsilə xəstələnmək qoça hejvanlara nisbətən asan olur. Baqьrsaq selikli qişasь xəstə olduqda *B. Coli* qanda tapьlьr.

Bə'zi xətəliklərin giriş qapьsь tənəffys və tənasyl orqanlarь olur. Hər bir baqterijanьn əmələ gətirdiji xəstəlik ycyn lazьmi şərait olmalьdьr. Insanlarda dizenterija, Asija vəbasь baqterijalarь aqьza daxil olduqlarь zaman xəstəlik əmələ gətirirlər; bunlarьn dərialtь infeqsijasь ilə xəstəlik əmələ gəlməjir. Təçribə hejvanlarьndan, adadavşanьnda vərəm xəstəlijini jaratmaq ycyn qulturanьn başqa baqьrsaqlara dejil, korbaqьrsaqьn selikli qьşasьna daxil edilməsi lazьmdьr. Ejni patogen baqterijalar myxtəlif hejvanlarьn bədəninə myxtəlif jollardan (qapьlardan) daxil ola bilərlər.

Bir hejvanьn bir xəstəlikdən xəstələnməsi ycyn onun baqьrsaq selikli qişasь giriş qapьsь olursa, başqa çyr hejvanьn xəstələnməsi ycyn həmin baqterijalarьn bu hejvanьn qan damarlarьna daxil edilməsi lazьmdьr. Xəstəliji əmələ gətirmək ycyn hejvanlarьn bədəninə daxil olan miqroblarьn miqdarь ilə barabar miqroblarьn daxil olduqlarь giriş qapьsь da coq rol ojnajьr. Vərəm xəstəlijilə xəstələnmək ycyn həzm aparatьna daxil edilən miqrobun miqdarь dərisi altьna ətyrylən miqrobdan bir necə min dəfə coq olmalьdьr. Miqrobun daxil olduqu jerdə iltihab prosesi gedir. Orqanizm, infeqsijaja qalib gələçəji və ja gəlməjəçəjilə hesablaşmadan infeqsijanьn dəf'inə calьşьr ki, bu **orqanizmin mydafəə** reaqsijasьdьr. Bə'zən bu iltihab reaqsijasь nətiçəsində bədən ən aqьr xəstəlikdən xilas olur. Stafiloqoqlar və streptoqoqlar bədənə daxil olduqlarь jerdə bunlara manecilik gəstərildikdən sonra (myxtəlif dərmanlar vasitəsilə) orada jerli iltihab əmələ gəlib nətiçədə orqanizm, dutulaçaqь bu xəstəlikdən azad olur. Ymumijjətlə baqterijalarьn əksərijjəti **irinləndirmə** və **iltihab** əmələ gətirmə qyvvəsinə malikdirlər. Ejni zamanda bunlarьn əmələ gətir-

dikləri iltihab və irinləndirmə spesifikdir, məsələn vərəm baqterijalarının vərəm oçağında əmələ gətirdikləri dyjymlər jalınız vərəm baqterijalarına məxsusdur.

Bədənin zəif olması orqanizmdəki antitellərin qyvvəsizliji və ja bədənə daxil olmuş miqrobların şiddətli patogen olması kibi bir coq səbəblərə gərə jerli iltihab prosesləri bədənin qejri jerlərinə də jajılır.

Limfa və qan damarlarına daxil olmuş miqroblar qan və limfa çərəjanilə bədənin hər bir jerinə jajılaraq, bytyn orqanlara daxil olur ki, bununla da infeqsija mybarəzəsinə bədənin hər bir hissəsi çəlb olunur. Burada baqterijanın xysusijjətini nəzərə almaq lazımdır; qaramal icərisində olan taun xəstəlijilə dabaq xəstəlijini əmələ gətirən miqrob arasındakı təfavyt coqdur; bu iki xəstəlik hər ikisi joluquçudur; ançaq dabaq xəstəliji taun xəstəlijinə nisbətən zəifdir; cynky bu baqterijaların virulentlijindən (qyvvətlilijindən) asılıdır. Taun xəstəliji bədənə qorqulu olmaqla barabar bununla mybarəzə dabaqa nisbətən cətindir. Baqterijalar daxil olduqları giriş qapılarında iltihab prosesləri jaratmamaqlarının səbəbi onların virulent olmasıdır.

Digər tərəfdən infeqsija əmələ gələn bədənin iltihab reaqsijalarını təsdiq etmək olar. Patogen baqterijaların əksərijjəti toqsin əmələ gətirirlər və bu toqsinlər isə miqrobların fajdasına olaraq onların mybarəzə qyvvətlərini artırır. Juqarıda söjlədijimiz kibi miqrobların bə'zisi toqsinlərini qana (eqzotoqsin) buraqırlar, bunun tə'siri altında xəstəlik əmələ gəldiji zaman miqroblar daxil olduqları jerdə və qonşu hyçejrələrdə coqalıb zəhərlərini qana buraqmaqla bədəni zəhərləjirlər. Bu zəhərlənmə ilə başqa adi zəhərlənmənin fərqi, miqrobların coqaldıqları jerdən zəhərin qana kecməsidir: məsələn *tetani* xəstəlijində olduqu kibi. Bu qajda ilə bir qrup infeqsija proseslərində əsas iş bədəni eqzotoqsinlə zəhərləmək olduqundan ilk əvvəl miqrob giriş qapısında coqaldıqda toqsini bədənə buraqıb özy bədənin bir hissəsindən o biri hissəsinə, bir orqandan o birinə jajılır. Miqrobların bədənə jajılma myddəti bə'zən coq az olur. Limfa sisteminə daxil olmuş miqroorqanizmlər qan aqıntısına kecib bunun vasitəsilə orqanlara jajılırlar. Qanda miqrobların coqalmasına **baqteriomija** dejilir. Bə'zi infeqsijada baqteriomija zamanı xəstəliji əmələ gətirən miqroblar myəjjən orqanlarda coqalıb orada qalırlar; misal olaraq quduzluq xəstəlijində miqroorqanizmlərin mərkəzi sinir sisteminə toplandıqlarını söjləmək olar. Cicək və dabaq xəstəliklərində miqroblar dərijə jıqılırlar. Miqrobların belə orqanlarda jıqılmasına **tropizm** dejilir. Rozianan bu xysusda japdıqı təçribə, orqanotropizmi daha ajdın edir: vrəji xəstələnmiş şəxsin diş dibində olan irindən ajrılmış streptoqoq qulturası təçribə hejvanlarının qanına jeridildiji zaman, bu hejvanda yrəjin xəstələndijini göstərmişdir. Professor Belenovski myəjjən orqanın (aqçijər, qara-

çijər və bejnin) emulsijasilə bir jerdə miqrobunu hejvana daxil etdiji zaman daima həmin orqanlarьn xəstələndijini sybut etmişdir. Beləliklə xəstəlikdən ajьlmьş hejvan çyr-bə-çyr jollarla özyndən xəstəlik baqterijalarьnь dəf' edir (bajьra cьqarьr). Elə baqterijalar vardьr ki, onlarьn jaşamasь ycyn öd jollarь və öd kisəsində mynasib şərait olduqda, bədən xəstəlikdən qurtardьqdan sonra belə onlar ajlar və illərlə orada jaşajьb, jalьnьz bə'zi vasitələrlə bədəndən xariç olurlar (baqьrsaqda olan baqterijalar nəçislə bədəndən xariç olurlar).

Miqrobun bir orqanda özynyn və zəhərinin jьqьlьb qalmasьnьn səbəbi bu vaqta qədər aşkar olmamьşdьr. Qan, miqroblarь başqa jerlərə daşьmaqla barabar onun miqroblar ycyn qida myhiti olub orada coqalmasьna, daha doqrusu qanьn joluqmasьna s e p t i t s e m i j a dejilir. Bir coq infeqsijalarda miqrobun coqalmasь qanda gedir *(B. anthracis)*. Qan vasitəsilə miqroblar myəjjən orqanlara toplanьb qalьrsa, ona p i j e m i j a, dejilir. Bu kibi pijemijanь coq vaqt stafiloqoqlar jaradьr. Coq zaman miqrobun orqanizmə daxil olduqu giriş qapьsьnь və onun iltihab proseslərini gərmək mymkyn olmajьr; buna baqmajaraq miqrob gizli surətdə daxil olur və girdiji jerdə isə hec bir iz qojmajьr, bu kibi hallara q r i p t o g e n i k infeqsija dejilir. Bu halь vərəm xəstəlijində gərmək olar. Hejvanьn nə vaqt xəstələndiji bilinmədiji və qlinik əlamətləri mejdana cьqmadьqь zaman onun xəstə olduqunu jalьnьz kəsildikdən sonra göryryk. Hejvan xəstə olub ançaq qlinik əlamətin olmamasьna ə l a m ə t s i z i n f e q s i j a dejilir. Xəstəliji tərədən miqroblarьn ara-sьra bədəndə xəstəliji ojadьb və başqa vaqtlar isə sakit jaşamasьna l a t e n t d e v r dejilir; insanlarda olan maljarija xəstəliji kibi. Bu xəstəlik bədəndə olursa da, bə'zən insan bunun olduqunu hiss etməjir, hərdəm yşydyb-qьzdьrdьqdan sonra maljarijanьn əlaməti daha görynməjir; bir myddət sonra isə jenə jenidən təkrar olunur.

XƏSTƏLIJIN GIZLI DEVRI.

Bədənə daxil olan miqroblarьn xəstəlik jaratmasь ycyn myəjjən vaqt lazьmdьr. Hec bir zaman bədənə daxil olmuş miqrob o saat bu xəstəliji tərətməjir. Söz joq ki, burada miqrobun miqdarь, virulentliji orqanizmin vəzijjəti və giriş qapьsь, böjyk rol ojnajьr. Miqrobun bədənə daxil olduqu zamandan, qlinik əlamətlərin mejdana cьqdьqь vaqta qədər kecən myddətə x ə s t ə l i j i n g i z l i d e v r i dejilir.

Qlinik əlamətin mejdana cьqmasь ycyn miqroblara lazьmi vaqt tələb olunur ki, bu vaqt icərisində bunlarьn bədəndə mybarəzə nətiçəsində xəstəliji jaratmaq ycyn bədənin başqa yzvlərinə daqьlьb coqalmalarь və bədənin normal vəzijjətini dəjişməsi lazьmdьr. Bunlar olmasa, infeqsijanьn olmasь mymkyn dejildir. Gizli devrin daha ajdьn olmasь ycyn bir necə misallar gətirəlim. Juqarьda söjlədijimiz kibi miqrobun miqdarь gizli devrin

myddətini azaldırsa da, lakin ymumijjətlə gizli devr coq zaman miqrobun xysusijjətindən asılı olur. *B. tetani* qulturasını xırda təçribə hejvanlarının mərkəzi sinir sisteminə jeritdijimiz zaman gizli devrin myddəti coq azalır, cynky bu miqrobların əmələ gətirdikləri toqsinlər jalınız sinirə tə'sir edir, halbu ki, həmin qultura dəri altına daxil edildikdə bunun burada coqalması və buraqdığı toqsinin qana qarışıb mərkəzi sinir sisteminə tə'sir etməsi ycyn myəjjən vaqt lazım olur. Qan vasitəsilə jeridilmiş toqsinin qyvvəsi doğrudan-doğruja mərkəzi sinir sisteminə jeridilmiş toqsinin qyvvəsindən az olur, cynky mərkəzi sinir sisteminə vurulmuş toqsinin və ja baqterijanın xəstəlik jaratması ycyn etdiji mybarəzə, dəri vasitəsilə daxil edilmiş toqsinin və ja baqterijanın xəstəlik əmələ gətirməsindən jyngyl və asan olur. Juqarıda söjlədijimiz ysullarla hec bir zaman gizli devri aradan qaldırmaq olmaz. Az bir myddət olsa da, vaqt lazımdır.

Beləliklə gizli devr vaqtının myddəti bir tərəfdən bədəndən asılı olur; bədən isə miqrobun və toqsinin tə'siri altında immunitetləşir və bu myəjjən dərəcəjə qalqdıqdan sonra xəstəlijin birinçi əlaməti gərynyr. Myxtəlif xəstəliklərdə gizli devrin myddəti coq myxtəlifdir; burada hejvanların çinsini də nəzərə almaq lazımdır.

Xəstənin əsas əlamətlərinə gəldikdə infeqsion xəstəliklərin əksərijjəti normal hərarətin dəjişməsilə başlanıb davam edir; onu da söjləməlijik ki, coq vaqt hərarət coqalırsa da, lakin bə'zilərində infeqsija normal hərarətin enməsilə əmələ gəlir. Hərarətin myəjjən dərəçələrə qalqıb enməsi hər bir xəstəlik ycyn ajrı (qaraqter) olduqundan xəstəliji bə'zən hərarətlə tə'jin etmək mymkyndyr.

Hərarətin bədəndə dəjişilməsinə gəldikdə biz bilirik ki, antigen və protein kibi maddələr bədənə jeridildikdə bunlar bədəndə adi hərarəti dəjişmək qyvvəsinə malikdirlər. Zylali maddə coq miqdarda bədənə daxil olduqu zaman hərarəti qaldırır, az olduqda isə azaldır. Infeqsija zamanında hərarətin dejişilməsinə səbəb bir tərəfdən miqrobun özy və digər tərəfdən onun buraqdığı e q z o v ə e n d o t o q s i n l ə r olur. Bədəndə hərarətin jyksəlməsi miqrobların bədəndə apardıqları mybarəzəjə və özlərinə mane' olmajır. Hərarətin qalqması bədənin miqroblarla apardığı mybarəzəni təsdiq edir. Mybarəzə isə bədəndə olan faqositoz və antitellərin vasitəsilə aparılır. Bə'zi xəstəliklərdə isə əksinə olaraq qırmızı və aq qan çisimçiklərinin də miqdarı azalır. Xəstəliklərdə orqanların həçminin böjyməsi mymkyndyr. Dalaq qarajara xəstəlijində adi həçmini böjydyr.

MIQROBLARIN VIRULENTLIJI.

Miqrobun virulent olması, infeqsijada coq əhəmijjətli olduqundan onun virulentlijini tə'jin etmək ycyn bir neçə əsas səbəblə-

ri unutmamalıjıq. Miqrobların infeqsija zamanı etdikləri tə'sirin jekunu onların virulentlijini tə'jin edir.

Patogenlərə nisbətən saprofitlər, bədəndə xəstəlik törətmək qabilijjəti e'tibarilə zəifdirlər. Bə'zən patogenlərin bədəndə saprofit kibi jaşajıb xəstəlik törətməsi mymkyndyr. Həmin bu kibi əlamətlər bir tərəfdən miqrobun virulentlijindən, ikinçi tərəfdən bədənin nə halda olmasından asılıdır. Miqrobun coq virulent olmasına baqmajaraq bədən qyvvətli olduqu zaman ən şiddətli virulentlijə malik olan miqrob bədəndə saprofit halında jaşajıb xəstəlik törətməjir; bədənin zəifliji zamanı isə bədəndə saprofit kibi jaşajan ən zəif miqrob da xəstəlik əmələ gətirir. Miqrobun virulent olmasında onun miqdarı da az rol ojnamajır; məsələn, təçribə hejvanına 100 dənə qarajara baqterijası vurduqda hejvan ölmədiji halda min dənəsini vurduqda tələf olur (Şovö). Tədqiqatçılar miqrobların virulent olmalarını onların buraqdıqı aqressindən göryrlər, buna isə faqositlərin əksinə lazımi mybarəzə aparırlar. Bu maddənin tə'siri altında faqositlər paralic olurlar.

Patogen baqterijalar bədəndə saprofit kibi jaşadıqda gərynən əlamətlər də xəstəlik devrindəki əlamətlərə oqşajır, miqrob qarajara xəstəlijində *(B. anthracis)* qapsula jaradır ki, bunun vəzifəsi miqrobu mybarəzə zamanı faqositdən qorumaqdır; bə'zi alimlər bunların antitelləri məhv etmələrini qejd edirlər. Daima *B. anthracis* qapsula jaratmalıdır, cynky qapsula *B. anthracis*-in bədəndə apardıqı mybarəzəni asanlaşdırır. Arası kəsilmədən baqterija qida myhitində qaldıqda onun virulentliji zəifləşir. Bunun qyvvətlənməsi ycyn qulturanı başqa hejvanın bədənindən kecirmək lazımdır; təzədən həmin bədəndən qulturanı aldıqda qulturanın virulentliji qyvvətləşir. Bu kibi kecirmələri (pasazları) nə qədər coq etsək, bir o qədər qultura virulentləşir və maqsimal dərəçəjə catır. Jyksək dərəçəli hərarət, ışıq, qurumaq və başqa bu kibi xariçi səbəblər də miqrobun virulentlijini zəifləşdirir. Xəstəlik miqrobu bədəndə olduqu zaman, başqa xəstəlik miqrobları da, bədən zəifləşdikdən sonra bədənə kecirlər. Əgər ejni zamanda bədənə iki xəstəlik miqrobu daxil olarsa buna **qarışıq infeqsija** dejilir, bu iki çyr miqrobların biri o birinin jaşamasına mane olmajırsa, bunların ikisinin birdən etdikləri tə'sir infeqsijanı daha da cətinləşdirib bədəni təhlykəjə salır. Bir xəstəlik miqrobu bədənə kecib xəstəlijin qlinik əlamətlərini göstərdikdən sonra bədənə ikinçi bir xəstəlik miqrobu daxil olarsa, buna da **ikinçi infeqsija** dejilir. Bu isə jalnız birinçi miqrobun bədəni zəifləndirməsindən sonra ola bilər. Belə xəstəlikləri ev hejvanları arasında coq vaqt saprofit olan baqterijalar əmələ gətirirlər; bunlar başqa zaman saprofit halında jaşajırsa da, bədəndə xəstəlik olduqda patogenləşirlər; bunların əksərijjətini isə baqırsaqda qanı irinlədən baqterijalar *(B. bipolaris sept)* təşkil edir. Bu kibi qarışıq və ikinçi infeqsijalar bədənin vəzijjətini cətinləşdirirsə də, bə'zən bədənin nəf'inə olaraq xəstəlikdən hejvanın saqalmasına mymkyndyr.

BAQTERIOFAGIZM.

1917-çi ildə birinçi dəfə d' E r e e l, tədqiqat nəticəsində baqterija parazitlərindən mə'lumat verirkən. bunların həll edilməsi hadisəsini b a q t e r i o f a g i j a adlandırmışdır (baqterijaların həll edilməsi).

B a q t e r i o f a q-ın lyqəvi mə'nası baqterija jejən deməkdir; sonra bir sıra alimlər baqteriofagija hadisəsini d'Ereel hadisəsi adlandırmışdırlar. Baqteriofaq hadisəsi əvvəl baqterijanın böjyməsini durdurmaq və sonra isə onları təmamilə əritməkdən ibarətdir. Baqteriofaqda olan bir sıra xysusijjətlər nisbi termolabilliji, xariçi faqtorla mynasəbatı, spesifikliji və i. a. d'E r e e l i n «miqroblar miqrobu»—dejə adlandırdıqı fikrini təsdiq edir. Baqterijalara tə'sir edən bu kibi əridiçilərin (həzm ediçi) çanlı varlıq olması xysusunda bə'zi alimlər d'Ereel ilə razılaşırlar və tə'sir ediçinin kimjəvi ferment olmasını qejd edirlər.

Baqteriofaqın tə'sirindən, baqterijalar dəjişikliklərə oqrajırlar. Köhnə qulturaların təzələrə nisbətən baqteriofaqa qarşı davamlı olmasını da qejd etməlijik. Bə'zən tə'sir ediçi maddələr onları tələf edə bilməjir, belə ki, bə'zi baqterijalara baqteriofaq lazımi miqdarda tə'sir etmədiji ycyn qulturada olan baqterijaların bir hissəsi saqlam qalıb təzədən inkişaf edirlər. Başqa baqterijalar baqteriofaqın göstərdiji tə'sir nəticəsində aqlutinasijalaşmaq, qabilijjətini itirməklə barabar xariçi formasını dəjişib q o q q o b a s i l olurlar.

Dizenterija xəstəlijindən hənuz qalqmış şəxsin nəçisini filtrdən kecirib bu maje'dən bir necə damçı dizenterija buljon qulturasına ilavə edib 37°-də bir necə saat saqladıqdan sonra bu bulanıq buljon qulturasının durulduqunu göryryk. Indi həmin maje'i aqar qida myhitinin yzərində ejni çins baqterijanın jetişib qolonija əmələ gətirdiji jerlərə ilavə etdijimiz zaman, qolonijalar ərijirlər *(taches virges),* təmiz ləkə əmələ gəlir. Bu maddənin əridiçi tə'sirini, juqarıdakı qulturanın təzə qida myhitinə əkilməsi şərtilə bir mixbərdən o biri mixbərə köcyrməklə qulturaların mixbərlərdə ərijib durulmaları isbat edir. d' Ereelin göstərməsinə görə jalınız bir çins baqteriofaq vardır ki, boja coq xırdadır; bunun 0,02 μ olduqu P r a u s n i t c tərəfindən tə'jin olunmuşdur. Baqteriofaqlar inkişaf edirlər.

Tədqiqatçılar, baqteriofaqın çanlı baqterijalardan başqa ölmyş baqterijanın bədənində də inkişafını qejd edirlər. Baqterijanın inkişafı nə qədər syr'ətli olursa, baqteriofaqın inkişafı da o qədər syr'ətli olur; bunu köhnə qulturalara nisbətən təzə qulturalarda daha jaqşı görmək olar. Ymumijjətlə baqteriofaq baqterijaja nisbətən lazımi dərəçədə öjrənilməmişdir.

Baqteriofaqların inkişafı ycyn tələb edilən optimal şərait baqterijalara myvafiq gəldiji ycyn bu şəraiti səjləmək lazım dejildir.

Lakin bu paralelizmdən mystəsna hallar da ola bilir; məsələn

bə'zi qida myhitində, baqterijalarьn jaqşь inkişaf etmələrinə baqmajaraq bunlar baqteriofaq tə'sirinə mə'ruz qalmajьrlar; cynky bu çyr qida myhitləri bir coq qolloid maddələri kibi, miqroblarьn ərimәsinə qarşь qorujuçu qolloid vəzifəsini gəryr və ehtimal ki, baqterijanьn qabьqlarьnь (qilaflarьnь) baqteriofaqlardan myhafəzə edir.

Baqteriofaqlar, hərarət tə'sirinə qarşь myxtəlif davamlьlьqdadьr, bə'zən daha jyksək hərarətdə tələf olmajьrlar. 52° hərarət bir hissəsini və 75° hamьsьnь 25—35 dəqiqə myddətində əldyryr. Ьşьqa və myxtəlif kimjəvi maddələrə olduqça davamsьzdьrlar; axьrьnçь isə baqteriofaqь ilk tə'sirilə ifliç edib bir myddət kecdikdən sonra tələf edir. Axьr vaqtlarda aparьlan elmi tədqiqat baqteriofaq fenomeninin ajdьnlaşmasь xysusunda bir coq material əldə etmişdir. Belə ki, bunun suda, topraqda, palcьqda və coq vaqt hejvan və insan nəçisində olduqunu qejd etmişdir. Tə'sir çihətçə bunlar myxtəlifdirlər; bunlardan bə'ziləri baqьrsaqlarda olan miqroblarla şiddətli mybarəzə apardьqlarьndan buna istinadən hali-hazьrda baqteriofaqla bir qisim joluquçu xəstəlikləri myaləçə edirlər.

IMMUNITET

Infeqsijada orqanizm miqroblar və onlarьn toqsinlərinə davam etmə, onlarla apardьqь mybarəzəjə **immunitet** və ja **qəbul etməməzlik** dejilir. Dar mə'nada immunitet orqanizmin xəstəlik qəbul etməmək qabilijjətinə dejilir. Bu isə infeqsija prosesində miqrob ilə maqroorqanizm arasьnda olan mynasəbat nətiçəsində tərənir. Bu kibi proseslərdə bir tərəfdən miqrob, ikinçi tərfədən isə bədənin hyçejrələri və kimjəvi antitellər iştirak edirlər. Immunitet, infeqsija zamanь bədənə girmiş antigenin əksinə aparьlan mybarəzə haqqьnda bəhs edəçəkdir. Mybarəzə nətiçəsində bədəninin qəbul etməməzlik əmələ gətirmsinə gərə orqanizm xəstələnməjir. Bir çins hejvanda xəstəlik əmələ gətirən miqrob qulturasьnь, həmin xəstəlijə təbii immunitetli olan başqa bir çins hejvana syn'i olaraq joluqdurduqda hejvanda xəstəlik əmələ gəlməjir.

Immunitet bir necə nov' olur.

ANADAN GƏLMƏ IMMUNITET.

Belə immunitet nəsldən-nəslə kecir, jalnьz bu çyr immunitet qanun olaraq qəbul edilməməlidir, cynky hejvanьn adi vəzijjətini pozduqumuz zaman hejvan xəstələnir. Hərarəti jyksək olan hejvanlara qulturanь ətyrdykdə bunlar xəstələnməjirlər; halbu ki, hejvanьn hərarətini qulturanьn jaşamasь hərarətilə ujqunlaşdьrdьqda hejvan xəstələnir. Hejvanьn uzun myddət aç qalmasь və ja jorulmasь kibi hallarda xəstələnməsi mymkyndyr. Lakin bu kibi vəzijjətlər, anadan gəlmə immunitetin olmadьqьnь sybut etməjir; məsələn bə'zi hejvanlarьn, digər myxtəlif hejvanlar və hətta insanlar icərisində olan xəstəlikdən joluqmadьqьnь gərmək mymkyndyr. Hejvanlar icərisində əgər saqqo xəstəliji atlar ycyn qorqulu isə, it və qaramal ycyn bu xəstəlijin hec bir qorqusu joqdur, cynky saqqo baqterijasь qaramalda xəstəliji tərətmək qabilijjətinə malik dejildir. *B. biopliaria* bytyn ev hejvanlarь ycyn xəstəlik jaratdьqь halda insana bunun hec bir zərəri olmajьr; bu kibi misallara həjatda coq təsadyf edilir.

Bu immunitet bədəndəki faqositoz hyçejrələri və antitellərin sajəsində əmələ gəlir. Bədənə jeridilmiş toqsinlərin coq tə'siri mərkəzi sinir sisteminə olduqu ycyn, toqsini bilavasitə mərkəzə jeritdikdə də hejvan tələf olur. Toqsini qan çərəjanь vasitəsilə jeritdikdə zəhərin bir hissəsini qanda olan antitellər tələf etdiklərinə gərə toqsinin qyvvəsi azaldьqьndan hejvan saq qalьr (tojuq).

QAZANILMIŞ VƏ JA ƏLDƏ EDILMIŞ IMMUNITET.

Bu immunitet heyvan doğulduqdan sonra əldə edilir və anadan gəlmə immunitetin əksinədir. Anadan gəlmə immunitetdə heyvan doğulduğu dəqiqədən ömrynyn axırına qədər şybhəsiz ki, xəstələnməyir, amma əldə edilmiş immunitet, heyvana fitri olaraq verilməyir, sonradan qazanılır; bu səbəbə görə heyvan immunitetini əldə etmədən qabaq xəstələnə bilər. Əldə edilmiş immunitet iki çyr ola bilir: biri **təbii,** ikinçisi isə **syn'i.** Təbii immunitet heyvanın özyndən asılı olmayaraq bir dəfə xəstəliklə xəstələndikdən sonra təbii olaraq bu xəstəliyə qarşı qısa bir zaman ycyn möhkəm immunitet əldə edir. Malqara arasında taun xəstəliyinə dutulmuş bə'zi heyvan təbii olaraq immunitetlənib daimi olaraq bu xəstəlikdən azad olur. Syn'idə isə əldə edilən immunitet peyvənd ysulilə yaradılır. Təbii və syn'i immunitetlər arasındakı fərqi qeyd edərsək təbiinin syn'iyə nisbətən olduqça davamlı və immunitet vaqtının miqdarı da uzun olur. Syn'i immunitet bədənə ötyrylmyş zəifləşmiş və ya öldyrylmyş miqrobların vasitəsilə əldə edilir. Təbii və syn'i immunitetlərin hər ikisində də orqanizmdə xəstəliyə qarşı qəbul etməməzlik qabiliyyəti əmələ gəlir. Bunların hər ikisində də lazımi miqdarda enerzi sərf edilir. Juqarıda qeyd etdiyimiz kibi təbiidə sərf edilən enerzi syn'idəkindən coq olub yaradılan immunitet də qyvvətli olur. Burada bədənin xysusiyyəti də coq rol oynayır və bu vəziyyətlə immunitet vaqtının uzunluğu da əlaqədardır. Coq vaqt syn'i ysulla əldə edilmiş immunitet xəstəlikdən asılı olmaq şərtilə bir heyvanda 3—7 ilə qədər olduğu halda o birində bu vaqt bir neçə həftə olur. Syn'i immunitetdə xəstəliyi tərədən miqrobun özy bədənə daxil edilirsə (aşılanırsa), buna **aqtiv immunitet** deyilir; bu olduqça qyvvətlidir; cynky burada bədən özy miqrobların əksinə lazımi antitellər yaradır və yaratdığı immunitet də qyvvətli olur; bədənə yalnız antitellər yeridilirsə (serumla) bu immunitetdə bədən passiv iştirak etdiyi ycyn **passiv immunitet** və bədənin bu immunitetdəki iş və sərf etdiyi enerzi az olduğundan immunitet zəif və immuntet devri də qısa olur.

Immunizasiya bir coq məqsədlər ycyn aparıla bilər. Coq vaqt qabaqçadan xəstəliyin qarşısını almaq məqsədilə, yə'ni heyvanı gözlənilən xəstəlikdən qorumaq ycyn aparılır (profilaqtiqa), məsələn taun və qarayara kibi xəstəliklərdə həm aqtiv və həm də passiv immunitet yapıla bilər. Bə'zən immuniżasiya (vaqsinasiya) myaliçə məqsədi ycyn də yapıla bilər (quduzluq xəstəliyinə qarşı).

Hər bir immunitetdə bədəndəki antitellərin olduğuna baqmayaraq xariçdən ötyrylmyş antitellər bədənin infeqsiya ilə etdiyi mybarəzəni asanlaşdırır; yə'ni bədəndəki antitellərə və bununla barabar faqositlərə lazımi yardım göstərir. Axır vaqtlarda Bezretqanın Paster institutunda yerli immunitetlər xysusunda apardığı tədqiqata əsasən ilk əvvəl miqrob hansı toqumaya ötyrylyrsə, orada immunitetin tez əmələ gəldiyini və geç qurtardığını və başqa toqumalarda geç yetişib tez qurtardığını qeyd edirsə də, başqa alimlər

bunun əksini söjləjirlər. Bezretqanьn göstərdijinə görə daxil edilmiş miqroblar vurulan toqumada qalьb az hissəsi isə başqa toqumalara daqьlьr və bu qajda ilə tək-tək orqanlarь immunitetləşdirmək mymkyndyr (məsələn: qarajaranьn əlejhinə baqьrsaqь, dərini və bu kibi orqanlarь). Bu məsələ ystyndə aparьlan tədqiqat coq da məhkəm olmadьqьndan bunun nə çyr həll edilməsini gələçək tədqiqat göstərər. Indi isə qət'i mə'lumat vermək mymkyn dejildir. Infeqsija nətiçəsində bədəndəki miqroblarьn hamьsь tələf olub bədən miqrobdan azad edilərsə, əldə edilmiş immunitetə **steril** immunitet dejilir. Bədəndə olan antitellər miqrobun olub-olmamasьndan asьlь olmajaraq bədəndə qalaçaqdьr. Bunun əksinə olaraq protozoalarьn jaratdьqь bir neçə xəstəliklərdə qəbul etməməzlik bədəndə miqrobun olduqu vaqta qədər dəvam edəçəkdir, bu miqroblarь bədəndən xariç etdijimiz zaman jenidən xəstəlijin tərənməsi mymkyndyr. Belə xəstəliklərdə orqanizmdə miqrobla barabar antitellər də olur ki, buna da **steril olmajan immunitet dejilir.** Ev hejvanlarь arasьnda olan piroplazmoz xəstəliji steril olmajan immunitetə misal ola bilər. Immunitetin jaradьlmasьnda başlьça aqtivliji antitellər göstərirlərsə də, bununla barabar az da olmuş olsa, bədənin xariç və hətta daxildəki orqanlarь coq kömək göstərir. Bədənin yzərini ərtən tyklər daima hərarətin myəjjən dərəçədə qalmasьna xidmət edir. Hərarətin adi dərəçədən aşaqь dyşməsi, daxili orqanlara tə'sir etməklə xəstəlijin tərənməsinə səbəb ola bilər. Juqarьda söjlədijimiz kibi saqlam dəri mymkyn qədər miqrobun bədənə kecməsinə mane olur və bə'zi orqanlarь ərtən selikli qişa da infeqsijanьn əmələ gəlməməsi ycyn sipər xidmətini gəryr.

IMMUNITET NƏZƏRIJJƏLƏRI.

Immunitetlə səthi olsa da tanьş olduqdan sonra, indi onun nə qajda ilə əmələ gəlməsi haqqьnda bəhs etmək lazьmdьr. Hali-hazьrda immunitetin ajdьnlaşmasь ycyn, əsas iki nəzərijjə vardьr: 1) **hyçejrə nəzərijjəsidir;** bunu sybuta calьşanlar başda Mecniqov olmaqla barabar bunun məktəbidir; 2) **Humoral-maje** nəzərijjəsidir. Bu nəzərijjənin mydafəəcisi Buxner olmuşdur (1890 il).

Myxtəlif hyçejrələrin immunitetdəki rollarь xysusunda ilk əvvəl Mecniqov söjləmişdir. Mecniqov fəqərəsiz hejvanlarьn, xysusən mezoderma qatьnьn jaratdьqь amöbə bənzər hyçejrələrinin myxtəlif çisimləri həzm etmələri kibi qanьn aq çisimçiklərinin (lejqosit), orqanizmdə iltihab olduqu zaman, qan damarlarьndan xariçə cьqьb iltihab jerində olan baqterijalarь protoplazmalarь icinə alaraq həzm etmək qabilijjətinə malik olduqlarьnь ətraflь izah etmiş və miqroblarьn bu hyçejrələr tərəfindən tələf olunmalarьna (həzm olunmalarьna) **faqositoz,** həzm edən hyçejrələrə isə **faqosit** adьnь vermişdir. Orqanizm hyçejrələrinin bə'ziləri, xysusilə orta qatdan əmələ gəlmiş hyçejrələr bu xassəjə malikdirlər.

Immunitetin əmələ gəlməsi xysusunda Mecniqov öz qijmətli sybutlu təçribələri nətiçəsində faqositlərin çanlь və virulentli

bakteriyaları təlâf etmələrini göstərmiş və humoral nəzəriyyəsilə immunitetin əmələ gəlməsini sybut edə bilməyəcəklərini söyləmişdir. Qarayara, xolera və vərəm xəstəliklərinin yzərində etdikləri təcrübələrlə Mecniqov və onun tələbələri, infeksiyada miqroblar faqositlər tərəfindən təlâf edildikdə bədənin saq qalmasını və faqositin olmadığı zaman bədənin təlâf olduqunu sybut etmişlər. Mecniqov, serumda əmələ gələn antitellərin immuniteti tamamilə yaratmadığını göstərdiyi halda, humoral nəzəriyyəsi immunitetin əmələ gəlməsini ancaq serumda əmələ gələn çyr-bə-çyr antitellərə əsaslandırır. Orqanizmi qoruyan hyçeyrələri iki müxtəlif faqosit sisteminə ayırmaq olar: 1) polimorf (müxtəlif şəkillərdə) **nüvəli-dənəvər leyqositlərdir** ki, bunlara **qranulosit** deyilir; Mecniqov bunları **miqrofaq** adlandırmışdır. Bu hyçeyrələrin protoplazması coq olmaqla barabar syr'ətlə hərəkət qabiliyyətinə malikdirlər (amöb hərəkəti). Bunlar coqalmaq xassəsindən məhrumdurlar.

Qranulositlər üc qrupa bölünürlər:

a) **neytrofillər**—neytral anilin boyası ilə boyananlar, b) **bazofillər**—əsas boyalarla boyananlar və c) **eozinofillər**—eozin boyalarilə boyananlar.

Bu ikinçi qrupa bir tərəfdən qranulositlər kibi orqanizmdə qan damarından çıqıb toqumaya kecərək hərəkət edə bilən hyçeyrələr və digər tərəfdən isə orqanların hyçeyrələrilə baqlı və əlaqədar olan bir yerdən ayrı yerə hərəkət edə bilməyən hyçeyrələr daxildir.

Bu sistemin sərbəst hərəkət edənləri də üc qrupa ayrılır ki, bunların arasında kecid devrində olanları kecid şəkillərində olur:

a) **kicik limfositlər,** b) **böyük limfositlər** və c) **mononuqlearlar** bir nüvəli böyük hyçeyrələr. Bu sonunçu mononuqlearlara Mecniqov **maqrofaqlar** adını vermişdir. Maqrofaqlar bədəndə istər zərərli və lyzumsuz hər bir şeyi təlâf edirlər.

Böyük limfositlərlə mononuqlearlar təqribən bir böyüklükdə olurlar (15 μ) halbuki, kicik limfositlər (4—7,5 μ) olurlar.

Ikinçi maddəni, həm immun və həm də normal serumlarda tapmaq mymkyndyr. Bu göstərilən maddə başqa qisim maddənin tə'sirini qyvvətləndirdiji ycyn, qomplement adlanb almbşdbr, hərarətin buna göstərdiji tə'sir olduqça qyvvətlidir; belə ki, adi və ja immun serumunu 56° hərarətdə bir qədər qbzdbrdbqdan sonra serumun tərkibində bulunan qomplementlər tələf olurlar. Qomplementləri tələf edilmiş serumlarbn tərkibində amboseptorlarbn olmasbna baqmajaraq, seruma ətyrylmyş vəba vibrionlarb serumun tə'siri olmadbqb ycyn əriməjib inkişaf edəçəklər. Inaqtivlənmiş immun serumunun aqtivlijini jenidən qaldbrmaq ycyn bu seruma bir normal serum ilavə etmək lazbmdbr.

Juqarbda söjlədijimiz kibi, lizin maddələrinin tə'siri altbnda ərijən miqroblar hambsb bir dərəçədə dejildirlər. Lizin antitellərinin bunlara etdiji tə'sirlər və bu tə'sirləri qəbul edən bu miqroorqanizmlər olduqça myxtəlifdirlər. Əgər bir miqroorqanizmə bu lizinin tə'siri coq şiddətli olursa, o biri miqroorqanizmə az və ja hec bir tə'sir buraqmajbr, jəqin ki, miqroorqanizmlər, bədəndə başqa antitellərlə mybarəzə apardbqb kibi belə baqteriolizinlər kibi maddələrlə də miqroblarbn apardbqlarb mybarəzəni inkar etmək olmaz.

Miqroblarbn özlərini mydafəə etmələri, onlarbn buraqdbqlarb myxtəlif antitellərin vasitəsilə olur; bu maddələrin tə'siri altbnda baqteriolizin maddələrinin göstərdikləri tə'sir bir qədər azalbr, beləliklə miqroorqanizmlər özlərini tələf olmaqdan qorujurlar.

AMBOSEPTORLARBN VƏ JA SENSIBILIZATORLARBN XYSUSIJJƏTI.

Ymumi çisimlərin əsas vəzifəsi antigenin qomplementi birləşdirməsindən ibarətdir. Amboseptorlar başqa antitellər kibi antigenlə birləşib antigenə fiziki və kimjəvi xassəni verdikdən sonra qomplementdə antigenlər—miqroblarla birləşir. Amboseptorlarbn bu birləşmədə (antigenlə qomplementin) bir vasitə—fasilə və ja intersial sifətində calbşdbqbnb göryryk. Amboseptorlarla antigenlərin birləşmələri adsorbsija qanunu yzrə davam edir *(Zinger)*.

Amboseptorlar xasijjətçə başqa immun çismlərə oqşamajbr; bunlar olduqça spesifikdirlər; jalbnbz bu spesifiklijin pozulmasbna səbəb bə'zən amboseptorlarbn myrəkkəb antigenlərlə, xysusən hyçejrə və serumlarla əlaqəjə girməsi olur. Amboseptorlar olduqça davamlbdbrlar. P f e j f e r vəba vibrionunun vasitəsilə aldbqb immun serumunu sojuq jerdə səkkiz il saqladbqdan sonra serum öz xasijjətini dəjişməmişdi, 60° hərarətdə 22 saat qbzdbrblmbş immun serumu qyvvəsini itirməjir; halbu ki, 70° hərarət bir saatbn myddətində bu kibi serumlarbn qyvvəsini tamam joq edir. Qyvvətli duz məhlullarb *(in vitro)* amboseptorlarla qomplementlərin birləşməsinə mane'cilik göstərir; jəqin ki, bu vəzijjət mytləq orqanizmlərdə də olmalbdbr; lakin bu məhlullar antigenlə amboseptorlarbn birləşməsinə mane olmajbrlar. B o r d e və F e r m a n immun amboseptorlarbnbn evqlobulinilə bir jerdə cökynty əmələ gətirdiklərini görmyşlər. P f e j-

fer və Prosqaun amboseptoru cökdyrmək qyvvəsinə malik olan qlobulin prisipitinini həzm etdirdikdən sonra, amboseptorların az dərəcədə qyvvədən dyşdyklərini görmyşlər. Bu maddədə zylali maddəni tapmaq ycyn japılan təçribələrin hamısı nətiçədə mənfi reaqsijalar verib maddədə hec bir zylal tapmamışlar. Yc aj alqoqolda saqlanılmış immun serumun destile edilmiş su ilə verdiji eqstratda, immun çismlərinin coq olması ilə barabar, immun serumu zylal maddəsindən azad olmuşdur. Bu təçribələrə əsaslanaraq bə'ziləri amboseptorların serum qlobulinlərlə sıqı rabitədə olmasına baqmajaraq, amboseptorların zylal maddəsi olduqlarını inkar edirlər. Orqanizm immunizasija edildiji zaman serumda amboseptorlara qarşı əmələ gələn antiamboseptorlara əsaslanaraq bə'ziləri amboseptorların zylal xassəsində olmasını qejd edirlər. Adi serumla ejni çins hejvandan alınmış antiserum, bu çinsə maxsus hejvanın immun serumunda bulunan amboseptorların tə'sirini azaldır, məsələn adadavşanının serumu ilə immunizasija edilmiş qojun serumu adadavşanının serum zylalına zidd olan antiserum, vəba vibrionilə immunizasija edilmiş ada davşanının serumundakı amboseptorların vəba vibrionuna göstərdiji tə'siri zəifləşdirir; jə'ni ada davşanının serumundakı amrum zylalına zidd olan antitellər ada davşanının serumundakı amboseptorlara da antitel ola bilərlər. Bu kibi hallar amboseptorların serum zylalı olub və immunizasija zamanı başqa mənbə'dən əmələ gəlməməsini qejd edir.

Lizinləri əmələ gətirən antigenlərin xysusijjətlərinə göldikdə bunlar başqa aqlutinogen və prisipitinogenlərə nisbətən az öjrənilmişdir. Buna görə də miqrobu tələf ediçi antitellərin—lizinlərin haqqında ətraflı mə'lumat joqdur. Baqteriosit amboseptorların-endoplazmanın haqqında az mə'lumat varsa da, halbu ki, baqterija eqplazmasının amboseptorlar əmələ gətirməsi barədə hec bir mə'lumat joqdur.

QOMPLEMENTIN XYSUSIJJƏTI.

Qomplement—aleqsin hyçejrəni tələf (parcalajan) edən bir maddədir. Qomplementin köməkliji olmadan serumda bulunan miqrobosit antitellər miqrobları tələf edə bilməjirlər. Qomplementlər də fermentlər kibi hərarətə qarşı olduqça davamsızdırlar. Myxtəlif hejvanların serumunda olan qomplementlər spesifik dejillər; ejni adi serum, qomplement sifətində myxtəlif amboseptorlarla əlaqəjə girib hər bir çins antigendə əritmək reaqsijasını jarada bildiji ycyn jalnız bir çins qomplementin olub amboseptorlarla birləşmək qabilijjətinə malik olduqunu qejd etməlijik.

Hind donuzunun adi serumu, bir coq antigenlərlə çyr-bə-çyr hejvanları immunizasija edib əldə edilən amboseptorlarla birləşir. Buna görə antigenin myxtəlif şəkildə olduqu kibi, serumda da myxtəlif amboseptorlarla birləşməsini təsdiq etmək lazımdır.

Başqa antitellərin haradan jetişdiji mə'lum olmadıqı kibi qomplementlərin də hansı mənbə'dən əmələ göldiklərini bilməjirik.

Bir coqlarь bu maddənin—qomplementin—əmələ gəlməsinin səbəbini, lejqositlərdə gəryrlərsə də, bə'ziləri qomplementin əmələ gəlməsində, jalьnьz lejqositin joq, hətta onun iştirakь olmadan belə, başqa orqanlarьn da qomplementin əmələ gəlməsində aqtiv iştirak etməsini göstərirlər. Qomplementdə antigen xassəsi olduqu ycyn bunu zylal adlandьrьrlar; cynky tərkibində qomplement və ja **qomplementoid** olan serumla immunizasija edilmiş hejvanьn immun serumunda **antiqomplementlər** əmələ gəlir. Bruqson, hemolitik serumun yzərində japdьqь tədqiqata əsaslanaraq, qomplementin zylal olduqunu inkar edir; daha doqrusu qomplementi ultra bənəfşəji şyaьn tə'sirinə mə'ruz etdikdə, qomplement hərarətə olan həssaslьqьnь itirir; halbu ki, başqa zylallarda bu xassə itməjir. Bu qisim lizinlərə jalьnьz immunitetlənmiş xəstə və ja xəstəlikdən ajьlmьş şəxslərdə, hətta normal orqanizmlərin serumunda da buna təsadyf etmək olar.

Bunlarьn normal serumda olmasьnь ilk dəfə B o d o r o n tə'jin etmişdir. Bunun tə'jin edilməsinin immunitet tarixində böjyk əhəmijjəti olmuşdur; bunun tapьlmasьndan sonra qanьn, bədəndə və bədəndən xariç baqterijanь tələf etməsinə nəzər jetirmişlər; daha sonra bunun genişlənməsi ycyn calьşan tədqiqatcьlar, xysusən B u x n e r, baqteriosit maddəsinin qan hyçejrəsində olmajьb plazma və serumda olduqunu göstərmişdir. B o r d e normal qanьn baqteriosit xassəsinə malik olmasь səbəbini tə'jin etmək xysusunda japdьqь təcribə nətiçəsində lizis hadisəsində iki çyr faqtorun olduqunu qejd etmişdir; bunlardan biri hərarətə olduqça davamlь olan amboseptorlardьr; ikinçisi isə hərarət tə'sirindən tez xarab olan qomplementlərdir.

Juqarьda göstərdijimiz kibi hərarət tə'sirindən inaqtivlənmiş (tərkibində olan qomplementlər tələf edilmiş) serumu aqtiv etmək ycyn (hansь hejvanьn normal serumu olursa olsun) bir qədər təzə serum ilavə etmək kifajətdir. Ilavə edilmiş jeni serumun tərkibində bulunan qomplementlərin sajəsində qьzdьrьlmьş serum əvvəlki xassəsinə qajьdьr. Əgər myajənə edilən serumun tərkibində amboseptorlarьn miqdarь adi normadan juqarь olarsa (antigenin və qomplementin miqdarьna nisbətən), bu zaman reaqsijada qomplementin tə'siri olmajьr və bunu isə ilk əvvəl N e j s s e r və V e q s b e r q tə'jin etmişlər; bu səbəbə görə də N e j s s e r-V e q s b e r q hadisəsi adlanьr. Qomplement birinçi nevbədə serumda bulunan artьq amboseptorlarla birləşib antigenin amboseptorlarla birləşməsini (antigen qomplementdən qabaq birləşməlidir) gözləmədiji ycyn bu hadisə əmələ gəlir.

ANTITOQSINLƏR.

Antigen syfətində bədənə ətyrylmyş hər bir toqsinə qarşь antitoqsin əmələ gəlir, bunu aşaqьdakь təçribələr sybut edə bilərlər: toqsinə həssas olan ejni vəzndə bir neçə orqanizmdə sepesifik antitellər əmələ gəlir ki, bunlara da **antitoqsinlər** dejirlər. Immunitet reaqsijasьnda toqsin kəlməsi hejvanlarda immunitet əmələ gətirmək şər-

tilə bir qrup zəhərli maddələrin barəsində işlədilir. Bədənə daxil olmuş tetanus baqterijasьnьn buraqdьqь toqsinə qarşь orqanizmdə mytləq bu toqsinə qarşь spesifik antitetani (əgər bu hal difterija toqsinilə olursa, bu zaman antidifterija toqsini və i. a.) əmələ gəlir.

Bədəndə bulunan hər bir spesifik antitoqsinlər ona qarşь spesifik toqsini nejtralizasija edəçəkdir.

Bu kibi nejtralizasijalarь həm xariçdə və həm də daxildə gərmək olar. Orqanizmi tələf edə biləçək toqsin miqdarьndan bir neçəsini myəjjən qədər antitoqsinlə qarьşdьrьb bədənə ətyrdyjymyz zaman hejvan tələf olmajьr. Antitel—antitoqsin əmələ gətirə bilməjən zəhərli maddələr toqsin olmadьqь kibi zəhərsiz maddələrə qarşь olan antitellər də antitoqsin ola bilməzlər. Hali-hazьrda xalis toqsinlərin miqdarь olduqça azdьr və bu qьsma isə ançaq baqterijalarьn jetişdirdikləri toqsinlər daxil ola bilir, məsələn difterija, botolizm tetan və sairə... Antitoqsin jarada bilməjən zəhərli baqterija antigenlərinə **endotoqsin** və ərimək qyvvəsinə malik olub antitoqsin əmələ gətirməklə, miqrob bədənindən xariçə buraqdьqь toqsinlərə e q z o t o q s i n l ə r dejirlər. Bə'ziləri eqzotoqsinlərin fəalijjətini olduqça jyksək dutub antitoqsinlərin jetişməsini və nejtralizasija edilməsini eqzotoqsindən gəryrlər. Başqa tədqiqatcьlar bu fikri təsdiq etməjib eqzotoqsinlə endotoqsinin arasьnda hec bir təfavyt olmadьqьnь səjləməklə, endotoqsinə qarşь antitoqsinlərin əmələ gəldijini səjləjirlər. Bədənə ətyrylən toqsinlər mytləq, əmələ gətirdikləri antitoqsinlərin vasitəsilə nejtralizasija edilirlər; jalьnьz başqalarь isə xysusən B u x n e r, daxil olan toqsinin antitel əmələ gətirməjib bədəndə başqa vasitələrlə tələf olduqunu səjləjir. Bunlarьn səjləməsindən bu nəticəjə gəlmək olar ki, hyçejrələrdə toqsini qəbul etmək həssaslьqь bir qədər zəifləşib lakin toqsinə qarşь olan tə'sirləri hyçejrələr qyvvətləndirirlər (toqsinlər bunlara tə'sir edə bilməjirlər). Yc qisim bir əlcydə, tərkibində antitoqsin bulunan serumlarь təçribə hejvanlarьna ətyrdykdə aşaqьdakь nətiçələri əldə edirik; antitoqsinlə zəngin serumlarь qəbul edən hejvanlar, toqsinin tə'sirindən tələf olmajьrlar.

Bu təçribə serumun qyvvəsini göstərməklə, serumda olan antitoqsinlərin miqdar çihətçə nə kibi əhəmijjəti olduqunu gostərir. Antitoqsinlə toqsinin birləşməsini daha başqa bir təçribə sybut edir: ilan zəhəri təklikdə zelatin filtrindən kecirsə də, bunlarьn ikisi—zəhərlə antitoqsinin bir jerdə birləşməsi—filtrdən kecməjir. Antitoqsin toqsinə nisbətən hərarətə və başqa myxtəlif şəraitlərə qarşь olduqça davamsьzdьr; bunlarьn birləşdiji məhlulu 65°—75° C hərarətdə qьzdьrdьqda hərarətin tə'sirinə qarşь zəif maddələr — antitoqsinlər tələf olduqdan sonra toqsin ibtidai qyvvəsini bərpa edir. Ьşьqьn tə'siri altьnda coq vaqt saqlanьlmьş serum, antitoqsinlik qyvvəsini itirir. Aantitoqsinlə toqsinin birləşməsi ycyn myəjjən qədər vaqt lazьmdьr. M a r t e n və S e r r i toqsinlə antitoqsinin nejtral məhlulunu təzjiq altьnda zelatin filtrindən kecirdikdə ançaq toqsin molequllarьnьn kecdijini gərmyşlər; nə qədər bu məhlul filtirdən qabaq coq saqlanьlьrsa, bir o qədər filtrdən kecən toqsin molequllarьnьn miqdarь az olur.

Antitoqsinlə toqsinlərin birləşməsi xysusunda qət'i mə'lumat joqdur; jalьnьz bunlarьn birləşməsinə az da olmuş olsa, jaqьndan janaşan nəzərijjələrdən biri Bordenin fiziki və kimjəvi nəzərijjəsidir. Bu nəzərijjənin Erlix nəzərijjəsini tənqid etdiji əsas nəqtələrindən biri Erlix nəzərijjəsinin antitoqsinlə toqsin arasьnda olan spesifikliji göstərməməsidir; xysusən sinir hyçejrəsilə tetani toqsininin arasьnda hec bir spesifiklijin olmajьb jalьnьz bunlarьn birləşməsinin adsorbsija xassəsilə davam etdijini səjləjir.

Bu iki nəzərijjədən hec biri tamamilə antitoqsinlə toqsinin birləşmə məsələsini həll etməjir və bu səbəbə görə hali-hazьrda hansьnьn daha doqru olduqunu qejd etmək mymkyn dejildir.

Bu birləşmədə (antitoqsinlə toqsinin və antitellə antigenin), həm spesifiklik prosesini tə'jin edən kimjəvi qohumluqun olmasьnь və həm də fiziki-kimjəvi faqtorlarьn iştirak etməsini qejd etməlijk.

Antitoqsinlər farfor (cini) filtrdən kecirildikləri zaman bir hissəsi filtrdə qalьr; kimjəvi və fiziki çihətlər bunlarь tez tələf edirlər. 60—70° hərarətdə saqlanьlmьş antitoqsinlər zədələnirlər (zəifləşirlər); qajnamaq isə bunlarь tamamən xarab edir. Antitoqsinlər də xasijjətçə zylal maddələrinə oqşajьrlar. Bancqov antitoqsin serumunu 57° hərarətdə 12 saat qьzdьrdьqdan sonra serumda bulunan qlabulinlərin bir hissəsi qьzdьrmaqdan ərimək xassəsini itirmişsə də, hərarətin tə'sirindən antitoqsinlərdə hec bir dəjişliklik olmamьşdьr.

BIOLOZI REAQSIJALAR.

Biolozi reaqsijalarьn hamьsь immunitet proseslərinə əsaslanmьşdьrlar; belə ki, bədənə ətyrylən hər bir antigenin sajəsində bədəndə lazьmi miqdarda antitellər jetişirlər. Bu kibi diaqnostik reaqsijalar, kimjəvi qarşьlьqlь tə'sirilə joq, bunlar bədənin öz həjat fəalijjəti nətiçəsində əmələ gətirdiji məhsullarla miqroblarьn (və ja antigenlərin) vasitəsilə olduqu ycyn bu reaqsijalar biolozi adlanьrlar.

Bu reaqsijalarьn vasitəsilə bir coq xəstəlikləri tə'jin etmək mymkyn olduqu ycyn, hər birinin yzərində ajrьça dajanaçajьq.

AQLUTINASIJA.

Xəstələnmiş hejvanьn və ja insanьn bədənində xəstəliji tərədən miqroblarьn əksinə antitellər əmələ gəlir ki, buna da Aqlutininlər dejirlər. Bu aqlutininlər özlərinə mynasib miqroblarla japьşmaq qyvvəsinə malik olduqlarьna görə aqlutinasija adьnь almьşdьr. Aqlutinlə miqroblarьn birləşməsini ilk dəfə lupa və sonra isə adi gözlə görmək mymkyn olmuşdur. Bunu göstərmək ycyn mixbərdə tərkibində aqlutinin olan seruma bir qədər miqrob emulsijasь ilavə etməli, bir necə vaqtdan sonra bu hemogen maddə durulub mixbərin dibinə çökəçəkdir. Serumun tərkibində olan aqlutinin miqroblara göstərdiji tə'sirə miqrosqop vasitəsilə baqmьş olarsaq, bu zaman

syr'ətli hərəkətə malik olan və majein icərisində myxtəlif jerlərə jajьlmьş baqterijalarьn fəalijjətini itirib bir nəqtəjə toplanmaqa başladьqlarьnь gərəçəjiz. Bu kibi jьqьntьlarьn arasьnda isə boş məsafələr əmələ gəlir.

Aqlutinasijanьn xariç gərynyşçə myxtəlif olmasь aqlutininlə antigenlərdən asьlь olur. Bə'zən aqlutininin antigenlə birləşdiji zaman maje'də inçə dənələr əmələ gətirir və Şiffrin göstərməsinə görə birləşmədə bu kibi inçə dənələri immunizasija devrində 80—100° hərarəti sevən antigenlər əmələ gətirirlər ki, bunlar da *stabilotroplar* adlanьrlar. Bunlar baqterijanьn endoplazmasьnda olub və bura isə həm turnalarь (hərəkət yzvləri) olan və həm də olmajan baqterijalar daxildirlər. Bu hərarətə (80—100°) qarşь az davamlь baqterijalar birləşdikləri zaman qaba dənəçikli aqlutinasija əmələ gətirirlər ki, bunu da Şiffr *labilotroplar* adlandьrmьşdьr və bu isə jalьnьz hərəkət ediçi miqroblarьn icərisində olur. Aqlutinasija, hərəkətli baqterijalar arasьnda, hərəkətsiz baqterijalara nisbətən tez olur.

Antigenin orqanizmə kecib aqlutinin jaratmasь 3—7 gynə qədər olur (sybut ycyn bir qədər qanьn gətyrylməsi kifajətdir). 1—2 həftənin zərfində aqlutinin miqdarь maqsimal dərəçəsinə jetişir; əgər jeni antigenin bədənə ətyrylməsi təkrar olunmazsa, bu zaman aqlutinin miqdarь get-gedə azalmaqla bir vaqtdan sonra bədəndə olan aqlutininlər joq olaçaqdьrlar; halbu ki, əgər antigenin bədənə daxil olmasь periodik olaraq təkrar olunursa, aqlutinin miqdarь əvvəlkinə nisbətən daha coqalьr. Bə'ziləri patogen baqterijalarьn aqlutinin əmələ gətirdiklərini səjləjirlərsə də, patogen olmajanlarьn da bu qyvvəjə malik olduqlarьnь qejd edirlər. Immunizasija və ja infeqsijada əmələ gəlməsinə baqmajaraq, tə'sirdən dyşmyş aqlutininlərin qyvvəsini, onlara mənsub baqterijalarla və hətta myxtəlif baqterija antigenlərlə belə qaldьrmaq mymkyndyr. Aqlutininləri qanda, serumda və az miqdarda olaraq qan olmajan orqanlarьn şirəsində tapmaq olar. Aqlutininlər nəsldən-nəslə kecməjirlər, plasenta vasitəsilə kecməsi daimi dejildir. Toetus az miqdarda daxil olmuş antigenin orqanizmdə aqlutinin əmələ gətdirdijini qejd edir; aqlutinin orqanizmdən az miqdarda sidik və coq miqdarda isə syd vasitəsilə ifraz olunur (qaramal icərisində olan abort infeqsijasьnda Qlimarer).

Başqa antitellərin bədəndə əhəmijjəti olduqu kibi aqlutininlər də orqanizmə bu kəməkliji göstərməkdən geri qalmajьrlar. Aqlutininləri istənilən vaqt orqanizmdən alьnan zərdablardan almaq mymkyn olmajьr; bə'zən xəstədə myəjjən dərəçədə immunitein olmasьna baqmajaraq bunlar—aqlutininlər ona mynasib baqterijalarla birləşməjirlər və bu kibi vəzijjəti başqa antitellərdə də gərmək olar.

Doqrudur, bədəndə bu prosesin olmasьnь görə bilməjiriksə də ançaq aqlutininin gərdyjy fəalijjəti inkar etmək olmaz. Faqositozun apardьqь prosesdə aqlutininlər lazьmi xidmətləri göstərirlər.

Mybarəzə zamanь, əgər faqositlər tək-tək miqroorqanizmlərlə mybarəzə aparьrlarsa, halbu ki, aqlutinin olduqu myhitdə bu my-

barəzə tək-tək bədənə daqılmış miqroorqanizmlərlə olmajıb bunların—miqrobların—jıqıntılarilə olaçaqdır.

Borde apardığı tədqiqat nəticəsində maraqlı bir əlamətin olduqunu göstərmişdir; belə ki, aqlutininlə baqterijanın birləşdiji myhitə xörək duzunu ilavə etmədikdə birləşmə olmamışdı; halbu ki, bu myhitə az miqdarda xörək duzu ilavə edilirsə, bu zaman bunlar—aqlutininlə aqlutinogenlər—birləşib cökyntyny əmələ gətirirlər; saf suda reaqsija əmələ gəlməjir.

Borde aqlutinasija reaqsijasının iki fazada olduqunu göstərir; biri aqlutininlə miqrobların birləşməsidir ki, bunu görmək mymkyn olmajır; ikinçisi isə aqlutinasijadır ki, nəticədə cökynty əmələ gəlir. Birinçi görynyş spesifik olması ilə barabar immunitet hadislərindən biridir, ikinçi fazada olan cökyntylyk fiziki və kimjəvi əlamətlərə əsaslanır; Bordenin söjləməsinə görə aqlutinasijanı vyçuda gətirən aqlutinin olmajıb ançaq eleqtrolitlərdir.

Reaqsijada xörək duzunun apardığı vəzifəni başqa duzlar da ifa edə bilərlər. Baqterijaların aqlutinasija hadisəsilə holloidlərin eleqtrolitlər vasitəsilə cökynty əmələ gətirməsinin arasında olduqça sıqı mynasəbat vardır; az miqdarda duzun iştirak etdiji bir myhitdə əgər baqterija aqlutininlə birləşirsə, az miqdarda eleqtrolitlər birləşmiş aqlutininlə baqterijanı cökdyryrlər; halbu ki, eleqtrolitlər təklikdə nə serumu və nə də baqterijanı aqlutininləşdirə bilməzlər.

Bu prinsip tək baqterijaların aqlutininləşməsinə aid olmajıb hətta başqa hyçejrələrin də aqlutinizasijası bu qajda yzrə olur. Borde, aqlutinin birləşmə myhitində əmələ gələn dəjişiklijin aqlutininindən asılı olub fiziki qanunlara tabe olduqunu qejd etməklə, qejri-yzvi holloidlər susbenziasına da eleqtrolit ilavə etdikdə cökynty əmələ gəlməsini göstərir.

Aqlutinogenin xassələri:—immunizasija və ja infeqsija zamanı aqlutinini əmələ gətirən maddələr—aqlutinogenlər mytləq hyçejrədən əmələ gəlməlidir. Infeqsija ilə bədənə ətyrylmyş hyçejrələr orqanizmdə başqalarının vasitəsilə tələf edilirlər və həmcinin, aqlutinin əmələ gətirmək məqsədilə bədənə ətyrylmyş hyçejrələrdə bu maddələrin faqositlər və başqaları vasitəsilə parcalandıqdan sonra aqlutinogen azad olur. Miqrob hyçejrəsində myxtəlif aqlutinogen (miqrobun bədənində və turnalarında) ola bilər.

Bir coq vasitələrlə hyçejrələrdən alınmış zylal maddəsi immunizasija zamanı nə inki antiteli hətta mynasib şəraitdə antigeni əmələ gətirən hyçejrə ilə aqlutininləşir. Bir qədər saqlanılmış baqterija qulturları özlərində sərbəst aqlutininlər saqlajırlar; jəqin ki, bunlar hyçejrənin tələf olmasından sonra əmələ gəlir və bu kibi aqlutininləri filtr vasitəsilə alıb aqlutinə qarışdırdıqda nəticədə nejtralizasija əmələ gəlir; bu hal aqlutinogenlərin filtrdən kecmək qabilijjətinə malik olduqlarını göstərməklə, aqlutininlə antigenin birləşməsi, hyçejrədən asılı olmajıb jalınız bunların əridilmiş hissəsinin iştirak etməsindən asılı olduqunu göstərir. Öldyrylmyş baq-

terijalar, saqlara nisbətən immun serumla asan aqlutininləşirlər; bu isə reaqsijanın çanlı hyçejrələrdən və onların iştirak etməsindən asılı olmamasını göstərir. 100° hərarətdə qızdırılmış qarın jatalaq baqterijası qızdırılmamış baqterijalar kibi aqlutininləşir. (L e n g e).

Ejni miqrob hyçejrəsində hərarət çihətinçə (hərarət sevənlər və sevməjənlər) myxtəlif aqlutinogenlər ola bilər. Aqlutininin jetişməsində baqterija hyçejrəsinin hansı hissəsinin daha aqtivlik göstərməsi xysusunda bir mə'lumat joqdur, jalnız baqterija zylalının başqa antigenlərin əmələ gəlməsində gördyjy fəalijjət jəqin ki, burada da olmalıdır. P i s l o s və Ş e l l e r kibi tədqiqatçılar baqterija hyçejrəsində iki qisim antigenin olduqunu göstərirlər; bunlardan biri **termostabillər** və ikinçisi isə **termolabillərdir.**

Bu səbəblərə görə bunlar iki çyr baqterija çisminin bir xassəjə malik olduqunu göstərməklə, bunun zylal maddəsi olmajıb jyksək hərarətə davamlılıqla (termostabillər) dərəçəsi 165° mysavi olur; ikinçisi isə—bytyn zylal reaqsijalarını göstərməklə 62° hərarətdə tələf olur. Bu məsələ mybahəsəli olduqu ycyn hansının daha doqru olması xysusunda indiki vaqtda hec bir mə'lumat vermək olmaz.

Aqlutininlərin xysusijjətləri: başqa antitellərdə olan xassələrin əksərijjəti aqlutininlərdə də vardır və bu qrup maddələrə daxildirlər. Aqlutinini zylaldan ajırmaq xysusunda japılan tədqiqat bir myvəffəqijjət qazanmamışlardır. Tərkibində aqlutinin olan serumdan lipoidi əridən maddələrin şirəsini aldıqda aqlutinin fəalijjətdən dyşyr. Ş t a r q tripsin kibi maddənin aqlutininlərə göstərdiji tə'siri qejd edir. Ajrılmış qələvi məhlulların göstərdikləri tə'sir, qyvvətli turşunun göstərdiji tə'sirdən artıq olur və bunlar da hərarətə qarşı olan sabitlik olduqca myxtəlifdir. Aqlutininləşdiriçi serumların əksərijjəti 60—65° hərarətdə fəalijjətlələrini itirirlər.

Qızdırılan qomplementi tələf olan serum, baqteriosit xassəsini itirirsə də, jalnız baqterijalarla birləşmə qabilijjətini itirməjir; bu təçribə isə aqlutinasija reaqsijasının qomplementə ehtijaçı olmadıqını sybut edir. Spesifiklik başqa-başqa immun reaqsijalarında möhkəmdirsə də, aqlutininlər arasında bunun nə vəzijjətdə olmasını söjləmək olmaz: bu məsələ reaqsijada bir o qədər ajdın dejildir; buna əsas səbəb aparılan reaqsijaların ajrılmamış zylallarla olmasıdır. Bu reaqsijalarda bytyn hyçejrələr iştirak etdikləri ycyn ajrı-ajrı antigenlərin vasitəsilə tədqiqat aparmaq mymkyn dejildir.

Bə'zən bir baqterijanı o birindən ajırmaq aqlutininləşdiriçi serumun köməjilə olur; jəqin ki, bu kibi çihətlər aqlutininlərin bytynlyklə spesifik olduqlarını sybut etməjir; cynky coq zaman və xysusən paratif baqterijaları arasında bə'zən immun serumlarında kənar aqlutininlər olur ki, bunlar baqterijaların bir-birindən ajrılmasına mane olur.

Immunizasija və ja infeqsija vasitəsilə aqlutinini jetişdirən aqlutinogenlər mytləq bir-birlərilə birləşirlərsə, bunlara **baş aqlutininlər,** əgər bu kibi aqlutininlər buna mynasib baqterijalarla birləşərsə, kənar və ja **paraaqlutininlər** dejiləçəkdir.

REAQSIJADAKЬ PROSESLƏR.

Aqlutininlə aqlutinogenin birləşməsi ycyn myəjjən (optimal) hərarətin olmasь lazьmdьr (bu hərarətdə coq zaman 37—38° mysavi olur). Myxtəlif laboratorijalarda aqlutinasijanьn japьlmasь ysullarь myxtəlif qajdalarda istifadə olunur. Bu birləşmə ycyn reaqsijada iştirak edən qomponentlərin bir miqdarda olmasь coq da tələb edilməjir; əksinə olaraq antitoqsinlə toqsinin birləşməsi bu reaqsijaja oqşamajьr.

Aqlutinasijada iştirak edən baqterijalarьn miqdarь aqlutininlərə nisbətən bir necə jyz dəfə coq olmalьdьr. Reaqsijadakь birləşmə bir o qədər məhkəm dejildir; cəkynty əmələ gəlməsi ycyn nejtral duzlarьn olmasь lazьmdьr. Baqterijalar aqlutininlərin tə'siri altьnda toplanmaqdan ilavə, hətta turşuda bu jьqьntьnь əmələ gətirə bilərlər; cəkynty isə spesifik dejildir. Reaqsijada bə'zən duzlara coq həssas olan bir coq baqterijalarьn fizioloзi məhlulu tə'siri altьnda toplandьqьnь gərmək mymkyndyr; bu kibi həssaslьq onlarьn çinsindən asьlьdьr. Əmələ gəlmiş aqlutinasijanь silkələmək vasitəsilə qarьşdьrьb bu əlaməti daqьtmaq olar; aqlutininin tamam da olmasa, coq hissəsi ajrьlьr və mixbərləri bir qədər saqladьqdan sonra aqlutinasija jenidən əmələ gəlir. Eleqtrolitlərin mixbərdən cьqarьlmasь aqlutinasijanьn əmələ gəlməsinə səbəb olur (baqterijalarь təmizlənmiş su ilə jumaq vasitəsilə). Çanlь orqanizm ycyn aqlutinasijanьn bir qədər əhəmijjəti joqdur. Mixbərdə alьnan reaqsijanь bədəndə almaq mymkyn dejildir və elə də bədəndə aqlutinasija bir o qədər əmələ gəlməjir. Aqlutininin əmələ gəlməsi infeqsijaja qarşь bir reaqsijadьr. Təçribəvi və elmi tərəfdən aqlutinasija olduqça qijmətlidir; belə ki, bunun vasitəsilə myəjjən diaqnozlarь tə'jin etmək mymkyndyr. Myxtəlif çyr baqterijalarь (qarьn jatalaq baqterijasьnь, Asija vəba vibrionunu və qejrilərini) bir-birindən ajьrmaq jalьnьz biologi reaqsijalarьnьn və xysusən aqlutinasijanьn vasitəsilə olur. Aqlutinasija qliniki və diaqnoz sifətində insanlarda qarьn jatalaqь (Qruber-Vidalin reaqsijasь) səpgili jatalaqьnь (Vejl Feliqsin reaqsijasь) tə'jin edən zaman tətbiq edilir, qaramallar və atlarda isə abort infeqsijasьnь mytləq bu reaqsijanьn vasitəsilə tə'jin edirlər. Reaqsijanьn əmələ gəlməsi ycyn yc qomponentin olmasь lazьmdьr:

1. **Myajənə edilən serum,** bunu xəstənin orqanizmindən az miqdarda qan aldьqdan sonra (aseptiqanь nəzərdə dutmaq şərtilə) donmuş qanь reaqsijanьn japьlmasь ycyn xysusi laboratorijalara göndərirlər, laboratorijalar isə xəstəliji tə'jin etmək ycyn qandan alьnmьş serumu tətbiq edirlər (əgər orqanizm xəstə isə zərdabьn tərkibində aqlutininlər olmalьdьr; xəstə olmasa, göstərilən aqlutininlər zərdabda olmajaçaqdьr).

2. **Baqterija emulsijasьnь** (antigenləri) biofobrilər hazьrlajьr və emulsija əldə etmək ycyn mytləq təzə qulturlardan istifadə edilir. Reaqsija qojulmadan bir gyn əvvəl xəstəlijin baqterijasь əkilməlidir; reaqsija qojulan gyny qulturlar fizioloзi məhlul ilə jujul-

duqdan sonra myəjjən dərəçədə dutqun (bulanıq) maje almaq ycyn qulturlarъ fiziologi məhlul ilə qarъşdъrъlъr.

3. **Fiziologi məhlul,** juqarъda qejd etdijimiz kibi nejtral duzlarъn iştirakъ olmadan reaqsijanъn japъlmasъ mymkyn dejildir (fiziologi məhlulun hazъrlanmasъ ycyn 991,5 distile edilmiş suja 8,5 qram xörək duzu ilavə edilir).

Reaqsijanъn japъlmasъ ycyn mixbərlərdə myajənə ediləçək serumdan fiziologi məhlulla myxtəlif dərəçədə, qatъşъqlar qajъrmalъ (1 : 50, 100, 200, 300, 400, 500, 800, 1000, 2000, 4000 və i. a.) və bir mixbəri serumsuz (qontrol) saqlamaq lazъmdъr. Hər bir mixbərə lazъm olan qədər myrəkkəb qulturanъn emulsijasъndan ilavə edib ilk əvvəl 3 saat 37° hərarətdə, sonra isə 18 saat adi otaq hərarətində saqlamaq lazъmdъr. Bə'zi laboratorija isə 24 saat 27° saqlajъrlar. Bu ysul myxtəlif laboratorijalar tərəfindən myxtəlif qajdalarda istifadə olunur. Reaqsijanъn ikinçi gyny əldə edilən nətiçəjə qijmət verirlər.

Reaqsijada alъnan şəffaflъqъn dərəçəsi və mixbərlərin dibindəki jъqъntъnъn ajdъn gərynməsi xəstəlijin olduqunu təsdiq edir.

Reaqsijanъn daha doqru qojulmasъ ycyn qontrol mixbərlərin olmasъ mytləq lazъmdъr.

Adi aqlutininlər. Orqanizm immunizasija və ja xəstələnib nətiçədə əmələ gətirdiji immun aqlutininlərindən, xəstəlik və immunizasijanъn olub-olmamasъna baqmajaraq orqanizmdə immun antigenlərindən başqa bir qisim aqlutinilər vardъr ki, bunlara **adi aqlutininlər** dejilir. Başqa antitellərdə də bu halъ görmək olar.

Bunlarъn miqdarъ hejvanlarda olduqça myxtəlifdir. Qoça hejvanlara nisbətən bunun miqdarъ çavanlarda daha coqdur.

Jəqin ki, adi aqlutininlər də immun aqlutininləri kibi mydafəə xassəsini daşъjъr.

Bunlar da immun aqlutininləri kibi hərarətə və habelə myxtəlif kimjəvi maddələrə qarşъ bir o qədər davamlъ dejildirlər.

PRISIPITASIJA.

Aqlutinasija reaqsijasъnda səjlədijimiz xassələrin coqunu prisipitasija reaqsijasъnda da görmək olar; bu iki reaqsijanъn arasъndakъ təfavyt bir necədir. Birinçisi, prisipitasijada iştirak edən zylal maddəsi əridilmiş olduqu ycyn bu reaqsijada holloid antigenləri bir jerə toplanmajъb jalъnъz cökynty halqa əmələ gətirirlər. Aqlutinasijada isə reaqsijada iştirak edən miqroblar bir jerə toplanъb cökynty jaradъrlar. Prisipitasija reaqsijasъ olduqça spesifikdir. Prisipitinlər infeqsijada çanlъ miqroblar tərəfindən jetirildikləri ycyn bunlarъn bədəni myhafəzə etmələrini inkar etmək olmaz. Prisipitinin birləşməsi antitoqsinin birləşməsinə oqşajъr; doqrudur, antitoqsinlə prisipitin arasъnda olan ejnijjət tam dejilsə də, ançaq bunlar bir-birlərinə olduqça jaqъndan oqşajъrlar. Prisipitinlə antitoqsinin göstərdikləri tə'sirin təfavyty bir dejildir; çanlъ orqanizmdə prisipitin öz prisipitonogenilə birləşməjir; bunlar bir-birlərinə sərbəst olaraq

olduqça jaqın olurlar. Bunların birləşməsi jalınız *in vitro* olur. Bu səbəblərə görə bə'ziləri bunların prisipitinlərin—orqanizmi myhafəzə etməsini inkar edirlər. Prisipitinli serumu 50°—60° qızdırdıqda serum fəalijjətdən dyşməklə barabar buradakı prisipitinlər **prisipitinoidlərə** kecirlər.

Prisipitinlərin çanlı orqanizmdə jetişməsi antitoqsinin və başqa myxtəlif antitellərin əmələ gəlməsinə bənzəjir. Antitelləri kecərkən qejd etmişdik ki, miqrob və onun toqsini antigen ola bilər; halbu ki, həzm aparatı vasitəsilə dejil, başqa vasitələrlə bədənə ətyrylmyş jabancı zylal maddələri ançaq antigen ola bilərlər.

Zylallar həzm aparatı vasitəsilə ətyryldykdə, ilk əvvəl həzm aparatında myxtəlif tə'sirlərin nətiçəsində bunların çinsi xysusijjəti dəjişib qana kecdikdən sonra prisipitin jaratmaq qabilijjətini itirirlər, mystəsna olaraq bə'zi zylal maddələr, hansı jolla bədənə daxil olmalarına baqmajaraq prisipitonogenlik xassəsini itirməjir.

Əgər bir necə zylal maddəsi juqarıda səjlənilən qajda ilə joq, həzm aparatı ilə ətyrylyrsə, qana kecdikdən sonra orada prisipitin jaradır, bu isə həzm aparatının vəzijjətindən asılı olur; ola bilsin ki, daxil olmuş zylal maddəsinə, həzm aparatında lazımi tə'sirlər göstərilmədijinə görə zylal maddəsinin tərkibi dəjişilməjib prisipitinogen xassəsini özyndə saqlajır və bədəndə isə prisipitin sifətində tə'sir buraqmaqla bu maddənin ikinçi miqdarını qəbul etdikdə anafilaqsija jaradılır. Infeqsija ilə bədənə ətyrylmyş zylal 5—6 gyn kecdikdən sonra prisipitini qanda jaradır və infeqsijanı təkrar etdikdə bir myddət qanda olmajıb az vaqtdan sonra jenidən qanda tapılır, infeqsija olmadıqda prisipitin tamamən joq olur. Adi prisipitinlər məməli hejvanlarda tapılmamışdır; jalnız bir qisim sadə hejvanlarda bunun olmasını qejd edirlər.

Prisipitinləri jaradanlara **prisipitinogenlər** dejirlər. Kimjəvi tərkibi tamamilə mə'lum dejildir. Bə'ziləri zylal və lipoid maddələrindən əmələ gəldiklərini qejd edirlər. Bitgi və hejvani zylal maddələrinin holloid qaraqterini itirib antigen xassəsinə malik olmadıqları tə'jin edilmişdir.

Prisipitinlərdə hərarətə qarşı olan sabitlik olduqça myxtəlifdir. Lipoid prisipitinogenləri coq myddət qajnadıldıqda antigen xassəsini itirməjir. Zylal maddəsindən əmələ gələn antigenlər lipoidlərə nisbətən, hərarətə qarşı olduqça davamlıdırlar.

Baqterija antigenləri, qajnamaq hərarət dərəçəsindən dejil, hətta bundan jyksək hərarətdə belə öz antigenlik qabilijjətini itirməjirlər.

A s q o l u n bir necə joluquçu xəstəlikləri tə'jin etmək xysusunda göstərdiji ysul juqarıdakına əsaslanmışdır (termoprisipitasija). Myajənəjə alınan orqanlar myəjjən vaqt maje icərisində qajnadılır və bundan sonra prisipitinogen hazırlanır. Başqa çyr zylallar (serum, jumurta) hərarət tə'sirindən antigenlik xassəsini itirirlər.

Bir qrup kimjəvi tərkibçə myxtəlif maddələr də prisipitinlik xassəsini dəjişə bilərlər.

təsdiq edirdi. Başqalarъ həzm aparatъ vasitəsilə xəstəlijin əmələ gəlməsini inkar edirlər və bu jolla xəstəlijin əmələ gəlməsini me'də şirəsi və bağırsaqda bulunan saprofit baqterijalarda görürlər, cyn-ky me'də şirəsi və saprofit baqterijalar daima qarajara basilini tələf edir və bununla da qarajaranъn basili xəstəliji əmələ gətirə bilməjir.

Robert Qox bunun əksini söjləjir, jə'ni həzm aparatъna ətyrylmyş qarajara tərədiçisi həzm aparatъnda coqaldъqdan sonra bağırsağъn selik pərdəsindən qana kecib orqanizmin hər bir jerinə jajъldъqъnъ təsdiq edir. Son təçribələrlə qarajaranъn tənəffys vasitəsilə də əmələ gəldijini təsdiq edirlər, belə ki, ağъza daxil olmuş spor və ja basil ağъzdan ağçijərə kecir. Qarajara, dişləjən milcəklərin (qan soran) vasitəsilə də bir hejvandan o biri hejvana kecirilə bilər.

Donuzlarda da qarajara, miqrobla cirklənmiş jemi, xəstəlikdən tələf olmuş hejvanlarъn orqanlarъnъ və symyklərini jedikdən sonra əmələ gəlir. Ət jejən hejvanlar çəmdəkləri jedikdə qarajaraja tutulurlar. Qarajara basilinin əmələ gətirdiji endotoqsində jəqin ki, infeqsijanъn syr'ətlə getməsində, daha doğrusu basilin xəstə orqanizmlə qyvvətli mybarəzə aparmasъnda əsas rol ojnajъr; lakin endotoqsinin infeqsijada gördyjy fəalijjət dərindən öjrənilmədiji ycyn bu xysusda artъq mə'lumat vermək mymkyn dejildir.[1]

Xəstəlik bilavasitə xəstə hejvandan saqlam hejvana verilməjir.

Xəstəlijin nə vəzijjətdə davam etməsi orqanizmin ozyndən asъlъdъr; ymumijjətlə xəstəlik devrində orqanizm nə qədər qyvvətli isə bir o qədər xəstəlik tərədən miqroba qalib gələçəkdir. Orqanizmin zəifləşməsi və ja infeqsija əmələ gəlmədən qabaq qyvvəsiz olmasъ infeqsija prosesinin qyvvətli getməsini və orqanizmin məqlub olmasъnъ göstərir.

Qarajara tərədiçini bir qisim miqroblar kibi giriş qapъsъnda coq vaqt qalmajъb orqanizmə jajъlъr. Basili orqanizmə ətyrdykdən sonra az vaqtъn zərfində basil orqanizmin bir coq jerində və daxili orqanlarda da tapmaq olar. Qarajara basili syr'ətlə inkişaf etmək qyvvəsinə malikdir. Xəstənin tələf olmasъna 15—18 saat qalmъş basilləri ətraf damarlarъnda tapmaq mymkyndyr.

XƏSTƏLIGIN ƏLAMƏTLƏRI.

Xəstəlik jyngyl formada davam etdikdə xəstə jemdən qalmajъr; lakin ağъr formasъnda bə'zən təçribə hejvanlarъ 16—24 saatъn və ja 2—3 gynyn myddətində tələf olurlar; ağъr formada hejvan jemdən qalъr.

Başqa zamanlarda xəstəlik sakit formada davam edirsə də, lakin gözlənilməjən bir vaqtda xəstənin vəzijjəti jenidən xarablaşъb

[1] *B. anthracis*-in eqzotoqsin əmələ gətirməsi hələ hec kim tərəfindən isbat edilməmişdir.

tələf ola bilər. Təçribə heyvanlarında qulturanı ötyrdyjymyz jerdə sarıja bənzər acıq qırmızı rəngdə infiltrasija əmələ gəlir və bu maje coq zamanlar həmin jerdə qalmajıb qonşu toqumalara jajılır.

Xəstəlijin qliniki əlamətləri, orqanizmdə əmələ gələn dəjişikliklər və inqubasija devri myxtəlif çins heyvanlarda myxtəlif olur.

Syn'i joluqmada inqubasija devri 1—12 gynə və bə'zən daha coq olur; belə ki, mal-qarada, atlarda inqubasija devri 2—7 gynə kibi uzanır. Ymumijjətlə inqubasija devrinin coq və ja az olması qulturanın ötrylydyjy jerdən, infeqsijanın nə dərəçədə davam etməsindən asılıdır, burada orqanizmə ötyrylən qulturanın da miqdarı inqubasija devrinin necə vaqt icərisində əmələ gəlməsində əsas jeri dutmalıdır.

Qarajara bir necə şəkildə davam edir.

Coq şiddətli, şiddətli və orta şiddətli. Coq şiddətli formada xəstə coq az myddətin zərfində, jə'ni 2—8 saatdan sonra tələf olur; xəstəlijin bu formasında qarajara əlamətlərinin bir coqu gözə carpmajır.

Qalan iki formada xəstəlijin əlamətləri təzahyr edir. Qanlı sidik, ishal, boqazın altında, bojunda odematoz şişlər əmələ gəlir. adi nətiçə ölymdyr.

Xəstəlijə dutulub saqalan heyvanların faizi olduqça azdır. Orqanizmdə əsas dəjişikliji udlaqın ətrafında görmək olar; bu jerdə infiltrasija maje'in miqdarı coq olur. Orqanizmin qejri hissələrində də bu majeə təsadyf etmək mymkyndyr; daxili orqanlardan dalaq həçm çihətçə irilənir; rəng—adi normadan dəjişilib qara-qırmızı rəngə cevrilir.



Şəkil 39. Dalaq preparatlarında *B. anthracis*-in görylməsi.

Dalaqda *B. anthracisi*-i hər zaman tapmaq mymkyndyr (şəkil 40). Qaraçijər və böjrək kibi orqanlarda da qanın miqdarı adi normadan coqalır. Böjrəkdə xəstəlik tərədiçini görmək olur (şəkil 39). Həzm aparatının, xysusən onikibarmaq və inçə baqırsaqın selik qatı bir barabarda şişib bə'zən baqırsaqın coq hissəsini byryjyr və qanda da basilin miqdarı coq olur.

Diaqnoz. Qarajaranın diaqnozunu tə'jin etdikdə mytləq Q o x u n diaqnoz xysusunda söjlədiji yc şərtindən istifadə edimәlidir. Xəstə saq ikən diaqnoz tə'jin etmək bir coq cətinliklər tərədir. Heyvan saq olduqu zaman xəstənin orqanizmində qan alıb myajənə etdikdə qanda xəstəlijin basili tapılırsa, bu xəstəlijin qarajara olduqunu göstərmək olar; lakin juqarıda qejd etdijimiz kibi qarajara basilinin xəstənin qanında, jalnız heyvan tələf olmadan 16—18 saat qabaq tapılmasa diaqnozu bir qədər cətinləşdirir, ona görə də bu

ysul, diaqnozu tə'jin edilməsində əlverişli olmajaçaqdır. Göstərilən hal, jə'ni basilin qanda gərylməsi əksərijjətlə orqanizmin tələf olmasını göstərən əlamətlərdən biridir; bə'zən qanda basil tapılırsa da, orqanizmin qarajaradan azad olmasına ehtimal vardır.

Baqteriolozi diaqnoz aşaqıda göstərilən şərtlərdən ibarət olmalıdır: 1) endirilən materialda qara jara basilinin tapılması, jə'ni materialın miqrosqopla tədqiqi;

2) diaqnoz məqsədilə göndərilən materialdan təmiz qultura alınması, 3) biolozi reaqsija, jə'ni materialla təçribə hejvanlarının joluqdurulması və 4) serolozi reaqsijalar.

M i q r o s q o p i k t ə d q i q a t mymkyn qədər tez içra edilməlidir; cynky çəmdək nə qədər təzə olursa, bir o qədər diaqnoz (bu məsələ jalnız miqrosqopa aiddir) dyz tə'jin edilir. Çəmdək coq qaldıqda orqanizmdə olan saprofit baqterijalar qarajara basilinin tapılmasına mane olurlar. Bə'zi miqroblar qarajara basilinə coq bənzəjirlər. Təzə çəmdəkdən istifadə etmədikdə qanda və ja orqanlarda basili tapmaq olmajır, cynky bunlar tələf olurlar, l i z i s ə oqrajırlar. Diaqnoz məqsədilə çəmdəkdən istifadə etdikdə ilin fəslini nəzərə almaq lazımdır; basillərin jaşaması ycyn jaj fəsli əlverişli olmadıqı ycyn onlar tez tələf olurlar, daha doqrusu spor halına kecirlər.

Şəkil 40. Qarajara tərədiçisinin bəjrəkdə tapılması.

Xəstə hejvan tələf olduqdan sonra basilin inkişaf etməsi ycyn şərait əlverişli olarsa, basil qanda coqalır. Bu hal jaj fəslində daha coq olur. Göstərilən şərait əksinə olursa, şiddətli surətdə sporlanma əmələ gəlir.

Miqrosqop altında baqılaçaq materialın əldə edilməsi ycyn çəmdəjin jarılmasına ehtijaç joqdur, xysusən xəstəlijin qarajara olduqu şybhəli olduqda çəmdəjin jarılmasına içazə verilməməlidir. Bə'zən bu kibi səhvlərin buraqılması nəticəsi olaraq, çəmdək jarılır və jarıldıqı jer lazımi dezinfeqsija aparılmajırsa, həmin jerlərdə şiddətli sporlanma əmələ gəlir və coq zaman jaşajan sporlar xəstəliji tədriçlə bu jerdən digər jerlərə də jaja bilər, bundan başqa o jerlərdə qarajaraja myntəzəm surətdə təsadyf edilir.

Miqrosqopijaja bir coq şərtlər də ilavə edilməlidir. Basili bojajıb jalnız onun tapılması ilə kifajətlənilirsə, burada coq səhvlər buraqıla bilər. Buna görə alınan materialda miqrobu Qramm və Himza ysulları ilə bojamaqla barabar onun hərəkətinə və qapsulun alınmasına fikir vermək lazımdır. Material təzə olursa, basilə dair bytyn əlamətləri görmək mymkyn olur; lakin materialın coq qa-

lьb cyryməsindən basilin xariçi əlamətləri dəjişdiji ycyn diaqnoz ysulunu bir qədər cətinləşdirir.

Miqrosqopla baqьlan preparatьn hazьrlandьqь materialdan **təmiz qultura** almaq ycyn materialьn cirklənməjən jerindən myxtəlif qьda myhitlərinə əkmək lazьmdьr. Təmiz qulturanьn alьnmasьnda əsas aqar-aqar qьda myhiti iştirak edir və təmiz qultura isə adi qajda yzrə alьnmalьdьr, ikinçi gyn qьda myhiti yzərində jetişmiş qolonijalardan hansьnьn qarajara qulturasь qolonijasь olduqunu (xysusi əlamətlərə gərə bu işdə qolonija həm miqrosqop və həm də adi gəzlə tədqiq edilməlidir) bildikdən sonra, diaqnozun qət'i olaraq tə'jin edilməsi ycyn alьnmьş təmiz qultura qarajara xəstəlijinə həssas olan hejvanlardan birinə ətyrylməlidir.

Materialьn nə miqdarda (pejvəndi) **ətyrylməsi** təçribə hejvanьnьn tələf olduqu vaqtla əlaqədardьr. Adi qajda yzrə bu miqdar myxtəlif çins təçribə hejvanlarь icərisində myxtəlif olmalьdьr. Ymumijjətlə bu miqdar 0,1—0,5 kibi olur. Təçribə hejvanь tələf olduqdan sonra onu jarьb ətyrylmyş təmiz qulturanь jenidən hejvanьn myxtəlif orqanlarьndan və qanьndan almaq lazьmdьr. Axьrьnçь şərti bitirdikdən sonra, diaqnozu şybhəsiz tə'jin etmək olar. Başqa hallarda əgər xəstəlijə dair əlamətlər və ja jeni materialdan (qandan) hazьrlanmьş preparatda basilin əzy, onun qapsulu və zənçirə bənzər formasь gərylyrsə, bə'zən diaqnoz bununla kifajətlənməlidir; o zaman Qoxun yc şərtini təkrar etməjə ehtijaç joqdur; göndərilən material köhnə və ja cirklənmiş olursa, juqarьda qejd olunmuş əməlijjatь təkrar etmək lazьmdьr.



Şəkil 41. Presipitasija reaqsijasьnьn aparьlmasь.

Bə'zi hallarda qarajaranьn diaqnozunda juqarьdakь şərtlərdə kifajətlənmək olmajьr; **serologi reaqsijalarьn da** qojulmasь lazьm gəlir. Qarajaranьn diaqnozunda serologi reaqsijalardan presipitasija geniş surətdə istifadə edilmədədir. Bu reaqsijanьn qojulmasь ycyn jarьlmьş (və ja jarьlmamьş) hejvanьn qulaqь, daxili orqanlarь və ja bir parca dərisi kifajətdir. Bu şərtin (presipitasijanьn) jaqşь tərəflərindən biri orasьndadьr ki, materialьn köhnə və təzə olmasь diaqnozun qojulmasьna hec bir mane'cilik göstərməjir.

Presipitasijanьn texniki tərəfdən japьlmasь aşaqьdakь qajda yzrə olmalьdьr: mynasib bir qaba 10,0 miqdarьnda fiziologi məhlulu ilavə edib icərisinə göndərilən materialdan 2,0 ətyrmək lazьmdьr. Materialьn maje'lə qarьşmasь ycyn onu 10—20 dəqiqə alav yzərində qajnatmalьdьr, sonra filtrdən (xьrdalanmьş asbestdən) kecirib əldə edilən məhluldan antigen sifətində istifadə etməlidir. Bə'ziləri materialla fiziologi məhlulun qarьşmasьnь, qabь 5—30 də-

qiqə qajnar suda saqlanılması ilə kifajətlənirlər. Xysusi və ja adi mixbərlərə az miqdarda (1,0) presipitinləşdiriçi serum tökyb yzərinə damçı ilə mixbərin qıraqına (şəkil 4) dəjməmək şərtilə buraqılan presipitogen ilavə edirlər. Göndərilən materialda xəstəlik varsa, o zaman presipitinogenlə presipitinləşdiriçi serumun birləşdiji jerdə 10 dəqiqənin zərfində həlqə (qat) əmələ gəlməlidir; əgər reaqsija bu vaqtın icərisində qurtarırsa, o zaman spesifik olaçaqdır, cynky bu vaqtdan juqarı bə'zən xəstə olmajan materialda da həlqə alınır. Nəticənin doğru olmasını bilmək ycyn reaqsijaja qontrol mixbərlər qojmaq lazımdır. Bu vaqt: 1) xəstə hejvanın eqstraqtilə presipitinləşdiriçi serum mysbət olmalıdır, jə'ni həlqə alınmalıdır; 2) xəstə hejvanın eqstraqtilə normal serumun reaqsijası mənfi olmalıdır; 3) normal orqanın eqstraqtı presipitinləşdiriçi serumla mənfi nəticə verməlidir.

Termopresipitasijadan başqa sojuq presipitasija da qojurlar, jə'ni materialı qajnatmajıb bir gynə qədər maje icərisində adi otaq hərarətində saqlajırlar.

Reaqsijada istifadə edilən presipitinləşdiriçi serum kejfijjətçə jaqşı olmalıdır, cynky bunun nə vəzijjətdə olması, alınan nəticə ilə əlaqədardır. **Asqol,** presipitinləşdiriçi serumu, zəif qultura ilə hiperimmunizasija edilmiş at və eşşəkdən almışdır və o bunun başqaları tərəfindən istifadə edilməsini məsləhət göryr.

Bezzubets qyvvətli presipitinləşdiriçi serumun hazırlanması barəsində aşaqıdakı momentləri qejd edir, «qyvvətli presipitinləşdiriçi serumun alınması, jalınız coq miqdarda basil qulturası ilə Cinqovski və Lanqenin birinçi vaqsinin qan damarına ötyrylməsilə ola bilər. Çavan qulturanın bə'zən hejvana ötyrylməsi də alınan presipitin serumunun qyvvəsini artırır; lakin qulturanı ötyrmədən qabaq onu xırda hejvanların orqanizmindən kecirmək lazımdır. Coq miqdarda qultura ilə çavan hejvanların (eşşək və qatır) qan damarı vasitəsilə immunizasija edilməsi, orqanizmdə baqteriolozi prosesi qyvvətləndirir və bununla da orqanizmdə presipitinin miqdarı coqalır».

Diaqnoz məqsədilə bajtarlıq laboratorijalarına göndərilən materialların özləri və onların göndərilməsi xysusunda da qejd etmək jersiz dejildir, cynky işlə ətraflı tanış olmajan şəxsin göndərdiji material diaqnoz ycyn əlverişli olmajır və ja göstərilən qajda ilə göndərilmədijindən materialın cirklənməsi kibi səbəblər diaqnoz ysulunu daha da çətinləşdirir, halbu ki, bu kibi joluquçu xəstəliklərin diaqnozu mymkyn olduqça tez tə'jin edilməlidir.

Diaqnoz tə'jin etmək məqsədilə göndərilən material xəstəlikdən tələf olmuş hejvanın qulaqı ola bilər; mymkyn qədər bu qulaqın bajtarlıq laboratorijasına cirklənməmiş halda göndərilməsinə və materialın xəstəliji başqa jerlərə jajmamasına diqqət etmək lazımdır; buna görə ilk əvvəl qulaqı özyndən maje buraqmajan (jaqlı) kaqızlara və ja parcaja byrymək lazımdır və materialın qejri miqroblardan azad edilməsi ycyn, material bykylən parcanı dezinfeqsija ediçi maje'lə ıslatmalıdır. Sonra jenə başqa

bir kaqьza sərijib dəmir və ja taxta qutuja jerləşdirdikdən sonra lazьmi jerinə göndərirlər. Əgər çəmdək jarьlmьş isə, onun daxili orqanьndan bir parcanь, mymkyn qədər steril vəzijjətdə, xysusi şişə qablarda göndərmək mymkyndyr. Bu kibi momentlərdə göndərilmiş daxili orqanlardan (miqrosqopla baqmaq ycyn) preparatlar da hazьrlamaq olar.

Qarajara xəstəlijinin myaləçəsi ikinçi nevbədə olmalьdьr, cynky juqarьda göstərilən ysullar vaqtlь-vaqtьnda jerinə jetirilirsə, bu zaman xəstəlik təsərryfatlarda olduqça az myşahədə olunur. Təbii xəstəlik jem vasitəsilə əmələ gəldiji ycyn mytləq xəstəlik devrində (və ondan qabaq da) su mənbə'lərinin, jemlərin, hejvanlarьn əlaqələri olan çisimlərin və onunla barabar təjlələrin (topraqlarьn) cirklənməməsinə diqqət etməlidir. Əgər göstərilən hallar təsərryfatda gərynyrsə, xəstəlijin bir daha əmələ gəlməsi ycyn cirklənmiş çisimləri və jemləri təsərryfatdan uzaqlaşdьrmaq lazьmdьr.

Qarajara ilə qejri vasitələrlə də mybarəzə aparmaq mymkyndyr.

Bu mybarəzə ysullarьnьn bə'ziləri myaləçə bə'ziləri isə saqlam hejvanlarь qorumaq məqsədilə aparьrlar. Saqlam və xəstə hejvanlarda immunitet jaratmaq və ja myaləçə məqsədilə hejvanlara qarajaradan qorumaq ycyn myxtəlif ysullardan istifadə etmək mymkyndyr.

Bu kibi ysullardan istifadə etmədən əvvəl xəstənin vəzijjətini nəzərə almaq lazьmdьr. Orqanizmdə qarajaraja qarşь immunitet jaratmaq ycyn zəifləşdirilmiş **qarajara basilini, onun sporunu immunitetləşdiriçi serumu və hətta immunitləşdiriçi serumla çanlь basili və sporunu belə etyrmək mymkyndyr.**

Ilk əvvəl qorujuçu pejvənd ysuli L u i P a s t e r tərəfindən ətraflь öjrənilmişdir. Paster japdьqь təçribəni T u s s e n i n etdiji təçribəjə əsaslandьrmьşdьr. T u s s e n 1880-çi ildə qarajara xəstəlijindən tələf olmuş hejvanьn qanьnь 55° hərarətdə 10 dəqiqə qьzdьrьb virusda zəifləşdijini myşahədə etmişdi. 1881-çi ildə L u i P a s t e r buljon qьda myhitində əkdiji qulturanьn 42—43° hərarətdə ilk əvvəl syr'ətlə inkişaf edib tədriclə virulentlijin zəifləşdijini tə'jin etmişdir.

Belə zəifləşmiş qultura jenidən otaq və ja orqanizm hərarətinə kecirilirsə, virulentliji qajьtmajьb həmin zəiflikdə qalьr.

Bu qisim qarajara basilləri xəstə və ja saqlam qojun və ja qaramal kibi hejvanlara etyrylyrsə, qulturanь qəbul edən orqanizmlərdə qarajaraja qarşь immunitet əmələ gəlir.

L u i P a s t e r japdьqь təçribələrin nətiçəsində iki çyr vaqsin əmələ gətirmişdir; göstərilən vaqsinlərin əmələ gəlməsində əsas jeri hərarət dutur. Qultura hərarətdə nə qədər coq saqlanьlьrsa, bir o qədər coq zəifləşir; buna əsaslanaraq, Paster birinçi qulturanь 42—43° hərarətdə 22—24 gyn saqlajьb I vaqsin adьnь vermişdir, ikinçi qulturanь ejni həraarətdə 10—12 gyn saqladьqdan sonra II vaqsin namilə adlandьrmьşdьr.

Pasterin ikinçi vaqsini birinçijə nisbətən qyvvətlidir. I vaqsinin qyvvəsini myajənə etmək ycyn bir coq təçribə hejvanlarьndan istifadə edirlər. Birinçi vaqsini qəbul etmiş sьcanlar tələf olurlarsa da, adadavşanь və Hind donuzunu birinçi vaqsin öldyrə bilməjir (Robert Qox); lakin birinçi vaqsinin bə'zi hallarda çavan Hind donuzlarьnь da öldyrməsi inkar edilməməlidir.

II vaqsin 10—12 gynyn myddətində 42,5° hərarətdə saqlanьldьqdan sonra sьcanь, Hind donuzunu və bə'zən adadavşanlarьnь da tələf edir. Paster ilk əvvəl japdьqь təçribələr sajəsində bəjyk myvəffəqijjətlər əldə etmişdir; belə ki, juqarьda göstərilən təçribələr ilk əvvəl təçribə hejvanlarь yzərində aparьlьrsa, sonralar bu təçribələr ev hejvanlarь yzərinə kecirilmiş və vaqsinlərin fajdasьnь Pasterin özy və onun jaqьn tələbələri dəfələrlə myxtəlif təsərryfatlarda sybut etmişlər.

Lui Pasterin qorujuçu pejvənd ysulu, ilk dəfə ən zəif (birinçi vaqsin) qulturanь dəri altьna ötyryb və 10—12 gyndən sonra da qyvvətli (ikinçi vaqsini) qulturanьn ötyrylməsindən ibarətdir. Birinçi vaqsinin köməklijilə orqanizm 10—12 gyndən sonra özyny ikinçi vaqsinə hazьrlajьb nətiçədə qyvvətli (aqtiv) immunitet əldə edir. Birinçi vaqsinin orqanizmə bir o qədər tə'siri olmajьr; lakin birinçi vaqsini qəbul etməjib ikinçi vaqsini qəbul etmənin bə'zən orqanizm ycyn coq qorqusu ola bilər. Ikinçi vaqsindən sonra orqanizmdə bir ilə jaqьn immunitet jaradьlьr. **Azarь** immunizasija edilmiş qojunlarьn 8 ajdan sonra syn'i formada qarajaraja dutulmamalarьnь qejd edir.

Ikinçi pejvənd ysulu. Tsinqovski tərəfindən aparьlmьşdьr. Tsinqovskinin hazьrladьqь vaqsin spordan ibarətdir. Bunun hazьrladьqь vaqsinlər Pasterdə olduqu kibi iki çyr vaqsindən ibarətdir.

Tsinqovski qulturanь 42,5° hərarətdə 12 gyn saqlajьb əldə etdiji vaqsinin zəifləşməsi nətiçəsində həmin vaqsinin sьcanь öldyryb adadavşanь və qojunu öldyrmədiji ycyn Tsinqovski buna I vaqsin adьnь vermişdir.

Ikinçi qultura ejni hərarətdə 6—7 gyn saqlanьldьqdan sonra sьcanlarьn hamьsьnь, adadavşanlarьnьn 30—50% və qojunun 10—20%-ni tələf etdiji ycyn II vaqsin adь ilə adlandьrьlmьşdьr. Hali-hazьrda Tsinqovskinin vaqsinlərilə myxtəlif ev hejvanlarьnь qarajaradan qorumaq olur və verdiji nətiçə də kafi dərəçədədir. Gyndəlik təçribələrdə edilən pejvəndlər, Tsinqovskinin vaqsinindən tələf olan hejvanlarьn fajizçə az olduqunu və vaqsini qəbul edən hejvanlarda immunitetin jarandьqьnь sybut edir.

Ycynçy pejvənd ysuli, xysusi biofabriqalar tərəfindən, qarajara xəstəlijinə qarşь hazьrlanan antiserumlarьn jardьmь ilə aparьlьr. Ilk dəfə qulturanь orqanizmə az miqdarda vurub qabaqça ötyrylən dozalarьn köməjilə orqanizmdə əmələ gələn immunitetin sajəsində get-gedə ötyrylən qulturanьn miqdarьnь artьraraq nətiçədə dozanьn miqdarьnь maqsimal dərəçəjə catdьrьrlar.

Orqanizmə ətyryləçək qulturanın miqdarı coqaldıqca əmələ gələn immunitet daha da qyvvətlənir.

Bu çyr hiperimmunizasija edilib qyvvətli immunitetə malik olan hejvanlardan alınmış qan zərdabı immun serumu sifətində işlədilir.

Bu qyvvəjə malik olan immun serumlarının xırda təçribə hejvanları qəbul etdikdə immun serumu göstərilən hejvanları təbii və syn'i qarajaradan mydafəə edir.

Immun serumunun əhəmijjəti olduqca böjykdyr. Qarajaranın təsərryfata jajılmamasında və xəstəlijin təsərryfata dyşdyjy zaman serumun göstərdiji jardımı inkar etməməlijik; ona görə də immun serumundan bu məqsədlə istifadə edirlər. Orqanizmə ətyrylmyş immun serumu öz tə'sirini bir neçə saatdan sonra göstərir; əmələ gələn immunitet də passiv olur. Immun serumu orqanizmi qarajaradan qorumaqla barabar myaləçə məqsədilə də işlədilə bilər.

Immunizasija jenə bir ysulda aparılır ki, burada antiserum iştirak etməklə barabar basilin özy də iştirak edir və əldə edilən immunitet də başqalarına nisbətən qyvvətli olur. Bu ysul, ilk dəfə S o b e r n h a j m tərəfindən aparıldıqı ycyn onun adı ilə adlanır. Bu ysulun bir coq jaqşı tərəfləri vardır; belə ki, təsərryfata xəstəliijn jajılması təhlykə törədirsə, bu zaman həmin ysulu tətbiq etmək olar; cynky hejvan bir tərəfdən qyvvətli antiserum qəbul edib passiv immunitet jaratdıqdan sonra, ikinçi dəfə ejni orqanizmə ətyrylmyş çanlı miqrob, əmələ gələn immunitetin qyvvəsini artırır və immunitetin vaqtını da uzadır. SSRI-da aqresin adlanan maddədən hazırlanması ilə Qolpiqov və onun köməkciləri olan Borisov və Qorizontov məşqul olmuşlar. Göstərilən şəxslər tərəfindən aqressinin alınması xysusunda jeni ysullar tərtib edilmişdir. Aqressini xırda hejvanlardan da almaq mymkyndyr; lakin onun coq miqdarda tələb edilməsi aqressinin iri hejvanlardan hazırlanmasını tələb edir; buna görə bu məqsədlə haman şəxslər atlardan istifadə edirlər. Şiddətli virulentlijə malik olan qarajaranın qulturası fiziologi məhlulla qarışdırılıb emulsija halına gətirildikdən sonra aseptiqa şəraitində atın döş boşluquna coqlu miqdarda ətyrylyr. Bir neçə vaqtdan sonra at plevrit prosesi inkişaf etməklə qarajaradan ölyr. At tələf olduqdan az vaqt sonra xysusi alətlər ilə steril qaba plevral majei jıqırlar. Göstərilən qajda yzrə bu kibi qablara 8—10 litr plevral maje jıqıb maje'də olan basilləri tələf etmək ycyn onun yzərinə formalin ilavə edib aqressini əldə edirlər. Bu qajda yzrə antiaqressin serumunu alıb ev hejvanlarını qarajaradan qorumaq mymkyndyr. Hazırlanan maddə davşanlar və təçribə sifətində işlədilən atların yzərində jaqşı nəticə vermişdir və immunitet jaqşı alınmışdır, lakin kytləvi surətdə isə bu ysulun aparılmasına hələ içazə verilməmişdir.

QARAJARA XƏSTƏLIJININ MYBARƏZƏSINDƏ APARILAN BAJTARLIQ—SANITAR TƏDBIRLƏRI.

Juqarıda göstərdijimiz myalәçə və profilaqtiqa məqsədilə işlədilən preparatların vasitəsilə qarajaranın olym faizini azaldırıq; lakin bu preparatların jaratdıqları immunitetin qyvvəsi 15 gyn 9 aja qədər ola bildiji ycyn bu hal immunizasijanın tez-tez aparılmasına səbəb olur və bir də onların qijmətçə bə'zən baha oturmasy təsərryfat ycyn əlverişli olmajır. Əsas mybarəzə xəstəlijin birinçi mənbəi ilə olmalıdır; bu da qarajarada tələf olmuş hejvanların çəmdəjidir; buna görə hejvanların çəmdəkləri vaqtlı-vaqtında təmizlənməlidir. Bu ysulun aparılmasy ycyn sosialist maldarlıq təsərryfatı coq mynasibdir.

Çəmdəklərin vaqtlı-vatqında təmizlənməməsi qarajaranın ildən-ilə davam edə biləçək infeqsijanın oçaqlını əmələ gətirir. Mymkyn qədər çəmdəklərin utilzavodlarda istifadə edilməsinə, adi qajda yzrə jandırılmasına və jaxud dərin basdırılmasına diqqət jetirmək lazımdır.

Çəmdəklərin basdırılmasy qarajara oçaqlarının azalmasına kəməklik göstərməjir. Çəmdəji basdırmadan qabaq dərinin yzərini jandırmaq və qujuja kirəç səpmək, jaxud qarbol və kykyrt turşusu tökmək lazımdır. Hejvanların məhsulu yzərində calışan idarələr bajtarlıq qontrolu altına alınıb hər zaman oraja verilən materiallar baqterioloji ysul ilə joqlanılmalıdır.

Xəstəlik olan jerlər sijahijə alınıb oraja qabaqçadan qarajara xəstəlijinə qarşı pejvənd edilməmiş hejvanlar buraqılmamalıdır. Qarajara baş verən zaman hejvanları mynasib qruplara bolyb xəstə və şybhəli qruplara qorumaq və myalәçə məqsədilə serum vurmalıdır; saqlamlarda isə immunizasijanı vaqsin və serovaqsin ilə aparmalıdır. Qarajara xəstəlijilə mybarəzə tədbirləri və pejvənd ysulları ilə ətraflı tanış olmaq ycyn SSRI TX Qomissarlıqının qarajara xysusunda buraqdıqı tə'limatı ilə tanış olmaq lazımdır.

Insanda qarajara. Qarajara xəstəlijinə dutulan hejvanları sojlərkən insanların da qarajara xəstəlijinə dutula bildiklərini qejd etmişdik.

Giriş qapısından asılı olmaq şərtilə insanlarda da qarajara yc qliniki formada davam edir ki, bunlar **dəri, çijər** və **baqırsaq** formalarıdır. Insanlar icərisində qarajaraja dutulanların əksərijjəti hejvanlara xidmət edən (cobanlar) jardım göstərən (doqtorlar, feldşerlər və sanitarlar) mytəxəssislər və hejvanların məhsulilə məşqul olan şəxslərdir (qəssəblər, mal sojanlar, sallaqxanada və gön zavodunda calışanlar). Insanlar icərisində olan yc formalardan dəri formasına daha coq təsadyf etmək olar. Xəstəlik tərədiçisi orqanizmə kecdikdən sonra, dəri formasında ilk əvvəl əmələ gələçək

jaranьn jerində 2—3 gyndən sonra birə dişləjinə bənzər ləkə əmələ gəlib tədriclə bu ləkə həçmini iriləşdirərək, əmələ gələn şişin icərisində sarь, boz-qьrmьzь rəngində maje jьqьntьsь əmələ gəlir. Bə'zən qarajara jarasь əmələ gəlmədən əvvəl jerli şiş əmələ gəiib sonralar isə bu jer qarajara jarasьna cevrilir.

Aqçijər formasь coq az təsadyf edir; lakin bu forma olduqça aqьr formada davam etdiji ycyn xəstəlijə dutulan insanьn ymumi vəzijjəti pisləşdijindən xəstə aqçijər iltihabьndan 2—4 gynyn myddətində tələf olur.

Baqьrsaq formasь, bu iki formaja nisbətən daha az təsadyf olunur. Təbii xəstəlik insanlarda, qarajara xəstəlijinə dutulmuş hejvanlarьn ətini cij və ja jarьm bişmiş halda qəbul etdikləri zaman myşahədə olunur.

Xəstəlik prosesi aqçijər formasь kibi syr'ətlə davam etməjib jalьnьz bir necə vaqtdan sonra baqьrsaqьn infeqsijaja dutulduqu bəlli olur.

Bu forma bə'zən dəri formasьna da kecib dəri yzərində də qarajara jaralarьnь əmələ gətirir. Baqьrsaq formasь, aqçijər formasьna nisbətən bir o qədər qorqulu dejildir. Insanlarda az dərəçədə də olmuş olsa, xəstəlik miqrobuna qarşь immunitet olduqu ycyn, qarajaraja dutulan insanlarьn əksərijjəti xəstəlikdən saqalьrlar. Xəstə və saqlam mallar icərisində istifadə edilən qorujuçu və myaləçə ediçi antiserumlar, insanlara da qarajara zamanь lazьmi jardьm gəstərə bilər. Axьr vaqtlarda aparьlan təçribələrə gərə qarajara xəstəlijində neosalvarsan xəstəlik miqroblarьna lazьmi tə'sir gəstərir.

JAMAN ŞIŞ.

(Oedema malignium).

Jaman şiş xəstəlijinin tərədiçisini təbiətin bir coq jerində, xysusən jerin yst qatьnda təsadyf edilir. Bunun myxtəlif jerlərdə uzun myddət qalьb hərdəm bir hejvanlarda sporadik fromada xəstəlik jaratmasьnьn əsas səbəbi miqrobun jaratdьqь spordur; bu sporlarьn mynasib şəraitdə bir necə illər jaşamasь mymkyndyr; Ev hejvanlarьndan xəstəlik ən coq atlarda, qaramallarda, inəklərdə və insanda da gərylyr. It və qojunlarda xəstəlijin jaradьlmasьna mynasib şərait jaradan momentlərdən birisi hajvanlarьn doqmasьdьr. Bə'zi hejvanlar xəstəlijə hejvanlarь axta etdikdən sonra dutulur. Hejvanlarьn yzərində aparьlan myrəkkəb operasijada işlədilən alətlərin lazьmi dərəçədə (Aseptiqa) təmiz olmamasь infeqsijanьn orqanizmə ətyrylməsində əsas səbəblərdən biridir. Japьlan təddiqatlar haman şiş miqrobunun topraqda, pejində cyryjən maddələrdə və hejvanьn baqьrsaqьnda olduqlarьnь subut etmişlər.

Miqrobu xəstə və tələf olmuş hejvanlarda xəstəlik devrində əmələ gələn şişlərin majeində və giriş qapьsьnda tapmaq mym-

kyndyr. Jaman şiş xəstəliji öz tərədiçisini topraqdan alan xəstəliklər sırasına daxildir. Jaman şiş xəstəliji xəstə bir hejvandan saqlam hejvana kecir; miqrobun giriş qapısında 15—24 saatdan sonra ilk dəfə gərilmiş isti, ağrılı və sonralar sojujub boşalmış jumşaq və həssaslıqlını itirən şişlər əmələ gəlir. Bə'zən həssaslıq, şişin orta hissəsində o qədər itir ki, hətta belə bir şişi jararkən orqanizm hec bir ağrı hiss etməjir. Miqrob obliqat, anaerob olduqu ycyn mymkyn qədər orqanizmin oqsigen olmadıqlı jerlərinə kecir. Bu səbəbə görə miqroblarl daxili orqanlarda tapmaq mymkyn dejildir. Bunlarl əksərijjətlə əzələnin dərin hissəsində tapmaq mymkyndyr. Lakin orqanizm tələf olduqdan sonra miqroblar bədənin bir coq hissəsinə jajılırlar. Xysusən infiltrasija maje'lərində bunların miqdarı daha coqalır. Jaman şiş xəstəliji özynə məxsus miqrobdan başqa ona jaqın olan anaerob miqroblar tərəfindən də əmələ gələ bilər.

Morfologijasl. Jaman şiş miqrobu 1877-çi ildə Paster tərəfindən ilk dəfə anaerob şəraitində inəjin qanında tapılmışdır. Kəşf edilən anaerob miqrobu (təçribə hejvanlarında jyksək dərəçədə patogen olduqu ycyn) Lui Paster vibrion-septique adlandırmışdır. Bu illərdə bir coq tədqiqatcılar tərəfindən tapılan miqrobu bu qisim xəstəlikləri jaratmasl sybut edilirdi. Robert Qox bu miqrobun yzərində işlərkən onu təsadyfən topraqdan tapdıqlı ycyn b. oedematis maligni adını vermişdir. B. oedematis maligninin əsas formasl basil spor buraqlıb qapsula buraqmajan, uçlarl girdə, uzunluqu 2-dən 4 miqrona və eni 0,7-dən 1 miqrona kibidir. Miqrosqop altında birər (şəkil 44) diplo-strepto basil formasında olur.

Mystəqil hərəkətə malik dejildir. Basilin qida myhitlərində jetişməsi anaerob şəraitində olmalıdır. Bunun jetişməsi anaerob şəraitini tələb etdiji ycyn bə'zən xəstəlik zamanı əmələ gələn şiş maje'lərindən preparatlar hazırladıqda miqrosqop altında basil ilə barabar sporun da olmasl mymkyndyr (Iensen).

Sporun basil yzərində jerləşməsi ja onun uçunda, jaxud orta hissəsində olur. Qulturanı syn'i qida myhitlərində əkərkən, jaxud hejvan tələf olduqdan sonra materiallardan hazırlanan preparatlarda miqrob inkişaf etdikdə tək-tək hissələrə ajrılmajıb bytyn bir sap təşkil etdijini göryryk. Halbu ki, preparata diqqət ilə baqdıqda sapların tək-tək miqroblardan ibarət olduqunu göryryk. Oedematis maligni, basilin bytyn anilin bojalarl ilə bojanır. Lakin Qramm ysulilə, ja mənfi, jaxud mysbət bojanır.

Qida myhitlərində jetişdirilməsi jalnız anaerob şəraitində olmalıdır. Bununla barabar basillər hazırlanan secmə qida myhitlərində daha syr'ətlə inkişaf edir. Inkişafa lazım olan optimal hərarət 37—38°-dir. Lakin jetişməsi 16—18°-də də mymkyndyr.

Tərkibində yzym şəkəri olan zelatin qida myhitində jetişərkən qida myhitini javaş-javaş duruldur və qida myhitini calqalajarkən

qulturanın rəngi dutqunlaşır. Göstərilən halı tərkibində yzym qəndi bulunan aqar qida myhitində də göryryk.

Bir hissə suja iki hissə bejin ilavə edilmiş qida myhitində də inkişaf syr'ətlə davam edir. Həm qaraçijər və həm də bejin ilavə edilmiş qida myhitlərində basil jetişərkən jaşadıqı myhitdə pis qoqulu qazlar buraqır.

Xəstəlijin səbəbini syd qida myhitini qısa myddətə—(20—30 saat) zərifində laxtaladır. Lakin sonra laxtalanmış hissələr jenidən durulmaqla qida myhitinə buraqılan pis qoqulu qazların sajəsində qida myhiti pis qoqu verir.

Şəkil 42. *B. Oedematis maligni.*

Patogenliji. Oedematis maligni basilinə jyksək dərəçədə həssas olan xırda təçribə hejvanlarından birisi Hind donuzudur; dəri altına ətyrylmyş qultura az miqdarda göstərilən hejvanı 18-dən 48 saata kibi tələf edir. Hind donuzundan başqa sıcanlar, adadavşanları da xəstəlik miqrobuna həssasdırlar. Adadavşanına dərialtı vasitəsilə ətyrylmyş qultura orqanizmdə ymumi infeqsijanı jaratmajıb ançaq dərini cyrydyr (qanqrena). Insanların bu xəstəlijə dutulmasi coq az təsadyf olunur. Elə də qaramalda syn'i surətdə jaman şişi jaratmaq cətinlik tərədir.

Xəstəlijin diaqnozu bir neçə ysullar ilə tə'jin olunur. Xəstəlik zamanı jetişən maje'dən hazırlanan preparatlarda oedematis maligni görmək mymkyndyr. Miqrobu görmək ycyn preparat hazırlanan materialı mynasib qida myhitlərinə əkib, anaerob şəraitdə jetişdirmək və alınan təmiz qulturanı həssas təçribə hejvanlarına ətyrmək lazımdır. Xəstəlikdən tələf olmuş hejvanların şiş jerindən bir qədər majeini Hind donuzuna, jaxud sıcana ətyrdykdən sonra material göstərilən hejvanları 24—48 saat myddətində tələf edir. Tələf olmuş hejvanlardan anaerob şəraitində təmiz qulturanın alınmasi mymkyndyr.

Bu xəstəlijin myaləçəsi jalnız giriş qapısının tapıb crada jaradılan şişləri jarmaqla icərisində olan majein cıqarılmasından ibarətdir. Bundan ilavə anaerob miqroblarına şiddətli tə'sir edən dezinfeqsija maje'lərilə şişin jerini və ətrafını jumaq, xysusən 1—2%-li oqsigenli su və qalium hipermanqanid burada lazımi kömökliji göstərir.

PICCƏ (EMFIVEMATOZ) QARBUNQULU.

(Səsləniçi qarbunqul).

(Cangrenae amphysematosa).

Qaramal arasında olan piccə qarbunqulu infeqsion xəstəlik olub enzotik formasında rytubətli jerlərdə coq myşahədə olunur. Xəs-

təlik bir hejvandan digərinə kecməjir. Bunun tərədiçisi mynasib giriş qapьsьndan orqanizmə kecdikdən sonra, az myddət icərisində myəjjən jerlərdə səslənən (qrepitasija edən) şişlər əmələ gətirilir. Bu xəstəlijə dutulmuş hejvanlarda temperaturun jyksəlməsi və iştihanьn kəsilməməsi kibi hallara təsadyf edilir. Xəstəlijin hansь miqrob tərəfindən jaradьlmasь haqqьnda əvvəllər bir coq mybahəsələr var idi.

Foto, Valle kibi tədqiqatcьlarda xəstəlik tərədiçinin qida myhitlərində jetişdirilməsi, onun biolozisi və ona qarşь aparьlan biolozi profilaqtiki mybarəzələr kibi əsas məsələlər yzərində calьşmьşlardьr. Bu xəstəlijin verdiji təlafat faizi olduqça myxtəlifdir. Çavan hejvanlar icərisində bu faiz qoçalara nisbətən daha da jyksəkdir. Tələfatьn myxtəlif əlkələrdə faizçə jyksək olmasь aparьlan profilaqtiqanьn kejfijjətindən asьlьdьr. Isti ajlarda da bu xəstəlijin artmasьnь səjləmək, jəqin ki, qьş mevsimində bunun əmələ gəlməsini inkar etmək dejildir. Bə'zi şəxslərin gəstərməsinə gərə, qejd etdijimiz vəzijjət bə'zən əksinə olur. Jə'ni otlaq həjatьnda piccə qarbunqulu az, təjlə həjatьnda isə daha coq myşahədə olunur.

Morfologijasь. Piccə qarbunqulunun tərədiçisi xysusunda əvvəlləri myxtəlif nəzərijjələr var idi. Bə'ziləri xəstəlijin bir çins, digərləri isə myxtəlif çins anaerob miqroblarь tərəfindən jaradьldьqьnь qejd edirdilər. Hali-hazьrda piccə xəstəlijinin *b. sarcophysematos boviv,* jaxud *b. chauvoei* tərəfindən jaradьlьr. Cubuqa oqşar uçlarь girdə, spor jaradan, hərəkətə malik basil olub uzunluqu 3—7 miqrona qədər, eni 0,5-dən 0,7 miqrona qədərdir. Sporlanma prosesində bə'zən miqrob əsas formasьnь dəjişib ig, limon formalarьna cevrilir. Bu vəzijjəti qəbul etmiş basillərin orta hissələrində, jaxud uç tərəflərində girdə sporlara təsadyf edilir. Miqrosqop altьnda gərylməsi tək-tək, çyt və ycy bir jerdə ola bilər. Bu əsas əlamətlərə gərə bunu jaman şiş tərədiçisindən ajьrmaq mymkyndyr. Jaman şiş tərədiçisi qultura və orqanizmdə zənçir formasьnda gərylyr. Piccə qarbunqulu tərədiçisi isə 3—4 basildən artьq olmamaq şərtilə zənçir formasьnь təşkil edir.

Basil obliqat anaerob olduqu ycyn jetişdiji qida myhtində oqsigen olmamalьdьr. Həm quru və həm də bərk qida myhitində jetişir. Jetişməsi ycyn əsas şərtlərdən birisi temperaturun 36—38° və qida myhitinin *Ph* 7,4—6 olmalьdьr. Qaraçijər buljonundan jetişirkən qida myhitində əmələ gələn qazьn sajəsində qultura bulanьr. Lakin qazьn buraqьlmasь kəsildiji zaman bytyn qulturada bulunan miqroblar mixbərin dibinə jьqьlьb cəkynty əmələ gətirirlər. Qultura bir necə gyn qaldьqdan sonra sporlanmasь daha da syr'ətlənir.

Bejin qida myhitində (Gibler) jetişərkən turşu jaratdьqь ycyn qida myhitinin rəngi qaralmajьb zəif qьrmьzь rəngə cevrilir. Patolozi hadisələrə oqramajan tələf olmuş hejvanlarьn təzə bejinlərini pərdədən ajьrьb ətdəjən maşьndan kecirməli; əldə edilən hissəjə barabar miqdarda fiziolozi məhlul qatmalь və narьn ələkdən kecirərək 2 saat Qox aparatьnda bişirməlidir. Əldə edilən qatь

maje ikinçi gyn 7—10 qram miqdarında mixbərlərə jerləşdirib avtoqlavda 2 saat myddətində 100 dərəçəlik temperaturda sterilizasija etməlidir.

Qanlı buljon (Kitt) myhitində jetişərkən tədriclə hemoliz jaradır. Qida myhitinin hazırlanması buljon ilə qanın sajəsində olur. Icərisində 6—8 qram miqdarında buljon bulunan mixbərə 2—3,0 qram steril qajda ilə jıqılan qojun, qaramal və adadavşanının qanını ilavə edib qida myhitinin sterillijini bilməkdən ötry 37° hərarətdə bir neca gyn saqlajırlar.

Şəkər və qanlı aqar Sejsler tərəfindən hazırlanmışdır. Hər 100,0 buljona 2,5 qram aqar və 2 qram yzym şəkəri ilavə etməli, steril etdikdən sonra 60—70 qram miqdarında şəkərli aqar-aqar olan qablara steril surətdə jıqılmış at, qojun, qaramal qanını (aqarı 45—50 dərəçəjə kibi sojutduqdan sonra) ilavə edib petri finçanlarına tökməlidir. Bunun sterillijini bilməkdən ötry qabları 3 gynə jaqın termostatda saqlajırlar. Tərkibində şəkər və qan olan myhitdə piccə basili, qıraqları acıq, göj bənəfşə rənglərində jastı qolonijalar verməklə, tədriclə qırmızı qan çisimçiklərini əridir. Juqarıda gostərilən qida myhitlərində piccə basili jetişib qida myhitlərində qolonija və əlamətlərin əmələ gəlməsi qidanın tərkibindən, jaş-quruluqundan, aqarın qalın-naziklijindən, reaqsijadan; qulturanın sıqlıqından və oqsgenin nə dərəçədə olması kibi momentlərdən asılıdır.

Spor və basilin xariçi şəraitə olan davamlılıqına gəldikdə sporun bir coq illər topraqda virulentlijini saqlajıb xəstəlik jaratmaq qyvvəsini itirməməsini qejd etməlidir. Tərkibində spor bulunan qurudulmuş maddəni 110° hərarətdə 6 saatdan sonra tələf etmək mymkyndyr. Onun virusu 80° hərarətdə 2 saatdan və 100° hərarətdə 20 dəqiqədən sonra qırılır. Gynəşin dyz şya'ları sporu 24 saat myddətində tələf edir.

Piccə basilini adi otaq hərarətində 10 il saqladıqdan sonra virulentlijini itirməjir. Cyryjən materiallarda 6 aja və duzlanmış ətdə isə iki ilə jaqın qalır. Me'də şirəsi spora hec bir tə'sir buraqmajır. Dezinfeqsija vasitələrindən 2%-li qarbol, 0,1%-li salisil, 0,1%-li azot turşusu, 1 : 5000 sylymən virusun qyvvəsini zəifləşdirir. Arası kəsilmədən (4 gyn) tə'sir edilərsə spor tamamilə tələf edilir.

Patogenliji. Bunun patogenliji myxtəlif çins hejvanlara myxtəlif dərəçədədir. Tərkibində coq miqdarda spor olan materialı dəri vasitəsilə qaramala ötyrdykdə xəstəlijə dair əlamətlərin alınması ilə barabar hejvan əksərijjətlə tələf olur. Basilin daxil olduqu jer basilin göstərdiji tə'sir ilə əlaqədardır. Əgər miqroba şərait mynasib olmazsa, o zaman xəstəlik əmələ gəlməjəçəkdir. Bə'zən xəstəlik tərədiçinin daxil olduqu jerlərdə hec bir şiş əmələ gəlməjir. Əgər xəstəlik zədələnmiş dəri vasitəsilə əmələ gəlirsə, bu jalınız sporadik formada ola bilər. Lakin xəstəlijin və epizootija formalarında jaranması ycyn başqa jollar olmalıdır. Bu səbəblərə əsaslanaraq, göstərmək olar ki, hali-hazırda xəstəlijin hansı jol ilə,

jə'ni hansı giriş qapılarının iştirak etmələri barədə ymumi fikir joqdur.

Təbii xəstəlijə qaramallardan başqa qojunlar da dutula bilər. Lakin syn'i surətdə qojunda xəstəliji az miqdarda qultura ilə də almaq mymkyndyr. Fişerin səjləməsinə görə qojunun özynə maxsus şammı vardır. Bir dırnaqlı hejvanların xəstəlijə dutulması xysusunda aparılan təçribələrdə ilk dəfələr mənfi nətiçə əldə edirdi. Atların xəstəlijə dutulmasını sybut edirlərdisə də, lakin hal-hazırda aparılan tədqiqatlar qabaqkı nətiçəjə gəlirlər. Demək olar ki, atlar xəstəlijə dutulmajırlar. Dəvənin və donuzun xəstəlijə dutulması haqqında olan materiallar əsaslı olmadıqları ycyn bu iki çins hejvanların xəstəlijə həssas olduqlarını gəstərmək olmaz. It, pişiklər xəstəlijə həssas dejillər. Insanların xəstəlijə dutulması xysusda hec bir gəstəriş joqdur.

Xəstəlikdən tələf olan hejvana nəzər jetirilirsə, ilk dəfə çəmdəjin kəpməsi gəzə carpaçaqdır. Bu kəpmək qarın boşluqunda qazın jıqılması nətiçəsində əmələ gəlir. Hejvanın dərisi sojularkən sarı-qırmızıja bənzər majein jıqıldıqı görynyr; dəş boşluqunda bir litr miqdarına qədər maje toplanır. Aqçijərdə qanın miqdarı normadan artır. Dalaq əksərijjətlə dəjişməjir; lakin bir qədər irileşir, rəngi dəjişilib icərisinə qaz jıqılır. Ranne, dalaqın 75% xəstəlikdə dəjişilməsini səjləjir.

Diaqnoz—xəstəlik coq təsadyf edilən jerlərdə və basilin apardıqı proseslər sajəsində əmələ gələn əlamətlərə əsasən bunun diaqnozu bir o qədər cətinlik tərətməjir. Bə'zən ona jaqın olan anaerob miqrobların apardıqı proses də piccə qarbanquluna bənzədiji ycyn piccə qarbunqulunu *septicus* vibrionu tərəfindən jaradılan xəstəlik ilə qarışıq salmaq olar. Xəstəlikdə əmələ gələn proseslər qarajara əlamətlərinə bənzəjirsə də, lakin bunu qarajaradan ajırmaq bir o qədər cətin dejildir. Şişin həssas olması qrepitasijanın olmaması qarajaranın olmasını gəstərir.

Diaqnoz məqsədilə tədqiq ediləçək material əzələ olursa, daha jaqşıdır; cynky əzələdə basilin jaşaması ycyn şərait daha əlverişli olduqu ycyn sporlanma əzələdə daha syr'ətlə davam edir. Ikinçi tərəfdən əzələdə material coq myddət qalır. Tədqiqatın jenidən təkrar edilməsi ycyn haman əzələ jenə də istifadə edilə bilər. Vegner 12 ildən sonra qurudulmuş materialdan aldıqı qultura ilə hejvanı tələf etmişdir. Gəstərilən materialın cirklənməməsi ycyn onun 30%-li qliserində saqlanılması lazımdır. Təmiz qulturanın alınmasında qarbunqullar və orqanizmin dərin hissəsində başqa miqroblar ilə cirklənməjən maje'lərdən istifadə edilməlidir. Material mynasib qida myhitlərinə ətyrylyb qida myhitində anaerob şərait jaratdıqdan sonra materialda əgər başqa miqrob varsa, tələf edilməsi ycyn qulturanı bir saata kibi 70—80° hərarətdə qızdırmaqla orada olan qejri miqrobları tələf edib termostata jerləşdirmək lazımdır. Göndərilən material cirkləndiji vaqt bə'zən qulturanın təmizlənməsi lazım gəlir.

Materialın təçribə heyvanlarına ötyrylyb tə'yin ediləçək diaqnozun daha da jəqin edilməsi ycyn Hind donuzu istifadə edilə bilər. Hind donuzunun tələf edilməsi ycyn göndərilən qurudulmuş materialdan bir qədər steril buljonda əzib əldə edilən məhlulu dəri altına ötyrmək lazımdır; orqanizmə ötyrylən material virulentlik çihətinçə zəif olarsa, məhlula 1—2 damçı 20%-li duz turşusu ilavə etmək, jaxud duz turşusunu heyvanın bud tərəfinə ijnə ilə ötyrmək daha məsləhətdir. Bu hallarda Hind donuzu bir, iki gynyn myddətində tələf olur. Qontrol institutunun göstərməsinə görə bə'zən ötyrylən material Hind donuzunu 14—17 gynyn myddətində də tələf etməmişdir. Bu kibi hallara coq az təsadyf edilir.

Qorujuçu peyvəndlər. Çavan heyvanlar xəstəlijə daha həssas olduqları ycyn çavanlıqda qazandıqları immunitetin sajəsində, onlar qoçaldıqda bu xəstəlijə coq cətinlik ilə dutulurlar. Xəstəlik daha coq myşahədə olunan jerlərdə jaşajan xırda heyvanlara xəstəlik tərədiçi bir neçə dəfə daxil olub heyvanda immunitet jaratdıqı ycyn jaşlı heyvanlar da immunitet daha möhkəm olur. Bu səbəbə görə xəstəlik olmajan rajonlardan jaşlı heyvanları xəstəlik olan jerlərə gətirdikdə bu heyvanlarda xəstəlik əmələ gəlməjir. Bu xəstəlikdə aparılan immunizasija ilk dəfə fransız alimləri Arluen və Corneven və Toma tərəfindən aparılmışdır. Birinçi dəfə bu tədqiqatçılar az miqdarda xəstəlik basilini orqanizmə ötyryb orada jaradılan immunitet sajəsində də jenidən orqanizmə ötyrylən bir neçə ölym dozası belə onu tələf edə bilməmişdir. Qurudulmuş xəstəlik materialını toz formasına gətirib iki hissə su ilə qatdıqdan sonra zəifləşməsi ycyn bir hissəsini 7 saat 104° hərarətdə I vaqsini, ikinçi hissəsini 90—94° hərarətdə qızdırıb II vaqsini hazırlamışlar. Birinçi vaqsin ilə ikinçi vaqsin arasında olan myddət 10—12 gynə mysavi olmalıdır.

Ymum Ittifaq Xalq Topraq Qomisarlıqının janında bulunan bajtarlıq idarəsinin 1931-çi il 14 fevral qərarına görə hali-hazırda Sovetlər Ittifaqında qejd etdijimiz ysullar ilə piccə qarbunquluna qarşı preparatlar hazırlanmajır.

Şattenfro xəstəlik tərədiçidən azad edilmiş qulturanın toqsini 306 baş maldan 23-i tələf olmuş və 40—50-i şiddətli formada xəstəlijə dutulmuşdur.

Naosi-Nitta tərəfindən bu ysul mykəmmələndikdən sonra Japonija həkymətinin xəstəlijə qarşı apardıqı mybarəzə jalınız bu ysul ilə olmuşdur. Ysulun əlverişli olmasını Zjumba, Qlasılan, Valle, Leqlenş və Qlreub kibi tədqiqatçılar təsdiq etdikdən sonra Qlreubun apardıqı təçribə sajəsində bu ysul İsvecrədə aparılmışdır.

Axır vaqtlarda aparılan tədqiqatlar formal vaqsinin bu sahədə göstərdiji jardımı təsdiq edir. Filtratın alınmasa texniki çihətçə cətinlik törətdiji ycyn L e q l e n ş və V a l l e hazırlanan vaqsinə formalinin ilavə edilməsini məsləhət göryr. Hər litr vaqsinə 2—4,0 formalin ilavə edib 38° hərarətdə bir gyn saqladıqdan sonra ilavə edilən formalin miqrobun qyvvəsini azaltmaqla barabar vaqsini ora daxil ola biləçək jabancı miqroblardan qorujur. Bu

ysul ilə vaqsinasija edilmiş 31 544 başdan hec birisində dəjişiklik əmələ gəlməmişdir. Bundan ilavə şiddətli xəstəlik mənbəində jaşajan hejvanlardan 5833 immunizasija edildikdən sonra onlardan hec birisi tələf olmajır; halbu ki, immunizasija edilməjən hejvanlarda tələfat 2-dən 8%-ə qədər olmuşdur. Bə'zi hallarda aqtiv immunitet əldə etmək mymkyn olmadıqda immunizasijanı tək immun serumunun vasitəsilə də aparmaq mymkyndyr. Immun serumunun məçburi immunizasijada göstərdiji köməklik olduqça qijmətlidir. Xəstəlijin myəjjən dairəjə dyşməsi bir neçə gynyn myddətində gözlənilirsə, xysusən çins və qijmətli hejvanlarda passiv immunizasija aparmaq daha məsləhətdir. Ilk dəfə hiperimmun serumunu K i t t atdan almışdır. Valle immun serumunun alınması ycyn qaramaldan istifadə edilmənin tərəfdarıdır. Qaramaldan alınan serumun jaqşı tərəfi orasındadır ki, serumu qəbul edən orqanizmdə anafilaqsija əmələ gəlməməsi ilə bərabər serum orqanizmdə uzun myddət qalır. Ətyrylən immun serumunun miqdarı hejvanın vəznindən asılıdır. Bu xəstəliklə aparılan mybarəzə tədbirləri Sovetlər Ittifaqında bajtarlıq qanunlarının göstərməsinə görə ejnilə qarajarada aparılan ysullar kibi olmalıdır.[1]

HEMORRAZI SEPTISEMIJA.

(Septicaemija hemorrahagica).

H u e p p e, bipoljar baqterijası tərəfindən jaradılan ymumi qan infeqsijasının və daxili orqanların hemorrazi iltihabının hemorrazi septisemija adlandırmışdır. Bipoljar baqterijalar əksərijjətlə patalozi prosesləri jaradanlardan biridir. L i n j e r myxtəlif çins ev hejvanları arasında olan joluquçu xəstəliklərdə xəstəlijin əsas səbəbi olmajıb ikinçi sırada iştirak edən, orqanizmi başqa xəstəlik tərədən miqroblara qarşı həssas edib o xəstəlik miqrobları ycyn xəstəlijə dutulan orqanizmdə əlverişli şərait əmələ gətirən **bipoljar baqterijaları** da bu qrupa daxil edir. Bu qisim bipoljar baqterijaların xəstə orqanizmə kecmələri orqanizmin xəstəlik tərədən miqrob ilə apardıqı mybarəzəni daha da zəifləşdirir.

Hemorrazi septisemija ilk əvvəllər myxtəlif adlarla adlanırdısa da, lakin hali-hazırda xəstəliji jaradan baqterija *Bipolaris·septicus*, myxtəlif çins hejvanlarda ejni olduqu ycyn hansı hejvanda olursa, xəstəlik o çins hejvanın adı ilə adlanmalıdır. Məsələn: *Bac. bipolaris septicus, bac. bovisepticus* və i. a.

Bipolaris basili myxtəlif çins hejvanlarda morfolozi çihətçə birdirsə də, lakin bunun virulentliji xysusunda olduqça myxtəlif fikirlər vardır. Bu basilin virulentliji təbii surətdə xəstəlik jaratdıqı hejvanlar yzərində daha qyvvətlidir. Ejni miqrobun başqa çins hej-

[1] Son zamanlar bizdə—SSRI-da formal vaqsin jaxşı nətiçələrlə tətbiq edilməkdədir.

vanlara göstərdiji tə'sir olduqça myxtəlifdir. Əgər basilin virulentliji başqa çins hejvanlara görə syn'i surətdə qyvvətləndirilirsə də lakin basilin virulentliji ilk dəfə alьndьqь hejvan çinsinə qarşь daha qyvvətli olur.

Təbiətdə bu miqrob geniş surətdə jajьlmьşdьr. Ilk dəfə bunlar saprofit halьnda topraq, su və i. a. jaşajьrlar. Adi orqanizmdə coq myddət saprofit halьnda jaşajьb, mə'lum olmajan səbəblərə görə gözlənilməjən bir vaqtda saqlam orqanizmdə xəstəlik jaradьr. Bipolaris basili zəifləşmiş orqanizmdə bir neçə dəfə devr etdikdən sonra virulentliji daha qyvvətlənir. Bipolaris basili aşaqьda göstərilən myxtəlif çins hejvanlar icərisində xəstəlik əmələ gətirir və bu xəstəliklər hamьsь hemorrazi septisemija qrupuna daxil olurlar. Quşlarьn vəbasь, donuzlarьn hemorrazi septisemijasь, qojunlarьn septisemijasь, buzovlarьn pilevra pnevmonija septisemijasь, qaramal septisemijasь, adadavşanьnьn septisemijasь və kecilərin septisemijasь bu qrupa daxildir.

Morfologizisi. Xəstəlik əmələ gətirən miqrobun eni ilə bojunda bir o qədər təfavyt olmadьqь ycyn bə'zən bunu Cocco basili dejə adlandьrьrlar. Miqrobun juqarьda göstərilən xəstəliklərdən hansь birini əmələ gətirməsindən asьlь olmajaraq mytləq aşaqьdakь əlamətlərə malik olmalьdьr. Linjerin göstərməsinə görə xəstəlik tərədən miqrob olduqça gədək və bojandьqda iki uçlarь daha qyvvətli, lakin ortasь zəif bojanan, polimorf, hərəkətsiz, spor jaratmajan serob və Qramm ysulu ilə mənfi bojanan basildir. Basilin uçlarь jumru, uzunluqu 1,0—1,3 və eni 0,3—0,5 miqrona mysavidir. Bunun xariçi formasь dəjişilə bilər. Belə ki, xəstəlik tərədiçi bə'zən Cocco **diplococc və hətta streptococ** şəklində belə görmək mymkyndyr. Uçlarьnьn bojanmasь (bipoljarlьqь) daxili orqanlardan xysusən dalaqdan və çavan qulturadan hazьrlanmьş preparatlarda daha ajdьn gerylyr.

Bac. bipolaris septiqusun syn'i qida myhitlərində jetişməsi ycyn hərarətin 13-dən 38 dərəçəjə kibi və reaqsijanьn az qələvi oqsigenin olmasь (havanьn olmadьqь jerdə mirqobun jetişməsi, əkilən qulturun miqdarьndan asьlьdьr) kibi şərait lazьmdьr.

Buljon pepton jaxud **qan zərdabь** ilə hazьrlanan buljonda bipolaris septicus jetişdikdə onu zəif dərəçədə bulandьrьr və bir həftəjə qədər saqlanьlьrsa qultur şəffaflaşьr. Lakin mixbərin dibində cökynty əmələ gəlir, cökyntyny mixbərin sirkələnməsi ilə bilmək mymkyndyr. Buljonun yzərində bə'zən nazik, qejri zamanlar isə qalьn pərdə əmələ gəlir. Pərdənin əmələ gəlməsində bipoljar basilin çinsi də nəzərdə dutulmalьdьr.

Qanlь aqar qida myhitində jetişərkən hemmolizin jaramьr. Qida myhitində isə qulturanьn inkişafь coq syr'ətlə davam edir.

Dyz və qejri aqar-aqrda jetişərkən ilk əvvəl 24—42 saat myd-

dətində dyz aqar-aqar qida myhiti yzərində xьrda-xьrda inçə acьq rəngdə qolonijalar jetişirsə də tədriclə bu xьrda qolonijalar genişlənib, qida myhitinin yzərini bytynlyklə byryjyr. Bu halь kəhnə qulturalarda daha ajdьn gərmək mymkyndyr. Dyz aqar-aqar myhitində ijnənin getdiji jerdə girdə zəif qolonijalar jetişdikçə birləşirlər.

Hemorrazi septisemija qulturasьnьn zelatin qida myhitində jetişməsi və ejnilə aqar-aqar qida myhitində jetişməsinə oqşajьr. Lakin zelatin qida myhitində qultur jetişdirdiji zaman qolonijalarьn rəngi daha şəffaf olur. Bə'zən qalonija şeh damçьsьna oqşajьr. Bir necə vaqtdan sonra bu qisim xьrda qolonijalar genişlənib birləşdikdə qolonijanьn rəngi aqarьb qida myhitinin bir coq jerini ortyr.

Syd qida myhitində jetişirsə də qidanь laxtalandьrmьr.

Qartofda jetişməsi qida myhitinin reaqsijasь ilə əlaqədardьr. Təbii turş qartof qida myhitində inkişaf etməjirsə də lakin syn'i surətdə hazьrlanmьş az qələvi qida myhitində sarь rəngdə qulturun jetişdijini gəryryk. Hemorrazi septisemija miqrobunun virulentliji başqa miqroblara nisbətən zəif olduqu ycyn *Bac, bipolaris septicusu* syn'i qida myhitində coq zaman saqlamaq mymkyn olmur. Belə ki, bə'zən qultur bir necə dəfə bir syn'i qida myhitində o birinə ətyryldykdə qulturun qyvvəsi o qədər zəifləşir ki, hətta əkilən qida myhitində jetişmir. Laboratorija təçribəsində *Bac bipolaris septicus* qulturunu təçribə hejvanьnьn xysusən Hind donuzunun orqanizmindən bir necə dəfə kecirdikdən sonra qulturun virulentliji daha da qyvvətlənir. Təçribə hejvanlarьnda xəstəlijə həssas olanlardan ilk əvvəl adadavşanь (çavanlarь) sьcan, gəjərcin və Hind donuzunu göstərmək olar. Təçribə hejvanьnь tələf etmək məqsədilə qulturu orqanizmə ətyrdykdə gətyrylən qulturun orqanizmə daha şiddətli tə'sir etməsi ycyn onu bilavasitə qana ətyrmək daha məsləhətdir.

Bac. bipolaris septicus-un xariçi şəraitə olan davamlьlьqь olduqça myxtəlifdir. Pejin və cyryjən çəmdəkdə hemorrazi septisemija basili 1 ajdan 3 aja qədər (Kitt) suda və topraqda 3 aja kimi jaşajьr. Əgər şərait əlverişli olursa, bu zaman jaşama myddəti azalьr. Gynəşin və qurumanьn tə'sirindən basilin virulentliji coq zəifləşir. Gynəşin şyalarь bunlarь bir necə dəqiqənin icərisində tələf edir. Bunlarьn tələf olmasь olduqça myxtəlifdir. Hər bir çins basillər myxtəlif hərarətin tə'sirindən məhv olurlar. *Bac. bipolaris septicus* 45—50° hərarətdə 15 dəqiqənin *bac. bipolaris bavi septicus* 80° hərarətdə 10 dəqiqə icərisində tələf olurlar. 1 : 1500 sylymən basilləri bir dəqiqənin, 3%-li qarbol turşusu 5—6 saatьn myddətində tələf edir. ½%-li kykyrt turşusu, 1%-li əhənk suju və qreolin basilləri tələf etmək qyvvəsinə malikdir.

Təbii xəstəlijin əmələ gəlməsi ycyn bu xəstəlikdə əsas giriş qapьsь jalnьz həzm aparatь ola bilər. Xəstə hejvan xəstəlik devrində myxtəlif jollar ilə xəstəlik virusunu xariçə buraqьb (nəçis, sidik və aqьz suju) ətraf jerləri və jemləri cirkləndirir, xəstəlik bu qajda yzrə bir coq hejvanlara jajьlьr. Həzm aparatьndan sonra xəstəlik tərədiçisi orqanizmə acьq jaralar və myxtəlif selik pərdələri vasitəsilə qana kecib xəstəliji inkişaf etdirir. Bir coq tədqiqatcьlar xəstəlijin bir hejvandan o biri hejvana dişləmək (milcək və aqçaqanadlar) vasitəsilə də kecdijini səjləjirlər. Hemorrazi septisemija xəstəliji bə'zən tək-tək hejvanlar və bə'zən isə enzootija halьnda myəjjən sahədə əmələ gəlib qurtardьqdan sonra gəzlənilməjən bir vaqtda jenidən təkrar oluna bilər.

Ev və vəhşi hejvanlarda hemorrazi septisemija.

Juqarьda qejd etdijimiz kibi ev hejvanlarьnьn əksərijjəti bu xəstəlijə həssasdьrlar. Hemorrazi septisemija şiddətli surətdə joluquçudur. Xəstəlik tərədiçi təbiətin bir coq jerinə jajьlmьşdьr. Xəstəlik jaradan miqrobu *(bacillus bipolaris septicus)* bə'zən saqlam hejvanьn orqanizmində də tapmaq mymkyndyr. Ymumijjətlə ev hejvanlarь icərisində aşaqьdakь əsas xəstəliklərə təsadyf etmək olar. Xəstəlik quşlar icərisində olarsa *B. bipolaris avisepticus*, qojunlar da *B. bipolaris avisepticus,* qaramalda *B. bipolaris bovisepticus,* adadovşanlarьnda *B. bipolaris cuniculisepticus,* donuzlarda *B. bipolaris suisepticus* və i. a. adlanьr. Bundan başqa xəstəlik mallar, jabani donuzlar, qaramallar arasьnda da əmələ gələ bilər. Basilin orqanizmə kecdiji jer ilə xəstəlijin formasь əlaqədardьr. Xəstəlik bu formada davam edir. 1) dəri, 2) dəş və 3) baqьrsaq formasьdьr. Basilin orqanizmə qalib gəlib orqanizmi tələf etməsi myxtəlif vaqtlarda ola bilər. Bə'zən xəstəlik bir necə saat jaxud bir necə gyn və hətta həftələrlə təsərryfatda xronik formada qalьb uzun myddət davam edir. Xəstəlijin davamь nə qədər uzun olursa bir o qədər xəstəlijə aid olan əlamətləri ajdьn gəryryk. Bu səbəbə gərə də xronik formadan tələf olan hejvanlarda bu kibi əlamətlər daha ajdьn gərylyr.

Qaramallara xəstəlik bə'zən quşlardan, jaxud jabani donuzlardan kecir. Xəstəlik tərədiçisi hemorrazi septisemija miqrobunun başqa nev'i olub *Bac. bipolaris bovisepticus* adlanьr. Bu miqrob əsas hemorrazi septisemija miqrobundan hec bir qaraqter əlamətlər ilə ajrьlmьr. Syn'i qida myhitlərində jetişməsi ycyn juqarьda qejd etdijimiz şərait mytləq olmalьdьr. Qulturun qaramala olan tə'siri ətyrylərsə, qulturun daxil olduqu jerdə bə'zən iltihab şişləri cirk əmələ gəldikdən sonra hejvan saqalьr. Xьrda buzovlarda isə bu kibi hallar əksərijjətlə hejvanьn tələf olmasь ilə nətiçələnir.

Qulturu bilavasitə qana ətyrdykdə tə'siri daha qyvvətli olur. Xəstəlik dəri formasьnda davam etdikdə dərialtь, baş, cənəaltь, onun orqanizmə ətyryldyjy jerdən asьlьdьr. Qultur dəri altьna

bojun, əllər jaxud orqanizmin myxtəlif jerlərində olan dərialtı birləşdiriçi toqumalarında qan infiltrasijası gərmək mymkyndyr. Dil adi normadan dəjişib şişir və rəngi dutqun boz-qırmızı rəngə cevrilir. Qarın boşluqunda bə'zən bir necə litr miqdarında sarı və ja acıq-qırmızı rəngdə maje gərylyr.

Şırdan, nazik və joqun baqırsaqlarda şiddətli hemorrazi iltihab hadisələrinə təsadyf edilir. Ymumijjətlə bytyn daxili orqanlarda heperemijanın əmələ gəlməsini göstərmək lazımdır. Dəş formasında əmələ gələn əlamətlərin əksərijjəti qaramallarda olan pilevropinevmaja xəstəlijinin əlamətlərinə bənzəjir. Bunun bir-birindən ajrılması əlamətlərə əsaslanaraq adi göz ilə mymkyn olursa, o zaman miqrobu etilozi tərəfdən öjrənməklə, xırda təçribə hejvanlarının joluqdurulması lazımdır. Bu formada orqanizmin dəş hissələrində fibrinli majein (eqsudatın) və bə'zi hallarda qanın jıqılıb qaldıqını gəryryk. Aqçijərin toqumaları adi rəngdən dəjişib mərmər şəklinə cevrilir.

Qojunlarda hemorrazi septisemija yc formada davam edir. Şiddətli, jarım şiddətli və xronik formalar.

Xəstəlijin tərədiçisi *Bac. bipolaris ovisepticusdur.* Bu *Bac. bipolaris septicus* qrupuna daxil olub syn'i qida myhitlərində jetişdirilməsi bə'zən coq cətinlik tərədir və təmiz qulturunu zədələnmiş orqanlarda almaq hər zaman mymkyn olmur. Xəstəlik miqrobunun virulentliji qoça hejvanlara nisbətən çavanlara görə daha qyvvətlidir. Qojunlarda təbii xəstəlik həzm aparatına ətyrylən basil ilə cirklənmiş jemlərin, suların vasitəsilə əmələ gəlir. Xəstəlijə dutulan hejvanlar iki, dərt gynyn myddətində tələf olurlar. Xəstəlikdən tələf olmuş hejvanlarda xəstəlijə maxsus əlamətlər hər bir formada myxtəlif olur. Şiddətli formada dəri altında hemorrazi infiltrasijasının olduqunu limfatik vəzilərinin böjydyjyny görmək mymkyndyr. Aqçijər pajlarının birləşdiriçi toqumasında infiltrasija majei toplanır. Jarım şiddətli formada xəstəlijin myddəti 1 həftədən 3 həftəjə qədər syryr. Bə'zən qojunun myxtəlif jerləri şişir. Xysusən bu şişlər başda, bojunda, dodaqın selik pərdəsində bulunur, bə'zən dilin və dimaqın şişməsinə də təsadyf etmək mymkyndyr. Juqarıda göstərilən hallara davam gətirməjən hejvanlar qısa myddət zərfində tələf olurlar. Hemorrazi septisemija donuzlarda bə'zən təktək hejvanlarda jaxud enzotik formalarda olub orta dərəçədə tələfat verir. Donuzlarda adi hemorrazi septisemijanın tərədiçisi başqa çins hejvanlarda olan hemorrazi xəstəlijinin tərədiçilərində hec bir əlamətə ajrılmajıb əsas hemorrazi septisemija xəstəlijini jaradan və ejni formaja malik olan *Bac. bipolaris suisepticusdur.* Bu miqroblar xəstə hejvanın yzərində əmələ gəlmiş şişlərin majeində limfatik vəzilərinin və iltihaba dutulmuş aqçijərin toqumalarında tapmaq mymkyndyr. Donuzlardan başqa bu xəstəlik miqrobuna Hind donuzu, adadavşanı, sıcanlar və ev quşları da həssasdırlar.

Əksərijjətlə donuzlarьn orqanizmlərində göstərilən basilin bir coq xəstəliklər zamanьnda donuzda ikinçi infeqsija sifətində belə görmək mymkyndyr.

Bunlarьn bu xəstəliklərdə iştirak etməsi ilk dəfə infeqsija jaradan basilin apardьqь prosesi daha da qyvvətləndirir. Xəstəlikdən hənuz ajrьlmьş zəif və başqa bir xəstəlijə dutulmuş orqanizmə hemorrazi septisemija basilinin göstərdiji tə'sir daha da qyvvətli olur. Hemorrazi septisemija yc formada davam edir: 1) **coq şiddətli**—bu zaman xəstə hejvanda xəstəlijə dair əlamətləri görməklə barabar hejvanьn hərarəti 41° qalqьr, yrək dəjynməsi coqalьr, tənəffys cətinləşir; selik pərdəsi göjərir, hejvan özyny jorqun hiss edir, jemdən qalьr, uzanьr və qejri bu kibi xəstəlik əlamətlərinə təsadyf edilir. Hejvanda xəstəlik devri bə'zən 14 saatdan 24 saata qədər çəkir. Bu myddətin icərisində xəstə tələf olur; 2) **Orta şiddətli** — birinçi formada olan əlamətlərə burada da təsadyf edilir, lakin bu formada quru öksyrək xəstənin döş qəfəsini əllədikdə *(palpasija)* xəstədə aqrь hiss olunur. Hejvanьn tələf olmasь bu formada bir necə gynə kibi syrыr; 3) **Xronik formadьr** ki, bu forma juqarьda göstərilən iki formalarьn nətiçəsində əmələ gəlir. Xəstəlik devri bu formada coq syrdyjy ycyn hejvan nətiçədə coq arьqlajьr və əksərijjətlə xəstə 3—7 həftənin icində tələf olur.

Hemorrazi septisemijanьn diaqnozu myxtəlif hejvan çinslərində xəstəlijə dair olan daxili və xariçi əlamətlərdən başqa baqteriologi ysullar ilə də tə'jin edilə bilər. Lakin bu diaqnoz ysulunun mənfi tərəflərindən biri xəstəlik basilinin təbiətin bir coq jerinə jajьlьb, saprofit həjatьnь syrdyjy zaman bə'zən xəstə orqanizmdə ikinçi infeqsija formasьnda tapьlmasьdьr. Hətta başqa hallarda saqlam bədəndə uzun myddət jaşajьb, xəstəlik jaratmasь mymkyndyr. Bu səbəbə görə miqrosqopun verdiji nətiçə xəstəlijin hemorrazi septisemija olduqunu qət'i formada göstərə bilməz. Diaqnozun japьlmasь məqsədilə və miqrosqop pereparatlarьnьn hazьrlanmasь ycyn istifadə edilən materiallar xəstə hejvanьn qanь, daxili orqanlardan aqçijər, qaraçijər, limfatik vəziləri, majei xəstəlik zamanь jaradьlan eqsudat və myxtəlif nev'i toqumalar ola bilərlər. Coq və orta şiddətli formalarda göstərilən orqanlarda basilin bipoljarlьqьnь daha ajdьn görmək mymkyndyr. Halbu ki, xronik, formada basilin miqdarь qanda az olmaqla barabar virulentliji zəifləşir. Basili miqrosqop altьnda görməklə xəstəlik hansь çins hejvanda olursa olsun *Bac. bipolaris septicus* təmiz qulturunu almaq lazьmdьr. Qida myhitinə əkiləçək material qan və daxili orqanlar ola bilərlər. Burasьnь da söjləməlijik ki, mymkyn qədər göndərilən materiallardan emulsija hazьrlajьb diaqnozun möhkəmlənməsi ycyn xəstəlik tərədiçisinə həssas olan laboratorija hejvanlarьna ötyrmək lazьmdьr. Bu vəzijjət bir tərəfdən diaqnoza sərf edilən vaqtь gydəldir, ikinçi tərəfdən isə həqiqətdə də xəstəlijin hemorrazi septisemija olduqunu təsdiq edir. Materialdan hazьrlanan emulsijanьn bə'zi səbəblərə görə

heյvana ətyrylməsi mymkyn olmursa, o zaman alьnan təmiz qulturu təçribə heյvanlarьna ətyrmək mymkyndyr.

Əksərijjətlə bu xəstəlijin diaqnozunda təçribə heյvanlarьndan çavan adadavşanlarь, gəjərcinlər və Hind donuzlarь istifadə edilməlidir. Təçribə heյvanlarьnda xəstəlijə olan həssaslьq bir dərəçədə dejildir. Joluqdurulmuş heյvanlar 15 saatdan 48 saata kibi tələf olurlar. Halbu ki, qultura zəif olduqda heյvanьn tələf olmasь gynlərçə syryr, jaxud heյvan hec də tələf olmur.

Peյvənd materiallarьndan əksərijjətlə immun serumu işlədilir. Əsas e'tibarь ilə myxtəlif çins heյvanlarda xəstəlik tərədənlər eյni formaja malik olub virulentlik çihətçə myxtəlif çinslərə ajrьldьqь ycyn bə'zən bir çins heյvana gərə hazьrlanmьş immun serumu başqa çins heյvanlarь da az dərəçədə olmuş olsa da xəstəlikdən mydafəə edir. Jəqin ki, bu hal xəstəlijin bir çins heյvandan o biri çins heյvana kecməsinə əsaslanmьşdьr. Xəstəlik tərədənlər biri-birlərinə jaqьn olduqlarь ycyn jalnьz tək çins heյvanlara maxsus (monovalent) immun serumu hazьrlamajьb polivalent seriumunun hazьrlanmasь daha məsləhətdir. Gyndəlik təçribədə də myaləçə jaxud immunizasija məqsədilə polivalent serumu myxtəlif çins heյvanlara jeritdikdə nətiçə alьndьqьnь gəryryk.

Z i n j e r ilk dəfə 6 çyr *bipolaris septicus* basillərini buljonda ətdyryb aldьqь qulturun əvvəl dəfələr az miqdarьnь jeridib, get-gedə dozanь maqsimal dərəçəsinə catdьrdьqdan sonra hiperimmunizasija etdiji atdan aldьqь immun serumunun myxtəlif çins heյvanlarь hemorrazi septisemija xəstəlijindən azad etdijini təçribədə sybut etmişdir. Bu qismin immun serumlarьnьn verdiji nətiçə xəstəlijin ilk vaqtlarьnda daha jyksək olur və alьnan immunitet də coq zəif qyvvəjə malik olur. Immunitetin qyvvətli olmasь ycyn immunizasijanь Simiultan ysulu ilə aparmaq daha məsləhətdir. Bajtarlьq təçribəsində bu ysulun aparьlmasьnь bir coq şəxslər məsləhət gəryrlər. Orqanizmə immun serumu ilə barabar haman çins heյvana maxsus xəstəlik qulturunu ətdyrylmyş formada ətyryrlər. Bundan başqa qulturun eqstraqtьnь da ətyrmək mymkyndyr.

Xəstəlik bir çins heյvandan o biri çins heյvana kecdiji ycyn əgər təsərryfatda bir çins dejil, bir coq çins heյvan saqlanьlьrsa, haman çins heյvandakь xəstəlijə həssas olan heյvanlarь mytləq qorumaq lazьmdьr. Tojuqlardan xəstəlijin donuzlara, kəllərdən donuzlara, myxtəlif çins heյvanlardan adadavşanьna kecməsi mymkyndyr. Xəstəlijin tərədiçisi təbiətin bir coq jerində xysusən otlaqda, suvatlarda olduqu ycyn otlaqьn myvəqqəti dəjişdirilməsi, çəmdəklərin təsərryfatdan vaqtlь-vaqtьnda təmizlənib çəmdək jerinin və heյvan jataqьnьn dezinfeqsija edilməsi, xəstələrin saqlamlardan ajrьlьb bir necə qrupa bəlynməsi tələb olunur, çəmdəklərdən sojulmuş gəny gynəşin vasitəsilə xəstəlik tərədiçidən təmizləjib istifadə etmək mymkyndyr.

TOJUQLARЬN VƏBASЬ.

(Cholera gallinarum).

Quşlarda olan vəba xəstəliji də hemorrazi septisemija xəstəlijini jaradan basillərin sьrasьna daxil olub, *Bac. bipolaris avisepticus* adlanьr. Xəstəlijin quşlarda davamь şiddətli və joluquçu olub bu xəstəlijin təsərryfata verdiji zərər olduqça jyksəkdir. Xəstəlijin ilk dəfə geniş surətdə öjrənilməsi Paster və onun jaqьn şəjirdləri tərəfindən olmuşdur. Xəstəlijin törədiçisi orqanizmin hər bir hissəsində (daxili orqanlar və majelərdə) tapmaq mymkyndyr. Biologi və morfologi çihətçə basilin xariçi gөrynyşy cubuqa bənzəjir, eni ilə bojunda miqrosqop altьnda bə'zən bir o qədər fərq olmadьqь ycyn qoq (şəkil 43) formasьnda da gөrynyr. Uzunluqu bir miqrona jaqьn və eni isə 0,6—0,25 miqrona qədərdir. Miqrosqop altьnda birər



Şəkil 43. Vəba basilləri. Vəba törədiçisinin qanda gөrynyşy.

jaxud diplobasil formalarьnda gөrynyr. Adi anilin bojalarь ilə bojanьrsa da lakin xəstə orqanizmin qanьndan hazьrlanmьş preparatlarь Himza ysulu ilə bojadьqda göstərilən əlamətləri və xysusən miqrobun iki uçlarьnьn daha ajdьn bojanьb orta hissəsinin bir qədər az bojanmasьnь daha gөzəl gөryryk. Qramm ysulu ilə miqrob mənfi bojanьr.

Syn'i qida myhitlərində jetişməsi ycyn secmə qida myhitlərinin hazьrlanmasь tələb edilmir. Universal qida myhitlərinin hamьsьnda jetişir. Hazьrlanan qida myhitlərinin reaqsijasь—*Ph* 7,2 olmalьdьr. Bu isə qida myhitinin optimal reqasijasьdьr. Əkilən qida myhitlə-

şişə qabın icərisində qanı defibrinləşdirmək ycyn bir qədər təmiz jujulmuş şişə qırıqları və ja buna mynasib çisimlər ilavə edib sterilizasija etdikdən sonra steril ijnə ilə *v. jugularis*-dən şişə qaba bir qədər qan jıqırlar; bunun defibrinləşməsi ycyn 10—15 dəqiqə calqaladıqdan sonra iki qat steril tənzifdən syzyrlər. Defibrinlənmiş qanı sentrafuq mixbərlərinə tökyb (qanı mixbərlərə barabar miqdarda tökməlidir) 10—15 dəqiqə fırlatmalıdır; bu vaqt qanın qırmızı çisimçikləri mixbərin dibinə cökəçək, yzərində isə plazmasl qalaçaqdır. Yzərinə jıqılan majei (plazmanı) adi və ja Paster pipetqasl ilə ehtijatla jıqıb yzərinə əvvəlki qədər də fiziolozi (ilk dəfə qanı mixbərə tökərkən qanın mixbərdə nə qədər olmasını mixbərin yzərində qejd etməlidir) məhlul ilavə etməli və hər iki majei qarışdırdıqdan sonra jenidən fırlatmalıdır. Bunu 3—4 dəfə təkrar etdikdən sonra axırıncı dəfədə mixbərin yzərində alınan şəffaf maje qırmızı qan çismçijinin təmiz jujulmasını gəstərir; mixbərin ystyndəki şəffaf majei mixbərdən gətyrdykdən sonra, qırmızı qan çisimçikləri hazır olur (eleqtrik sentrafuqasl olmajan jerlərdə əl sentrafuqlarından istifadə etmək mymkyndyr, lakin əl sentrofuqlarında fırlanmanın miqdarı az olduqu ycyn qırmızı qan çisimçiklərinin jujulmasl 4 dəfə və hər dəfədə 20 dəqiqə olmalıdır). Qırmızı qan çisimçiklərinin biri zəif ikinçisi qyvvətli faizdə olmaq yzrə iki şəkildə işlədirlər.

Zəif faizin hazırlanmasl ycyn 2,5 *sm* təmiz jujulmuş qırmızı qan çisimçiklərini 97,5% (25%) fiziolozi məhlul ilə qarışdırırlar. Qyvvətli faizi (5% almaq ycyn 5,0 *sm* qırmızı qan çisimçiklərini 95,5 fiziolozi məhlul ilə qaraşdırırlar. Reaqsijada bu məhlulla işlə-jirlər. Mymkyn qədər təzə məhluldan istifadə etməlidir; əgər bunun işlədilməsi hazırlanan gyn mymkyn olmajırsa, məhlulun 2—3 gyn sojuq jerdə saqlanılmasl mymkyndyr.

Hemolizinin hazırlanmasl. Hemolizini əldə etmək ycyn adadavşanının qocun qırmızı qan çisimçiklərilə immunizasija edirlər. Adadavşanının orqanizminə ətyrylən qırmızı qan çisimçikləri, antigen vəzifəsini ifa edib adadavşanının orqanizmində özynə qarşı antitellər (hemolizinlər) əmələ gətirirlər, təkrar həmin adadavşanına qırmızı qan çismçikləri ətyrdykdə, ikinçi dəfə ətyrylən qırmızı qan çisimçikləri adadavşanının orqanizmində ərijir. Adadavşanı tədriclə immunizasija edilməlidir. Altı gynyn ərzində birinçi gyn 0,5; ikinçi gyn 1,0; ycynçy gyn 2,0; dördynçy 4,0 və beşinçi gyn 5,0 qırmızı qan çisimçiklərini bilavasitə adadavşanının qanına və ja qarnı altına ətyryb altınçı gyn adadavşanından aldıqımız hemolitik zərdab qırmızı qan çisimçiklərini əritmək qyvvəsinə malik olaçaqdır.

Adadavşanına birinçi gyndən başlajaraq qırmızı qan çisimçiklərini orqanizmə ətyryb nəticədə jyksək dərəcəjə malik hemolitik serumu alırıq ki, (1:3000) bunun ən az miqdarı qırmızı qan çisimçiklərini əridir.

Ətyrylən qırmızı qan çisimçikləri təmiz jujulmaqla barabar 50%-li (qırmızı qan çisimçikləri ejni qədər də fiziolozi məhlulla

qarьşьlmalьdьr) olmalьdьr. Adadavşanlarьna gələçək dəfələrdə ətyrylən qьrmьzь qan çismçiklərinin miqdarь adadavşanьnьn o vaqtkь vəzijjətindən asьlьdьr.

Əgər adadavşanь kecən dəfələrdə ətyrylən dozalara dözə bilmişsə, o zaman qьrmьzь qan çismçiklərinin ətyrylməsi lazьmdьr, əgər dözə bilməzsə, qanь ətyrmək lazьm dejildir.

8—9-çu gynlərdə amboseptorlarьn miqdarь orqanizmə maqsimal dərəçəjə catьr, bə'zən bir qədərdən sonra amboseptorlarьn miqdarь azalmaqa başlajьrsa da infeqsijanь bir necə ajdan sonra təkrar etdikdə adadavşanь qyvvətlənir və tələb edilən hemolitik serumlarь verir.

Adadavşanьndan qanь bir necə ysulla alьrlar, bunlardan ən sadəsi v. j u q u l a r i s-in və juqu arterijasьnьn kəsilib orqanizmdə olan qanьn təmamilə alьnmasьndan ibarətdir.

Əldə edilən serumun xarab olmamasь ycyn bə'ziləri ona 1 sm^3 5%, digərləri isə 0,5% qarbol turşusunun ilavə edilməsini məsləhət gəryrlər. Qarbol turşusunun tə'sirindən hemolitik serumun titri azalьr; lakin qliserin bunun titrini azaltmajьr. Tərkibində bulunan qomplementlərin tələf edilməsi ycyn hemolitik serumu qьzdьrmaqa ehtijaç joqdur, cynky serumun tərkibində olan qomplementlər yc gyndən sonra xarab olurlar (lazьm gələrsə, qьzdьrmaq mymkyndyr; bunun nə formada həll edilməsi o vaqtkь momentdən asьlь olur).

Qomplementin hazьrlanmasь. Bu reaqsijada Hind donuzunun serumu qomplement vəzifəsini gəryr. Qomplementin Hind donuzundan alьnmasь bir necə ysullarla olur. Qan gətyrylməjə 8—10 saat qalmьş Hind donuzuna jem verməməlidir, cynky qəbul edilən jem serumun kejfijjətinə tə'sir buraqa bilər. Myntəzəm surətdə reaqsija japьlan laboratorijalarda Hind donuzunu saqlajьr, tələb edilən zaman ondan az miqdarda qan alьrlar.

Hiperemija əmələ gətirən spirt, benzin və qsilol maje'lərilə qulaqь syrtyb iti bьcaqla qulaqьn bəjyk damarьndan birini cərtirlər. Aqan qanь qaba jьqьrlar. Bu ysulla hər dəfə qomplement əldə etmək mymkyn olmajьr, ançaq qejd etmək lazьmdьr ki, bə'zən təçribədə bu məqsədə nail olmaq mymkyndyr, jə'ni qulaqdan 100—200 damçь qan aldьqda 5,0 kibi qomplement əldə edilir.

Ikinçi ysul qanьn bilavasitə yrəkdən alьnmasьdьr, doqrudur, bu ysul texniki tərəfdən bir qədər cətindir və burada bir qədər təçribə tələb olunur, bu ysulla qan almada köməkci olmalьdьr. Hind donuzunun dəş qəfəsini sol tərəfdən qьrqьb yrəjin dəjynməsini tə'jin etdikdən sonra şpritsə taqьlmьş bir qədər joqun qьsa ijnəni Hind donuzunun yrəjinə jeridib 4,0—5,0 qan alьrlar, qanьn nə miqdarda və həftədə necə dəfə alьnmasь Hind donuzunun həçmindən və jaşadьqь şəraitdən asьlьdьr.

Qanь gətyrdykdən sonra, hejvanьn dərisi altьna alьnan qan qədər steril fiziolozi məhlul ətyrmək lazьmdьr. Qanь zərdabdan ajьrmaq ycyn xysusi mixbərə tökyb sentrafuqada 10—15 dəqiqə fьrlatdьqdan sonra ehtijatla yzərində olan şəffaf qatьnь mixbərə jьqьb

ıkyn qədər sojuq jerdə saqlajьrlar. Qomplement başqalarьna ısbətən coq inçədir, xariçi şəraitə olan davamlьlьq bunda coq azdьr, bunu coq vaqt saqlamaq mymkyn dejildir və fiziologi məhlul ilə qarьşdьrьlmasь tələb edilən vaqt olmalьdьr, cynky qarьşdьrьlmьş qomplement qarьşdьrьlmamьşa nisbətən tez xarab olur.

Antigenin hazьrlanmasь. Qomplementlərin birləşmə reaqsijasьnda antigen sifətində ançaq manqo basilinin eqstraqtь iştirak edir. M i s n e r i n və T r e p p a n ь n gəstərməsinə jenə saqlam və manqolu hejvanьn daxili orqanlarьndan alьnmьş eqstraqtlar və eləçə də lipoidlər reaqsijada antigen sifətində işlədikdə lazьmi nətiçə verməjirlər. Miqrobun eqstraqtь olduqu kibi iştirak etməsi bir o qədər məcburi dejildir, ançaq basilin zylal maddəsi antigenin əsas hissəsini təşkil etməlidir.

Antigen hazьrlajan laboratorijalar jyksək virulentli basillərdən istifadə edirlər, bassil nə qədər virulentli isə bir o qədər onun antigenlik qyvvəsi jyksək olur.

Qulturun virulentlijini myəjjən dərəçədə saqlamaq ycyn qulturu ildə iki və ja yc dəfə Hind donuzunun orqanizmindən kecirirlər. Antigenin hazьrlanmasьnda gen sahəli şişə qablardan (bu qolbalarь) istifadə edirlər. 2% az qələvi qliserinli aqar-aqar qьda myhitinə qulturu əkib 2—3 gyn 37° hərarətdə saqlajьr, 0,05—0,07 qarbol turşusu və fiziologi məhlulla qulturu juduqdan sonra basili tələf etmək ycyn 60—65° hərarətdə onu iki saat saqlajьrlar (qulturanьn tələf olub-olmamasьnь bilmək ycyn emulsijadan qida myhitinə əkib termostat hərarətində 2—5 gyn saqladьqdan sonra qultura jetişərsə onu jenidən qьzdьrmalь). Əldə edilən emulsijanьn lazьmi dərəçədə qarьşьlmasь ycyn emulsijanь silkələjiçi aparatda 2—3 gyn qarьşdьrьb sentrofuqdan kecirməlidir. Mixbərin yzərində jьqьlan majei şişə qablara jьqьb antigen sifətində işlədirlər. Laboratorijalar tərəfindən hazьrlanan antigenlər illərlə saqlanьlmaqla barabar titrlərini əksiltməjirlər.

Tədqiq ediləçək qanьn alьnmasь. Qanь almadan qabaq v. j u g u l a r i s-in az hissəsini qьrqьrlar, 2—5% qarbol turşusilə dezinfeqsija etdikdən sonra gəstərilən damarь baş barmaqla bir qədər sьqьb qan jьqьlan jerə sterillənmiş (ijnənin dəliji geniş olmalьdьr) ijnəni ətyryb mixbərin ycdə iki hissəsinə kibi qan alьrlar. Tədqiq ycyn alьnan qan mymkyn qədər az vaqt icərisində laboratorijalara göndərilməlidir; qanьn zərdabьnь bərk hissəsindən ajьrmaqdan ətry 30° hərarətdə 6—10 saat saqlamaq lazьmdьr; qejri vaqtlarda isə qan sojuq jerdə saqlanьlmalьdьr. Serumdan 6—7 gynə kibi istifadə edilməlidir; bu myddət (2—3—4 gyn) az olsa, daha jaqşьdьr. Serum coq qaldьqda onun kimjəvi tərkibi dəjişilir və bu dəjişilmə əsas tə'sirini amboseptorlarь buraqdьqь ycyn mysbət nətiçə verən reaqsija mənfi nətiçə verir.

Zərdabьn xarab olmamasь ycyn bə'zi laboratorijalar zərdaba myxtəlif faiz (0,5—5,0%) qarbol turşunun ilavə edilməsini məsləhət gəryrlər. Qejd etməlijik ki, bu qьsьm maddələrin zərdaba ilavə edil-

məsi zərdabın xysusijjətini poza bilər; bu maddələrdən istifadə etməkdənsə, alınan qanların istənilən jerlərə tez göndərilməsi və jerlərdə zərdabdan vaqtlı-vaqtından istifadə edilməsi daha məsləhətlidir.

Zərdabın qandan tez ajrılmasy ycyn alav yzərində qızdırılmış şişə cubuqla qanı mixbərdə iki, yc dəfə qarışdırmalıdır; cynky qan mixbərin divarına japışıb zərdabın bərk hissədən ajrılmasına mane olur.

Oomplementlərin birləşmə reaqsijasında iştirak edən tək-tək qomponentlərin qyvvəsini bilmək ycyn əsas təçribəni japmadan qabaq bir neca qomponentlərin yzərində titrasija aparmaq lazımdır. Hemolitik zərdabları laboratorijalara buraqdıqda titri göstərilirsə də, lakin bə'zi səbəblərə görə laboratorijaların göstərdiji titr zəifləşə bilər; buna görə reaqsijanı japmadan qabaq zərdabın titrini myajənə etmək lazımdır.

Hemolizinin titrasijasy. Titrasijaja başlamadan qabaq bir momenti qejd etmək lazımdır və həmin məsələ də bə'zən laboratorija işçiləri arasında cətinlik tərədir. Hemolizini hazırlarkən qejd etmişdik ki, serumun icərisində bulunan qomplementlər bir neca gynyn myddətində təlef olarlar, demək reaqsijanı qojduqda hemolitik serumu qızdırmaqa ehtijaç joqdur; lakin bə'zi laboratorijalar reaqsijanı qojarkən, orada olan qomplementləri təlef etmək ycyn hemolitik serumu 58° hərarətdə jarım saat qızdırırlar. Bu məsələ laboratorija tərəfindən həll edilir. Hemolitik serumu inaqtivləşdirmək və inaqtivləşdirməmək də olar.

Hemolitik serumun ilk dəfə myxtəlif dərəçələrdə bəlynmələrini (fiziologi məhlul ilə qarışdırıb tədriclə onun qyvvəsini azaltmaqla, nəticədə hansı qyvvəjə malik olduqunu tapırıq) hazırlajıb texniki cətinliji oradan qaldırmaq ycyn qabaqçadan məhlulu ehtijat mixbərlərində hazırlajıb sonra təçribə qojulaçaq mixbərlərə ətyrmək olar. Daha doqrusu mixbərlər iki çərgəjə dyzylyr. Birinçi çərgədə təçribə japılan mixbərlər və ikinçi çərgədə isə, ehtijat mixbərləri durmalıdır (0,5 *sm*³ fiziologi məhlul ilə bəlynmyş hemolitik serumdan ejni pipetqa ilə məhlulu birinçi çərgədəki mixbərlərə tökərkən ən alcaq dərəçədə, daha doqrusu hemolizi az olan mixbərlərdən başlamalıdır). 1,0 *sm* qomplementin 19,0 fiziologi məhlulilə qarışılmış məhlulundan (1:20) 0,5 antigen və myajənə edilən serumun əvəzində 1,0 fiziologi məhlul və 0,5 qırmızı qan çismçijindən (2,0—5% məhlulundan) ilavə edib 37 dərəçə hərarətdə 10 dəqiqə (bə'zi laboratorijalar göstərilən hərarətdə 2 saat saqlajırlar) saqladıqdan sonra reaqsijanın nəticəsinə baqırlar.

Hemolitik serumun fiziologi məhlul ilə qarışdırılıb myxtəlif dərəçələrdə məhlulun əmələ gətirilməsi cətinlik tərətməməsi ycyn aşaqıdakı çədvəldən (çədvəl 1) istifadə etməlidir. Ilk dəfə 0,1 hemolitik serumun 9,9 *sm* fiziologi məhlulla qarışdırıb 1:100-ni aldıqdan sonra gələçək məhlulları 1/100-dən hazırlajırlar.

Çədvəl 1.

Hemolitik serumun 1|100-i	Fiziologi məhlul (NaCl)	Bəlynmənin dərəçəsi
0,1	0,3	1 : 4000
0,1	0,4	1 : 500
0,1	0,7	1 : 800
0,1	0,9	1 : 1000
0,1	1,4	1 : 1500
0,1	1,7	1 : 1800
0,1	1.9	1 : 2000
0,1	2,4	1 : 2500
0,1	2,9	1 : 3000

Çədvəl 2.

Hemolitik serumun titrasijasъ aşaoqъdakъ çədvəl yzrə olmalъdъr.

Hemolitik serumlarъn myxtəlif nisbətləri	1 : 400	1 : 500	1 : 800	1 : 1000	1 : 1200	1 : 1500	1 : 2000	1 : 1300	Hemolizin qontrolu 1 : 1000	Qomplementin qontrolu məh. qontrolu
Hemolizin	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	—
Qomplement 1 : 20	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5
Fiziologi məhlul	1,0	1,0	1,0	1,0	1,0	1,0	1,0	1,0	1,5	1,5 2,0
Eritrositlər	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5 0,5
Nəticə	Tamam hemoliz	Tamam hemoliz	Tamam hemoliz	Tamam hemoliz	Tamam hemoliz	Tamam hemoliz	Tamam hemoliz	Hemoliz zəifdir	Hemoliz joqdur	Hemoliz joqdur

Hemolitik serumun titrasijasъnda qontrol mixbərlər: 1) qomplementsiz maqsimal miqdarda hemolitik serum bulunan mixbər,

2) hemolitik serumsuz qomplement olan mixbər, 3) qomplementsiz və hemolitik serumsuz mixbərlər olmalıdır.

Göstərilən hər yc mixbərdə reaqsija alınmajaçaqdır; jə'ni qırmızı qan çismçikləri əriməjəçəkdir. Reaqsija hemolitik serumun 1 : 2000 titrinə mysavi olduqunu bildik; lakin əsas təçribəni və ja başqa qomponentlərin titrasijasını apararkən 1 : 2000 titrilə işləməjib bunu iki dəfə artırmaq lazımdır; jə'ni 1 : 1000-nə bölynməsindən istifadə ediləçəkdir ki, buna da iş titri dejilir.

Az miqdarda hemolizinlə 10 dəqiqə 37—38° hərarətdə, 0,05 qarışılmamış qomplementin olduqu myhitdə, 1,0 *sm* 2,5% qırmızı qan çisimçijinin tamamən əridilməsi hemolizinin titri olaçaqdır.

QOMPLEMENTIN TITRASIJASI.

Qomplementin titrasijası mymkyn qədər həm hemolizin və həm baqterija sistemində aparılmalıdır.

Qomplementin nə miqdarda olması əsas təçribənin verdiji nəticə ilə əlaqədardır. Qomplementi jalınız miqdar tərəfdən dejil hətta başqa tərəflərdən də myajənə etmək lazımdır. Səbəblərdən biri hemolizin titrinin dəjişilməsidir. Bu dəjişdirmənin qomplementə buraqdıqı tə'siri nəzərə alaraq qomplementin qyvvəsini bildikdən sonra əsas təçribə japılmalıdır.

Az miqdarda qomplementin (iş titrində) 10 dəqiqə 37—38° hərarətdə mixbərdə bulunan qırmızı qan çisimçijini tamamən əritməsi qomplementin titri olaçaqdır.

Qomplementin titrini tə'jin etmək ycyn qomplementin yzərində titrasija aparan laboratorija qomplementi ilk dəfə az miqdarda gətyrməklə, tədriclə gələçək mixbərlərdə qomplementin miqdarını artırırlar.

Burada əsas məqsəd, qırmızı qan çisimçijinin tamamilə ərlməsində iştirak edən qomplementi tapmaqdır, mixbərlərdə qırmızı qan çisimçiklərinin tamamilə əriməməsi qomplementin kifajət miqdarda olmamasını göstərir; bunun yzərində aşaqıda daha ətraflı dajanaçajıq; əgər qomplement artıq olarsa, bu hal reaqsijanın getməsinə mane ola bilər (daha doqrusu qarışıqlıq əmələ gətirər).

Titrasijanı aparmaq ycyn tələb edilən mixbərləri gətyryb yzərinə qomplementin nə miqdarda gətyrylməsini jazdıqdan sonra, qomplementləri ilavə edirlər.

Qomplement olduqu kibi işlədilməjir, qomplementin hər 1,0 sm^3-nu 19,0 sm^3 fiziologi məhlul ilə qarışdırmaq (1:20) lazımdır (bə'zi laboratorijalar 1:10 ilə işləjirlər). Mixbərlərdə majein miqdarı 1,6 olmalıdır; qomplementlə fiziologi məhlul, 0,5 təşkil etməlidir, əgər qomplement az gətyrylyrsə, miqdarı bir barabar qaldırmaq ycyn qalan hissəsini fiziologi məhlulla əvəz edirlər.

Çədvəl 3.

Qomplementin hemolizin sistemində titrasijasы.

Nəticə	Az hemoliz	Az hemoliz	Az hemoliz	Az hemoliz	Az hemoliz	Az hemoliz	tamam hemoliz	Tamam hemoliz	Tamam hemoliz	Tamam hemoliz	Tamam hemoliz	Tamam hemoliz
Mixbərlərin №№												
Hemolizin iş titrində	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	1,5	0,5
Qomplement 1 : 20	0,06	0,1	0,14	0,18	0,22	0,26	0,3	0,34	0,38	0,42	0,44	0,46
Fiziologi məhlul	0,44	0,4	0,36	0,32	0,28	0,24	0,2	0,16	0,12	0,08	0,06	0,04
Qырмызы qan çisimcikləri.	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5	0,5

0,5 *sm* qырмызы qan çisimçiklərinə (onun hansы %-də olmasы nəzərə alынmalыdыr) hemolizini ilavə edirlər (çədvəl 3) 0,3 qomplement ilavə edilmiş mixbərdə hemoliz istənilən dərəcədə aiындыqы ycyn 0,3 qomplementlə kifajətlənmək (bə'zi səbəblərə gorə, jə'ni şybhəli serum 4—5 gyn saqlanылдыqda 3—4 sm^3 miqdarында da, istifadə etmək olar) lazыmdыr.

Ymumijjətlə Hind donuzundan alынmыş təzə serumun 0,03—0,04-i hemolizin sistemində tamam hemoliz əmələ gətirir. Juqarыda gəstərdijimiz kibi qomplementin baqterija sistemində də joqlanылmasы lazыmdыr; xysusən bu reaqsijanын ən məs'ul tərəflərindən biridir.

Qomplementin, hər iki sistemin olduqu myhitdə tələb edilən miqdardan artыq olmasы, alынan nətiçənin janlыş olmasына səbəb olur.

Qomplementin qyvvəsini baqterija sistemində өjrənmək bir coq səbəblərlə əlaqədardыr.

Normal serumun iştirak etdiji myhitdə, antigenin olduqu və olmadыqы mixbərlərdə, manqo serumu olub, lakin antigeni olmajan mixbərdə qырмызы qan çisimçijinin 15 dəqiqə 37—38° hərarətdə bytynlyklə ərijən ja hemolizin alынmasында (cөkynty əmələ gəldiji ycyn məhlul şəffaflaşыr, hemoliz joqdur) tələb edilən qomplementin miqdarыны bilmək ycyn onun titrasijasыны baqterija sistemində jazmaq lazыmdыr. Antigen və şybhəli serumun reaqsijada iştirak etməsi, qomplementin hemolizin sistemində tə'jin edilmiş titrini dəjişə bilər.

Qomplementin baqterija sistemində titrasijasы normal və manqo serumunun iştirakы ilə olmalыdыr; iki çərgə mixbər gətyryb

Çədvəl 4.

Qomplementin вaqterija sistemində titrəsijasь

Mixвərlər №№	Manqolu serum	Saqlam atьn serumu	Fizioloƶi məhlul		Qomplement	Antigen	F.məhlulu		Hemolzin	Q. Q.Ç.		Nətiçə
1	0,05		0,45	30 dəqiqə 58—59° hərarətdə inaqtivləşdirilir	0,2	0,5	0,3	Mixвərləri calqalajьв 37—38° hərarətdə 20 dəqiqə saqlajьrlar	0,5	0,5	Mixвərləri calqalajьв 37—38° hərarətdə 15 dəqiqə saqlajьrlar	Hemoliz joqdur.
—	0,1		0,9		0,2		0,3		0,5	0,5		Hemoliz zəifdir.
2	0,05		0,45		0,25	0,5	0,25		0,5	0,5		Hemoliz joqdur.
—	0,1		0,9		0,25		0,25		0,5	0,5		Hemoliz qyvvətlidir.
3	0,05		0,45		0,3	0,5	0,2		0,5	0,5		Hemoliz joqdur.
—	0,1		0,9		0,3		0,2		0,5	0,5		Hemoliz tamamdьr.
4	0,05		0,45		0,35	0,5	0,15		0,5	0,5		Hemoliz joqdur.
—	0,1		0,9		0,35		0,15		0,5	0,5		Hemoliz tamamdьr.
5	0,05		0,45		0,4	0,5	0,1		0,5	0,5		Hemoliz joqdur.
—	0,1		0,9		0,4		0,1		0,5	0,5		Hemoliz tamamdьr.
6	0,05		0,45		0,45	0,5	0,05		0,5	0,5		Hemoliz joqdur.
—	0,1		0,9		0,45		0,05		0,5	0,5		Hemoliz tamamdьr.
7		0,05	0,45		0,3	0,5	0,2		0,5	0,5		Hemoliz tamamdьr.
—		0,1	0,9		0,3		0,2		0,5	0,5		H1moliz tamamdьr.
8	0,05		0,95		0,35		0,15		0,5	0,5		Hemoliz tamamdьr.
—	—		1,0		0,35		0,15		0,5	0,5		Hemoliz tamamdьr.
9	—		1,0		0,35		0,5		0,5	0,5		Hemoliz joqdur.
—	—		2,0		0,5				0,5	0,5		Hemoliz joqdur.

hər birinə eyni miqdarda normal serum (0,05) qomplement, çərgənin birinə antigen ilavə edib o birinə qomplement əvəzinə fiziologi məhlul ilavə edilir. Başqa iki çərgənin hər ikisinə də (0,05) manqo serumu tökyb birinə antigen ilavə edir, o birinə isə ilavə edilməyir (qomplementin qyvvəsi tədriclə yyksəlməlidir, məsələn 0,1; 0,2; 0,25; 0,3; 0,35; 0,4; 0,45 və 0,5 kibi dərəcələrdə olmalıdır).

Dərt çərgələrin hamısı 20 dəqiqə 37—38° hərarətdə saqlanılır; yzərinə 0,5 qırmızı qan çisimcikləri və 0,5 hemolizinin iş titrindən ilavə edib 1,5 dəqiqə 37—38° hərarətdə saqladıqdan sonra nəticəyə qiymət verilir.

Normal serum olan mixbərlərin hamısında hemoliz olaçaqdır; lakin manqo serumu və antigen olan mixbərlərdə qırmızı qan çisimcikləri əriməyəçəkdir. Nəticədə 0,3 qomplement olan mixbərlərdə qırmızı qan çisimcikləri tamamilə əridiyi ycyn, bu miqdar qomplementin tələb edilən dərəcəsini göstərəçəkdir; lakin əsas təcribədə 0,35 qomplement iştirak etməlidir.

Antigenin titrasiyası. Laboratorija reaqsiyanı yaparkən coq zaman antigen hazırlayan laboratoriyanın titrindən istifadə edir; ançaq axırıncı təçribələr bunun doqru olmamasını sybut etmişdir (antigen hazırlayan laboratoriyanın titrilə hesablaşmaq olar; ançaq yeni serija antigen alınan zaman, antigeni öz titrilə manqo və normal serumda myayənə etmək lazımdır. Ş u b e r t antigenin yalınız hemolizin deyil, hətta baqterija sistemində də titrasija edilməsini söyləyir.

Antigenin titrasiyası 3 formada aparıla bilər. Iki myxtəlif dərəcədə manqolu, bir çyr saqlam serumun olduqu və onun olmadıqı myhitdə titrasija aparılmalıdır. Antigenin titrasiyasında iştirak edən qomplement və hemolizin iş titrində olmalıdır. Antigeni işlətmədən qabaq onu fiziologi məhlula qarışdırmaq və myxtəlif qarışıqlarını hazırlamaq lazımdır. Texniki tərəfdən cətinlijin tərənməməsi ycyn ilk dəfə antigendən 1:10—hazırlayıb sonra başqa dərəcələrini hazırlayırlar (çədvəl 5) 1,0 antigeni 9,0 fiziologi məhlul ilə qarışdırıb 1 : 10 (10%) əldə edirik.

Antigenin başqa myxtəlif dərəcələrdə olan bəlmələrini hazırlamaq ycyn aşaqıdakı çədvəldən istifadə edilməlidir.

Çədvəl 5.

Antigenin 1 : 10 olan məhlulu	Fiziologi məhlulu (NaCl)	Qarışdırmanın dərəcəsi
1,0	1,0	1 : 20
1,0	2,0	1 : 30
1,0	3,0	1 : 40
1,0	4,0	1 : 50
1,0	5,0	1 : 60
1,0	7,0	1 : 80
1,0	9,0	1 : 900
1,0	10,0	1 : 200

Antigenin titrasiyası

Cədvəl 6.

Mixtərlərin №-si	Antigenin qarışma dərəcəsi	Antigen	I Manqolu serum	II Manqolu serum	Normal serum	Komplement	Fiziloji məhlul		Hemolizin	Qoyunun qırmızı qan cisimcikləri		Nəticə
								Mixtərləri çalqalayıb 38° hərarətdə 15 dəqiqə saxlamalıdır			38° hərarətdə 20 dəqiqə saxlamaq	
1	1 : 40	0,5	0,1	(0,05)		0,5	0,4		0,5	0,5		1 : 40 qarışığından
2	1 : 50	0,5	0,1	(0,05)		0,5	0,4		0,5	0,5		1 : 200 qarışığına kimi hemoliz joqdur
3	1 : 60	0,5	0,1	(0,05)		0,5	0,4		0,5	0,5		Hemoliz zəifdir
4	1 : 80	0,5	0,1	(0,05)		0,5	0,4		0,5	0,5		Hemoliz
5	1 : 100	0'5	0,1	(0;05)		0,5	0,4		0,5	0,5		„
6	1 : 200	0,5	0,1	(0,01)		0,5	0,4		0,5	0,5		„
7	1 : 400	0,5	0,1	(0,05)		0,5	0,4		0,5	0,5		„
8	1 : 60	0,5			0,1	0,5	0,4		0,5	0,5		
9	1 : 80	0,5			0,1	0,5	0,4		0,5	0,5		
10	1 : 100	0,5			0,1	0,5	0,4		0,5	0,5		
11	1 : 200	0,5			0,1	0,5	0,4		0,5	0,5		

Antigenin titrasijasы juqarыda göstərdijimiz kibi mymkyn qədər, titrasijada manqo və normal serumlarы da iştirak etməlidir.

Bunun daha ajdыn olmasы ycyn aşaqыdakы misalыn (çədvəl 6) yzərində dajanalым.

6 nymrəli çədvəldə iştirak edən I və II nymrəli manqolu serumlar hər biri tək-tək mixbərlərdə olmalыdыr. Mixbərin icərisində olan majein miqdarыnы 2,5 catdыrmaq, II nymrəli manqolu serumu 0,5 qaldыrmaq ycyn 0,45 fiziologi məhlul ilavə edilməlidir. 1:200 nisbəti qыrmызы qan çisimçiklərinin icərisində iştirak edir; lakin 1:400 nisbəti zəif məhlul olduqu ycyn hemoliz əmələ gəlir. Buna görə antigenin titri 1:200 olaçaqdыr; lakin gyndəlik təçribədə reaqsijanы apararkən bu rəqəmi iki dəfə azaldыrlar; jə'ni 1:200-ni gətyrməjib 1:100 nisbətindən istifadə edirlər.

Baş təçribə.

Baş təçribənin edilməsi juqarыda hazыrladыqыmыz maddələrə əsaslanmыşdыr; hemolizin və antigeni təçribə aparan laboratorija mərkəzi laboratorijalardan hazыr formada alыr; lakin 5% qыrmызы qan çisimçiji məhlulunu, təhlil edilən şybhəli serumun vaqtында alынb reaqsijanы qojan gyny inaqtivizasija edilməsi və Hind donuzundan zərdabын alынb, komplementin (bu zərdabы inaqtivləşdirməmək) sifətində işlədilməsi reaqsijanы qojan laboratorija tərəfindən hazыrlanmalыdыr. Reaqsijanын əsas hissələrindən biri reaqsijada iştirak edən fiziologi məhluldur. Fiziologi məhlulu hazыrlamaq ycyn 8,5 təmiz kimjəvi NaCl duzunu 991,5 saflanmыş nejtral suda əridirlər (fiziologi məhlulunun doqru hazыrlanmasы reaqsijada bəjyk dəjişiklik oqrada bilər). Baş təçribənin qojulmasында əsas məqsəd təhlil edilən şybhəli serumda amboseptorun olub-olmamasы və əgər varsa onun nə miqdarda olduqunu bilməkdən ibarətdir. Təhlil edilən serumlar iki mixbərə tökylməlidirlər, birinçi mixbərə 0,05 və ikinçijə 0,1 serum tökyb ikinçi mixbərə isə antigen ilavə edilməjəçək, cynky ikinçi mixbər birinçi mixbər ycyn qontrol olaçaqdыr. Reaqsija şybhəli alынdыqda serumun təhlili 4 mixbər yzərində aparылmalыdыr. Mixbərin ikisinə 0,05 və 0,1 serum ilavə edib qalan iki mixbərə ejni dozalar ilavə edilərsə də, lakin axырынçы iki mixbərə antigen ilavə edilməjir.

Ikinçi çərgədə olan qontrol mixbərlərinin bəjyk əhəmijjəti vardыr. Reaqsijanын doqru və janlыş qojulmasыны mixbər göstərə bilər, əgər ikinçi çərgədə olan mixbərlərdə hemoliz tamam alынarsa, bu vəzijjət təhlil edilən serumun reaqsija jaratdыqыnы və reaqsijanын doqru qojulmasыны göstərir, lakin onun mənfi çihətləri də ola bilər, belə ki, qontrol mixbərində hemolizin xarab olduqunu komplementin az gətyrylməsini və ja reaqsijada səhvlərin buraqыldыqыны göstərir. Əgər laboratorijada bu hal təsadyf edilərsə, şybhəli serum (lazым gələrsə həmin atdan jeni serum alынmalыdыr) jenidən təhlil edilməlidir.

Baş təçribədə başqa nev' qontrol mixbərlər olmalıdır.

Manqolu və normal serumların qontrol mixbərləri (bu serumların miqdarı təhlil edilən serumun miqdarı qədər olmalıdır) hemolizin serumunun qontrol mixbəri, eritrositlərin qontrol və antigenin qontrolu da qojulmalıdır.

Təhlil edilən serumları mixbərlərə tökmədən qabaq onun 1,0-nı 9,0 fiziologi məhlul ilə qarışdırmalıdır, cynky serumlar az miqdarda gətyrylyr, bu miqdarda pipetqa ilə jıqmaq çətinlik törətdiji ycyn serumun $^1/_{10}$ məhlulunun hazırlanması məsləhət gərylməlidir. $^1/_{10}$ məhlulu inaqtivləşdirib reaqsijaja buraqmaq mymkyndyr. Reaqsijanı qojan şəxsin diqqətli olması reaqsijada sərf edilən enerzinin az işlədilməsinə səbəb olur. Bə'zən təxmini səhvlərin buraqılması təçribənin azlıqı reaqsijaja dair olan və ja adını qejd etmək lazımdır. Ikinçi çərgədə nymrəni jazmaqla barabar—nişanı da qejd edilməlidir. Reaqsijada iştirak edən qomplement, hemolizin və antigen kibi qomponentlərin miqdarı iş titrində gətyrylməlidir.

+ nişanının miqdar çihətçə coq olması eritrositlərin mixbərdə cökynty jaradıb majein şəffaf olmasını göstərir; bə'zi şəxslər reaqsija mysbət, jə'ni gərkəmli olub maje şəffaf olduqda beşə qədər + qojurlar.

19 nymrəli atda 4 + manqonun şiddətli dərəçədə olduqunu göstərir; 25 nymrəli atda 2 + hemolizin bir qədər başlanmasını göstərir: at xəstədir, lakin zərdabda amboseptorların miqdarı azdır.

7 nymrəli atda 1 + hemolizin şiddətli dərəçədə olub az miqdarda cökyntynyn olmasını göstərir.

11 nymrəli atda — nişanı atın zərdabında amboseptorların olmamasını, eritrositlərin təmamən əriməsini və cökyntynyn olmamasını göstərir.

Eritrositlərin qontrolunda qırmızı qan çisimçiklərini əridiçi maddələr olmadıqı ycyn eritrositlər hamısı mixbərin dibinə cökmyşdyr, jə'ni maje şəffaflaşmışdır.

Reaqsijaja iki dəfə qijmət verməlidir, birinçi reaqsijanı qojandan 15—20 dəqiqə sonra olmalıdır, mixbərləri su vannalarından cıqardıb diqqətli surətdə baqmaq lazımdır. Ikinçi isə 12—24 saatdan sonra olur, ikinçi ysulda mysbət nətiçə verən mixbərlərdə eritrositlərin hamısı 12—24 saatın zərfində mixbərin dibinə cökyr, maje jyksək dərəçədə şəffaflaşır.

QONQLUTINASIJA REAQSIJASI.

Qaramalın inaqtivləşdirilmiş serumu olduqu myhitdə iştirak edən qırmızı qan çisimçikləri və ja basillər mixbərin dibinə toplanıb jıqıntı-qonqromerat əmələ gətirirlər—qonqlutaninləşirlər. Hind donuzunun qırmızı qan çismçikləri bu dəjişikliklərə oqramadıqları ycyn Q l e j a və B o r d e bu ysulu miqrobiologi texniqaja ilavə etmişlər. Qaramal serumunun qırmızı qan çismçiklərilə apardıqı rəftarı, antigen və tərkibində mynasib ambo-

Baş təcribə

Çədvəl 7.

Serumların №№	Şübhəli serumların dozaları	Fiziologi məhlul (NaCl)		İş titrində antigen	İş titrində komplement		İş titrində hemolizin	Qırmızı qan çisimcikləri		Nəticə
19	0,05 – 0,1	0,45 0,9	İnaktivləşdirilməsi üçün 58—59° hərarətdə 30 dəqiqə saxlanılmalıdır.	0,5	0,5—0,5	Qarışdırılıb 37—38° hərarətdə 20 dəqiqə saxlanılır	0,5 – 0,5	0,5 – 0,5	Qarışdırılıb 37—38° hərarətdə 15—20 dəqiqə saxlanılır	
25	0,05 – 0,1	0,45—0,9		0,5	0,5 – 0,5		0,5—0,5	0,5—0,5		
7	0,05—0,1	0,45—0,9		0,5	0,5 – 0,5		0.5—0,5	0,5—0,5		
11	0,05—0,1	0,45—0,9		0,5	0,5—0,5		0,5—0,5	0,5—0,8		
Manqo serumunun qontrolu . . .	0,05—0,1	0,45—0,9		0,5	0,5 0,5		0,5 – 0,5	0,5 –0,5		
Normal serumun qontrolu	0,5—0,1	0,45—0,9		0,5	0,5—0,5		0,5—0,5	0,5—0,5		
Antigenin qontrolu	—	—		0,1	0,5		0,5	0,5		
Eritrositin qontrolu	—	2,0		—	—		0,5	0,5		
Hemolizin qontrolu	—	1,0		—	0,5		0,5	0,5		

septorlar bulunan serumun vasitəsilə mymkyn olduqu ycyn təhqiqatcılar bu ysulu diaqnoz işində istifadə etmişdirlər.

Qonqlutin reaqsijasında aşaqıdakı maddələrin olması lazımdır. Jarım saat 58—60° hərarətdə inaqtivlənmiş təhlil ediləçək atın serumu jarım saat 54° hərarətdə inaqtivizasija edilmiş qaramal serumu qomplement əvəzində atın serumu manqo basilinin eqstraqtı antigen—qomplementlərin birləşmə reaqsijası ycyn tə'jin edilmiş titr bu reaqsija ycyn də mynasibdir və axırıncı isə fizioloji məhlulda hazırlanmış qojunun 5% qırmızı qan çismçikləridir.

Bu reaqsijada hemolizin sistemi əvəzinə qonqulitininləşdirmək sistemi istifadə edilir və bunun tərkibinə isə qaramalın inaqtivlənmiş serumu atın təzə serumu və qırmızı qan çisimçikləri daxildir. Qomplementlərin birləşmə reaqsijası ilə qonqlutinizasijanın arasındakı fərq qomplementlərin birləşmə reaqsijasında iştirak edən Hind donuzunun serumunu reaqsijada saqlam atın serumilə əvəz etdikdə nəticədə hemoliz əmələ gəlir, halbu ki, ikinçi reaqsijada qomplement əvəzində istifadə edilən atın serumu saqlam atın serumilə qırmızı qan çisimçiklərini qonqulitininləşdirir.

Reaqsijanı qojarkən mymkyn qədər aqzı gen mixbərlərdən 0,1—15,0-lıq pipetqalardan istifadə etməlidir, bunun aparılması texniki tərəfdən bir o qədər cətinlik jaratmajır, reaqsijanın qojulması aşaqıdakı ysul yzrə olmalıdır. Mixbərə 0,2 tədqiq edilən atın inaqtivlənmiş serumunu 0,1 antigen (antigeni 1,0—9,0 fiziologi məhlul ilə qarışdırıb sonra işlətməli) və 0,1 qomplement (atın təzə serumu ilə) mykəmməl dərəçədə qarışdırıb bunların birləşməsi ycyn 1 saata qədər 18—20° hərarətdə saqlajırlar. Bu vaqt qurtardıqdan sonra məhlulun yzərinə 0,05 qaramalın inaqtivlənmiş serumunu və 2—3 damçı 5% qırmızı qan çisimçiklərinin məhlulundan ilavə edib reaqsijanın nəticəsini gərməkdən ötry 2 saat göstərilən hərarətdə (bə'zi laboratorijalar axırıncı nəticəjə 3—4 saatdan sonra baqırlar) saqlajıb reaqsijaja qijmət verirlər.

Təhlil edilən serum, manqolu atda isə qırmızı qan çisimçikləri laxtalanmajır (laxtalanmaq mixbərdə jıqıntıların olmasını göstərir), lakin fiziki qanuna görə mixbərin dibinə jıqılıb myəjjən formaja, qıraqları, dyz girdə cökynty əmələ gətirirlər (cökynty bə'zən dyjməjə bənzəjir). Mixbəri sirkələdikdə cökyntynyn yzərində olan maje bir barabarda bojanmış qırmızı rəngə cevrilir və bu əlamətlərə görə reaqsija mysbət olaçaqdır.

Təhlil edilən serumda amboseptorlar olmadıqda qırmızı qan çisimçikləri mixbərin dibini hər tərəfdən ihatə edirlər və cökyntyjə oqşajan hissənin qıraqları cıqıntılı olur; cökyntylərin yzərində bə'zi hallarda az dərəçəli hemoliz də təsadyf edilir. Əksərijjətlə maje şəffaf olur. Mixbəri silkələdikdə dibindən bir necə, parça-parca hissələr majein icərisinə qalqır; əgər bu hala təsadyf edilərsə, reaqsijaja mənfi nəticə verilməlidir.

Reaqsijada bir necə qontrol mixbərlər qojulmalıdır. Bir, iki mixbərə saqlam atın serumunu götyryb birisinə antigen ilavə edi-

lir: o birinə isə edilməjir. Manqolu atdan alınmış serumu myxtəlif miqdarda mixbərlərə təkyb qontrol yçyn bunun da yzərində reaqsija aparırlar. Qontrol məqsədilə istifadə edilən həm normal və həm də manqolu serumlar qabaqçadan ətraflı surətdə təhlil edilməlidirlər.

Qaramalın inaqtivlənmiş serumunu coq (30 gyn) vaqt saqlamaq yçyn yzərinə 0,5% qarbol turşusu ilavə edilməlidir.

Manqonun aqlutinasija ilə diaqnozu. Manqonun diaqnozunda aqlutinasija reaqsijasının daha coq əhəmijjəti vardır: cynky başqa serolozi reaqsijalar manqonun ilk başlanqıçını xəstə hejvanda tə'jin edə bilməjir, aqlutinasija reaqsijası isə hejvanın xəstələnməsindən 8—15 gyn kecdikdən sonra hejvanda manqonun olduqunu göstərə bilər, lakin manqonun xroniki formasında aqlutinasija reaqsijası mənfi nətiçə verir. Halbu ki, qomplementlərin birləşmə reaqsijası xəstəlijin axır dərəçələrində də tələb edilən nətiçəni verə bilər. Aqlutinasijanın manqo yçyn mynasib diaqnoz ysulu olduqunu **Qejulin, Vladimirov, Şjuts və Maq-Fedienin** işləri göstərmişdir. Normal atlarda coq miqdarda adi aqlutininlər vardırsa da lakin serumun jyksək dərəçələrə (1:1500, 1:4000) bölynməsi xəstəlijin olduqunu göstərir.

1 : 400 bölynməsi manqonu sybut etməməlidir; 1 : 1500 manqonun olduqunu və 1 : 4000 isə manqonun təzə formada və ja xroniki prosesə kecdijini göstərməlidir. Aqlutinasijanın qojulması yçyn manqo basilinin emulsijasını hazırlamaq lazımdır.

Qulturu əldə etməkdən ətry onu qliserinli aqar-aqarda və ja qartofda əkib, 2—3 gyn optimal hərarətdə saqladıqdan sonra 60° hərarətdə tələf etməlidir. Qulturu tərkibində 0,5% qarbol turşusu olan fiziolozi məhlulla jujurlar (antigenin nə qatılıqda hazırlanması myxtəlif jollarla ola bilər. Daimi standartlardan və ja emulsijadan preparatın hazırlanıb bojandıqdan sonra miqrosqop sahəsində onların bir barabarda jerləşməsilə, antigenin rəngilə emulsijanın qatılıqını tə'jin edirlər).

Hazırlanmış emulsijadan aqzı gen mixbərlərə 2,0 miqdarında təkyb yzərinə 1 : 300, 400, 500, 800, 1000, 1500 və 2000 dərəçəli serumlardan ilavə etməklə termostat hərarətində bir gynə kibi saqlajırlar.

Ilavə edilən serumda manqo basilinə qarşı aqlutinin varsa, spesifik fazaja görə antigen-basil aqlutinin ilə birləşib mixbərin dibində girdə cökynty (dyjmə) əmələ gətirdikləri yçyn majein yzərində başqa maddələr qalmadıqına görə maje şəffaflaşır. Cökyntynyn şəffaflaşmasının jyksək dərəçədə olması, xəstəlijin şiddətli olduqunu göstərir. Əgər maje şəffaflaşmajırsa və mixbərin dibində cökynty lajiqinçə alınmajırsa, bu xəstəlijin olmamasını göstərir.

Reaqsijaja qijmət verərkən 1 : 400-dən juqarı mixbərlərlə hesablaşmaq lazımdır. Hali-hazırda Sovet Sosialist Respubliqalarında manqo ilə mybarəzə bu qajda ilə aparılır; qabaq vaqtlarda manqonu ölkədən təmizləmək yçyn mysbət reaqsija verən hejvan-

larьn hamьsь tələf edilirdi; lakin indi isə manqonu acьq formada davam etdirib xəstəliji ətraf myhitə jaja bilən hejvanlarь tələf edirlər; cynky bunlarьn xariçi myhit ycyn coq qorqusu vardьr. Malleinizasija zamanь reaqsija mysbət nətiçə verib, xəstəlijin qliniki əlamətlərini göstərməjən hejvanlar tə'jin edilmiş təsərryfata toplanьb orada istifadə olunurlar. Bu ysul gələçəkdə manqo ilə mybarəzə tədbirlərində əsas baza olmaqla barabar manqonun gələçəkdə ölkəmizdə tamamən ləqv edilməsinə səbəb olaçaqdьr. Hali-hazьrda bəjyk sovxoz-qolxoz atcьlьq təsərryfatlarьnda at zavodlarьnda və i. a. bu kibi jerlərdə manqo ilə mybarəzə bu qajda yzrə aparьlьr. Bu çyr mybarəzə ysullarь bajtarlьq qontrolu qyvvətli olmajan fərdi təsərryfatlara da jajьlmalьdьr. Aparьlan mybarəzə bir tərəfli olursa, onun nətiçəsiz qalmasь göryləçəkdir.

ATLARЬN LIMFATIK DAMARLARЬNDA JARALЬ ILTIHABLAR.

(Lymphangitis ulcerosa equerum)

Atlarda xroniki və joluquçu bir xəstəlik olub əksərijjətlə limfatik damarlarьnь zədələməklə dəri yzərində uzun formada dyjymlər əmələ gətirir ki, vaqtilə bu dyjymlər acьq jaralara cevrilirlər.

Xəstəlik kejfijjətçə myxtəlif olur; bə'zən at saqalьr qejri hallarda isə tələf olmasь mymkyndyr. Xəstəlijin myddəti ajlarça və hətta bir ilə jaqьn syryr; xəstə atьn saqalmasьnda sojuq və isti myhym rol ojnajьr; belə ki, sojuqda xəstəlikdən saqalma %-i coq az olursa, isti ajlarda xəstəlikdən saqalan atlarьn miqdarь daha coq olur. Eşşəklərdə xəstəlik daha şiddətli formada davam edir; bunda xəstəlijin şiddətli formada olmasьnь, limfatik vəzilərində gedən prosesin sajəsində əmələ gələn irin maddələri sybut edə bilər. Dyjymlər bir jerdə olarkən tədriçlə hejvanьn başqa jerlərinə də jajьlьr; dyjymlərin əksərijjəti ajaq hissələrində göryly.

Prejs və Noqar bu xəstəlijin tərədiçisini ətraflь surətdə öjrənmişdirlər; bu spor jaratmajьr və özy də B. pseudotuberculosis bovisə bənzəjir; Qramm ysulilə jaqşь bojanьr; miqrosqop preparatlarьnьn hazьrlanmasь ycyn dəri yzərində olan dyjymlərdən, jaralarьn irinindən istifadə edilir. Lakin tərədiçinin yzərində təhqiqat aparanlar onun hər zaman göstərilən materiallardan tapьlmamasьnь tədqiq edirlər və tərədiçilərin əvəzində coq zaman jabancь miqroblar göryrlər.

Bə'zi şəxslər preparatьn patolozi eqsudatlarьndan hazьrlanmasьnь məsləhət göryrlər; cynky qultura bu materialda təmiz formada tapьlьr. Tərədiçilərin barəsində hələ bu vaqta kibi qət'i mə'lumat joqdur; lakin aparьlan təhqiqatlar, bu xəstəlik materialьndan hazьrlanan preparatlarda Noqarьn və Prejs-in təsvir etdikləri basilin təmiz qulturasьnь dərialtь vasitəsilə at və eşşəjə ötyrdykdə qulturun ötyryldyjy jerdə irin prosesi və şiş əmələ gəlir; bu jeri 5—12 gyndən sonra jarьb irini təmizlədikdən sonra həmin jer saqalьr.

Qulturu Hind donuzuna qarьn altь vasitəsilə ətyrdykdə hejvan bir neçə gynyn myddətində tələf olur.

Qulturu dəri altь vasitəsilə aldьqda, sьcan qulturun tə'sirindən 24—48 saatьn zərfində tələf olur.

Qulturun tə'siri cəl sьcanlarьna bir o qədər jyksək dejildir; buna görə bu hejvanlar 10 gynyn myddətində tələf olurlar və tələf olan hejvanlarьn daxili orqanlarьnda pseudotuberquloz xəstəlijinə dair olan əlamətlərə təsadyf edilir.

Təbii xəstəlik zədələnmiş dərinin və ja mexaniki səbəblərdən əmələ gələn jaralarьn kəməklijilə əmələ gəlir. Xəstəlik bir hejvandan o biri saqlam hejvana kecməjir.

Xəstəlijin tərədiçisinə təbiətin coq jerində təsadyf edilir. Xəstəlik bir və ja iki dal ajaq tərəfdən başlandьqda hejvan aqsajьr; bu şiş jerinə toqunduqda aqrь hiss olunur, dyjymlər acьlьb jaralara cevrildikdən sonra duru irin, qanlь eqsudat aqьr.

Diaqnoz xariçi əlamətlərə görə tə'jin edilir. Dərinin yzərində olan jaralarьn tez saqalmasь onu manqodan ajьrьr; burada burunun selik pərdəsi zədələnməjir və biolozi reaqsija mənfi nətiçəni verir.

Dyjymlərdən və dəri yzərində olan jaralardan hazьrlanmьş preparatlarь Qramm ysulilə bojadьqda preparatda mysbət bojanan basilləri görəçəjik.

Dyjymlərin vaqtьnda jarьlьb dezinfeqsija edilməsi jaralarьn əksərijjətini saqaldьr.

Vaqsin oterapija və seroterapija tələb edilən mənfəət vermədikləri ycyn təçribədə onlardan istifadə etməjirlər.

AFRIQA MANQOSU.

(Lymphangitis epizootica).

Epizootija formasьnda davam edən limfa damarьnьn iltihabь xronik xəstəlik olmaqla barabar əksərijjətlə bir dьrnaqlь və bə'zən qaramal arasьnda da təsadyf edilir. Xəstəlijə dutulan hejvanlarda proses jalьnьz limfatik damarlarьnьn yzərində qalmajьb limfatik damarlarьna jaqьn olan limfatik vəzilərinə də kecir.

Morfolozisi. *Cryptococcus forciminosus Rivolta* və ja *Sacharamyces farciminosos Tokishige* Afriqa manqosunun tərədiçisi olub, əsas formasь oval və uçlarь bir qədər şişdir. Uzunluqu 3—4μ eni 2,5—3,5 μ kibi olur. Irin və lejqositlərin icərisində bunlarьn coqalmasь tumurçuqlanma ilə davam edir. Coqalma çihətdən bunlar qьçqьrma göbələkçiklərinə bənzəjirlər. Miqrob iki qat qьlaf ilə ihatə edilmişdir, yzərində nyvə ajdьn görylyr. Qьlaf adi bojalarь pis qəbul etdiji ycyn miqrob adi bojalarla bojanmajьr.

Mərkəzi hissə bojanь qьlafa nisbətən daha tez qəbul edir, qarbol fuqsini bunu zəif bojajьr. Himza ilə bojadьqda qьlaf bojanmajьb jalьnьz miqrobun mərkəz hissəsi bənəfşə və acьq göj rənginə bojanьr. Irindən hazьrlanmьş preparatlarda miqrobun tək-tək

və ja lejqositin icərisində olduqu gərylyr, bə'zi parazitlərin Qramm ysulilə bojanmasь mymkyndyr.

Qьda myhitlərində inkişaf edib qolonija verməsi coq vaqt qliserin, qənd və atьn serumundan hazьrlanan qьda myhitlərini tələf edir. Qəndli aqarda jaqşь jetişir. Adi qьda myhitlərində və peptonlu buljonda jetişməsi mymkyndyr.

Buljonda bunun inkişafьnь jalьnьz 15—18 gyndən sonra gərmək olur, aqarda isə bu vaqt bir qədər uzundur; təxminən 20—28 gyndən sonra aqar-aqarьn yzərində aq-boz rəngdə xьrda qolonijalar gərynyb iriləşdikdən sonra dutqun rəngə bojanьr.

Qida myhitlərində jetişməsi 30—37 gynə kibi olur.

Neqr və Boqe limfatik vəzilərini əzib 5 hissə suda 24 saat saqladьqdan sonra syzyb yzərinə 20,0 qlyqoza ilavə edirlər. 115° sterilizasija etdikləri qьda myhitinin bu xəstəlik tərədiçisi ycyn mynasib olduqunu səjləjirlər.

Birbaum az qələvi reaqsijaja malik olan yzym şəkəri, 2,5% qliserinli və 4% at serumunun ilavə edildiji aqar myhitində 4 həftədən sonra 22° hərarətdə vərəm basilinin qulturuna bənzəjən qultur almьşdьr. Pis şəraitə qarşь olduqça davamlьdьr. 65° hərarətdə 1 saata jaqьn davam edir, gynəşin şaquli şya'larь 5 gyndən sonra tələf edir. 1% qarbol turşusu, lizoform və 1:500 sylymən məhlulu bir saatьn myddətində tələf edir.

Dərijə ətyrylmyş jara və dyjym irinləri at və qatьr kibi hejvanlarda jerli prosesi jaradьrsa da, bir necə həftədən sonra saqalьr. Əksərijjətlə ətyrylən materiallar gəstərilən hejvanlarda bə'zən hec bir dəjişiklik əmələ gətirməjir. Təbii xəstəlik zədələnmiş dəridən miqrobun jaranьn dərin hissəsinə kecməsilə əmələ gəlir. Ilk xəstəlik qabaq ajaqlardan başlanьr, xəstəlijin jajьlmasьnda hejvanlara xidmət edən şəxslər də iştirak edə bilərlər. At və qatьrlar xəstəlijə bir dərəçədə həssasdьrlar, lakin eşşəjin həssaslьqь bir qədər zəifdir, Neqr təsadyfi olaraq insanlarьn da xəstələnməsini qejd edir.

Inqubasija devri hətta ajlarça syrə bilər. Dəri yzərində olan jaralar tez saqalьrlar; dyjymlər həm dəridə və həm də dəri altьnda ola bilər, bunlar bərk olmaqla barabar aqrь əmələ gətirməjirlər.

Tədriçlə dyjymlər acьq jaralara cevrilirlər, buranьn selik pərdəsində jaralar əmələ gəlir; cənəaltь vəziləri şişirlər; burundan majein aqmasьna coq az təsadyf olunur. Xəstənin halь jenidən pozulur; istijə nisbətən sojuq hava xəstənin vəzijjətini daha da fənalaşdьrьr. Iştihanьn pozulmasь, hejvanьn arьqlamasь və zəifləməsi xəstənin tələf olmasьna səbəb olur.

Tələfatьn %-i bir o qədər jyksək dejildir; myxtəlif ölkələrdə myxtəlif tələfat faizlərinə təsadyf edilir; bə'zilərində 7—10% və başqalarьnda hətta 25—50% qalqьr (Sanfelie, Qloan). Sapa bənzər dyjymlərin və jaralarьn tədriçən inkişaf edib bədənin başqa jerlərinə jajьlmasь limfatik damarlarьnьn şişib bərkləşməsi, onlara jaqьn olan limfatik vəzilərinin həçmçə irinlənməsi, hərarətin olmasь

və başqa bu qьsьm əlamətlər bə'zən həmin xəstəlijin olduqunu göstərə bilər; lakin bununla barabar mynasib materiallar miqrosqopla təhlil edilməlidir.

Materialьn miqrisqopla təhlili diaqnoz məsələsini daha da qyvvətləndirir. Jara, dyjym irinlərini miqrosqopla tədqiq etmək kifajətdir. Başqa xəstəlikdən, xysusən manqodan ajьrmaq ycyn materialьn təçribə hejvanlarьna ətyrylməsi lazьmdьr. Serolozi reaqsijalarьn bu xəstəlijin diaqnozunda verdiji nətiçə doqru olmadьqьndan gyndəlik təçrybədə onlardan istifadə etməjirlər. Buna dair olan myaləçə ysullarьndan biri istirahətin və qyvvətli jemin verilməsi, xəstə jaşadьqь jerin quru və gynəş şya'larьnьn ora dyşməsi kibi, səbəblər bə'zən jyngyl formada xəstəlijin saqalmasьna səbəb olurlar.

Ilk əvvəl əmələ gələn dyjymlərin və jaralarьn başqa jerlərə jajьlmamasь ycyn onlarь jarьb ymumi qajda yzrə dezinfeqsija etməli, xəstələri saqlamlardan ajьrmalьdьr; axьr vaqtlarda bunun myaləçəsində kykyrt qazьndan da istifadə edirlər.

Vejxelin səjləməsinə gərə bu ysulun verdiji nətiçə coq mənfəətlidir (hər 4—8 gyndən bir hejvana dərt, beş dəqiqə qaz verirlər). Teppacьn verdiji mə'lumata gərə 6% qalium iodat məhlulunu (4,0—15,0) tədriçlə xəstə orqanizmə ətyrdykdə xəstəlijə qarşь lazьmi köməklik göstərir; bunun verdiji kömək Qarte, Vinqelin apardьqlarь tədqiqata əsaslanaraq təsdiq edirlər.

TUBERQULJOZ (VƏRƏM).

(Tuberculosis).

Vərəm xroniki və joluquçu xəstəliklər sьrasьna daxil olmaqla barabar, ən əski xəstəliklərdən birisidir. V i l l e m e n 1865-çi ildə xəstəlijin insandan hejvana və ja hejvandan hejvana kecməsini göstərmişdir. *Qlenqe,* ilk dəfə xəstəlik materialьnь adadavşanьnьn qanьna ətyrməklə vərəmi adadavşanьnda almьşdьr. V i l l e m i n xəstəlijin insandan hejvana kecməsi xysusunda, japdьqь təçribələrilə xəstəlijin jalьnьz insandan hejvana kecməsini dejil, hətta onlarьn ejni basil olduqunu belə ətraflь surətdə öjrənmişdir. Japьlmьş təçribələrə baqmajaraq bir coq şəxslər jenə də vərəmin hejvandan insana kecməjib xəstəlijin hejvanlarda **spontat** formasьnda əmələ gəldijini təsdiq edirlər. Başqalarь tərəfindən japьlan bir coq təçribələr xəstəlijin jalьnьz bir jol ilə joq, myxtəlif jollarla əmələ gəldijini sybut ediblər.

Qlebs, xəstəlijin dəri və qan damarь, Qonqejni göz, *Tappejner* inqalijasija vasitəsilə əmələ gəldijini sybut etmişdirlər. Bu təçribələr xəstəlijin başqa materiallar yzrə əmələ gəlməsini göstərir. Q l e r l a c h 1869-çu ildə xəstə inəkdən aldьqь vərəm materialь ilə buzovda həzm aparatьnьn vasitəsilə xəstəlik jaratmьşdьr. Xəstəlijin insandan hejvana verilməsi və spesifik olmasь barəsində japьlan bir coq təçribələrin nətiçəsinin doqru olmasьna baqmajaraq,

bu məsələ jenə diqqətdən qacılmajıb, həll edilməmiş kibi qalır. 1882-çi ildə Robert Qox, apardığı qijmətli tədqiqatın sajəsində vərəm tərədiçisinin, hejvan və insanlarda ejni morfolozi quruluşa malik olub bir-birlərinə jaqın olmaqla insan vərəminin hejvana kecdijini (və əksinə olduqunu) göstərmişdir. Bu təçribədən sonra bu məsələ xysusunda jığılan materialların miqdarı artmaqla barabar xəstəlik ilə aparılaçaq mybarəzənin ysullarını da genişləndirməjə calışırlar. Bu məsələnin mysbət həll edilməsinin banisi olan R o b e r t Q o x xəstə insanların saqlam hejvanlar ycyn və xəstə hejvanların saqlam insanlar ycyn qorqulu olduqunu göstərirdisə də, bir qədərdən sonra söjlədiji həmin fikri inkar edib, insanlar özlərini xəstə hejvanlardan qorumamaları tərəfdarı olur.

1901-çi ildə Londonda caqrılan qonqrada R o b e r t Q o x bu xysusda mə'ruzə edərkən, əvvəlki fikrin tamamən doqru olmajıb, xəstəlik tərədiçinin myxtəlif çins hejvanlarda ejni olmamasını söjləjirdi; məsələn bu qajda yzrə qojulursa (R o b e r t Q o x u n göstərməsinə görə) insan vərəminin materialı ilə insanda vərəm almaq qejri-mymkyndyr. Bu məsələjə əsaslanaraq xəstə hejvanlardan alınan produqtların pasterizasija edilmədən insanlar tərəfindən qəbul edilməsini də söjləjirdi. Almanija və Ingiltərə qomissijaları Robert Qoxun söjlədiji məsələ ilə razılaşmajıb, Robert Qoxun bu məsələdə səhv etdijini və tərədiçinin ejni olduqunu sybut etdilər. Qalmettanın göstərdijinə görə, insanlar kicik jaşlı olduqları zaman onlarda vərəm həzm aparatı vasitəsilə əmələ gəlir. Xəstəliji bu hallarda insanlara jajan xəstə hejvanın sydy, əti və başqa məhsulları ola bilər. Matvejevin söjlədijinə görə T y p. b o v i n u s-a myxtəlif çins hejvanlar arasında başqa tiplərə nisbətən daha coq təsadyf edilir. Insanlar 16 jaşına catmajınça onlarda typ. bovinus 40—45%-ə kibi tapılır. 16 jaşından juqarı isə typ. bovinus typ humanus kecir. Lapidus, bir tipin o biri tipə kecməsini, insanın həddi-buluqa catdıqdan sonra onda əmələ gələn kimjəvi dəjişiklijin tə'sirindən göryr. Aqçijər formasında xəstəlijə dutulan insanlar, myhit ycyn daha qorquludur.

Hali-hazırda SSRI-da insanlarda vərəmin fajizi revolysijadan qabaqkı Rusijaja nisbətən artıq dərəçədə azalmışdır; belə ki, vərəm aqtiv surətdə davam edən şəxslərə xəstəxana və tubdispanserlərdə lajiqinçə tibbi köməklik göstərilir və hətta bu kibi idarələrə myraçəət edə bilməjən şəxslərə belə evlərində lazımi jardım edilir. Vərəmi latent formada davam etdirən şəxslərə işlədikləri və jaşadıqları jerlərdə gigienik şərait dyzəltməklə barabar onlar tubdispanserlər tərəfindən sijahijə alınıb onların yzərində tələb edilən işlər aparılır. SSRI-da zəhmətkeş kytlələrin partija və hykumət tərəfindən olduqça qijmətləndirilməsi, onların işlədikləri və jaşadıqları jerlərin gyn-bə-gyndən sihhijjə tərəfdən jaxşılaşdırılması, iqtisadi tərəfdən tə'min edilməsi, istirahət myəssəslərinin gyndən-gynə artması kibi əsas məsələlər şybhəsiz ki, vərəmə dutulmuş şəxslərin

miqdarьnь daha da azaldaçaq və jaqьn gələçəkdə əski çəmijjətin cirkin mirasь olan bu xəstəliji tamamilə aradan qaldьraçaqdьr. Qossel və Qornetin göstərmələrinə görə vərəm xəstəlijinə səbəb olan insanlarьn miqdarь olduqça jyksəkdir və bunun nə miqdarda olmasьnь bilmək ycyn hər 10.000 əlmyşlərin icində vərəmdən ələnlərin miqdarьnь yc dəfə artьrmaq lazьmdьr.

ralar Banq əldyrylmyş qulturun verdiji mənfəətlə razılaşmajıb, immunizasijanın ilk əvvəl əldyrylmyş qultur ilə aparılıb sonra orqanizmə çanlı miqrobun ətyrylməsini məsləhət görmyşdyr. Boqaz hejvanların arasında immunizasija aparıldıqda boqaz hejvanın vəzijjətini nəzərə almaq lazımdır, cynky pejvənd bə'zən inəjin balanı vaqtsız salmasına səbəb olur və bundan başqa xəstə əz sydy ilə basili ətraf myhitə jaja bilər. Pejvənd çanlı, əly qulturun, qultur və spesifik seremun kəməklijilə də aparılır. Çanlı qultur ilə aparılan immunizasijanın mysbət tərəfləri varsa da, mənfi çihətləri də vardır. Çanlı basili orqanizmə ətyrdykdə basil orqanizmdə inkişaf edir, orqanizmin basil ilə apardıqı mybarəzə aqtivləşir, hərarət jyksəlir və buna görə də əldə edilən immunitet qyvvətli olur. Bu çyr immunizasijanı boqaz hejvanların arasında aparmaq mymkyn dejildir; cynky bunu saqlam, jə'ni boqaz olmajan hejvanların arasında aparmaq lazımdır. Çanlı basil ilə immunizasijanın aparılması saqlam, jə'ni xəstəlijə dutulmajan təsərryfatda olmajıb xəstəlijə dutulmuş təsərryfatlarda olmalıdır, cynky bu qajda ilə xəstəliji təsərryfata jaja bilərik. Ymumijjətlə çanlı basil ilə immunizasijanı təsərryfatda aparmadan qabaq bu məsələ ilə ətraflı tanış olmaq və əgər aparılan immunizasijanın təsərryfata qorqusu joqsa bu zaman immunizasijanı aparmaq lazımdır. Bu pejvənd ysulunda iştirak edən material aşaqıdakı qajda yzrə hazırlanır. **Tərkibinə qliserin-serum ilavə edilmiş buljona** abort basilini əkib 4 həftə saqladıqdan sonra əldə edilən qulturu hejvanın dərisi altına jaxud bilavasitə qanına ətyryrlər. Qana ətyrmənin bir qədər qorqusu vardır, cynky buljona ilavə edilmiş serum at serumu olursa, bu dəfə qaramalda başqa əlamətlər əmələ gələ bilər. Boqaz olmajan hejvanlara material iki dəfə ətyrylməlidir. Birinçi dəfə ilə ikinçi dəfənin arasında kecən myddət iki, jaxud 4 həftə olmalıdır. Bala salmış hejvanlar isə qultura bir dəfə qəbul edirlər.

Əldyrylmyş qulturun immunizasijası myəjjən məqsəd ycyn aparılır. Əgər bə'zi səbəblərə görə çanlı basil ilə immunizasija aparmaq mymkyn olmajırsa, onda əldyrylmyş basil lazımi kəməkliji göstərir; şybhəsiz ki, əldyrylmyş qulturun əmələ gətirdiji aqtiv immunizasija jalınız basilin tərkibində bulunan endotoqsinin sajəsində olaçaqdır. Buna görə bu immunitet çanlı basilin immunizasijasına görə bir qədər zəif olaçaqdır. Zərdablı buljonda, jaxud sadə aqarda əkilmiş qulturu buljon və ja, fiziolozi məhlul ilə juduqdan sonra iki saat 55° hərarətdə qızdırırlar. Hejvanın boqaz olduqundan *2—3* aj kecdikdən sonra hər *2—4* həftədən bir qulturu hejvana dəri vasitəsilə ətyryrlər. Bə'ziləri bu ysulun verdiji mənfəəti bir qədər qijmətləndirməjirlər; lakin istər abort myşahədə olunan və istərsə olunmajan təsərryfatda profilaqtiqanı qyvvətləndirmək lazımdır. Xariçi əlamətlərçə saqlam və vaqtsız bala salan inəkləri bir-birindən və joluquçu jerdən ajırmaqla barabar mallara xidmət edən şəxslər də ajrı olmalıdır. Jəqin ki, bunların

bir-birindən ajrılmasъ aqlutinasijanъn komәklijilә olaçaqdъr vә hәr alъnan mysbәt reaqsija abortun gәlәçәkdә haman hejvanda olaçaqъnъ vә hәr mәnfi reaqsija abortun, daha doqrusu aqlutininlәrin olmadъqъnъ birinçi dәfә sybut etmәmәlidir.

Ola bilsin ki, birinçi dәfә qanda tapılmajъb 2—3 hәftәdәn sonra tapılaçaqdъr.

Axъr vaqtlarda brucella-nъn diaqnozu abortin ilә dә tә'jin edilir. Abortinin işlәdilmәsi alergija reaqsijasъna әsaslanmъşdъr. Abortin dәri altъna ətyryldykdәn sonra orada әmәlә gәlәn şişlәr şybhәsiz olaraq xәstәlijin olmasъnъ gәstәrir. Hejvan saqlanılan bina myntәzәm surәtdә dezinfeqsija edilmәlidir. Bundan başqa inәk baia salan zaman balanъ vә onunla barabar balalъqdan cъqan sonu myәjjәn edilmiş jerlәrdә basdъrmaq, buqanъ vә inәji çytlәşmәjә buraqmadan qabaq, xysusәn buqanъn aborta dutulmuş inәklә çytlәşdiji sybut edildikdәn sonra hәr iki hejvanъn tәnasyl aparatъnъn vә onun ətrafъnъ mykәmmәl surәtdә dezinfeqsija etmәk lazъmdъr. Profilaqtiqaja aid әsas mәsәlәlәrlә mәşqul olan tәsәrryfat abortdan mymkyn qәdәr azad olaçaqdъr. Oqujuçulara bu mәsәlә ajdın olduqu ycyn bunun yzәrindә ətraflъ surәtdә dajanmajaçajъq.

MALTA ISITMƏSİ.

Malta isitmәsi jeni xәstәlik olduqu ycyn bu xәstәlik haqqъnda olan mә'lumat geniş dejildir. Lakin axъr vaqtlarda bunun yzәrindә aparılan tәdqiqatın miqdarça coqalmasъ ilә barabar jeni materiallar gyndәn-gynә artmaqdadъr. Malta isitmәsini insanlara jajan heivanlar vә bunlarъn icәrisindә әlәlxysus qojundan vә kecidәn alъnan mәhsullardъr.

Morfolozi tәrәfindәn tәrәdiçi qъsa, cubuqa bәnzәr vә o qәdәr gydәkdir ki, bә'zәn bunu qoqa oqşadъrlar. 1887-çi ildә ingilis doqtoru B r j u s tapъb *microcuccus melitensis* namъnъ vermişdir. Bә'zi hallarda bunu *Brucella melitensis* dejә adlandъrъrlar. *Miqroqoqus melitensis*-in bojyklyjy 0,3—0,4 miqrona kibidir. Miqrosqop altъnda gәrynyşy 1—2, jaxud qъsa zәnçir formasъnda olur. Miqroqoqus melitensisi bir coqlarъ B a c *abor*. Bunqa jaqınlaşdъrъb onların morfolozi vә biolozi tәrәfdәn eini olduqlarъnъ tәsdiq edirlәr (E v a n s). Mystәqil hәrәkәtә malik dejildir; lakin mexaniki (B r a u n) hәrәkәt onda coq syr'ətlidir. Sadә bojalar ilә jaqşъ bojanъr. Qramm ilә mәnfidir. Tәrәdiçini limftik vәzi, dalaq, symyk iliji, qaraçijәrdә vә mystәsna olaraq qanda dәxi tapmaq mymkyndyr.

Qaraçijәrli **aqarda** jetişәrkәn xъrda boz, **zelatindә** xъrda girdә qolonja verir. **Buljonu** bulandъrъr vә cökynty әmәlә gәtirir. Syddә qәlәvi reaqsija gәstәrir, onu laxtalandъrъr. Qartofda dutqun boz rәngdә olaraq jetişir. Indol verir. Şәkәrlәri parcalamъr. Faqultativ anaerobdur. Optimal hәrarәt 37°-dir. Serolozi tәrәfindәn Banqın

abort basilinə coq bənzəjir. Bu miqrob qurumaqa qarşı olduqça davamlıdır.

Jəqin ki, təbii xəstəlik cirklənmiş jemlərin (syd məhsullarının) qəbul edilməsilə əmələ gəlir. Başqa giriş qapıları barəsində hələ ki, mə'lumat vermək olmaz. Adadavşanı, Hind donuzu, sıcavul, sıcan, qojun, at, inək, it, eşşək, qatır və xysusən keci kibi hejvanlar myxtəlif jollarla syn'i xəstəlijə dutulurlar. Malta isitməsinin olduqu jerlər iqlim ilə əlaqədardır. Bə'ziləri bunun orta iqlimə nisbətən isti jerlərdə daha coq olmasını təsdiq edirlərsə də, lakin başqaları bunun hər iki jerdə bir dərəçədə davam etməsini göstərirlər. Malta isitməsi Asija, Ameriqa və Afriqa kibi jerlərdə daha şiddətli jajılmışdır. Tədriclə aparılan tədqiqat bunun bir coq məmləkətdə olduqunu qejd edir. Məsələn Malta isitməsinin SSRI-da olmasını ilk əvvəl professor Zdradovski Bakı şəhəri və onun dairələrində tapmışdır. Bunun qejri jerlərdə də olmasına şybhə joqdur. Insan və mejmunda malta isitməsinin əlamətləri başqa hejvan çinslərinə nisbətən daha jaqşı alınır. Bu qısım hejvanlarda isitmə daima bir hərarətdə qalır. Hərarət qalqıb birdən-birə aşaqı dərəçəjə enir. Bu halın bytyn xəstələr ycyn olması məçburi dejildir. Malta isitməsinin uzanmasi həftə, aj və illərçə ola bilər. Xəstədə titrəmə, juqusuzluq, baş, bel aqrısı və jorulma kibi əlamətlərə təsadyf edilir. Dalaq və bə'zən qaraçijər həçmini bəjydyr. Xəstəlikdən ajılmış hejvanlarda demək olar ki, immunitet əmələ gəlmir və əgər gəlirsə də, coq zəif olduqu ycyn az myddət davam edir. Baqteriolozi diaqnozda qan, sidik, syd, dalaq majei, qaraçijər və dalaq lazımi kəməkliji göstərir. Xəstəlik tərədiçinin təmiz qulturunu almaq olduqça cətindir. Əsas diaqnoz iki reaqsijanın jardımı ilə qojulmalıdır: birisi R a j t və ikinçisi B j u r n e reaqsijasıdır.

Rajt reaqsijasını qojmaq ycyn birinçisi tərədiçinin qulturu və ikinçisi xəstənin qan serumu lazımdır. Bu ejnilə aqlutinasija reaqsijası kibi edilir, 1/50, 1/100, 1/200 və ondan juqarı mixbərlər tədqiq edilən serumda spesifik aqlutinin olduqunu göstərir, jə'ni xəstəlik vardır.

Bjurne reaqsijası tuberqulinizasija və maleinizasija reaqsijalarının prinsipi yzrə aparılır. Bu reaqsija insanlar arasında aparılmaqdadır.

Şimal marallarında taun.

Xəstəlijə şimal marallarından başqa buzovlar da dutulurlar. maralların taunundan saqalan hejvanlar qarbonqul picçəsinə qarşı immunitet jaratmajırlar. Qojun kibi hejvanlara miqrobu dəri vasitəsilə ətyrdykdə hejvanın hərarəti bir qədər jyksəlirsə də, lakin qujruqa ətyrylmyş qultur hejvanı tələf edə bilməjir. **Morfolozi** çihətçə xəstəlijin tərədiçisi cubuqa bənzər, uçları girdə, orqanizm-

də, jaxud qıda myhitlərində buraqdıqı spor basilin uç və ja orta tərəfində olur. Basilin uzunluqu 2—5 və eni 1 miqrona jaqındır. Miqrosqop altında tərədiçi birər, diplobasil və stereptobasil formalarında gərylyr. Basil mystəqil hərəkətə malikdir. Bojanması anilin və Qramm ysulilə də mymkyndyr.

Xəstəlijin tərədiçisini orqanizmin boşluqlarında, dərialtı birləşdiriçi toqumada jıqılan maje'də və qanda gərməklə barabar göstərilən materiallardan təmiz qulturu da əldə etmək mymkyndyr.

Qıda myhitlərində jetişməsi orqanizm hərarətində daha syr'ətlə davam edir. Jetişdiji myhitdə oqsigenin olub-olmaması inkişafa mane olmajır. Biolozi çihətçə bu miqrobun qıda myhitlərində jetişməsi *B. oedemeatis maligni* və *B. gangranae emphysem.* Bovi basillərinin jetişməsinə bənzədir. Taun xəstəlijini jaradan basil jetişdiji qida myhitlərində şiddətli pis qoqulu turşular və qazlar əmələ gətirir. Qaramallarda, qojunlar, Hind donuzu və sıcanlarda xəstəliji syn'i ysul ilə almaq mymkyn olursa da, lakin adadavşanlarında, tojuqlarda, itlərdə və donuzlarda xəstəliji heç bir jol ilə jaratmaq olmajır və bu hal göstərilən hejvanlarda doğulma immunitetin olmasını göstərir. Xəstəlijin tərədiçisi 1897-çi ildə ilk dəfə Lundqren tərəfindən tə'jin edilmişdirsə də, basili həm morfolozi və həm də biolozi çihətçə öjrənən Berqman olmuşdur. Xəstəlik jaj fəslində daha coq myşahədə olunur. Çavan marallar xəstəlijə qoçalara nisbətən daha coq həssasdırlar. Xəstəlik hejvanı qısa myddətin icərisində tələf edir.

Xəstəlik devrində hejvanın özyny narahat hiss etməsi, jemdən qalması, gəjşəmənin kəsilməsi, suja olan ehtijaçın coqalması, tənəffysyn syr'ətləşməsilə barabar cətinləşməsi, jerişin myntəzəm olmaması və hejvanın dərisi üzərində myxtəlif həçmdə şişlərin əmələ gəlməsi kibi əlamətlərə təsadyf edilir. Təbii xəstəlik zədələnmiş dəri, saqlam və zədələnmiş selik pərdəsi və acıq jaralar vasitəsilə əmələ gəlir. Diaqnoz basilin miqrosqop altında tapılması ilə barabar təçribə hejvanlarının joluqdurulması ilə olaçaqdır.

DAVŞANÇIQ *(Tetanus).*

Davşançıq hejvan və insanlarda xysusi miqrob tərəfindən jaradılan infeqsion xəstəliklərdən birisidir. Xəstəlikdə davam edən prosesdə miqrobun bir o qədər əsas rolu olmajır, jalınız onun əmələ gətirdiji toqsin orqanizmə əsas tə'sir buraqır. Orqanizmdə əmələ gələn intoqsiqasija bytyn sinir sisteminin ymumi vəzijjətini pozduqu ycyn, orqanizm əzələsinin hamısında və bə'zən tək-tək hissələrində əzələnin qısalıb jıqılması əmələ gəlir. Tərədiçinin sporuna jerin yst qatında, pejində, tozda və tərədiçisinə isə irin materiallarında təsadyf edilir. Bu səbəbə görə xəstəlijin əsas giriş

qapьsь acьq jara və zədələnmiş dəri olduqu ycyn xəstəlik heյvanlarьn əksərijjətinə jajьlmajьb tək-tək heյvanlarda myşahədə olunur.

TƏRƏDIÇININ MORFOLOZISI.

Davşançьqьn tərədiçisi nazik, dyz cubuqa bənzər uçlarь girdə basildir. Bu miqrob ilk dəfə *bacillus tetani* 1884-çy ildə Niqolajev tərəfindən tapьlmьşdьr. Davşançьqьn basili az dərəçədə mystəqil hərəkətə malikdir, hərəkət orqanlarь basili hər bir tərəfdən ihatə etmişdir. Turnalarьn miqdarь basilin yzərində jyzə qədərdir, buna baqmajaraq basil çiddi mystəqil hərəkətə malik dejildir. Çavanlarda turnalarьn miqdarь, qoçalara nisbətən coqdur. Basilin uzunluqu 2—4 və eni 0,3—0,5 miqrona mysavidir. Inkişafь həm sadə və həm də sporlanma ilə olur. Sporun xariçi gərynyşy girdə olub, basilin uç tərəfində jerləşir. Spor basilin uç tərəfində olarkən basil baraban aqaçьna, jaxud sançaqa bənzəjir (şəkil 48) (qulturda basili bə'zən uzun, əjilmiş sap formasьnda da gərmək mymkyndyr). *B. tetani*-nin hər bir jeri bytyn anilin bojalarь ilə bir barabarda bojanьr. Qramm ysulilə bojanьr.



Şəkil 48. Tetanusun (B. tetani) tərədiçisi.

Sporun basil ilə bir jerdə bojanmasь onun çavan, qoça olmasьndan asьlьdьr. Coq çavan və mykəmməl jetişmәjən sporlar basillərlə bir jerdə bojanmajьrlar. Lakin jyksək dərəçədə mykəmməlləşmiş sporlar basillərlə bir jerdə bojanmajьr və bunlarьn bojanmasь ycyn xysusi ysullarьn iştirak etməsi lazьmdьr.

Bacillus tetani abliqat anaerob olduqu ycyn jaşadьqь myhitdə sərbəst oqsigen olmamalьdьr; ejni zamanda aerob miqroblarьn olduqu myhitdə də jetişə bilər. Ilk dəfə myhitdə bulunan sərbəst oqsigen aerob miqrob tərəfindən qəbul edildikdən sonra *B. tetani* inkişafa başlajьr. Bir qьsьm *B. tetani* mystəqil oqsigeni sevməjir. Lakin bunu tədriçlə oqsigen həjatьna өjrətmək mymkyndyr. Qejri qьsьmlarь isə bytynlyklə oqsigen olan myhitdə gəzəlçəsinə inkişaf edirlər.

Syn'i qida myhitlərində jetişməsi 16—43° hərarətə kibi mymkyndyr. Otaq hərarətində inkişaf coq syr'ətlə davam etmir. 36—39° hərarətdə daha gəzəl jetişir. Tərkibinə yzym şəkəri ilavə edilən syn'i qida myhitlərində inkişaf daha syr'ətlə gedir. 43° hərarətdə basil sporunu itirib involjusija formasьna kecdiji ycyn uzun (30 miqron) sap şəklinə cevrilir. Lakin bu dəjişiklik onun virulentlijinə hec bir tə'sir buraqmajьr (N o q a r). Hazьrlanan qьda myhitlərinin

reaqsijasь *Ph* 5,5—8,3, optimum isə *Ph* 7—7,2 qədər olmalьdьr. Qaraçijər və yrəkdən hazьrlanan buljonda əkilən *B. tetani,* 1—2 gyn myddətində buljonu bulandьrmaqla barabar jaşadьqь qida myhitində qaz əmələ gətirir. Qultur coq myddət (10—16 gyn) saqlanьlarsa, mixbərin dibində cökynty gərylyr; qida myhiti pis qoqu verir.

Aqar qida myhitində *B. tetani* qьraqь cьqьntьlь, diş-diş, aq-boz rəngdə qolonja jaradьr. Jetişən qolonjalar zəif gərynyr. Miqroskop altьnda qolonjaja baqdьqda qolonja buruq sac formasьnda gərynyr. Dyz aqarda əkilərkən ijnənin getdiji jerdə basil lentə bənzər iz buraqьr, lenta isə öz neybəsində ətrafa xьrda qollar buraqьr.

Zelatində jetişməsi ejnilə aqarda olduqu kibidir. Lakin basil tədriclə zelatini duruldur. Qida myhitində gedən kimjəvi prosesin tə'sirindən qida myhiti pis qoqu verir.

Bir qisim *B. tetani* dondurulmuş sreumda jetişirkən serumu duruldur. Qejri çismlər isə onun xysusijjətini pozmajьr. *B. tetani*-nin bir coq ştammlarь syddə jetişirkən, sydy laxtalandьrmajьrlar, lakin bə'ziləri sydy laxtalandьrmaq qyvvəsinə malikdir.

Adadavşanьnьn qanьnda jetişərkən qulturun virulentliji, başqa qida myhitlərində jetişən qulturlarьn virulentlijinə nisbətən daha qyvvətli olur — (Vaillard). *B. tetani*-nin buraqdьqь toqsinin tə'sirindən zylal maddəsi bir coq kimjəvi dəjişikliklərə uqrajьr. Bundan başqa bu prosesdə basilin zəhərindən başqa onun buraqdьqь ferment də iştirak edə bilər. Bu kibi aqtivlijin sajəsində myhitdə (zelatin, serum və qazeinin parcalanmasь sajəsində) coq miqdarda kykyrtly hidrogen H_2S və az miqdarda indol əmələ gəlir. *Bac tetani* jyksək dərəcədə (tələf etmək çihətçə) qyvvəjə malik olan eqzotoqsinini jaşadьqь myhitə buraqьr. Bunun orqanizmə göstərdiji əsas tə'sir jalьnьz eqzotoqsinin sajəsində olur: Erlix *B. tetani*-nin iki qisim toqsin buraqmasьnь təsdiq edirdi: bunlarьn birinə *tetanospazmin* adьnь verib xəstəlijin bu toqsinin tərəfindən əmələ gəldijini söjləjirdi. Ikinçini *tetanolizin* adlandьrьb orqanizmdə onun hemolizin hadisəsini əmələ gətirdijini göstərirdi. Bə'ziləri bunun doqru, jə'ni tək-tək toqsinlərin orqanizmə göstərdikləri tə'sirin myxtəlif olmasьnь və qejriləri bunlarьn (tetanospazmin və tetanolizin) ejni məqsəd yzərində calьşdьqlarьnь təsdiq edirlər. *B. tetani* ştammlarь qyvvə çihətçə bir çyr toqsin buraqmajьrlar. Bə'zisinin buraqdьqь toqsin qyvvətli və başqalarьnьn buraqdьqlarь zəif olur. Hətta bir qьsьm ştammь təçribə hejvanьna ötyrdykdə hejvanь tələf etməjir, başqalarь isə tələf edirlər. Buradan bu nətiçəjə gəlmək olar ki, *B. tetani* ştammlarьnьn hamьsь toqsin buraqmaq qyvvəsinə malik dejildirlər. Buljonda əkilən qulturun qida myhitinə buraqdьqь toqsindən 0,0000005 *qub. sm*-nu sьcana ötyrdykdə təçribə hejvanь (12

gynlyk qulturun toqsinindən) tələf olur. Basil spor buraqdьqь ycyn xariçi şəraitə olan davamlьlьq bunda olduqça jyksəkdir. Başqa maddələrə qarşь olan davamlьlьq basildə o qədər jyksək dejildir. Gynəşin dyz şyalarь basili 12 gynyn daqьnьq şyalarь isə 1—2 ajьn myddətində tələf edir. *Bombiqqinin* göstərməsinə görə cyryjən materialda tərədiçi bir coq vaqt qalmaqla barabar hətta inkişaf da edir. Qulturu qaranlьq jerdə saqladьqda spor on bir ilə jaqьn qala bilər. 90° hərarət sporu bir saatdan 100° hərarət 10 və 115° isə 5, dəqiqədən sonra tələf edir. 5%-li qarbol turşusu 15 dəqiqədən, bir faizli sylymən jarьm saatdan 3 saata, 1% lijapis bir dəqiqədən və 5%-li qreolin isə 5 saatdan sonra (Tissoni) tələf edir. Toqsin 80° hərarətdə 2—3 saatdan gynəşin dyz şyalarь tə'sirindən 15—20 saat sonra xarab olur.

Kөhnə qulturlarьn patogenliji təzə qulturlarьnkьna nisbətən qyvvətlidir; səbəbi isə basilin myhitdə nə qədər jaşamasьndan asьlьdьr. Basil nə qədər coq jaşarsa, bir o qədər toqsini coq buraqьr. Təzə qulturdan, xəstəlijə ən həssas olan hejvanlardan Hind donuzuna 0,25—0,5 qədər ətyrdykdə hejvanda hec bir dəjişiklik əmələ gəlməjir. Halbu ki, on gynlyk qulturun az miqdarь təçribə hejvanlarьnda xəstəlijə dair olan əlamətlərin hamьsьnь jaradьr. Bu halь sporlarda da gərmək mymkyndyr. Qulturdan ajrьlmьş sporu orqanizmə ətyrdykdə orqanizmə hec bir tə'sir buraqmajьr. Dəfələrçə jujulub toqsindən xilas edilmiş, jaxud 3 saat 80° hərarətdə qьzdьrьlmьş toqsin də orqanizmdə tələb edilən fəalijjəti göstərə bilmir. Bu vəzijjət, toqsinin xəstəlik prosesində apardьqь fəalijjəti ikinçi dəfə təsdiq etməklə barabar, toqsinsiz nə basilin və nə də sporun hec bir iş görə bilməjəçəklərini sybut edir. Göstərilən sporlarь xьrda topraq, kөmyr tozu və jabançь miqrob ilə bir jerdə orqanizmə ətyrdykdə orqanizmdə sporlar xəstəliji jaradьrlar. Bu hal isə faqositlərin haman maddələrlə məşqul olmasьndan asьlьdьr. Təçribə hejvanlarьnda xəstəlijin **inqubasija devri** 6 saatdan 3 gynə kibi syryr. Iri hejvanlardan xəstəlijə həssas olan atdьr ki, bunun da xəstəlik əlamətləri başqa hejvanlara nisbətən daha gərkəmli alьnьr.

Təbii xəstəlik acьq jaralara zədələnmiş dərilərə xəstəlik basili və sporla cirklənmiş materiallarьn daxil olmasь ilə əmələ gəlir. Sporun pis şəraitə olan davamlьlьqь jyksək olduqu ycyn şumlanmьş topraqlarda, kycə tozunda və jerin yst qatьnda bunlar coq myddət salamat qalьrlar. Bir coq tədqiqatcьlarьn göstərmələrinə görə aparьlan tədqiqatlar, saqlam atьn, qaramal və xьrda hejvanlarьn baqьrsaqьnda *B. tetani* sporunun olduqunu sybut etmişdir. Çavan hejvanlar jaşlьlara nisbətən xəstəlijə daha coq dutulurlar. Toqsinin tə'sirindən faqositlərdə mənfi xemotoqsin jarandьqь ycyn faqositlər spora və basilə janaşa bilmirlər. Bu moment xəstəlikdə

əsas rollardan birisini dutmalıdır, cynky bu kibi şəraitdə sporun vegetativ həjatına kecməsi və basilin inkişaf etməsi mymkyndyr. Sporların özlərində toqsin joqdur. Bə'zən xəstəlik latent formasında davam edir. Belə ki, əvvəl dəfə orqanizmin yzərində olan ağcıq jaradan, jaxud zədələnmiş dəridən spor orqanizmə kecirsə də bir coq myddət orada qalıb xəstəliji jaratmaja bilər. Bu qısım jaralar və zədələnmiş dəri saqaldıqdan sonra insanda gözlənilməjən bir vaqtda xəstəlik qalqa bilər. Bunun birdən qalqmasına jəqin ki, bir coq şərait səbəb olmalıdır. Hejvan və insanın xəstələnməsi, sojuqlamasъ, hərarətlənməsi və qədərindən artıq işin olmasъ kibi əsas momentlər sporun orada inkişaf edib xəstəliji jaratmasına lazımi köməkliji göstərə bilər. Bu hallarda inqubasija devri coq uzun olaçaqdır. Q j u q s t a l, insanda inqubasija devrinin 87-dən 120 gynə kibi uzandıqını göstərir. Sporun vegetativ həjatına kecməsi və basilin coqalmasъ giriş qapısında davam edir. Daxili orqanlar və qana bunlar az jajıldıqları ycyn qaraçijər, dalaq və bejində bunları hər zaman tapmaq mymkyn dejildir. Basillər orada miqdarça coq az tapılırlar. Sporun olub-olmamsaını bilmək ycyn təçribə hejvanlarının joluqdurulmasъ lazımdır (Heqler, Qolbeq və Dor). Basillərin o jerlərə aparılmasъ ola bilsin ki, faqositlərin vasitəsilə olur. Basilin bu xəstəlikdə gördyjy fəalijjət, əsas jeri dutmajır, onun toqsini isə başlıça rol ojnajır. Jaradılan toqsin xırda qan damarlarına kecir və qan damarları isə onu bədəninin hər bir hissəsinə jajır. Bundan başqa toqsinin orqanizmə jajılmasъ myəjjən inqubasija devrini tələb edir. Orqanizmə ötyrylmyş coq az miqdarda toqsin orqanizmi haman vaqt tələf etməjir. Hind donuzlarında bu vaqt 12 və sıçanlarda isə 6 saata kibidir. Bu isə toqsinin tədriclə mərkəzi sinir sisteminə catmasını göstərir. Xəstəlijə dutulub saqalan hejvanlarda 2-çi dəfə daxil ola biləçək ejni basilə qarşı qəbul etməməzlik əmələ gəlmir. Bu səbəbə görə bir coq şəxslər davşançıqda immunitetin əmələ gəlməsini təsdiq edirlər. Orqanizmə ötyrylmyş sporun bir hissəsi xəstəlikdə iştirak edib xəstəliji jaratdıqdan sonra başqa bir hissəsi me'dədə və qejri bir hissədə qalıq xəstəliji ikinçi dəfə jarada bilər. Toqsindən dəfələrçə jujulmuş basillər orqanizmə antigen sifətində ötyryldykdə immunizasija zamanı özynə qarşı aqulitinin, prisipitin, qomplementlər ilə birləşdiriçi çisimlər və baqteriotropinlər buraqırlarsa da, antitoqsin bunları buraqmaq qyvvəsinə malik olmur. Atlardan başqa xəstəlijə qaramal, qojunlar, kecilər, donuzlar, itlər quşlar, insanlar dəxi həssasdırlar. Insanlarda inqubasija devri 6—14 gynə kibi uzanır. Hejvanlarda inqubasija devri 1—2 gynə qədər və bə'zi hallarda 24 saatın myddətində qurtara bilər. Xəstəlijə dutulmuş atlarda aşaqıdakı əsas əlamətlərə təsadyf edilir: at ajaqlarını adi qajda yzrə saqlamajıb gərginləşmiş vəzijjətdə aralı qojur, bojnunu və başını uzadır, bir jerdən o biri jerə

cətinliklə hərəkət edir: gevdənin bir jerdən o biri jerə cevrilməsi ən cətin məsələlərdən biri olur; bu vəzijjətdə olan atь geri dəbərtmək mymkyn olmur. Hejvanьn adi vəzijjət yzrə ajaq ystə dura bilməməsi onun jerə jьqьlmasьna səbəb olur.

Ətraf myhitdə səs, ьşьq, hərəkətin olmasь kibi əlamətlər xəstəjə şiddətli tə'sir buraqdьqь ycyn atda proses daha da jyksəlir. Xəstə bu halda jerə jьqьlьb bə'zən ɵzynə zədə toqundura bilər. Xəstənin dyşynçəsi axьr nəfəsinə kibi ɵzyndə qalьr. Əzələnin daima jьqьlьb-acьlmasь hərəkətdə olmasь, tənəffys və qan dəvəranьnьn normal vəzijjətdə qalmasьna mane olur. Tənəffys dərindən olmaqla barabar tənəffysyn miqdarь bir dəqiqədə normaja gərə 10 dəfə artьr. Xəstəlijin başlanqьçьndan xəstə tələf olana qədər yrəjin vəzijjəti pozulmur. Davşançьqьn jyngyl formasьnda xəstəlik normal hərarətin qalqmasь ilə jaxud bir qədər jyksəlməsilə davam edir. Xəstəlik aqьr formada olduqda ymumi hərarət 42-dən 43 dərəçəjə kibi qalqьr. Xəstə iştihanьn olmasьna baqmajaraq, jemi lazьmi dərəçədə qəbul edə bilməjir. Daxili orqanlarda bir o qədər dəjişiklik əmələ gəlməjir. Xəstəlijin hejvanda olub onu tələf etməsi myxtəlif vaqt zərfində ola bilər. Vaqtьn uzanьb-gydəlməsi bir coq səbəblərdən asьlьdьr. Əksərijjətlə xəstə hejvan 3—10 gynə kibi tələf olur. Lakin bə'zi şəxslər bu vaqtьn həftələrçə, ajlarça uzandьqьnь gərmyşlər. Belə ki, Zolleder, xəstəlijin bir atda inqubasija devrindən sonra 105 gyn syryb atь tələf etdijini qejd edir.

Diaqnoz gəstərilən əsas əlamətlərdən başqa basilin miqrosqop altьnda gərynməsilə də qojulur. Xəstəlik basili giriş qapьsьnda qalьb tə'sirini oradan orqanizmə gəstərdiji ycyn, bu dəfə orqanizmin yzərində olan acьq jaranь və zədələnmiş dərini aqtarmaq lazьmdьr. Bu çyr jaralarьn irinindən hazьrlanan preparatlarda basillə bir jerdə onun sporu da gərynyr. Irin materiallarьnьn mynasib qida myhitlərinə əkilməsi də mymkyndyr. Axьrьnçь ysul təçribə hejvanlarьnьn joluqdurulmasьdьr. Acьq jarada olan irindən bir qədər steril maje qatьb sьcana ɵtyrdykdən sonra 2—3 gyn myddətində sьcanda xəstəlijə məxsus əlamətlər gərynyr. Bə'zən xəstə orqanizmdə antitoqsin olduqu zaman təçribə hejvanьna xəstənin qanь ilə ɵtyrylən 1—2 qram toqsin təçribə hejvanьnьn orqanizmində bulunan antitoqsin tərəfindən nejtrallaşdьrьlьr. Irindən hazьrlanan materialda xəstəlik basilindən başqa jalancь miqroblar da ola bilər. Noqara gərə cubuqa və sançaqa bənzər basillərin miqrosqop altьnda gərylməsi davşançьq xəstəlijinin olmasьnь hər bir zaman sybut etməməlidir: qynky Robertsonun təsvir etdiji tetani basilinə bənzər, buljonu rənglәjən, zelatini durultmajan və patogen olmajan saprofit basil diaqnozun səhv qojulmasьnda əsas səbəb ola bilər.

Xəstəlijin terapijasьnda birinçi jardьmь antiserum gəstərə bilər. Lakin bunun verdiji mənfəət də xəstəlijin dərəçəsindən asьlьdьr. Xəstəlik coqdan başlanьb basil tərəfindən buraqьlan toqsin sinir

sistemilə birləşibsə bu zaman orqanizmə ətyrylən antitoqsinin kəməkliji bir o qədər olmajaçaqdır. Əgər olsa da antitoqsin jalnız orqanizmdə bulunan mystəqil toqsin ilə birləşib onu nejtrallaşdıraçaqdır. Halbu ki, sinir sistemilə birləşmiş toqsini antitoqsin coq cətinliklə geri alır. Birləşmə ilk dəfə başlanırsa və bir o qədər qyvvətli dejilsə, bə'zən antiserum toqsini sinir sistemindən ala bilər. Bu vəzijjətin nə dərəçədə həll edilməsi ətyrylən antitoqsinin (100 antitoqsin vahidi) qyvvəsindən asılıdır. Antiserumun göstərdiji tə'sir də inqubasija devrilə əlaqədardır. Q r e j t e r i n göstərməsinə görə 10 gynlyk inqubasija devrində olan xəstəlikdə antiserum tələfatı 78,9%-dən 64,3%-ə salır. 10 gyndən juqarı inqubasija devrinə malik olan hejvanlarda isə, davşançıqlı 37%-dən 12,2% kibi azaldır.

Davşançıqa qarşı alınan antiserum myxtəlif ysullarda hazırlanır. Bunlardan bir V e j j e r və R u ysuludur ki, bunlar immunizasijanı 4—5 həftəlik qulturun filtratı ilə aparırlar. Bunların immunizasijada istifadə etdikləri filtratın 1/400-i sıcanı tələf etməlidir. Ilk dəfə Lyqol məhlulu ilə zəifləşmiş dozaları dəri altına ətyryb daha sonra təmiz toqsini dəri altına, tədriclə qan damarına və qarın boşluquna ətyryrlər. Pavlovski və Babessa ysulilə də hejvanları immunizasija etmək mymkyndyr. Ilk dəfə toqsinin az və antitoqsinin coq miqdarda olduqu məhlulu hejvana ətyrdykdən sonra gələçək dozalarda toqsinin miqdarını tədriclə artırır. Noqarın göstərməsinə görə 2395 at, 2300-ə jaqın myxtəlif çins hejvanlar antiserum aldıqdan sonra operasija edildikdə göstərilən hejvanların hec biri bu xəstəlijə dutulmamışdır. Serum almajanlardan isə coq xəstələnmişdir. Davşançıq xəstəlijini myaləçə etmədən qabaq xəstəlijin giriş (acıq jaranı, zədələnmiş dərini və şybhəli jerləri) qapısını tapıb orada mykəmməl dərəçədə dezinfeqsija aparmaq lazımdır; bundan məqsəd miqrobun inkişafının qarşısını almaq və onun toqsinini tamamən joq etməkdir.

TULAREMIJA.

Tularemijanın olması az vaqtdan bəri qejd edildiji ycyn onun bə'zi çihətləri bir o qədər ətraflı öjrənilməmişdir. Maq Qoju xəstəliji birinçi dəfə 1911-çi ildə təsvir etmişdir. Təbii xəstəlik spesifik miqroorqanizm tərəfindən əmələ gəlir. Miqrobun orqanizmə myxtəlif jollarla daxil olması xəstəliji əmələ gətirir. Hejvanlarda xəstəlijə olan həssaslıq olduqça myxtəlifdir, bunlar myxtəlif dərəçəjə bolynyrlər. Adadavşanları, aqsıcanlar, Hind donuzu, daq sıcanı, quşlar, qojunlar, pişiklər, bojyk sıcanlar və kecilər tularemijaja az, insan və mejmun coq, atlar, qaramal, donuzlar, itlər və göjərcinlər hec həssas dejillər. Bunun tərədiçisi *Baq. tulerense* hərəkətsiz, spor qapsulu jaratmajan balaça bir basildir; uzunluqu 0,3-dən 0,7 və eni 0,2 miqrona mysavidir.

Qida mühitlərində jetişməsi oksigenin olmasına tələb edir. Optimal hərarət 37°-dir; boyanmasa **Qram** ilə mənfidir. Tərkibinə **şəkər, qan, qan zərdabı** və **sarısı**—ilavə edilmiş qida mühitlərində daha jaqşı jetişir, **syddə** jetişməjir, sıcanlardan ətrü patogen olduqu ycyn dişləmək vasitəsilə xəstəlik sıcanlardan insanlara verilir. Sıcanlar tauna bənzər xəstəliji əmələ gətirirlər. *Bact. tularense*-ə təbii surətdə vəhşi adadavşanları və davşanların icərisində boyuk tələfat əmələ gətirir. Tularemija iki formada davam edir: birisi şiddətli, ikinçisi isə orta şiddətli formadır. Insanlar şiddətli formada yc həftə müddətində tələf olurlar. Qejri zamanlar xəstəlik yc aja kibi syryr. Davşanlarda şiddətli forma 4—6 gün və orta şiddətli forma iki həftədən 2 aja kibi syrə bilər. Tularemijanın uzun müddət insanları xəstələndirməsinə baqmajaraq qejd etmək olar ki, tələfat olmamışdır. Lakin Rusijada 3 nəfərin tələf olması haqqında göstəriş vardır.

Tularemijanın diaqnozu ümumi qajda üzrə tə'jin edilməlidir; jə'ni materialın baqterioloji ysul ilə tədqiqi, təmiz qulturanın alınması təçribə hejvanlarının joluqdurulması və serelozi reaqsijalardan aqlutinasija və komplementlərin birləşmə reaqsijasının qojulması jolu ilə içra edilir. Xəstəlik devrində orqanizmdə baqterijaja qarşı əmələ gələn aqlutinin və amboseptorların qanda tapılması diaqnozu qət'i formada həll edə bilər.

DONUZLARDA QIZILJEL *(Erysipelas suis).*

Qızıljelə donuzlar daha coq dutulurlar. Qızıljelin jajılması bütün ölkələr üçün bir dejildir. Bə'zi ölkələrdə qızıljel müntəzəm surətdə enzootija, jaxud epizootija formasında müşahədə olunur. Bunun jajılmasında fəsli də nəzərə almalıjıq. Ümumijjətlə bu xəstəlijin tez jajılması ycyn jaj ajları daha əlverişlidir. Qultur çins donuzlara qızıljelin daha coq tə'siri olur. Sojuq ajlarda qızıljel sporodik formada təsadüf edilir. Çavan donuzlar (bir ilə kibi) qoçalara nisbətən qızıljelə daha coq həssasdırlar. Ilk dəfələr qızıljeli qara azardan ajırmajırdılar. Qızıljelin nə qajda və kim tərəfindən əmələ gəlməsilə ən əvvəl L u i - P a s t e r məşqul olmuşdur. Lui Paster və T j u j e bu xəstəliji ətraflı surətdə öjrənib qızıljelin müstəqil bir xəstəlik olduqunu sübut etmişlər. Bundan sonra qızıljelin hər bir jerdə olduqu ajdın olmuşdur. Qızıljel öjrənilməjənə kibi onun verdiji tələfat olduqça jüksək idi. Almanijada 1899-çu ilə kibi hər 10 min donuzdan 29,3% qızıljeldən tələf olurdu. 1913-çü ildə bu tələfat 65%-ə qalqır. 1911-çi ildə Prusijada qızıljeldən 53 min donuz tələf olmuşdur. Orta hesabla qızıljeldən tələfat 50—70% kibi olur.

Morfolozisi. Qızıljelin tərədiçisi 1885-çi ildə L e f l e r tərəfindən tapılıb *Şjuts* tərəfindən təsdiq edilmişdir. Tərədiçi *B. erysipelatis suis* adlanır. Bə'zən bunu *B. rhusiopathiae suis Kitt*—dejə adlandırırlar. Bu tərədiçi cubuqa bənzər düz, jaxud balaça əjri,

hərəkətsiz, nazik, uzunluqu 1—1,5 miqrona kibi bir miqrobdur. Buljon qulturasында bir necə gyn qaldыqdan sonra basil uzun nazik sap şəklini qəbul etməklə barabar Qramm ysulilə bojanmajыr. preparatlarda basilin yzərində dənəciklər gərynyr. Bu dənəcikləri bə'ziləri onun sporu dejə təsdiq edirlər *(Rozenbax)*. Bojanmasы həm anilin bojalarы və həm də Qramm ysulilə mymkyndyr.

Qыzыljelin tərədiçisi, gyndəlik təçribədə işlədilən adi qыda myhitlərinin hamыsында jetişir. Faqultativ aerobdur. Oqsigenin olub-olmamasы buna hec bir tə'sir buraqmajыr. Optimal hərarət 37°-dir. *Ph* 7,1—7,2 kibi olmalыdыr. **Buljonda** jetişərkən buljonu coq bulandыrmajыr. Lakin buljon adi rəngini dəjişib bir qədər bulanыr. Mixbəri silkələdikdə dibindən cəkynty qalqыb buljonu bir barabarda bulandыrыr. Buljonun yzərində pərdə, jaxud mixbərin qыraqында halqa əmələ gətirir. Tədriçlə buljon şəfaflaşыr və dibində cəkynty ajdыn gərynyr. *Zelatində* qulturun inkişafы qaraqter əlamətlərlə davam edir. Ilk dəfə zelatində qultur inçə aq rəngdə qolonja verir. Qolonjanыn mərkəz hissəsində dənəciklər gərynyr. **Dyz zelatində** 3—6 gyndən sonra ijnənin kecdiji jerdə xыrda aq nəqtələr gərynyr. Vaqtы ilə bu xыrda nəqtələr bir jerə toplanыb boz-aq rəngdə hissə əmələ gətirməklə dyz xətdən ətrafa qollar buraqыr. Aqar qыda myhitində ilk dəfə gəzlə gərylə biləçək və şeh damçыlarына bənzər qolonjalarы verir. Tədriçlə bu çyr qolonjalar inkişaf edib, boz rəngdə qultur aqarын yzərini byryjyr, qanlы zərdab qida myhitində verdiji əlamətlər aqarыnkына bənzəjir.

Aerob şəraitində qartofda coqalma davam etməjir (N o q a r). Secmə qida myhitlərinin hazыrlanmasы bu miqrob ycyn tələb edilməjir. Lakin Missner, tərkibinə 2%-li yzym şəkəri və 15%-li at zərdabы ilavə edilmiş aqar qida myhitində qыzыljel tərədiçisinin jaqşы inkişaf etdijini qejd edir. Qыzыljel tərədiçisini xariçdən ihatə edən sərt pərdə bu miqrobu pis şərajitdən qorujur və buna görə də miqrob pis şərajitin tə'sirindən tez tələf olmajыr (F o g e s). Gynəşin dyz şyalarы bunu 12 gynyn icərisində belə tələf edə bilməjir (S i r e n a). 70° hərarət bunlarы 5 dəqiqə myddətində tələf edir. 37° hərarətdə 31 gynə kibi qalыr. Qurumaq bu miqroba tədriçlə tə'sir buraqыr. 12—15 santimetr qalыnlыqында ətdə olan tərədiçini tələf etmək ycyn əti 2 saat jarыma kibi pişirmək lazыmdыr (S t a d i). NaCl duzunun tə'siri bu tərədiçijə bir o qədər qyvvətli dejildir. Dezinfeqsija ediçi maddələrdən sylymən qarbol turşusu, kiräç, soda, qreolin, lizol və $CuSO_4$ kibi maddələr tərədiçini myxtəlif fajizlərdə tələf edir. Cyrymək prosesi də qыzыljel miqrobuna bir o qədər tə'sir buraqmajыr. Az miqdarda qultur sыcan, gəjərcin və adadavşanы kibi təçribə hejvanlarына dəri vasitəsilə ətyryldykdə göstərilən hejvanlar 4—6 gyndən sonra tələf olurlar. Sыcanlarын tələf olduqu myddət daha qыsadыr. Hind donuzlarы buna həssas dejillər. Donuzlarы dərialtы və həzm aparatы vasitəsilə xəstəlijə dutdurmaq coq cətindir. Bu qajda ilə xəstəlijə dutulan hejvanlar 6—9 gyndən sonra tələf olurlar (P r e j s). Qulturu bir necə dəfə do-

nuzun orqanizmindən pasaz etdikdən sonra, qulturun virulentliji donuza gərə qyvvətləşir. Qulturu gəjərcinin orqanizmindən pasaz etdikdə sıcana gərə virulentlik artır. Adadavşanının orqanizmindən pasaz etdikdə virulentlik donuza gərə qyvvətləşir. Arası kəsilməz qida myhitinə əkildikdə qultur qyvvədən dyşyr.

Təbii xəstəlik, həzm aparatı və zədələnmiş dərinin vasitəsilə əmələ gəlir. Əsas giriş qapısı bu xəstəlik ycyn həzm aparatı olmalıdır. Nəçis, sidik, qan və orqanizmin başqa hissələri ozyndə qızıljel tərədiçisini saqlajırlar. Sidijin sajəsində qəbul edilmiş jemlər cirklənir; bu qajda yzrə xəstəlik başqa hejvanlara da jajılır. Xəstəlijin jajılmasında xəstəlikdən ajılmış hejvanlardan başqa saqlam hejvanlar da iştirak edə bilər, cynky bu xəstəlikdə hejvanlar basil daşımaq qyvvətinə malikdirlər. Tərədiçi orqanizmin myəjjən jerlərində saprofit formasında jaşajıb, əlverişli momentdən istifadə etdikdən sonra qızıljeli haman hejvanda əmələ gətirir. Təbii xəstəlijə 3 ajdan bir ilə kibi olan donuzlar daha həssasdır. Sydəmənlər qızıljelə bir o qədər dutulmajırlar. Böjyk donuzlar xırda olarkan, təbii surətdə immunitet jaratdıqları ycyn xəstəlijə coq az dutulurlar. Insanlarda qızıljel, nazik baqırsaqın selik pərdəsinin bir coq jrelərində qatar əmələ gətirməklə barabar selik pərdəsində şişlərə təsadyf edilir. Selik pərdəsi qan ilə zənginləşməjir. Dalaq bir qədər həçmini böjydyr, qaraçijər böjyjyr. Böjrək normada qalırsa da yzərində qırmızı nəqtələr gənynyr. Limfatik vəzilər həçmlərini böjytməklə barabar hiperemijalaşırlar.

Inqubasija devri orta hesabla 3—5 gynə kibi syryr. Həzm aparatına kecən joluquçu materialın miqdarınə nəzərə alsaq, bə'zən 24 saatdan sonra xəstəlijin birinçi əlamətləri gənylyr. Mystəsna olaraq inqubasija devri 7 gynə kibi uzana bilər.

Diaqnoz baqterijanın tapılması ilə, təmiz qulturun alınması ilə və təçribə hejvanlarının joluqması ilə ola bilər. Əlbəttə xəstəlijə dair olan xariçi və daxili əlamətləri də jaddan cıqarmamalıdır. Baqterijanın miqrosqop altında tapılması ycyn materialı tədqiq edərkən təbiətdə qızıljel tərədiçisinə həm morfolozi, həm də qida myhitlərində jetişdiji əlamətlərçə bənzəjən saprofit miqroblar mytləq nəzərdə dutulmalıdır. Xysusən sıcanlar septisemijasının tərədiçisi *B. murisepticus* morfolozi və elə də qida myhitlərində verdiji əlamətlərçə qızıljel tərədiçisinə coq bənzəjir. Lakin *Bac. murisepticus*-u qızıljel tərədiçisindən ajırmaq ycyn onların virulentlijinə fikir vermək lazımdır. Sıcanlardakı septisemija tərədiçisinin virulentliji donuzlarda bir qədər zəifdir. *Leffler* tərəfindən aparılan təçribələr *sybut* etmişdir ki, qızıljeldən saqalmış hejvanlara, sıcanlarda septisemija əmələ gətirən tərədiçi hec bir tə'sir buraqmajır. Daha doqrusu donuzlarda bu xəstəlijə qarşı qəbul edilməməzlik əmələ gəlir. Aqlutinasija reaqsijasına gərə də bunların arasında hec bir fərq joqdur. Hər iki nev miqrob ejni aqlutinləşdiriçi serum ilə aqlutina-

sijanь verirlər. Bu hallara əsaslanaraq bə'zilərinin bu miqrobu qь-zьljel tərədiçisinin başqa bir nev'i olduqunu təsdiq etməkdə haqlarь vardьr. Diaqnozun tə'jin edilməsində hər materialdan istifadə etmək olmaz. Əgər material steril surətdə gətyrylyb saqlanьlьrsa, o zaman pereparatlarьn ɣrəkdən hazьrlanmasь mymkyndyr. Daxili orqanlardan qaraçijər, dalaq və bəjrəklər istifadə edilə bilər. Materialьn cirklənməməsində və diaqnozun qojulmasьnda səhvin az buraqьlmasь ycyn P f e j f e r, boru symykdən istifadə edilməsini məsləhət gəryr; cynky onun icərisində symyk iliji xariçdən lazьmi dərəçədə ihatə olunduqu ycyn material cirklənməjir və ondan hər bir zaman preparatь hazьrlajьb tədqiq etmək mymkyndyr. Preparatlar hazьrlanmьş ejni materialdan təmiz qultur almaq ycyn qьda myhitlərinə əkdikdən sonra alьnan qulturu hərəkətli olub-olmamasь və miqrobun Qramm ilə mysbət və mənfi bojanmasь tədqiq edilməlidir. Baqterijalarьn hərəkətsiz olmasь, Qramm ilə mysbət bojanmasь, miqrosqop altьnda gydək və nazik baqterijanьn gərynməsi, bə'zən diaqnozu təsdiq edə bilər. Lakin diaqnozun daha jəqin edilməsi ycyn mymkyn qədər başqa diaqnoz ɣsullarьndan da istifadə etməlidir. Qejd etdijimiz materiallarьn əksərijjətini xysusən yrəjin qanьnь qьda myhitlərinə əkmək mymkyndyr. Təçribədə bu hal cətinliklə əldə edildiji ɣcyn alьnan təmiz qulturlarь həssas təçribə hejvanlarьna ətynyb nətiçəsinə baqmaq lazьmdьr. Hejvanьn qьzьljelə dutulub saqalmaz hejvanda təbii olaraq qьzьljelə qarşь immunitet jaradьr və immunitetin nə dərəçədə alьnmasь xəstəlijin nə şəkildə davam etməsindən asьlьdьr. Buna əsaslanaraq Paster ilk dəfə qьzьljelə qarşь vaqsin hazьrlamьşdьr. Lui Paster zəifləşmiş qьzьljel qulturunu hejvanlara ətyrdykdə aldьqь nətiçə əlverişli olduqu ycyn başqa şəxslər bu ysuldan həm myəjənə etmək və həm də hejvanlarь qorumaq məqsədilə istifadə etmişlər. Paster, qulturu başqa çins hejvanlarьn orqanizmilə zəifləşdirmişdir. Qьzьljel qulturunu adavşanьnьn orqanizminə ətyryb qulturun adadavşanьna görə qyvətləndijini (virulentləndijini) və donuzlara nisbətən zəifləndijini gərmyşdyr. Bu qajda ilə adadavşanьndan alьnan materialь mynasib qida myhitlərinə əkib təmiz qulturu aldьqda bu qultur vaqsin sifətində işlədilir. Bu ysul əlverişlidir, cynky vaqsin qəbul edən hejvan syn'i surətdə qazandьqь immunitetin sajəsində bir daha qьzьljeli ozynə hec bir giriş qapьsь ilə qəbul etməjir. Bu hallarьn doqru olmasьnь Şjuts və Şotellus təsdiq edirlər. Bunlar vaqsini qəbul etmiş hejvanlara qulturu həzm aparatь və dəri vasitəsilə ətyrdykdə haman hejvanda qьzьljeli ala bilməmişlər. Q o n j o v qьzьljelin virusunu arasь kəsilməz surətdə gəjərcinin orqanizmindən kecirib onun virulentlijini o dərəçə qaldьrmьşdьr ki, aldьqь qulturun 0,2 qramьnь dəri vasitəsilə almьş gəjərcin 60 və qarьn boşluqu ilə qəbul etmiş gəjərcin 36 saatdan sonra tələf olmuşdur. Q o n j o v aldьqь virusun zəiflənməsi ycyn adadavşanьndan istifadə etmişdir və nətiçədə iki vaqsin hazьrlamьşdьr: **I və II vaqsin. Qulturu 7 adadavşanьnьn orqanizmindən sonra 1 və 3 adadavşanьndan kecirib II**

vaqsin—dejə qəbul etmişdir. Q o n j o v , vaqsının hazırlanması üçün xüsusi bir qida mühitinin hazırlanmasının məsləhət görmüşdür. Vaqsinasijanın aparılması bir neçə üsullar ilə ola bilər. İlk dəfə I vaqsini ötürüb, II vaqsini 10—14 gündən sonra ötürürlər; sonra isə II vaqsini ötürür, jaxud tək II vaqsini belə işlədirlər. 3-cü simmultan üsuldur ki, immunizasija həm vaqsin və həm də antiserum ilə aparılır. Axırıncı üsulda isə jalınız tək antiserum istirak edir.

II immunizasija üsulu L o r e n g və L e q l a n ş e -nindir ki, bunlar immunizasijada qultur ilə barabar antiserumdan da istifadə edirlər. L o r e n g , ilk dəfə heyvanın münasib jerinə (qulağın dal tərəfinə) antiserumu ötürür, müvəqqəti passiv immunitet aldıqdan sonra donuza bir neçə gün istirahət verir və qulturu haman jol ilə orqanizmə ötürür. Antiserumdan sonra qulturu almış donuzda az dərəcədə narahatlıq olursa da, lakin, üsulun jaqışı olduğunu təsdiq edən şəxslər coqdur (antiserumun hazırlanması üçün atlardan istifadə edirlər). L e q l a n ş e n i n apardığı üsula Qorenqi də əsaslanmışsa da, lakin bu, antiserum ilə qulturu qarışdırıb donuza ötürür və aradan 12 gün kecdikdən sonra tək qulturu ötürür.

Şiddətli dərəcədə qızdırılmış donuzculuq təsərrüfatlarında tək antiserumdan istifadə etmək daha əlverişlidir. 7—10 qram antiserumu qəbul etmiş donuzda müvəqqəti passiv immunitet əmələ gəlir. Doğrudur, immunitetin müddəti 2—3 həftəjə müsavi olursa da, lakin gələcəkdə immuniteti möhkəmlətmək üçün eyni donuzların üzərində aktiv immunizasijanı aparmaq mümkündür. Qaraazara qarşı aparılan profilaqtiqa üsulları, qızdırmel üçün də münasibdir. Doğrudur, burada mübarəzənin aparılmasının bir neçə səbəblər çətinləşdirirsə də (basil daşımaq və tərədiçinin saprofit halında təbiətdə jaşamasını), lakin profilaqtiqanı qızdırmeldə də nəzərdə dutmaq lazımdır.

ÇÜÇƏLƏRDƏ AĞ ISHAL.

Çüçələrin ağ ishalı ilk dəfə Ameriqada təsvir edilmişdir. Ağ ishal çüçələr üçün şiddətli joluqucu xəstəlik olmaqla barabar tojuqlara bunun bir o qədər qorqusu joqdur. Ağ ishalın verdiji zərər jalınız çüçələr içərisindədir, 2—3 və hətta 15 günlük çüçələr belə bu xəstəlijə davam gətirməjib, coq miqdarda tələf olurlar. Ağ ishal xəstəlijindən tələfat bə'zən 90%-ə qalxır. Ağ ishalın olması ilk əvvəl Ameriqa işçiləri tərəfindən qejd edildiji kibi, Ameriqa elmi işçiləri tərəfindən də çüçələrin ağ ishalı mükəmməl surətdə təsvir edilmişdir. Bunun ən cətin məsələlərindən birisi xəstəlijin nə qajda üzrə əmələ gəlməsi idi. Bu xəstəlik başqa xəstəliklərlə müqajəsə edilirsə, xəstəlikdə olan spesifik momentlər gözə carpaçaqdır. Ağ ishalın jumurtalıq vasitəsilə əmələ gəlməsi, jumurtadan xəstə çüçənin çıxıb çüçənin böjüjüb fərə olarkan verdiji jumurtaların xəstə olması kibi əsas əlamətlər jenə də Ameriqa işçiləri tərəfindən öjrənilmişdir. Bu

hallarъ өjrənən Ameriqa, bundan sonra quşculuq sən'ətində tərəqqi etməjə başlajьr. Aq ishalьn nə qajda yzrə əmələ gəlməsini bilməjənə qədər Ameriqada xəstəlijin tələfat fajizi olduqça jyksək idi. Aq ishal bu qajda yzrə başqa məmləkətlərə jajьlьr. Sovetlər Ittifaqьnda aq ishalьn olmasь ilk əvvəl 1926-çь ildə S i z o v tərəfindən tə'jin edilmişdir.

Morfologijasь. Aq ishalьn tərədiçisi spesifik miqrobdur. *B. pullorum* adlanьr. Tərədiçisinin əsas formasь cubuqa bənzər, uçlarь girdə və bə'zən enilə bojunda bir o qədər təfavyt olmadьqь ycyn qoq formasьnda da gərynyr. Uzunluqu 1—2 və eni 0,3—0,5 miqrona mysavidir. Spor jaratmajьr. Hərəkətsiz olduqu səjlənir. Lakin hərəkət məsələsi bir qədər həll edilməmişdir. Bə'ziləri hərəkətin olduqunu təsdiq etməklə barabar bojajarkan baqterijanьn ətrafьnda turnanь belə gərmyşlər. Bojanmasь anilin bojalarь ilədir. Qramm ilə mənfi bojanьr. B. pulloru morfolozi və biolozi tərəfdən *B. typhi gallinarum*-a coq bənzədiji ycyn Q l i m m e r, bu miqroblarьn ejni, jaxud bir çinsin myxtəlif nev'lərindən olduqlarьnь təsdiq edir. Şmitd B o d e t t, R e t t e r *B. pullorum-u qolitif,* daha doqrusu paratif qrupuna daxil edirlər. Ameriqa elmi işçiləri *B. pulloru-mu* iki tipə ajьrьrlar: biri *A* o birisi *B*-dir. *A*—tipi çyçələrə patogen olmaqla barabar qaz jaradьr. *B* isə qaz jaratmajьb, tojuqlara patogendir.

Qida myhitlərində jetişməsi oqsigenin olub-olmamasьndan asьlь dejildir. Aero-anaerobdur. Optimal hərarət 37°-dir. Aq ishal tərədiçisi bytyn sadə qida myhitlərində jetişir. Jetişməsi bir o qədər qaraqter əlamətlər verməjir. Buljon bir barabarda bulanьr. Tədriclə mixbərin dibində cəkyntynyn miqdarь artьr. 5—6 gyndən sonra buljonun yzərində pərdə gərynyr. Bu əlamətlər bytyn tiplər ycyn bir dejildir. **Aqarda** jetişərkən verdiji əlamətlərin bir o qədər xysusijjətləri joqdur. **Želatini** durultmajьr. Qolonjalar **želatinin** yzərində yzym japraqьna bənzər əlamətlər verir. Qartofda jaqşь jetişməjir. Lakin bə'ziləri qartofda kafi dərəcədə jetişdirmişlər. Sydy laxtalandьrmajьr. Indol əmələ gətirməjir. Hemoliz jaratmajьr. Tərkibində mannit, levuloza, qlyqoza, arabinoza və qsiloza daxil olan qida myhitlərində jetişərkən qaz və turşu əmələ gətirir; lakin **deqstrin, maltoza, dultsit** kibi qida myhitlərində gəstərilən əlamətləri verməjirlər.

Pis şəraitə qarşь olan davamlьlьqь bir qədər jyksəkdir. Sojuq buna bir o qədər tə'sir buraqmajьr; belə ki, aqьzь baqlь şişə qabda qultur iki aja jaqьn qalьr. Dezinfeqsija ediçi dərmanlar bunu az vaqtьn zərfində tələf edirlər. 0,1%-li sylymən 5%-li qarbol turşusu 30 sanijədə, 1%-li formalin 5, və 100° hərarət 1 dəqiqədə tələf edir (Ç o n s).

Çyçələrin aq ishal tərədiçisi qan və daxili orqanlarda da ola bilər. Bu maddələrin tərkibində olan xəstəlik materialьndan, jaxud təmiz qulturdan həssas olan hejvanlara xysusən 4—5 gynlyk çyçələrə, Hind donuzlarьna və adadavşanlarьna өtyrdykdə, gəstərilən hejvanlar myxtəlif vaqt icərisində tələf olurlar. Materialьn bir coq

jollarla orqanizmə ətyrylməsi mymkyndyr (dərialtь, aqьz və qejriləri). Aqьz vasitəsilə xəstəlik daha coq əmələ gəlir. Bəjyk jaşlь quşlar xəstəlijə cətinliklə dutulurlar. Bəjyk jaşlь çyçələr və tojuqlarda aq ishal *latent* formada davam edir. Bu quşlar xəstəlijə dair olan əlamətin hec birini yzə cьqarmajьrlar. Gəjərcin və sьcan kibi hejvanlar da aq ishala həssasdьrlar. Aq ishala bytyn quşlar bir dərəcədə həssasdьrlar. Təsərryfatda xəstəlijin əmələ gəlməsində mevsim hec bir rol ojnamajьr. Bunun maraqlь tərəflərindən biri təbii xəstəlijin əmələ gəlməsidir və təbii xəstəlijin bu qajda yzrə əmələ gəlməsi də xəstəlik ilə aparьlan mybarəzə ysullarьnь cətinləşdirir. Təbii xəstəlijin əmələ gəlməsi əsasən 3 jol yzrədir. 1) jumurtalьq, jə'ni çyçə xəstəlikdən ajьlьb bəjydyjy zaman jumurta verirkən jumurtanьn sarьsьnda xəstəlijin tərədiçisi qalьr. Bu qajda yzrə jumurtadan cьqan çyçələr də xəstə olur. 2) Xəstə çyçələrlə saqlam çyçələrin gəryşməsidir. Bu gəryşmə də inqubatordan çyçələr cьqdьqdan sonra, jaxud inqubatorda xəstə jumurtadan cьqmьş çyçələrlə saqlam jumurtadan cьqmьş çyçələrin bir jerdə jaşamasь zamanь olur; 3) xəstəlijin myxtəlif nev çisimlərin və xidmət edən şəxslərin vasitəsilə verilməsidir. Inqubatorlarda xəstəlik tərədiçisi ycyn ən əlverişli şərajit vardьr; buna gərə jumurtadan jeni cьqmьş çyçə, xarab olmuş, jaxud sьnmьş jumurtanь jejərkən xəstəlik tərədiçisini özynə qəbul edir. Aq ishalda həzm və tənəffys aparatlarь giriş qapьsь ola bilərlər.

Infeqsija dəvəranьnьn təsərryfatda əmələ gəlməsi bu qajda yzrə olur; təsərryfatьn səhlənkarlьqьndan inqubatorlara qojulan jumurtalarьn icərisində həm xəstə və həm də saqlam jumurta ola bilir; jə'ni inqubator ycyn jumurtalar xəstəlik çihətçə mə'lum olmajan tojuqlardan jьqьlьr. Inqubatora jьqьlmьş jumurtalar bir necə vaqtdan sonra çyçələr verir. Xəstə jumurtadan xəstə çyçə, saqlam jumurtadan saqlam çyçə cьqьb hamьsь bir jerdə jaşajarkan xəstəlik göstərilən jollar (həzm və tənəffys aparatlarь) ilə saqlamlara kecir. Bu zaman təsərryfatda şiddətli surətdə tələfat başlanьr. 2—3 gynlyk çyçələr tələf olurlar. Tələfat 80—90%-ə qalqьr. Orqanizmi qyvvətli olan çyçələrdən bə'ziləri xəstəlikdən saqalьrlar, lakin onlarьn jumurtalьqьnda xəstəlik tərədiçisi qalьr. Çyçələr irilənib fərə, tojuq olduqu zaman, verdiji jumurtalarьn sarьsьnda xəstəlik materialь olduqu ycyn belə jumurtalar inqabatorlara qojulduqda əldə edilən çyçələr şybhəsiz ki, xəstə olaçaqlar. Aq ishal təsərryfatda bu qajda yzrə davam edir.

Myaləçə. Buzovların paratifində simptomatik myaləçə əhəmijjətsizdir. Jeni doqulmuş buzovlarda paratifə qarşı immunitet jaratmaq ycyn mynasib laboratorijalar tərəfindən formal-vaqsin hazırlanır. Formal-vaqsinin hazırlanmasında myxtəlif rajonların xəstə heyvanlarından alınmış *B. Gärtner*-in qulturasından 10—20 jə qədər ştamm istifadə edilməlidir. Istifadə edilən qulturlar, əkildigi qıda myhitlərində *B. Gärtner*-ə məxsus bytyn biokimjəvi əlamətləri göstərməlidir. Aqlutininləşdirmək dərəçəsi 1:3000 aşaqı olmamalıdır. Aq sıcanların yzərində qultura virulentligini göstərməlidir. Vaqsinin hazırlanmasında istifadə edilən *B. Gärtner* qulturaları qaranlıq və sərin (3—12°C) jerdə saqlanılmalıdır. Hər yc ajdan bir qulturaların virulentligi joqlanılmalıdır. Bu qajda ilə əldə edilmiş qulturalar birər laqtozalı və *Ph* 7,2—7,4 buljona əkilib 37°C hərarətdə 2 gyn saqlanılmalıdır. Bu myddətdən sonra qulturanın təmizliji və miqrobun hərəkətli olması joqlanılır. Buljon qulturasından bir qədər aqar qıda myhitinə əkilir. Qulturanı aqarın yzərinə mykəmməl dərəçədə jajdıqdan sonra 2 gyn 37° dərəçədə

saqlanmьş qulturanьn təmizligi maqro və miqrosqopik tərəfdən joqlanьrlar. Aqarьn yzərində qultura fiziologi məhlul ilə jujulub, sonra təmiz şişə qablara tökylyr. Jujulmuş emulsijanьn qatьlьqlь xysusi standartlar ilə tə'jin edildikdən (emulsijanьn hər bir qub santimetrosunda miqrob hyçejrəsinin miqdarь bir miljarddan juqarь olmamalьdьr) sonra emulsijanьn hər bir litrinə 3,0 satьşda olan 40% formalin ilavə edilib 3 gyn 37° hərarətdə saqlanьlьr. Bundan sonra formal vaqsinin sterilliji joqlanьlьr. Formal vaqsinin sterilliji həm buljonda və həm də aqarda joqlanьlmalьdьr, əkilən qьda myhitləri 5 gyn 37° hərarətdə saqlanьlьr. Əgər qьda myhitləri steril qalarsa, o zaman formal vaqsin xysusi qablara tökylyb satьşa buraqьlьr. Formal vaqsin buraqьlmadan qabaq onun steril və zərərsiz olmasь və aqtivligi joqlanьlьr. Buljon, aqar və qara çijərli buljonda joqlanьldьqda əkilən qьda myhitləri steril qalmalьdьr. Formal vaqsinin zərərsiz olmasь iki dənə aq sьcanьn, bir adadavşanьnьn və yc buzov yzərində aparьlьr. Hər bir sьcana 0,5 dənə, adadavşanьna 5,0 və buzova 1—3,0 kibi ətyrylyr. Sьcanla adadavşanь saq qalmalьdьrlar. Formal vaqsini qəbul etmiş buzovlarьn hərarəti əksərijjətlə haman gyn 40—41° qalqьr. 24—70 saatdan sonra buzovlarьn hərarəti normaja qajьdьr və ymumi vəzijjəti jaqşьlaşьr. Formal vaqsinin aqtivligini əvvəlçə donuz yzərində əgrənilir. Vaqsinasija edilmiş Hind donuzlarь qontrol Hind donuzlarь ilə bir jerdə *B. Gärtner*-in virusunu aldьqdan sonra vaqsinasija edilmiş Hind donuzlarь tələf olmamalь, qontrol Hind donuzlarь isə 3—8 gynyn myddətində tələf olmalьdьr.

DONUZLARЬN PARATIFI.

Donuzlarьn paratifi başlьça olaraq əz tə'sirini xьrda donuzlara gəstərir və verdiji tələfat da təsərryfat ycyn olduqça jyksəkdir. Azərbajçanda donuzlarьn paratifinə təsadyf edilir. Donuzlarda olan paratifi *B. suipestifer* əmələ gətirir. Morfolozi gərylyşçə bu miqrob paratifin nymajəndələrindən hec bir əlamətçə ajrьlmajьr. *B. suipestifer* manniti və qlyqozanь parcalajьr. Hal bu ki, tərkibində dulsit və arabinoz olan qьda myhitlərində jetişəndə isə gəstərilən maddələri parcalamьr; xəstəlik zamanьnda *B. suipestifer*-in myxtəlif materiallarda aqtarьlmasь, qejri paratif nymajəndələrinin aqtarьlmasь ysulu kibi olmalьdьr. Paratif qrupunun differensijasija edən qьda myhitləri hamьsь burada da istifadə edilməlidir. Bundan başqa aqlutinasija reaqsijasь da nəzərdə dutulmalьdьr. Baqteriologi diaqnozun qojulmasьnda taun xəstəligini nəzərdə dutmaq lazьmdьr, cynky donuz taununda *B. suipestifer* bə'zən saprofit şəkildə jaxud qarьşьq infeqsija sifətində iştirak edə bilər. Bu xəstəligə qarşь vaqsinasijanьn aparьlmasь məsələsi bir o qədər geniş jer dutmajьr. Aqressin-vaqsin işlədilməsi xysusunda hal-hazьrda geniş təçribələr aparьlmaqdadьr.

SYD ƏMƏNLƏRDƏ PIOSEPTISEMIJA.

(Pyosepticaemia neonatorum).

Xəstəlijə dutulmuş syd əmən hejvanlarьn aqsamaqь, bu xəstəlik ycyn əsas əlamətlərdən birisidir. Xəstəlik ən coq dajlar və buzovlar icərisində təsadyf edilir. Başqa çins hejvanlarьn syd əmənlərində bu xəstəlik az gərynyr. Hejvanlarьn ojnaqьnda irinli iltihab əmələ gəldiji ycyn, ojnaqlarda irin maddələri tapьlьr. Bə'zən təsərryfatda xəstəlik joluquçu formada davam edir. Syd əmən hejvanlarьn əksərijjəti xəstəlijə dutulur. Bu hala dutulmuş at zavodlarь və syd fermalarьnda, çavan hejvanlarьn jetişdirilməsi məsələsi bir qədər cətinləşir. Xəstəlijin tərədiçisi myxtəlif nev miqroblar ola bilər və bə'zən bir çins hejvanda xəstəliji əmələ gətirmiş miqrob, başqa çins hejvanda iştirak etməjir. Dajlarda xəstəlik tərədiçisi əksərijjətlə, streptoqoqlar və *B. viscosum* kibi miqroblar olurlar, bundan başqa diploqoqlar, baqьrsaq baqterijalarь və qejri miqroblar da, gəstərilən xəstəliji əmələ gətirə bilərlər. Buzovlarda bu xəstəlik bir miqrob dejil, bir coq miqroblar tərəfindən jaradьlьr. Bunlardan başlьçalarь baqьrsaq baqterijasь streptoqoqlar və qoli, tif qrupunun miqroblarьdьr.

Tərədiçinin sadə qьda myhitlərində təmiz qulturasьnьn alьnьb, sadə bojalar ilə bojanmasь mymkyndyr. Təbii xəstəlik, gəbək, zədələnmiş dəri, acьq jara vasitəsilə və bala balalьqda olarkan əmələ gəlir. Gəbək bu xəstəlik ycyn əsas giriş qapьlarьndan birisidir. Myxtəlif vasitələrlə gəbəjə daxil olmuş miqrob, əzynə mynasib şərait tapdьqdan sonra inkişaf edib tədriclə orqanizmin başqa hissələrinə jajьlьr.

Hejvanьn balalьqda xəstələnməsi ananьn nə vəzijjətdə olmasьndan asьlьdьr. Jəqin ki, ana başqa bir xəstəlijə dutulur və əgər bala patogen miqroblu qan ilə qьdalanьrsa bu qajda ilə xəstəlik balaja verilə bilər. Noqarьn, gəstərməsinə gərə syn'i surətdə xəstəliji həzm və tənəffys aparatь vasitəsilə almaq mymkyn olmamьşdьr. Pioseptisemijanьn davam etməsi iki formada olur; iti və xroniki formalardьr. Iti formanьn davam etməsi ymumi septisemija infeqsijasьna bənzəjir. Belə ki, parenxim orqanlarьnьn həçmçə bəjyməsi, baqьrsaqьn səlikli pərdəsinin qatarь və dalaqьn hiperemijasь kibi əlamətlərə təsadyf edilir. Xronik formada, iti formada olan əlamətlər ajdьn və qaraqter gərynməjirsə də, bronxlarda irin oçaqlarь əmələ gəlir, sonralar aqçijərdə icərisi aq, jaxud sarь maddə ilə dolu bərk dyjymlərə təsadyf edilir. Xəstəlijin hejvanda olmasь, bala doqulduqdan 1—2 gyn sonra, jaxud bir qədər geç mə'lum ola bilər. Ojnaqlarda iltihab prosesi başlanьr. Bunun tə'sirindən xəstə normal qajda yzrə jerijə bilməjir. Jerijəndə əsir, ajaqьn diz və daban tərəfi şişir. Iti formada hərarətin jyksəlməsindən, xəstə bytynlyklə qyvvədən dyşyr, bir necə gynyn zərfində xəstə tələf olur. Ojnaq iltihabь son dərəçəjə catьr. Xronik formada xəstəlik bir qədər uzun syryr. Əmələ gələn şişlər, xəstənin hə-

rəkət etməsinə mane olur. Xronik formadan xəstənin saqalmasь mymkyndyr. Qejri vaqtlarda isə xəstə 2—3 həftənin zərfində tələf olur. Tələfat 35-–50%-dir. Dajlarda, tələfat buzovlara nisbətən bir qədər jyksəkdir. Xəstənin aqsamasь, gəbəjin iltihabь bu xəstəlijin olduqunu göstərə bilər. Bu əlamətlər xəstəlijin diaqnozu ycyn kifajət dejildir. Ojnaqlarda olan materiallar miqrosqop ilə tədqiq edilməlidir. Başqa orqanlarьn, xysusən qanьn, diaqnoz materialь olmamasьna səbəb, onun coq zaman baqьrsaq miqroblarь ilə cirklənməsidir. Tərədiçinin tə'jin edilməsinin başqa bir əhəmijjəti də spesifik serumun alьnmasьdьr. Gəbəjin iltihabь və jara tədriçilə saqalьr. Əgər əmələ gələn şişin jarьlmasь tələb edilirsə, ymumi qajda yzrə jarьb dezinfeqsija etməlidir. Ojnaqda jьqьlan eqsudatь uzaqlaşdьrmaq ycyn, xysusi alətlərlə majei cьqarmalь, jaxud şişi jarьb ojnaqьn sahəsini mykəmməl surətdə dezinfeqsija etməlidir. Xəstəlik orqanizmin hər bir jerinə jajьldьqь zaman, xəstənin jeminə diqqət jetirməklə barabar, xəstəlijin myaləçəsinə calьşmaq lazьmdьr. Ananьn qanьnda dajlaqda xəstəlik jaradan miqroblara qarşь mynasib antitellər olduqu ycyn F o r s e l və I o n f e ananьn qan, jaxud serumunu xəstəjə ətyrməji məsləhət göryr. Bu ysulun göstərdigi köməklik xysusunda mysbət mə'lumatlar coqdur. Forsel, 157 xəstənin yzərində bu ysul ilə myaləçə apararkən, hejvanlardan 127-nin saqalьb və 30-nun tələf olduqunu görmyşdyr. Buna əsaslanaraq bir coq şəxslər bu ysulun işlədilməsini məsləhət göryrlər. Tərədiçilər myxtəlif olduqlarь ycyn polivalent serumdan da istifadə etmək mymkyndyr. Bu xəstəlikdə profilaqtiqa əsas məsələlərdən birisidir. Jeni doqulmuş hejvanьn göbəgini mymkyn qədər, cirklənmiş çismlərdən, jaxud hejvanlara xidmət edən ehtijatsьzlьq ilə dolanan şəxslərdən qorumalьdьr. Hejvanlarьn jaşadьqь jerlərin myntəzəm surətdə dezinfeqsija edilməsi, göbəgin bə'zən dezinfeqsijasь boqaz hejvanlarьn tə'jin edilmiş jerlərdə doqmasь və doqmadan qabaq tənasyl aparatьnьn dezinfeqsija edilməsi kibi momentlər hejvanlarьn xəstəligə dutulmamasьnьn əsas səbəblərindən birisidir.

MADJANLARDA JOLUQUÇU ABORT.

Madjanlarda vaqtsьz bala salmaq, başqa miqroblar tərəfindən də tərədilə bilər. Lakin bunun əsas tərədiçisi paratif qrupuna daxildir. Xəstəlik 1786-çь ildən bəri mə'lumdur və bunun qət'i surətdə olmasь 1898-çi ildə Q i l b o r n e v və Ş m i t tərəfindən təsdiq olunmuşdur. Başqa hejvan çinslərində abortun tərədiçisi bir miqrob olduqu halda madjanlarda abort spesifik olmajan miqroblar tərəfindən də əmələ gələ bilər.

Miqrobun morfologijasь. *Bact. abort eaurumun* uzunluqu 0,6—2,5 miqrona qədər və eni 0,5-dən 0,6 miqrona mysavidir. Qapsula və spor jaratmajьr. Mystəqil hərəkətə malik olan, uçlarь girdə bir baqterijadьr. Bojanmasь Qramm ilə mənfidir. Başqa anilin bojalarьnьn hamьsь ilə bojanьr. Bundan başqa madjanlarьn abortu pa-

571—17

ratif *A bact. colis Banq* baqterijasь, sterepto və stafiloqoqlar tərəfindən də əmələ gələ bilər. Madjanlarьn abort streptoqoqlar tərəfindən jaradьlьr. Halbu ki, bu miqrobun tərəfindən xəstəlijin əmələ gəlməsi başqa tədqiqatcьlar tərəfindən təsdiq olunmamьşdьr. Poljaqov, illərçə japdьqь tədqiqatьn sajəsində abortun bipoljar, ovoid baqterija tərəfindən əmələ gəldijini səjləjir. Bunun doqru olmasьnь D a s s o n v i və V i v j e r təsdiq edirlər. Q u r v i c bunun myxtəlif miqroblar tərəfindən də əmələ gəlməsini apardьqь tədqiqatla sybut etmişdir. Qurvic 204 atь aborta tədqiq edərkən 111 atda *B. faratypi* abort *acvui* 18 atda *flavoba eterium*-un, 15 atda diplostreptoqoqun, 13 atda, *Coli comunis*-in və qejri miqroblarьn təmiz qulturasьnь almьşdьr. Bunun tərədiçisi faqultativ aerobdur. Sadə qьda myhitlərində jetişir. Hazьrlanan qьda myhitlərinin reaqsijasь qələvi olmalьdьr. Turş qьda myhitlərində jetişməjir. Optimum hərarət 36—37°-dir. Aşaqь hərarətdə jaqşь jetişməjir. Sadə buljonda jetişərkən bir o qədər qaraqter əlamətlər verməjir. Buljon bir barabarda bulanьr. Mixbərin dibində cökynty jьqьlьr. Tərkibinə **yzym şəkəri** ilavə edilmiş buljona ətyrdykdə qьda myhitində qaz əmələ gətirməjir. Tərədiçi qьda myhitində jetişərkən verdiji myxtəlif əlamətlərə görə tədqiqatcьlar baqterə myxtəlif adlar vermişlər. Aqarьn yzərində boz syd rəngində, girdə qolonjalar verir. 2-çi gyn qolonjalar tədriçlə qьda myhitinin yzərində daha da inkişaf edib qьdanьn bytyn yzərini byryjyr. **Zelatini** durultmajьr. Baqterin qьda myhitində daha jaqşь inkişaf etməsi ycyn buljona öd ilavə edirlər. Qartof bunun ycyn əlverişli dejildir. Lakin jetişərkən qartofun yzərində boz-sarь qolonjalar əmələ gətirir. *Sydy* laxtalandьrmajьr. **Qonradi-Drigalsqinin** aqarьnda jetişərkən qьda myhitinin rəngi dəjişməjir. Qlyqozlu qьda myhitində jetişərkən ştamlarьn əksərijjəti qaz əmələ gətirir. Barsiuqovun qarbohidratlь qьda myhitlərində ştamlar aşaqьdakь qajda yzrə jetişirlər: laqtoza, rafinoza, deqistrin və saxaroza kibi maddələrdə dəjişiklik əmələ gətirməjirlər. Qliserinli qьda myhitində 4—6 gyndən sonra turşu jaradьrlar. Tərkibində mannit, qlyqoza, maltoza, dulsit, sorbit, levuloza və qalaqtoza qьda myhitlərində qaz və turşu əmələ gətirir. Indol əmələ gətirməjir. Banq abortu qulturasь ilə madjanlarьn abort qulturasь arasьnda böjyk fərq vardьr. Bunlar bir-birindən serelozi, patogenlik və qьda myhitlərində jetişib verdikləri əlamətlərlə ajrьlьrlar. Məsələn *abortus equi*-nin baqteri aqar qьda myhitində jetişərkən, qultura quru olmaqla barabar qьda myhitinə möhkəm japьsьr. Paratif abortunun myxtəlif ştamlarь arasьnda böjyk fərq vardьr.

Qurumaqa coq davamlьdьrlar. Hərarətə qarşь davamlarь olduqça myxtəlifdir. Ştamlardan bə'ziləri ejni hərarətdə bir qədər geç, başqalarь bir qədər tez tələf olurlar. Qajnama dərəçəsinə kibi qьzdьrma bunlarь tez tələf edir. 2% qalium permanqanat, 0,5%-li formalin 15 dəqiqədən sonra tələf edir. Qarbol turşusunun və xysusən sylymənin tə'siri daha qyvvətlidir.

Patogenliji. Madjan abortunun baqterini ata, davşana. Hind donuzuna, inəjə və sьcana ətyrdykdə göstərilən hejvanlarda syn'i surətdə vaqtsьz bala saldьrmaq olar. Şybhəsiz ki, qulturanьn patogenliji madjanlar ycyn daha qyvvətlidir. Kecilərə qultura tə'sir göstərməjir. E r l i x i n göstərməsinə görə qojunun vaqtsьz bala salmasьna bu miqroblar səbəb ola bilərlər. Poljaqov, əldə etdiji qulturasьnь, jem, qan və balalьq selikli pərdəsilə madjana ətyrdykdə bu madjanlarda syn'i surətdə xəstəlik almьşdьr. Qulturanьn dəri altьna, jaxud balalьq jolunun selikli pərdəsinə ətyrylməsi xəstəliji əmələ gətirməjir (Poljaqov). Poljaqov, 40 gynlyk dajlaqьn bilavasitə qanьna 10 qram miqdarьnda qultura ətyryb 3 gynyn zərfində hərarətin 40° qalqdьqьnь və xəstədə zəiflik, selik pərdəsinin saraldьqь və sonrakь 4-çy gyndə hərarətin olmajьb hejvanda ymum vəzijjətin jaqşьlandьqьnь görmyşdyr. Xəstəlijin jeddinçi gynyndə, aqşam hejvanьn hərarəti 40 dərəçəjə qalqьr. Saq tərəfdə xəstənin dal ajaqьnda aqsamaq əlamətləri görynyr, diz ojnaqьnda maje jьqьlьr. Doqquzunçu gyn ishal başlajьr, ojnaqьn şişi azalьr, lakin ishal davam edir. Dajlaq zəifligin tə'sirindən 14-çy gyn tələf olur. Xəstəlik baqterinin təmiz qulturasьnь vaqtsьz salьnmьş baladan, balalьq maje'indən, balanь ihatə edən pərdə, ojnaqa jьqьlan maje, yrək, qaraçijər, dalaq və qejri bu kibi mynasib materiallardan almaq mymkyndyr. Hətta Poljaqov, tərədiçinin təmiz qulturasьnь otdan belə almьşdьr.

Təbii xəstəligin nə qajda yzrə əmələ gəlməsi mə'lum dejildir. Bu barədə coq fikirlər vardьr. Bə'ziləri xəstəligin jem və su vasitəsilə əmələ gəldigini təsdiq edirlər. Abortun təsərryfatda əmələ gəlməsi ycyn, infeqsijanьn təsərryfata xariçdən gəlməsinə bir o qədər ehtijaç joqdur. Xəstəlik təsərryfatda gözlənilməjən bir vaqtda qalqьb tədriçlə qurtara bilər. Bə'zi hallar (jem və jerin dəjişilməsi) xəstəligin həzm aparatь vasitəsilə əmələ gəldigini təsdiq edir. Vaqtsьz salьnmьş balanь jardьqda, dərinin altьnda şəffaf, jaxud dutqun və bə'zən qьrmьzь təhər seroz maje görynyr. Dəl pərdəsinin yzərilə gedən qan damarlarьnьn ətrafьnda, qanьn myəjjən jerlərdə jьqьlьb qaldьqьna, jaxud nəqtə-nəqtə pərdənin yzərində qaldьqьna təsadyf edilir. Burada olan dəjişiklik həmişə bir formada olmajьr. Baqьrsaq və seroz maje'lərində coq miqdarda paratif baqterijalarь tapьlьr. Syn'i formada madjanlarda inqubasija devri 9—14 gynə kibi syryr. Lakin xьrda hejvanlarda isə bu vaqt bir qədər qьsadьr. Xəstəlijə dutulmuş atlarda hec bir xariçi əlamətlər görynməjir. Lakin madjan bala salmamьşdan bir necə vaqt qabaq bə'zi əlamətlər göstərir. Tənasyl aparatьnьn xariçi hissəsi şişir, tənasyl aparatьndan aq, rəngsiz maje aqьr və sançь əlamətləri kibi hadisələrə də təsadyf olunur. Madjan balanь myxtəlif vaqt zərfində sala bilər. Orta hesabla balanьn salьnmasь 4—8-çi ajlarda olur. Poljaqov balanьn 9 və 11 ajlarda da salьndьqьnь qejd edir. Balanь vaqtsьz salmьş madjanlar, myxtəlif joluquçu xəstəlijə dutula bilərlər. Bə'ziləri ymumi septisemijadan tə-

ləf olurlar. Bala salmьş madjanda şiddətli zəiflik hiss olunur. Hərarət 40° kibi qalqьr.

Xəstəlijin diaqnozu xariçi əlamətlərinə görə cətin qojula bilər. Baqterioloji diaqnoz qojularkan, juqarьda təsvir etdijimiz baqterijanь tapmaq lazьmdьr. Paratif baqterijasьnьn jeni salьnmьş qanьnda, daxili orqanlarьnda tapьlmasь və təmiz qulturanьn alьnmasь xəstəlijin olduqunu təsdiq edə bilər. Serelozi reaqsijalardan aqlutinasija reaqsijasьndan istifadə edirlər. Reaqsijanь qojarkən titrin nə qyvvədə olmasьna diqqət jetirməlidir. 1 : 100 və 1 : 300 mixbərlərilə hesablaşmaq lazьm dejildir və elə də 1:800 nisbəti kibi reaqsija bə'zən şybhəli hesab olunur. 1:800-dən juqarь mixbərlərin verdikləri nətiçə xəstəlijin olduqunu sybut edir. Xəstəlijə dutulmajan atlar da 1:300 nisbətində mysbət nətiçə verir. Təçribə hejvanlarьndan bir neçələri paratif abortuna həssasdьrlar. Əldə etdijimiz qulturanьn, jaxud materialьn Hind donuzuna və aq sьçanlara dəri və qarьn altьna və adadavşanьnьn bilavasitə qanьna ətyrdykdə göstərilən hejvanlar xəstələnirlər.

Qorujuçu pejvəndlər. Xəstəlik törədiçisi spesifik olmadьqь ycyn pejvənd məsələsi bir qədər cətinliklə həll edilir. Əgər törədiçi təmiz formada alьnьrsa və başqa miqroblarьn iştirak etməsində şybhə olmazsa, o zaman o qulturanьn ja özyny jaxud qorumaq məqsədilə eqstraqtьnь işlətmək mymkyndyr. Zəifləşmiş qulturanьn vasitəsilə profilaqtiqanьn aparьlmasь T r a u m, M o l e r, Ş t i q d o r tərəfindən məsləhət gərylyrsə də lakin bu ysulun verdiji nətiçə bir o qədər gözə carpmajьr. Xəstəlijin təsərryfatdan cьqarьlmasь ycyn aparьlan əsas ysullardan birisi də profilaqtiqa olmalьdьr. Abortun madjanlara jajьlmasьnda, qəbul edilən jemlərin baş rol ojnamasь hal-hazьrda bir coq tədqiqatcьlar tərəfindən təsdiq edilir. Madjanьn jaşadьqь jerin təmiz olmasь, jaxud abort myşahədə olunmuş jerlərdən, hejvanlar xəstəlikdən azad olmuş jerlərə köcyrylməsi kibi faqtlar mybarəzə ysulunun əsas hissəsini təşkil etməlidir.

ƏTDƏN ZƏHƏRLƏNMƏNI ƏMƏLƏ GƏTIRƏN BAQTERIJA QRUPLARЬ.

Təbiətdə, bir coq miqroblarьn saprofit tərzində jaşamalarьna baqmajaraq, onlarьn buraqdьqlarь zəhər olduqça qyvvətlidir. Insanlarьn bə'z məhsullar ilə zəhərlənməsində, paratif qrupunun nymajəndələrindən başqa *B. Proteus* və *B. botulinus* kibi miqroblar da iştirak edirlər. Aparьlan tədqiqatlar ətdə, qolbasada və ət qonservlərində paratif miqroblarьnьn olduqunu göstərir. (Q o n r a d i, Q j u b e n e r və Z l o t o q o r o v). Zəhərlənmədə iştirak edən miqroblar iki qismə ajrьlьr: 1—paratif qrupudur ki, bura *B. Paratyphus A* və *B.* və 2—*b. enteritidis Härtner*-dir. *Härtner* baqterijasьnьn duru qьda myhitlərində əmələ gətirdiji toqsin, şiddətli tə'sirə malik olmaqla barabar 30 dəqiqə qajnamaq dərəçəsi belə onu tələf edə bilməjir (B o n q e r t). Ətdən zəhərlən-

mənin əsas hissəsini paratif qrupunun baqterijalarь təşkil edir. Insanlarda əmələ gələn zəhərlənmənin mənbə'ini öjrənən şəxslər, bunun yzərində tədqiqat apararkən coq zaman paratif qrupunu materiallarda tapmьşdьr. Aparьlan tədqiqatlar hətta fajizçə *B. Härtner, B. Paratyphi Breslau* və *B. paratyphi B.* zəhərlənmədə iştirak etməsini göstərirsə də, lakin onlarьn bir qədər doqru olmamasьnь qejd etməlijik. Ymumijjətlə *B. paratyphy B* — miqrobunun zəhərlənmədə daha aqtiv iştirak etdiji bizə mə'lumdur, ançaq bə'zi şəxslər, zəhərlənmədə *B. Paratyphy—B*-in etdiji iştirakь fajizçə bir qədər az göstərir və bir də bunlardan hansьnьn daha aqtiv iştirak etməsini bilmədən ötry. həssas (spesifik aqqlutininləşdirmək qyvvəsinə malik olan) aqqlutininləşdiriçi serumlardan istifadə etmək lazьmdьr. Laboratorijalar bu çyrə jaqşь kejfijjətə malik olan serumlarь hər zaman əldə edə bilməjirlər. Zəhərlənmənin əmələ gəlməsinin səbəbi əksərijjətlə xəstə hejvanlarьn və az hissəsi isə, saqlam hejvanlarьn yzərinə dyşyr. Qəbul ediləçək məhsulda bə'zən zəhərlənməni əmələ gətirən baqterija olmaja bilər.

V i e m a n, 15 çyrə myxtəlif əti tədqiq edərkən, orada zəhərlənməni əmələ gətirən baqterjalarь tapmamьşdьr. Halbu ki, bu ətlər qəbul edildikdən sonra zəhərlənmə əlamətləri vermişlər. Zəhərlənmədə iştirak edən miqroblarьn *differensijasijasь* hələ bu vaqta kibi myəjjən şəkli qəbul etməmişdir. Buna görə də hər zaman zəhərlənmə əmələ gəldikdə zəhərlənmənin hansь miqrob tərəfindən olduqunu bilmək asanlьqla mymkyn olmur. Baqterilozi diaqnozun bu hissədə göstərdigi kəməkligi inkar etmək olmaz. Bə'zən baqterelozi diaqnozun kəməkligilə, zəhərlənmədə hansь miqrobun iştirak etdigini bilmək olmur. Orqanizmdə daima **paratif** qrupunun miqroblarьnь daşьjan hejvanlar, zəhərlənmədə əsas rol ojnajьrlar. Bunun doqru olduqunu **Quppulmaur** və **Bruggemannьn** apardьqь tədqiqat təsdiq edir. Buna əsaslanaraq zəhərlənmənin 40%-i saqlam hejvanlar təşkil etdijini onlar təsdiq edirlər. Qьzdьrmaq jaxud bişirmək paratif baqterijalarьnь tələf edir. Lakin onun toqsinini tələf etməjir. Buna görə tərədiçini tapmaq ycyn aparьlan tədqiqat nətiçə verməjir. Lakin məhsulda baqterijanьn toqsini olduqu ycyn insan zəhərlənir. Toqsinin olduqunu bilməkdən ötry sьcanь haman produqt ilə jemləndirmək lazьmdьr.

Zəhərlənmədə paratif qrupundan başqa *B. Botulinus* və *B. protsus vulqaris* kibi miqroblar da iştirak edirlər. Bu miqroblarьn əmələ gətirdikləri zəhərlənmə ilə paratif qrupunun jaratdьqь infeqsijanьn arasьnda hec bir əlaqə joqdur. Bu zəhərlənmə saprofit miqroblarьn tərəfindən əmələ gəlir. Uzun myddət saqlanьlmьş məhsullarьn icərisinə, saprofit miqroblarь kecib oraia zəhərlərini buraqdьqdan sonra, məhsulu (qalbasa, balьq və ət) qəbul edən insanda bir necə saatdan sonra zəhərlənmə əmələ gəlir. Xariçi gərynyşlə məhsulun icərisində, toqsinin olub-olmadьqьnь bilmək cətindirsə də, lakin təçribəli şəxslər onun qatьlьqьnьn dəjişilməsi və verdiji qaraqteri qoqu ilə zəhərli məhsulu tə'jin edə bilərlər.

Zəhərlənmədə iştirak edən baqterijalardan birinçisi *B. botulinus*-dur. Bu basil ətrafına xysusi qrup toplajır. *Bacilus botulinus*-i morfolozi çihətçə aşaqıdakı əlamətlərlə tanımaq olar. Bunun uzunluqu 4—6 miqrona eni 0,9—1,2 miqrona mysavidir. Uçları girdə, jumurta formasına bənzəjir və spor buraqmajır. Turnalar miqrobu peritrix formasında ihatə etmişdir. Zəif hərəkətə malikdir. Miqrosqop altında gərynyşy tək, çyt və zənçir formasında da ola bilər. Qəndli aqarda *B. botulinius* girdə, sarı xırda kyrəçikli qolonjalar verir. Želatin və qan zərdabını durultması zəifdir. Sydy qajda yzrə laxtalandırır. Laqtoza, maltoza qlyqoza, saxaroza və nişastanı parcaladıqda nətiçədə qaz və turşu əmələ gətirir. Əkilən qıda myhitlərində jetişməsi ycyn optimal hərarət 37° olmalıdır, basil anaerobdur. Qıda myhitinə xərək duzunun coq ilavə edilməsi, basilin coqalmasına mane' olur. Bu basil qıda myhitlərində jetişərkən məhsullarda şiddətli tə'sirə malik olan toqsin buraqır. Hər bir tip *B. botulinusun* tipinin buraqdıqı toqsin, başqa tipin əmələ gətirdiji antitoqsin ilə nejtral edilməjir. Məsələn, *A* tipinin toqsini *B* tipinin antitoqsini ilə nejtrallanmajır. Zəhərlənmənin əmələ gəlməsində iştirak edən 2-çi miqrob *B. proteus Vulqaris*-dir. Bu cəpə bənzər miqrob, myxtəlif bəjyklykdə olur. Uzunluqu 1 miqrona, eni 0,7 miqrona kibidir. Želatində jetişərkən qaraqter əlamətlər verir. Qıda myhitinin yzərində xırda, myəjjən formaja malik olan qolonjalar əmələ gətirir. Želatini durultmaq xassəsi az dərəçədə vardır. Buljonu bulandırır. Sydy laxtalandırır. Indol və H_2S əmələ gətirir. Qlyqozlu qıda myhitlərində qaz jaradır. Nişastanı əritməjir, hemoliz verməjir. Jetişməsi ycyn 37° hərarət daha əlverişlidir. Toqsinin nə dərəçədə qyvvətli olmasını bilməkdən ətry qulturanı filtrdən kecirib və əldə edilən maje'nin 0,00005-ni Hind donuzuna və 0,0005 adadavşanına ətyrdykdə hejvanlar tələf olurlar. Göstərilən miqdarlar maqsimal formadadır. Hətta hejvanların tələf edilməsi ycyn 0,0001 ətyrylməsi belə kifajətdir. Istiqanlı hejvanların orqanizmində B. botulini coqala bilməjir. Hətta orqanizmdə syd turşusu vasitəsilə şərajiti pozduqda basil nə coqalır nə də toqsin əmələ gətirir. Bunun orqanizmdə coqalması jalınız insan və hejvanın tələf olmasından sonra ola bilər. Axır vaqtlarda Botulizm xəstəlijinin yzərində aparılan tədqiqat coq olduqu ycyn bu xəstəlijin məmləkətlərdə coq təsadyf edilməsini Ameriqa qomisijası təsdiq edir. *B. botulin*-nin yzərində calışan və onu ətraflı surətdə öjrənən Van-Ermenqen olmuşdur. Bu şəxs və onun jaqın şəjirdləri basilin baqırsaqda nə dərəçədə olduqunu öjrənmişlər. Meurin söjləməsinə görə *B. botulini* topraqda coq az təsadyf edilir. Toqsinin basil jaşadıqı myhitdə əmələ gəlməsi ycyn 3 əsas şərt lazımdır: 1—anaerob şərajit, 2—vaqt (məhsulun daha şiddətli zəhərə malik olması ycyn basil onun icərisində coq myddət qalıb toqsini məhsula buraqmalıdır) və 3—isə əlverişli hərarətin olmasıdır.

B. botulunis-in əmələ gətirdigi toqsini 80° hərarət jarım saatdan sonra tələf edir. 3%-li sodanın məhlulu toqsini tez vaqtın

içərsində xarab edir. Aqzь baqlь, qaranlьq jerdə toqsin on aja jaqьn qala bilər (M a r i). *B. botulini* bir necə tiplərə bəlynyr: *A, B, C.* Bu tiplər mүxtəlif jerlərdə təsadyf olunur. Məsələn *B* tipi qultur, A tipi isə coq işlədilməjən topraqlarda təsadyf edilir (M a - u e r). Təhqiq edilən məhsulda B. botulini miqrobunun və toqsinin tapьlmasь, məhsulun zəhərləndigini göstərir. Miqrob və toqsinin tapьlmamasь məhsulun işlədilməgə jaradьqьnь və ja xəstəligin olmadьqьnь göstərir.

SYZYLƏN MIQROBLAR.

Syzylən miqroblar tərəfindən əmələ gətirilən xəstəliklər, bizim qursa ajid dejilsə də, lakin onlarьn viruslarь ilə bu şө'bə maraqlanmalьdьr. Syzylən miqroblarьn tərəfindən jaradьlan xəstəliklər, myəjjən bir nөqtədə qalmajьb, onlarьn yzərində aparьlan tədqiqatlar gyn-gyndən coqalmaqla barabar əldə edilən materijalarьn miqdarь tədriçlə coqalьr, bizim məqsədimiz bu qursda oquçularь jeni və maraqlь məsələlərlə tanьş etməkdən ibarətdir. Xəstəliklə mybarəzə etmək ycyn, onu jaradan torədiçinin tapьlmasь bir o qədər məçburi dejildir. Tərədiçi tapьlmadan da bu xəstəliklərlə mybarəzə aparmaq mymkyndyr. Syzylən miqroblarьn miqrosqopla gorynməməsinə bir coq səbəblər ola bilər. Ola bilsin ki, hali-hazьrda işlətidijimiz optiqanьn bөjydycy qyvvəsi o qədər iyksək dejil və ondan başqa torədiçini gərməkdən ilavə qьda myhitlərində onun əkilməsi də lazьmdьr. Bizə mə'lum olduqu kibi, bə'zi miqroblarьn qьda myhitlərində jetişməsi secmə qьdanьn hazьrlanmasьnь tələb edir. Onlarьn hansь secmə qьda myhitlərində daha gözəl jetişdikləri bizə bir o qədər mə'lum dejildir. Filtirdən kecən miqroblarьn tərəfindən əmələ gələn bir necə xəstəliklər hali-hazьrda kecid devrini syryrlər, jə'ni onlarьn miqrobu miqrosqop altьnda gөrynyr, təmiz qulturasь alьnьr, lakin miqrob coq xьrda olduqu ycyn filtirdən kecir. Sөjlədigimiz əsas məsələlərin bir qədər ajdьn olmasь ycyn, bu xəstəliklərdən bir necəsinin yzərində dajanьb və hali-hazьrda nə vəzijjətdə olmalarь barədə, tələb edilən, mə'lumatь mymkyn qədər oquçulara verək.

QARAMALDA JOLUOUÇU AQIÇIJƏR ILTIHABЬ.

(Pleuropneumonia contagiosa bovum).

Joluquçu aqçijər iltihabь, qaramal ycyn spesifik bir xəstəlik olbu bunun əsas prosesi aqçijərlərdə dəvam edir. Joluquçu aqçijər iltihabьna dutulmuş hejvanьn aqçijərində interlabuljar, limfatik damarlarьnda və alveola toqumasьnda iltihab əmələ gəlməklə barabar, coq miqdarda eqsudat jьqьlьr. Bunun tərədiçisi syzylən miqroblar sьrasьna daxildirsə də, lakin bu miqrobu, miqrosqop altьnda jalьnьz coq bөjytdykdən sonra gərmək mymkyndyr. Miqros-

qopla gorynməsilə barabar tərədiçinin təmiz qulturasъ da alъnmъşdъr.

Joluquçu iltihabъn jajъlmasъ onun ilə aparъlan mybarəzədən asъlъdъr. Bə'zi hykymətlər hali-hazъrda bu xəstəlikdən azaddъrlar. Lakin bə'zilərində indi də joluquçu aqçijər iltihabъ dəvam etmədədir (Polşa, Ispanija). Bundan başqa, buna, Asija, Afriqa, Ameriqa və Avstralijada da təsadyf edilir.

Morfologijasъ. Qaramalъn joluquçu aqçijər iltihabъ olduqça kicik, polimorf, miqrob tərəfindən əmələ gəlir. Miqrosqop altъnda ətraflъ surətdə gorynmədiji ycyn bu miqrobun təsviri myxtəlif şəxslər tərəfindən myxtəlifdir və tərədiçi syzylən miqroblardandъr. L i p ş j u s, bunu girdə formasъnda təsvir edir və uzunluqunun da 0,25 miqrona mysavi olduqunu qejd edir. Polimorf olduqu ycyn, bə'zən gydək cubuqa bənzər formasъnda olduqunu da qejd edir, B o r e l, təmiz qulturasъnъ alarkan miqrosqop altъnda mono-diplo streptoqoq formalarъnda goryb, *Asterococus mycoides* adlandъrmъşdъr. *Damen,* iltihab materialъnъ miqrosqop altъnda tədqiq edərkən girdə, oval və jarъm oval formasъnda myxtəlif bəjyklykdə miqroblarъ gorub bu miqrobun *Micromyces peripneumonia bovis cantagiosa* adlandъrmъşdъr.

B o r d e, qъda myhitlərində əkdiji qulturadan hazъrladъqъ preparatda insan siflisi tərədiçisinə bənzər qъsa spiroxet gormyşdyr. T a r t a q o v s q i və D z u n q o v s q i, joluquçu aqçijər iltihabъnъ əmələ gətirən miqrobun hərəkətli olduqunu qejd edir. Miqrob, tərkibinə qarbol turşusu ilavə edilən anilin bojalarъ ilə jaqşъ bojanъr. Leffler, ysulu və Himza ilə də miqrob bojanъr. Lakin Qramm ilə bojanmajъr. Joluquçu aqçijər iltihabъ virusunun, qъda myhitlərində jetişməsi xysusi qъda myhiti və ysul tələb edir. Bunun jetişdiji qъda myhitinin *Ph* 7,8—7,9, optimal hərarət 37° və şərait də aerob olmalъdъr. Miqrobun syn'i qъda myhitlərində jetişdirilməsi haqqъnda coq ysullar təklif edilmişdir və bunlardan da gyndəlik təçribədə istifadə edirlər. Ilk dəfə Noqar və Ru xysusi ysul ilə bunun qulturasъnъ almъşdъrlar. Qolloidium torbasъna Marten buljonunu tokyb, icərisinə xəstələnmiş aqçijərin limfasъndan ilavə etmişlər. Qulturanъn jetişməsi ycyn, bunu adadavşanъnъn qarъn boşluquna tikdikdən sonra, qulturanъn bir necə (15—20 gyn) vaqtdan sonra inkişaf etdijini gormyşdyrlər. Bu təçribə ejnilə iri bujnuzlu qaramalъn yzərində də təkrar edilərkən, haman nətiçə alъnmъşdъr. Ançaq Hind donuzunda qulturanъ jetişdirmək mymkyn olmamъşdъr. Qarъnlarъna qulturalъ buljon torbasъ tikilmiş adadavşanlarilə barabar qontrol adadavşanlarъ gətyrylmyşdyr. Bunlara buljon torbasъ qulturasъz tikilmiş idi. Qontrol adadavşanlarъnda hec bir dəjişiklik əmələ gəlməmişsə də, lakin qulturanъ inkişaf etdirən adadavşanlarъ az vaqtъn icərisində arъqlamъşdъr. Adadavşanlarъnъn arъqlamasъnъ bunlar joluquçu aqçijər iltihabъnъ əmələ gətirən virusun həjat fəalijjətində buraqdъqъ maddədən gəryrlər.

Marten buljonu hazırlamaq ycyn kəsilən kibi dərhal bir neçə dənə donuz me'dəsini su ilə təmiz jujub təmizlədikdən sonra, ət maşınından kecirirlər. Maşından kecirilmiş 200—200,0 me'dəjə 1 litr 10% HCl, 50° hərarətdə 24 saat saqlamaq lazımdır. 100° hərarətdə 30 dəqiqə qızdırmalı və pambuq ilə ərtylmyş tordan syzdykdən sonra, qələvi reaqsijanı alana kibi majein yzərinə 10%-li soda ilavə etməlidir. Filtr kaqızından syzyb qolbalara tökmək və 100° hərarətdə 20 dəqiqə sterlizasija etmək lazımdır.

Marten buljonu hazırlamaq ycyn hazırlanmış materiala aşaqıdakı maddəni qatırlar; dəjylmyş 500,0 dana ətinə bir litr su ilavə edib 20—24 saat 25° hərarətdə saqladıqdan sonra ət suju hazırlajırlar. Syzylmyş ət sujuna 5,0 dəniz duzu ilavə etmək lazımdır. I və II məhlulu barabar qədərdə qarışdırıb reaqsijasını tə'jin edirlər. Məhlulu qızdırıb syzməli və 115° hərarətdə 20 dəqiqə sterilizasija etməlidir.

Tərədiçinin qulturasını bərk qıda myhitlərində də almışlar. Aqar qıda myhitinin yzərinə bir neçə damçı serum ilavə edilmişdir. Bunun hazırlanması aşaqıda gəstərilən qajda yzrədir. Peptonlu aqarın yzərinə, 0,5-dən 1,0 qədər serum ilavə edib 24 saat termostatda saqladıqdan sonra, limfanı jaxud buljon qulturasını onun yzərinə əkirlər. 5—6 gyndən sonra aqarın yzərində inçə şehə bənzər qolonija jetişir. Bojanmış preparatları 2 min dəfə bəjytdykdən sonra miqrob gərynyr.

Gize qulturanın daha jaqşı alınması ycyn dana ətindən hazırlanmış buljona, 8% at serumunun ilavə edilməsini məsləhət gəryr. Bu ysul ilə hazırlanan buljonda, virusun əkilməsi ycyn, ilk əvvəl bir hissə limfanı 80 hissə Marten buljonu ilə qarışdırıb 40° hərarətdə qızdırdıqdan sonra, palcıq filtrlərdən kecirməli və filtratdan zərdablı buljona əkməlidir.

Tərkibinə qliserin, qartof və *qan ilavə* edilmiş *aqarda* da qultura jaqşı jetişir. *Qəndli* qıda myhitlərində jetişərkən qəndi parcaladıqı ycyn, əmələ gələn turşu miqroblardan ətry əlverişli şərajit olmadıqına gərə miqroblar tələf olurlar.

Virusun davamlılıqı sojuqa nisbətən *istijə* zəifdir. 58° hərarət virusu tələf edir lakin—5—6° hərarət onu yc ajın myddətində belə tələf edə bilmir. Dəfələrçə hejvana joluqdurulub almış qultura, termostatda saqlanıldıqda 5—6 gyndən sonra belə virulentligini itirmir, aqzı baqlı qabda isə 12° hərarətdə bir ilə kibi virulentligi qalır. Gynəşin şua'ları virusu 5 saatdan sonra tələf edir *(Damen):* qəliz qliserin və 0,5%-li qarbol turşusu virusun virulentlijinə hec bir tə'sir buraqmajır (Sjuts, Stefan və Noqar). Ymumijətlə bu virusdan xariçi şərajitə olan davamlıları jyksək dejildir.

Qaramal, kəl və mystəsna olaraq keci və dəvələr xəstəlijə dutulurlar. Lakin insan, başqa çins ev hejvanları bu xəstəlijə hessas dejillər. Dəri altına ətyrylmyş az miqdarda qultura ilə qaramalda bir neçə gynyn (2—6—33 gyn) icərisində xəstəliji syn'i formada almaq mymkyndyr. Inqalijasija ilə qaraqter əlamətlər alınmajır.

Əgər bronxlarda qatar əlaməti gəryhyrsə də az vaqtьn icərisində qulturanь qəbul etmiş hejvan saqalьr. Xəstəlijə qarşь pejvənd edilmiş qaramal, xəstəlikdən ajьldьqdan sonra dəfələrçə virusu dəri altьna qəbul etdikdə, virus orqanizmə hec bir tə'sir buraqmajьr.

Əvvəllər, xəstəlijə dutulmuş orqanizmdə virusun, zədələnmiş aqçijər toqumalarьnda, kəkys limfa vəzilərinin şirəsində, plevra majei, bronx seqresijasь və burun majei kibi jerlərdə olduqunu qejd edirdilər.

Lakin aparьlan tədqiqat sajəsində jьqьlmьş materiallar, virusun nə inki bu kibi jerlərdə, və hətta joluqduqdan 7 gyn kecəndən sonra qanda və orqanizmin bir coq jerlərində də tapьlmasьnь bildirirlər. Bundan başqa B e l l e r xəstəlikdə bə'zən aqçijərin və plevranьn zədələnməməsini də qejd edir. Demək bu zaman xəstəlijin əsas prosesi orqanizmin başqa hissələrində davam edir. Demək proses tə'sir çihətçə aqçijər və plevraja bir o qədər tə'sir buraqmajьr. Lakin buna baqmajaraq B e l l e r həmişə xəstəlikdən tələf olmuş hejvanlarьn aqçijər və plevrasьnь tədiq edərkən orada virusu tapmьşdьr.

Təbii xəstəlijin hansь jol ilə əmələ gəlməsi barəsində japьlan tədqiqatьn əksərijjəti nətiçəsiz qalmьşdьr. Lakin təbii xəstəlijin hava vasitəsilə verilməsini N o q a r və R u təsdiq edirdilər. Axьrьnçь tədqiqat, xəstəlijin bilavasitə hejvanlarьn bir-birlərinə toqunmasь ilə əmələ gəldijini təsdiq edir. Təbii xəstəlijin qan soran milcəklər vasitəsilə verilməsi də təsdiq olunmamьşdьr. Xəstə hejvan xəstəliji hər bir zaman və xysusən xəstəlijin şiddətli zamanьnda hejvanlara jaja bilər. Xəstəlik tərədiçilər zədələnmiş aqçijərdə virulentlijini bir ilə kibi saqlaja bilir və bu xəstəlik mənbə'indən xəstəlik tərədiçi jenidən hejvanlara joluqmasь, onun aqçijərdə nə vəzijjətdə qalmasьndan asьlьdьr. Əgər bu material aqçijərdə qapsul icərisinə alьnьrsa o, zaman xəstə hejvan başqa hejvanlarь joluqdura bilməz. Joluquçu aqçijər iltihabь zamanь, aqçijərin nə dərəçədə zədələnməsi, xəstəlijin hansь—formada davam etməsindən asьlьdьr. Kəskin və jarьm kəskin formalarda aqçijərin az və ja coq hissəsi (pajьn biri, jaxud hər ikisi orta pajlar, aqçijərin juqarь hissəsi) bərkləşdiji ycyn icərisində hava qalmajьr. Çijərin zədələnmiş hissəsini jardьqda icərisindən şəffaf, sarь rəngdə seroz maje'i cьqьr ki, bu maje' də haman vaqt laxtalanьr. Aqçijər həçmçə irilәşir və onda hepatizasija əmələ gəlir, jə'ni çijərin pajçьqьnь jardьqda rəngi boz-sarь, boz-acьq və dutqun-qьrmьzь rənginə cevrilmiş gərynyr. Daha doqrusu bə'zən mərmər şəklini xatьrladьr. Aqçijərin zədələnmiş jerlərinin yst tərəfində, plevra nazik fibrin pərdəsilə ihatə edilir. Plevra qalьnlaşьr və onun alt hissəsində olan birləşdiriçi toquma infiltirasija maje'i ilə qarьşmьş olur. Bə'zən kəkys boşluqunda 10—18 litrə kibi şəffaf sarь bulanьq jaxud sarь-dutqun rəngdə maje jьqьlьr. Inqubasija devri dərialtь vasitəsilə 6—27 və inqaljasija ilə 12—16 gynə kibi syryr. Təbii xəstəlikdə də

inqubasija devri bu myddətə qədər ola bilər. Inqubasija devrinin qurtarmasьnь ymumi hərarətin 0,5 jaxud 1 dərəçəjə kibi qalqmasь ilə bilmək olar. Xəstəlik bir necə formada davam edə bilir: Iti, orta və xroniki. Hərarətin jyksəlməsi və aşaqь dyşməsi jəqin ki, xəstəlijin nə formada davam etməsilə əlaqədardьr. Iti formada olduqda hərarət bir qədər jyksək olmaqla barabar bir dərəçədə qalьr. Əsas əlamətlərdən birisi də tənəffysyn cətinləşməsidir. 2—3 həftədən sonra tənəffysyn miqdarь 30—40 dəfəjə catьr. Xəstənin tələf olmasь myxtəlif vaqtlarda olur və bunun tələf olmasь xəstəlik prosesinin nə vəzijjətdə davam etməsindən asьlьdьr. Bə'zən xəstə 2—4 həftə, jaxud 2—3 həftədən sonra tələf olur, başqa hallarda xəstəlik prosesi aqьr formada davam etdijindən hejvan birinçi həftə jaxud 2—3 gynyn icərisində tələf olur. Tələfatьn faizini gəstərmək mymkyn dejildir və onun bir o qədər də əhəmijjəti joqdur, cynky xəstəlijə dutulan hejvanlarь ətlijə kəsirlər.

Qaramalьn joluquçu aqçijər iltihabьnьn diaqnozunda histolozi texniqanьn da bəjyk əhəmijjəti vardьr. Ona gərə bu ysul da xəstəlijin diaqnoz şərtlərinə daxil edilir. Zədələnmiş aqçijərdən preparat hazьrlajьb neqroz və interlabuljar oçaqlarьn təşkil olunmasьna, pajçьqlarьn arasьnda olan birləşdiriçi toqumanьn bu xəstəlikdə dəjişilməsinə diqqət etməlidir. Tərədiçisinin xəstəlik materialьnda tədqiq edilib tapьlmasь və təmiz qulturasьnьn alьnmasь ilə-ridə səjlədijimiz kibi olmalьdьr. Mynasib qьda myhitlərində bunun təmiz qulturasьnь almaq mymkyndyr.

Diaqnozu tə'jin etmək ycyn hejvanlarьn bu xəstəlik materialь ilə joluqdurulmasь lazьm gəlir. Burada təçribə ycyn başqa hejvanlar çinslərindən istifadə etmək olmajьr. Qojun və kecinin bu məqsədlə istifadə edilməsi xysusunda aparьlan təçribələr hamьsь nətiçəsiz qalmьşdьr. Bunun noqsan tərəflərindən birisi virusu qəbul edən hejvanьn geç ölməsidir. Joluqdurulmuş materialь əldə etmək ycyn limfanь, plevra eqsudatьnь, jaxud buljon qulturasьnь filtrdən kecirib filtratь da dəri altьna ətyryrlər. Inqubasija devrindən asьlь olaraq bir necə (2—27 gyn, Oboldujev) gyndən sonra pejvənd edilən jerdə şiş əmələ gəlməklə barabar hərarət 40—42° qalqьr. Virusu qəbul etmiş hejvan bə'zən ölməjir, ölsə də xəstəlijə dair olan qaraqter dəjişikliklər alьnmajьr. Buzovlarьn syn'i surətdə bu xəstəlijə dutulmasь bə'zən ajlarça syryr. Nətiçədə buzov xəstəlijə dutulur və bunun virusu bədənin hər bir jerinə jajьlьr. *Arljuan* və *Noaq Allerqija* reaqsijasьnьn bu xəstəlik diaqnozunda verdiji kəməkliji daha jyksək duturlar. Sterilizasija edilmiş zəif, jaxud qəliz aqçijər limfasьnь dəri altьna ətyryb verdiji nətiçənin doqru olmasьnь təsdiq edirlər. Belə materialь gəz qapaqьna ətyryb nətiçədə xəstə hejvanlarьn gəz qapaqь bir qədər həçmini bəjydyr. Halbu ki, bu təçribə saqlam hejvanlarda gərynyrsə də xəstələrə nisbətən onlarьn gəz qapaqlarь bir qədər az iriləşir. Dəri altь və gəz vasitəsilə materialьn orqanizmə ətyrylməsi fajdasьzdьr. Serologi reaqsijalardan bu *daiqnozda* prisipitasija, aqlutinasi-

ja və qomplementlərin birləşmə reaqsijasь işlədilir. Xəstəlijin nə dərəçədə olmasьndan asьlь olmajaraq kəhnə jaxud təzə zədələnmiş aqçijəri fiziolozi məhlul ilə qajnadьb (qarajarada edilən kibi) tədqiq edilən qan zərdabь ilə qarьşdьrьb nətiçəjə baqьrlar. Joluquçu aqçijər iltihabьna dutulmajan hejvanlar da bə'zən mysbət reaqsija verirlər. Buna görə reaqsija tələb edilən qədər spesifik dejildir. Bundan başqa hejvanьn xəstə olduqu bə'zi səbəblərlə sybut edilirsə də, lakin bunu prisipitasija reaqsijasь göstərməjir. Bu məqsədlə prisipitasija coq ölkələrdə istifadə edilmişdir. Fransada M i s s n e r bu məsələ ilə calьşarkan 89% və Almanijada D a m e n 87% mysbət nəticə almьşdьr. Son zamanlarda qomplementlərin birləşmə reaqsijasьnьn, joluquçu aqçijər iltihabь zamanь diaqnoz məsələsində verdiji nətiçənin doqru olmaşь barəsində jьqьlan mysbət hallarьn miqdarь coqalmaqdadьr. Texniki tərəfdən reaqsijanьn qojulmasь saqqo xəstəlijində qojulan kibidir. Bu reaqsijanьn verdiji nətiçə kafi dərəçədədir. M i s s n e r , A l b r e x t bu reaqsija ilə diaqnozu tə'jin edərkən hər dəfə aldьqlarь nətiçə 83% doqru olmuşdur. Reaqsijada istifadə edilən antigen D a m e n tərəfindən hazьrlanmьşdьr. D a m e n i n təsdiq etməsinə görə bunun hazьrlandьqь antigen başqalarьna nisbətən bir qədər qyvvətlidir. Antigenin hazьrlanmasь ycyn Damen qьda myhitini bu qajda yzrə hazьrlajьr. *Ph* 8,0 olan ət sujuna 3% yzym şəkəri ilavə edib 50 qram miqdarьnda qolbalara təkyr və bu 2 gyn 100° hərarətdə 15 dəqiqə sterilizasija edilir. Sojudulmuş qolbalara 4 qram at serumu ilavə edib qьda myhiti 3 gyn, hər gyndə bir saat 18°-də tindelizasija edilir. Steril olduqunu bilmədən ətry termostatda saqlajьb sonra icərisində qulturanь əkirlər. Bu qьda myhitində qultura 10—12 gyndən sonra jetişir. Gələçək dəfədə antigenin hazьrlanmasь mallein hazьrlanmasь kibi olaçaqdьr. Jə'ni spirtlə bir neçə saat tə'sir edib sonra spirti filtrlə uzaqlaşdьrdьqdan sonra cəkynty qurudulur. Əldə edilən tozdan lazьm olan vaqt 2—3%-li su məhlulu hazьrlanьlьr. D a m e n i n göstərdijinə görə antigen 96% kibi doqru nətiçə verir. Antigenin başqa ysullar ilə də hazьrlanmasь mymkyndyr. D a m e n i n hazьrladьqь antigenin jyksək qyvvəjə malik olmasь ilə bir coqlarь razьlaşmajьrlar. Buna görə bə'ziləri qulturanь sentrafuqadan kecirilməsinin tərəfdarьdьrlar. Doqrudan da bu ysul ilə hazьrlanan antigen daha jyksək qyvvəjə malik olar. Damenin hazьrladьqь antigen zəif olduqu ycyn bir coq səhvlər buraqьla bilər. Damen antigenin spesifik olmamasь barəsində myəjjən göstərişlər vardьr. Qaramalьn joluquçu aqçijər iltihabьna qarşь hali-hazьrda qorujuçu pejvəndlər aparьlьr. V i l l e m s , 1850-çi ildə aparьlan qorujuçu ysulun, hejvanlarь təbii xəstəlikdən qorumasьnь göstərmişdir. V i l l e m s i n qejd etməsindən sonra bir coq ölkələr bu ysuldan geniş surətdə istifadə etməgə başlajьrlar. Lakin başqalarь bu ysulun əlverişli olmamasьnь hiss edib istifadə etməmişlər. Tarixin göstərməsinə görə bu ysulun

əsasьnь ərəblər qojmuşlar. Xənçər və başqa çisimlərin uçunu joluquçu aqçijər iltihabьndan tələf olmuş hejvanьn aq çijərinə bulajьb xənçər ilə hejvanьn mynasib jerini zədələdikdə (xənçərin uçunu hejvanьn dərisi altьna ətyryb), saqlam hejvan xəstəligə dutulurmuş. Qorujuçu pejvəndlər bir necə formada aparьlьr: 1—pejvənd, aqçijər maje'i, 2—qorujuçu pejvənd—qultura 3—pejvənd—immun serumu ilə aparьlьr. Aqçijərin maje'ilə aparьlan immunizasija orqanizmi bir ilə kibi qoruja bilər. Bu halь təçribədə də gormək olar. Immunizasija edilməmiş hejvanlarda xəstəlik aqьr formada davam edir. Çanlь virus vasitəsilə immunizasija ilk əvvəl N o q a r və R u tərəfindən aparьlmьşdьr. Marten buljonda jetişdirilmiş bir həftəlik jaxud 8 gynlyk qulturadan dərialtьna 0,25 jaxud 0,5-qram ətyrməklə jaratdьqь immunitetin myddətini 2 ilə catdьrmьşdьr. 1901-çi ildə Fransada bu ysul ilə aparьlmьş immunizasijanьn sajəsində jalьnьz 1,2% tələfat gorylmyşdyr. 1907-çi ildə immunizasijada istifadə edilən zəifləşmiş qulturanьn vasitəsilə immunizasija edilmiş 5554 baş maldan biri tələf olmuş və 88-nin qujruqu dyşmyşdyr. Joluquçu aqçijər iltihabьna qarşь, passiv immunizasija da aparьlьr. Xəstəlikdən ajьlmьş hejvanlarьn qan zərdabь, başqa xəstələri xəstəlikdən qoruma qyvvəsinə malik dejildir. Aqtiv immun serumunu əmələ gətirmək ycyn hejvana arasь kəsilməz virulentli qultura ətyryb, sonra əldə edilən qan serumu qoruma vasitəsini qəbul edəçəkdir. Bu qajda yzrə hazьrlanmьş aqtiv immun serumunun 60 qramь syn'i surətdə joluqdurulmuş hejvanda əmələ gələçək xəstəlik prosesini dajandьrьr. 40 qramь isə hejvanda 2 həftəjə kibi passiv immunitet jaradьr. Bundan başqa jenə immunizasija ysullarь vardьr. Sovetlər Ittifaqьnьn Avropa və xysusən Asija hissələrində joluquçu aqçijər iltihabьna myntəzəm surətdə təsadyf edilir, bu geniş surətdə jajьlarsa, o zaman xəstələri və xəstəlijə şybhəli olanlarь kəsmək və xəstəlijə dutula bilən hejvanlarьn yzərində pejvənd aparmaq lazьmdьr. Sovetlər Ittifaqьnda pejvəndi Noqar ysuli ilə (jə'ni çanlь qulturanьn vasitəsilə) aparьrlar.

QARAMAL TAUNU *(pestis bovam).*

Taun, qaramalda spesifik və şiddətli surətdə joluquçu olmaqla barabar isitmə formasьnda davam edir. Tauna dutulmuş hejvanьn selikli pərdə, xysusən həzm aparatьnьn iltihabь və neqroz kibi əlamətlər gərynyr. Taunun təsərryfata verdiji zərər olduqça jyksəkdir. Taun epizootija və enzootija formasьnda davam edə bilər. Bunun verdiji zərər hər jerdə bir barabarda dejildir. Bə'zən qojun və keci kibi hejvanlara da kecir.

Etiologijasь. Taunun tərədiçisi hələ tapьlmamьşdьr, lakin məşrut olaraq syzylən miqroblar sьrasьna daxil edilir. Taundan tələf olmuş hejvanьn virulentli qanьnь Ş a m b e r l a n və B e r q e t e l d filtrlərindən kecirdikdə filtr majeində virus tapьlьr, cynky filtr miqrobu majein icərisinə kecməjə qojmajьr (S v i q). N i q o l və

A d i l bəj tauna dutulmuş heyvandan aldıqı bejinin emulsijasını, bel sytunu və nəçis majeini fiziologi məhlul ilə qarışdırıb xırda dəlikli filtrdən kecirdikdən sonra aldıqları filtr majei virulentli olmuşdur. Lakin bu vəzijjətin doqru olması ilə bə'ziləri razılaşmajırlar. R j u d i g e r , apardıqı təçribələrdə filtr majeinin virulentli olduqunu hec bir zaman gərməmişdir.

Taunun virusu qandan başqa, orqanizmin bir coq jerlərində də tapılır. Məsələn bunu bytyn eqstraqt və seqresija maje'lərində, aqız sujunda, burun, gəz və balalıq jolu maje'lərində, gəz jaşında, tərdə, ətdə, syddə, sidikdə və hətta bytyn orqanlarda tapmaq mymkyndyr. Virusun bu jerlərdə tapılması hamı hissələr ycyn bir dejil. Ən az miqdarda virulentli qanla, qaramalda taunu syn'i formada almaq mymkyndyr. 4 litr virulentli qanla 0,001 qram virulentli qanın jaratdıqları xəstəlijin arasında hec bir fərq görynməmişdir. Coq miqdar qanın verdiji bytyn əlamətləri az miqdarda qan da verir.

Həssas heyvanların joluqdurulması myxtəlif jollarla ola bilər. Məsələn virusu dəri altına, həzm aparatına və bilavasitə qana ətyrdykdə heyvan tauna dutulur. Virusu səlikli pərdəjə, traxejaja, qarın altına ətyrdykdə də syn'i formada taun jaradır. T a r t a q o v s k i taunu syn'i qajda ilə dəvədə də almışdır. Virusun orqanizmdən kecirilməsi onun virulentlijinə hec bir tə'sir buraqmajır. Donuzların qaramal taununa dutulması barəsində myxtəlif fikirlər vardır. Bə'ziləri donuzların jyngyl formada xəstələndiklərini (jə'ni virusu qəbul etmiş donuzlarda hərarətin bir qədər jyksəlməsini ymumi vəzijjətin pozulub və bə'zən də tələf olduqunu) qejd edirlərsə də, başqaları onların qaramal taununa dutulmadıqını qejd edirlər. Ajrı bir qrup da, donuzun tauna həm syn'i və həm də təbii formada dutulub və hətta başqa donuzlara belə jajılmasını təsdiq edir.

4) quduz hejvan tərəfindən dutulan (vaqsinasija edilmiş və edilməmiş) itlər o saat tələf edilməlidirlər;

5) quduzluqa şybhəli heyvanlarьn tərəfindən dutulan itlər vaqsinasija edilb 6 aj xysusi jerdə saqlanьlmalьdьr və

6) pişkləri peyvənd etməjib, onlarь tələf etməli.

Kənd təsərryfat heyvanlarь arasьnda aparьlan immunizasijanьn barəsində qonfrans aşaqьdakь fikri səjləmişdir:

1) quduzluqa şiddətli surətdə dutulan jerlərdə immunizasijanь aparmaq mymkyndyr;

2) quduz heyvanlar tərəfindən dutulan kənd təsərryfat heyvanlarьnda 10 gyndən geç olmamaq şərtilə immunizasija aparьlmasьna içazə verilsin;

3) quduz heyvanlar tərəfindən dutulan (peyvənd edilməmiş) ətlik heyvanlarьn kəsilməsinə yc ajdan tez olmamaq şərtilə içazə verilməlidir və

4) quduzluq ilə mybarəzənin qyvvətlənməsi ycyn sahibsiz itləri tələf etmək və kycəjə buraqьlan itlərin hamьsьna aqьzlьq taqmaq. Bu isə mybarəzənin əsas hissələrindən birisidir.

D A B A Q.

(Aphthae epizooticae).

Dabaq, syzylən miqroblar tərəfindən jaradьlan xəstəliklərin sьrasьna daxildir. Dabaq olduqça joluquçu və isitmə əlamətlərilə davam edən xəstəlik olmaqla barabar, myxtəlif çins heyvanlarь xəstələndirir. Dabaqa bujnuzlu qaramal, qojun, keci, donuz, insan və bə'zən başqa heyvanlar dəxi dutulur. Isti ajlarda dabaq daha şiddətlə jajьlьr. Dabaqьn davam etməsi jalьnьz təsərryfatьn, kəndin daxilində olmajьb, az vaqtьn icərisində bəjyk rajonu ihatə edir. Buna coq zaman epizootija və panzootija formalarьnda da təsadyf edilir. Dabaq rajonda hər vaqt myntəzəm surətdə gərylyr, belə ki, mynasib bir vaqtda dabaq rajona dyşyr, bytyn həssas heyvanlarь joluqdurub, əz-əzyndən cəkilir. Lakin xəstəlik oçaqь haman jerdən bytynlyklə tələf olmadьqь ycyn jeni əmələ gəlmiş çavan heyvanlar jenidən xəstələnirlər, səbəbi isə dabaqda məhkəm immunitetin olmamasьdьr. Bir heyvanьn hər il jaxud jaj fəslində iki dəfə dabaqa dutulmasь mymkyndyr. Əksərijjətlə qaramal arasьnda jajьlьr. Qojun və keci kibi heyvanlar dabaqa zəif dutulurlar.

Etiologijasь—axьrьnçь illərdə dabaqьn tərədiçisi barəsində jьqьlan materiallarьn miqdarь get-gedə coqalmaqdadьr. Demək olar ki, bu problem həll edilmədədir. Dabaq tərədiçisinin syzylən miqrob olmasь ilk əvvəl L e f f l e r—R u , N o q a r və Q l e q q e r tərəfindən sybut edilmişdir. Dabaq tərədiçisinin tapьlmasь barədə qijmətli tədqiqat aparьlьb və aparьlmaqdadьr. Dabaq tərədiçisi Ş a m b e r l a n və B e r q q f e l d filtrindən və bir qədər daha xьrda dəlikli (Qitazato) filtrdən də kecir. Ziqet, tərədiçisinin basil, jaxud protozoa olduqunu təsdiq edirdi. D a m e n və Froş 1924-çy ildə verdikləri mə'lumata gərə, dabaqьn tərədiçisini bunlar həm morfəlozi və həm də fiziolozi tərəfdən əjrənmişlər. D a m e n ,

ıyxtəlif nev duru və bərk qıda myhitlərində dabaq tərədiçisinin təmiz qulturasını almışdır. F r o ş isə tərədiçini morfolozi tərəfdən gərmyş və onu ətraflı surətdə təsvir etmişdir. Tək-tək tərədiçinin şəklini ultra-bənəfşəji şya'ların kəməklijilə cəkərkən polimorf şəklə malik cəpə bənzər, diplobasil, diploqoqq və jumurta formasında miqroblar gərmyşdyr. D a m e n maje və bərk qıda myhitlərində aldıqı təmiz qulturanın arasında hec bir fərq olmadıqı ycyn bu material ilə Hind donuzunu və inəji joluqdurarkan, göstərilən hejvanlarda mysbət nətiçə almışdır. Qulturanı təçribə hejvanlarına ətyrərkən, hejvanlarda ymum hərarətin jyksəlməsini gərməklə barabar bu hejvanlar xalis dabaqın virusunu qəbul etdikdə, ətyrylən virusun hejvanlara hec bir tə'siri olmamışdır. Joluqdurulmuş təçribə hejvanlarının qanında qomplement birləşdiriçi reaqsija tapılmışdır. Ş b i q e l qandan, yrəkdən aldıqı qoq qulturası vasitəsilə qaramallarda dabaqa bənzər xəstəlik almışdır. Tapdıqı qoqların boju 0,1—0,2 miqrona kibi olmuşdur. Nissenin tapdıqı polimorf qoqun, Ş t u f a x e r i n səjlədiji protozoanın dabaq tərədiçisi olmamaları təsdiq edilmişdir. V e n d e l axırıncı tədqiqatında dabaqa dutulmuş hejvanın qanından hazırladıqı (bunun jetişməsi qəndli qıda myhitində daha jaqşı olur) preparatda xysusi bir çisim tapmışdır ki, bu çisim xəstəlijin ilk əvvəllərində orqanizmdə coq, xəstəlijin qurtaraçaqında az və saqlam orqanizmdə hec olmamasını qejd edir.

V e n d e l dabaqın əmələ gəlməsini tapdıqı çisimdən göryr.

P f e j f e r iki nev qulturanın olmasını qejd edir. Birisi A, iknçisi B. F a l e r bunları patogenlijnə görə təqsim edir. Bunun səjləməsinə görə Hind donuzuna A-qulturasının tə'siri, B-ə nisbətən zəifdir. Jaxud qultura bytynlyklə patogen dejildir: ançaq B ştamı 20—60% kibi patogendir. Tərədiçinin tapılması barədə aparılan tədqiqatların halı bu vəzijjətdədir. Jəqin ki, gələçəkdə aparılan tədqiqatlar dabaq tərədiçisinin kim olduqunu ajdın edər, lakin bu tədqiqatların başqa bir əhəmijjəti orasındadır ki, bunlar bizi tərədiçinin biolozi hissəsilə tanış etmişlər. Virusun xariçi şəraitə olan davamlılıqı bir o qədər jyksək dejildir. 37,5° hərarət qanın virulentlijini 12—24 saatda, 60° hərarət 5 dəqiqədən, 80° hərarət isə bir necə sanijədən sonra tələf edir (L e f f l e r) . Virusun sojuqa olan davamlılıqı zəifdir. 9° hərarət bir necə saatdan sonra virusun qyvvəsini joq edir. Virusun gynəşin sınmış şya'ları tə'siri altında qurumasın onu bir gyndən sonra tələf edir. Vaquum aparatında birdən qurudulmuş limfa, virulentlijini 18 gynə kibi saqlajır. Qurudulmuş toquma və topraq kibi jerlərdə virus bir necə gyn qalır. Ingiltərədə, dabaq tərədiçisini onun virulentlijini öjrənmək xysusunda tə'jin edilmiş qomissija, japdıqı bir coq təçribələrin nətiçəsində aşaqıdakı qərara gəlir: dabaq virusu qyvvəsini, tərkibinə hejvan, jaxud bitgi toqumasın ilavə edilmiş duru qıda myhitində daha jaqşı göstərir. Pejin icərisində virus 6 həftəjə kibi jaşajır. Virus 50% qleserin və fiziolozi məhlulda 342 gynə kibi jaşajır. Qleserin məhlulda fajizçə

coqaldьqda virus az vaqt jaşajьr. Aftalarda olan virusun qyvvəsi, qandakь virusa nisbətən daha jyksəkdir. V a l l e n i n səjləməsinə görə virus qanьn qьrmьzь qan çisimçiklərilə sьqь əlaqədə olur. Dezinfeqsija ediçi məhlullardan 1% qarbol turşusu, 2% formalin, 3% soda məhlulu 1% HCl məhlulu virusu 1 saatьn zərfində tələf edir (L e f f l e r). Lizol, qreolin və 0,25% sylymən kibi maddələrdə dabaq virusunun virulentliji olduqça qyvvətlidir. Syn'i surətdə qaramalda dabaq əmələ gətirmək ycyn az miqdarda virus kifajətdir. Virusun miqdarьndan və virulentlijindən asьlь olaraq, bilavasitə qana ətyrylmyş təzə limfa 1—3 gynyn myddətində həssas hejvanlarda aqьz, dabaqь formasьnь əmələ gətirir.

Syn'i surətdə xəstəliji myxtəlif jollar: jə'ni dəri, dərialtь və qarьnaltь vasitəsilə almaq mymkyndyr. Zədələnmiş aqьzьn səlik pərdəsinə virusu syrtməklə hejvan dabaqa dutulur. Bu hala başqa hissələrin selikli pərdəsində də təsadyf edilir. Bə'ziləri dərialtь vasitəsilə dabaqьn əmələ gəlməməsini təsdiq edirlər. Bu jol ilə hejvanlar xəstəlijə dutulursa da, lakin bu ysul ilə dabaqa dutulanlarьn miqdarь fajizçə coq azdьr. V a l d m a n dabaqь syn'i formada dərialtь vasitəsilə almьşdьr. Myxtəlif hejvanlarьn dabaq virusu bir dərəçədə olmajьb, myxtəlif virulentlijə malikdirlər. Məsələn: qaramal və donuzun virusu kecininkinə nisbətən qyvvətlidir. Təçribə hejvanlarьndan Hind donuzlarь xysusən çavanlarь dabaq virusundan tələf olurlar. Çavan it və pişik, syn'i formada dabaqa dutulurlar. adadavşanь və tojuqlar da dabaqa syn'i formada həssasdьrlar. Dabaqdan ajьlmьş Hind donuzlarьnda dabaqa qarşь immunitetin myddəti qьsadьr (2—3 aj) lakin bə'ziləri immunitetin əmələ gəlməməsini təsdiq edirlər. Başqalarь isə immunitetin nə inki olmasьnьn hətta onun uzun vaqta mysavi olmasьnьn belə tərəfdarьdьrlar.

F i r i n - B e r g e r və L j u e r immunitetin hec olmamasьnь, lakin Ş e n q - L e f f l e r immunitetin 10 ilə jaqьn olduqunu təsdiq edirlər. V a l d m a n immunitetin 2—6 ilə kibi olub, sonra onun tədriclə zəifləndijini qejd edir. Immunitetin jaranmasьnda virusun virulentliji aqtiv iştirak edir, bir virusun jaratdьqь immunitet bir qədər jyksək, o birisinin əmələ gətirdiji immunitet bir qədər zəif olur. Bundan başqa virusun jaratdьqь immunitet başqa bir virusun tərəfindən pozula bilər. V a l l e, bu məsələnin yzərində calьşarkan maraqlь bir hadisənin olduqunu gərmyşdyr. Əgər immunitet ilk dəfə A virusunun tərəfindən əmələ gəlirsə A virusu tərəfindən əmələ gələn immuniteti ilə B virusu hesablaşmajьb, B virusu orqanizmdə dabaqь jarada bilər. Dabaqьn yzərində aparьlan tədqiqat nə inki 2—3 və hətta 30-a kibi myxtəlif dərəçədə və başqa xysusijjətlərdə virusun olduqunu təsdiq edir. Virusun aqьzda gorylyb cəkilməsi də myəjjən vaqt tələb edir. V a l d m a n, hejvan xəstələndikdən 9 saat sonra virusun aqьzda gorylyb və 6 gyndən sonra tədriclə cəkildijini təsdiq edir. Dabaqьn virusu aqьz sujunda, sydə, bejində və hejvanьn başqa məhsullarьnda tapьlьr.

Təbii xəstəlik myxtəlif nev vasitələr ilə əmələ gəlir. Jollardan birisi həzm aparatıdır. Xəstə heyvan aqız sujunu bir coq jerlərə (tojləjə, otlaqa və başqa jerlərə) jajıb, sonra virus ilə cirklənmiş jemi heyvan qəbul etdikdə təbii xəstəlik əmələ gəlir. Bundan başqa tənəffys jolunun selik pərdəsi, əmçəklər və dyz baqırsaq giriş qapısı ola bilər. Havanın vasitəsilə dabaqın verilməsi məsələsi bu vaqta kibi ajdın olmamışdır. Dabaqdan ajılmış heyvanlar uzun myddət orqnizmindən virusu xariçə buraqır, jə'ni dabaq xəstəlijində orqanizm virus daşımaq xassəsinə malikdir. Zədələnmiş selikli pərdənin də rolunu dabaqın əmələ gəlməsində inkar etmək olmaz.

Dabaqa dutulan orqanizmdə bir neca dəjişiklik gərmək olar. Aqız və udlaq selikli pərdəsinin yzərində şiddətli qatar formasında şişlər əmələ gəlir. Me'də, jem borusu və bronxların selikli pərdəsində və udlaqın divarında suluq, sıjrıq və jaralara dəxi təsadyf edilir. Nazik baqırsaqın selikli pərdəsi adi rəngini dəjişməklə selikli pərdənin yzərində coqlu miqdarda xırda-xırda qan nəqtələrinə təsadyf edilir. Dabaqlı heyvanın ajaq hissəsində də bir coq dəjişiklik əmələ gəlir. Dabaqda ilk əlamətlərin gərylməsi ycyn coq vaqt tələb olunmajır, jə'ni inqubasija devri dabaqda coq qısadır. Qaramalda inqubasija devri 6 saatdan bir neca gynə kibi qurtarır. Bir saata coq az təsadyf olunur. Əksərijjətlə 24—72 saata kibi dabaqın coq əlamətləri gəzə carpır. Lakin, təbii formada inqubasija devri bir qədər geç qurtarır. 2—7 və hətta 11 gynə kibi belə uzanır. Dabaqın əmələ gəlməsi ycyn minimal vaqt, bir və iki gynə jaqındır. Dabaqda aşaqıdakı əlamətlərə təsadyf edilir: isitmə əlamətləri gərylyr, ymumi hərarət 40—41° qalqır. Hərarətin dabaqda qalmasın myvəqqətidir, suluqlar əmələ gəldikçə hərarət aşaqı enir. Dabaq heyvanlarda bir neca formada davam edir. Aqız, ajaq və əmçək formasın. Aqız formasın xysusən qaramalda olarkan, heyvan bir qədər jemdən qalır və gevşəmə zəifləşir, suja olan ehtijaç bə'zi heyvanlarda artır. Damaqın və dodaqların selikli pərdəsi daxili tərəfdən hərarətli, quru və bir qədər də qırmızılaşır. Tədriç (iki-yc gyndən sonra) ilə dodaqların daxilində, dişsiz cənənin, dilin juqarı və janaqın daxili hissəsində suluqlar əmələ gəlir. Bir neca vaqtdan sonra suluqlar jarılıb, acıq-qırmızı rəngdə aqrılı, dajaz sıjrıqlara cevrilirlər. Bu qisim cuqur jerlər bir qədərdən sonra epitelija ilə ərtylyr və heyvanda xəstəlik prosesi qurtarır. Ajaq formasın bə'zən aqız formasın ilə bir jerdə davam edir. Ajaqlarda şiddətli surətdə aqrı əmələ gəldiji ycyn, heyvan aqsajır. Jaxud cətinliklə gəzir. Ajaqlarda gedən proses ilə heyvanın ymumi halı əlaqədardır. Əgər bu proses ajaqların coq hissəsinə jajılırsa, heyvan gəzə bilməjir. Dabaqın virusu az (20—60 saat) vaqtdan sonra qanda tapılır. Bu qajda yzrə qan, virusu orqanizmin hər bir hissəsinə jajır. Dabaqın əlamətləri, qoçalara nisbətən çavanlarda daha jaqşı gərylyr. Kejfijjətçə dabaq iki formada davam edir: 1) selim, jə'ni dabaq heyvanda olarkən jyngyl formada kecib gedir, ikinçisi jaman formadır ki, bu zaman dabaq heyvanı tələf edir. Dabaqın jyngyl formasın 2—3

həftə davam edir. Suluqlar 5—6 gyndən sonra saqalьrlar. Dabaqdan hejvanlar coq az tələf olurlar. Tələf olanlarьn əksərijjəti ikinçi formada olur. Orta hesabla tələfat 0,2—0,5%-ə qədərdir.

Tək-tək hejvanlar yzərində, myxtəlif nev' dezinfeqsija maddələri vasitəsilə myaləçə aparmaq mymkyndyr: lakin burada biz xəstənin yzərində dajanmajьb, dabaq xəstəlijində aparьlan pejvənd ysullarьnьn və pejvənddə iştirak edən materiallarьn nə qajda yzrə hazьrlanmasь barəsində mə'lumat verəçəjik. Orasьnь da qejd etməlijik ki, dabaqa qarşь spesifik antiserum və virus varsa da, ançaq bu materiallardan istifadə edən mytəxəssislər coq azdьr.

Ən kohnə pejvənd ysullarьndan birisi Qittomundur ki, bu şəxs həm syn'i və həm də təbii dabaqdan hejvanlarь, dabaqdan ajьlmьş hejvanlarьn qanь ilə saqaltmaq istəjirdi.

Bu tədqiqatcьnьn səjlədiji ysul, təçribədə istifadə edilərkən, əldə edilən nətiçə kafi dərəçədə olmamьşdьr. Jə'ni qanь qəbul etmiş, hejvanlara qan hec bir kəməklik gəstərməmişdir.

L e f f l e r və N o q a r ətyrylən qanьn kəməksizlijini, qanda və qanьn serumunda olan mydafəə ediçi çisimlərin, az olmasьnda goryrlər. Qanьn sajəsində jaradьlan immunitetin myddəti də 1—2 həftəjə jaqьnlaşьr. Ymumijjətlə onlar bu ysulun profilaqtiqa məqsədilə işlədilməsini məsləhət gərməjirlər. Orqanizmə ətyrylmyş qan hərarətin qalqmamasьna mane olmajьr. Inqubasija devrini uzadьr (M a u s s). Dabaqdan saqalmьş hejvanlarьn qanьnь, dabaqdan təmizləmək məqsədilə başqa hejvanlara ətyryldykdə onun nə kibi kəməklik gəstərməsi haqqьnda bir o qədər zəngin material joqdur. Ş m e l i n q və Q i r n e r normal atьn və itin serumunu işlədərkən, dabaqьn jyngyl formada davam etməsini gərmyşlər. Bu təçribə xəstəlikdən saqalmьş atьn və itin serumu ilə japьlarkən ejni nətiçə alьnmьşdьr. Demək olar ki, normal serum ilə, xəstəlikdən ajьlmьş hejvanlarьn serumu arasьnda hec bir təfavyt joqdur. Halbuki, bu məsələni başqalarь əksinə səjləjirlər. Jə'ni xəstəlikdən ajьlmьş hejvanьn serumunda qorujuçu qyvvə normal seruma gərə bir qədər coqdur. Əgər xəstənin azad edilməsi ycyn 1,6 qram xəstəlikdən ajьlmьş hejvanьn serumu tələb olunursa, bu məqsəd ycyn normal serumun miqdarь 12,0 olmalьdьr. Q i t t materialьn, dabaqa aqьr surətdə dutulan hejvanlardan alьnmasьnь məsləhət gəryr, cynky xəstəlijə aqьr dutulan hejvanlarьn orqanizmində qorujuçu çismlər, xəstəlijə jyngyl surətdə dutulan hejvanlara gərə coq olur. Qanь hejvan aldьqda hejvanda xəstəlik əlamətlərinin hec birisi olmamalьdьr. L a u f f bu məsələ ilə razьlaşmajьb, materialьn, xəstəliji jyngyl formada kecirən hejvandan alьnmasьnь məsləhət gəryr, cynky onun qanьnda qorujuçu çismlər daha coqdur. Qanь alьnan hejvan saqlam olmalьdьr. Qanь hejvandan iki ysul ilə alьrlar. Birisi hejvanь qansьzlaşdьrmaq, ikinçisi isə qanьn bədəndən hissə-hissə alьnmasьdьr. Hər iki ysulda alьnan qanьn cirklənməməsinə diqqət jetirmək lazьmdьr; jьqьlan qan difibrinlənməlidir.

Serumun alınması adi qaydа yzrə olur. Jıqılmış qanı myəyyən qablarda bir neçə saat otaq hərarətində saqlayıb, yzərinə jıqılan duru maje'ni serum sifətində işlədirlər. Hər 100,0 qandan 30—35% serum jıqılır. Hər iki material—qan serumu—tez bir zamanda, yə'ni 24 saat myddətində işlətmək lazımdır. Qan coq qaldıqda xarab olur.

Qan və serumun jıqılması çətin olduqu ycyn, əgər material başqa xəstəlik tərədiçidən azaddırsa, bu zaman onları bilavasitə qan damarına ətyrmək lazımdır. Ilk əvvəl qanı və serumu dərialtına ətyryrdylər. Bu ysul materialın coq miqdarda olmasını tələb edirdi.

Orqanizmə ətyrylən qanın dozası heyvanların o vaqtkı vəziyyətindən asılıdır. Adi qaydа yzrə hər bir kiloqram vəznə 0,5—1 qram qan ətyryrlər. Əgər heyvan saqlamsa ona bir qədər az, xəstə isə bir qədər coq serum vermək lazımdır. Serum qanın yarısı qədər ətyrylməlidir.

Dabaq şiddətli yoluquçudur, belə ki, bunun başqa yerlərə kecməməsi ycyn aparılan tədbirlər belə bə'zən kəməklik göstərmir və onu bir coq yollar (malların yaylaqa, qışlaqa köcyrylməsi, onların dəmir yol ilə bir yerdən o birisi yerə göndərilməsi, mal satılan bazarlara onların yıqılması və sərgi kibi bir coq vasitələr) ilə yayılması bə'zən məçburi immunizasiyanın aparılmasına vadar edir. Məçburi immunizasiyanı yalınız dabaqın dyşdyjy dairələrdə aparmaq lazımdır, Bunun əhəmiyyəti coqdur. Doqrudur dabaq tez yayılan xəstəliklərdənsə də, lakin onun yayılması bir coq hallarda uzanır. Bunun olmaması, və heyvanların vaqtında xəstələnib eyni vaqtda saqalması təsərryfat ycyn əlverişlidir. Bunu əldə etmək ycyn dabaqın dyşdyjy yerlərdə, insanlar tərəfindən mexanik surətdə dabaq bir heyvandan o birisi heyvana verilir. Dabaqı başqalarına yaymaq ycyn suluqun icərisndə olan maddəni başqa saqlam heyvanların aqzına yayırlar. Mymkyn qədər materialı qaba çism ilə yaymaq lazımdır; cynky çism aqızın səlikli pərdəsini jyngyl formada zədələjir.

Materialı yıqdıqda, material alınan xəstənin aqzında olan suluqların olmasına diqqət yetirmək lazımdır, əgər suluqlar partlayıb, saqalmaq dərəçəsində isə bu zaman aqıza ətyrylən materialın xəstəlik yaratmaq xysusunda orqanizmaja hec bir tə'siri olmajaçaqdır. Bu ysulun yaqşı tərəflərini mydafəə edən işcilər coqdur. Ymumiyyətlə bu ysulda dabaq yyngyl formada (təbiiyə nisbətən) davam etməklə barabar xəstəlik, qısa vaqtın icərisində qurtarır. Məçburi peyvəndi, başqa formalarda da aparmaq olar.

Ş l e j h e j m e r, tək virusun orqanizmə ətyrylyb, dabaqı yaman formada əmələ gəlməsini nəzərə alaraq, virusla barabar orqanizmə dabaqdan ayrılmış heyvanın qan və serumunu da ətyryr. Bu ysulun verdiyi nəticənin təsərryfat ycyn əlverişli olduqunu bir coq tədqiqatcılar təsdiq edirlər, cynky bu ysulda dabaq yyngyl formada davam etməklə barabar tələfat da az olur.

E r n s t, 300 000 baş malь pejvənd edərkən 1,3% tələfat olub, 650 000 baş pejvənd edilməmiş maldan isə 7%-i tələf olmuşdur.

Juqarьdakь məqsədi əldə etmək ycyn, məçburi pejvəndi dabaqa dutulmuş xəstə hejvanьn qanь ilə də aparmaq mymkyndyr. Bu ysulun əsasən Q o s q o və A q u c c i qojmuşdurlar. Xəstə hejvanьn qьrmьzь qan çisimçiklərini saqlam hejvana ətyrdykdə, hejvanda hərarət bir qədər jyksəlir. Lakin xəstəlijə dair qilinik əlamətlər gərynməjir. Halbuki, iki ajdan sonra haman hejvan dabaqь bir daha özynə qəbul etməjir. Bə'zi hallarda virulentli qanь qəbul etmiş hejvanlarda isitmə və aqьz suluqlarь əmələ gəlir. Ançaq buna baqmajaraq dabaq coq jyngyl formada davam edir.

QORUJUÇU PEJVƏNDLƏR.

Qorujuçu pejvənddə istifadə edilən materiallarьn kejfijjətçə jaqşь əldə edilməsi barədə aparьlan tədqiqatlar və təçribələrin əksərijjəti nətiçəsiz qalmьşdьr. Lakin buna baqmajaraq bu məsələ xysusunda demək olar ki, axьr vaqtlarda bir coq tədqiqat aparьlmьşdьr və aparьlmaqdadьr. Bu tədqiqatlar, jəqin ki, gələçəkdə bu məsələni mysbət formada həll edəçəkdirlər. Tədqiqatçьlarьn hamьsь əmələ gətirdikləri materialьn jaratdьqь immunitetin aqtiv olmasьna və immunizasija prosesinin jyngyl davam etməsinə calьşьrlar. Dabaqda iki nev' immunizasija aparьlьr: birisi passiv, o birisi aqtivdir. Passiv immunizasijanьn baniləri L f f l e r, H e q q e r d i r dabaqdan ajьlmьş hejvanlarьn qan serumunun qorujuçu qyvvəsini o qədər artьrьrlar ki, xəstəlikdən ajьlmьş hejvan bir daha dabaqa dutulmajьr. Əgər bu hejvanlara jenidən virulentli limfa ətyrylyrsə qan serumunun qyvvəsi daha da artьr. Belə ki, serum ilə qaramalь bir necə dəfə passiv surətdə dabaqdan azad etmək mymkyndyr. Əgər immunizasija serum ilə bir necə dəfə təkrar olunursa, o zaman immunizasijanьn myddəti bir necə aja kibi syryr.

Immun serumunun hazьrlanmasь bir coq ysullar ilə ola bilər. Burada jalnьz bir moment nəzərə almaq lazьmdьr. Bu məsələ də hazьrlanan serumun uçuz əmələ gəlməsindən ibarətdir. Limfanь palcьq filtrlərindən kecirib tədriçlə dozanь artьrmaq şərtilə inəji hiperiminizasija edirlər: 2—3 ajdan sonra qaramalьn serumu dabaq virusuna qarşь davamlь olur. Serumun qyvvəsi hejvanьn nə dərəçədə immunizasija edilməsindən asьlьdьr. Əgər əldə edilmiş serumun 100,0-i 200—250 kiloqram vəznində qaramalь 24 saatdan sonra 0,1 qram virulentli limfadan mydafəə edərsə, bu serumun kafi dərəçədə qyvvətli olmasьnь göstərir. 20,0 immun serumu 0,05 limfanь nejtrallaşdьrьr. Bu kibi momentləri nəzərə alaraq passiv immunizasija jaratmaq ycyn coq jaşlь mallara 20,0 və xьrda hejvanlara 5,0 immun serumunu ətyrmək kifajətdir.

L i s b a immun serumunun hazьrlanmasьna sərf edilən vaqtь immun serumunun kəməklijilə qьsaldьr. Jə'ni qaramalь immunizasija etmədən qabaq hejvana 1000,0 qyvvətli immun serumunu ətу-

iyb, tədriclə virulentli limfanı buraqır. Qaramallarda passiv immunizasijanın aparılmasını bir coq tədqiqatcılar təsdiq etmişdirlər. Immun serumunun hazırlanmasında istifadə edilən ysullardan birisi də axır vaqtlarda S q o m o r o x o v u n istifadə etdiji ysuldur. S q o m o r o x o v hazırlajıb, qyvvəsini joqladıqlı serum xysusunda aşaqıdakı əsas jerləri qejd etmişdir: 1) qaramal və donuzların, tauna qarşı əldə edilən immun serumu kibi hazırlanan dabaq qarşılıqlı serumu jyksək dərəcəjə qorumaq qyvvəsinə malik olduqu ycyn onun həm passiv və həm də simultan immunizasijasında belə işlədilə bilər, 2) qaramaldan serum hazırlamaq məqsədilə hejvanın hipermunizasija edilməsi ycyn, virulentli qanın orqanizmə ətyrylməsi ysulunu bir qədər sadələşdirir və başqa ysullara görə onun qijməti uçuzlaşır, 3) reqonvalent serumu, coq xysusijjətə malikdir. Lakin jyksək dozada gətyryldykdə mydafəə etmək qyvvəsi bunda, dabaq qarşılıqlı seruma görə daha da qyvvətləşir, 4) aparılan təçribələrin göstərməsinə görə dabaq qarşılıqlı və reqonvalsent serumunun dabaqa qarşı myvəffəqijjətlə tətbiq edilə bilərlər. Epizootijanın qabaqının almaqda və qaramalın xəstəlijə dutulan jerdən başqa jerə nəql edilməsində hejvanları bazara, sərgijə göndərən zaman dabaqdan qorumaq ycyn passiv immunitet almaq məqsədilə bu materialdan istifadə etmək mymkyndyr».

Aqtiv immunizasija barəsində bir o qədər geniş mə'lumat joqdur. Bunun aparılması bə'zən tək limfa, jaxud limfa və serumun köməklijilə olur. Aqtiv immunizasijada iştirak edən material aşaqıdakı qajda yzrə hazırlanır. Hipermunizasija edilmiş qaramalın serumu ilə virulentli limfanı (1/50 sm^3) bir jerə qatıb qaramala ətyrdykdə qaramal və donuzda bir qədər isitmə əlamətləri göryldykdən sonra əmələ gələn immunitet onları 3—4 həftədən sonra 1/50 virulentli limfadan qorujur. Limfanı qəbul etmiş hejvanlarda hec bir hadisə tərəməjir. Bu qajda yzrə hazırlanmış pejvənd materialı, təçribədə əlverişli olmadıqlı ycyn ondan hali-hazırda istifadə etməjirlər, cynky bunun tə'sirindən bə'zən qaramalda aqır formada dabaq əmələ gəlirdi.

V a l l e və Q a r r e formal-vaqsinin hazırlanmasını təklif etmişdilər. Bunların məqsədləri hazırlanan vaqsinin sadə və qijmətçə uçuz oturmasından ibarətdir. Deşilməjən suluq pərdəsinin nə vəzində olduqunu bilib, onu əzdikdən sonra hər 0,3 qram suluq pərdəsinə 10,0 fiziolozi məhlul ilavə edib, bir necə qat təmiz tənzifdən syzyrlər. Əldə edilmiş vaqsinin 1 : 1000-ə nisbətindən 0,05 qram Hind donuzuna ətyryb, jerdə qalan vaqsinin hər 4 hissəsinə bir hissə (1 : 4) satışda olan formalindən ilavə edirlər.

Vaqsini işlətmədən qabaq lazımi dərəcədə calqalamalı, 20° hərarətdə 2—7 gyn saqladıqdan sonra qyvvəsini bilmək ycyn Hind donuzuna ətyryrlər və nəticədə isə Hind donuzu tələf olmalıdır. Ştamların myxtəlif qyvvəjə malik olmalarını nəzərə alıb, tədqiqatcılar hazırladıqları vaqsinə hər iki A və B tiplərini daxil

edirdilər. Jaxud ilk əvvəl bunlarьn hər birisini təklikdə hazьrlajьb, sonra bir jerə qatьrlar. Öldyrylmyş vaqsindən qaramalьn dərisi altьna 10,0 ətyrmək lazьmdьr. 1 : 50 vaqsinin yzərinə 0,1% formalin ilavə edilib, jaradьlan aqtiv immunitet Ingiltərə qomissionu tərəfindən myajənə edilmişdir. Bu qajda yzrə hazьrlanmьş vaqsin 48 saat 26° hərarətdə saqlanьldьqdan sonra qyvvəsini o qədər itirir ki, bir daha Hind donuzunda xəstəliji əmələ gətirməjir, antigenlik xassəsini isə saqlajьr. Əldə edilən immunitetin myddəti bir ilə kibi syryr. Ejni myəlliflər bir qədərdən sonra vaqsinin hazьrlanmasьnda iştirak edən qulturanь qana ətyryb orqanlarda olan virusdan istifadə edirlər. Virusun əldə edilməsi ycyn, dabaqa dutulmuş Hind donuzu, qojun, donuz kibi hejvanlarьn jarьlmamьş çəmdəjindən istifadə edirlər. Vaqsinin bu ysul ilə hazьrlanmasь aşaqьdakь qajda yzrə olur. Xəstənin orqanizminə maqsimal dərəçədə virus jьqьldьqdan sonra, orqanizmi tələf edir. Dərisini, me'də və baqьrsaqьnь sidik və öd kisələrini çəmdəkdən cьqardьrlar. Çəmdəkdən alьnmьş bejinin, qanьn, daxil orqanlarьnьn vəznini bilib, həvəngdə onlarь əzirlər. Həll edilmiş hər bir hissə maddənin yzərinə 4 hissə fiziolozi məhlul ilavə edib, vaqsini tələf etmədən ətry vaqsinin yzərinə formalin ilavə edirlər (5—1000); syzylmyş maje'i iki gyn 20° hərarətdə saqlajьb qorujuçu məqsədlə istifadə edirlər.

S q o m o r o x o v, bunlarьn hazьrladьqlarь vaqsinin qyvvəsini bilmək istərkən, qojduqu təçribə ilə həmin vaqsinin hejvanlarda 32—48 gyn immunitet jaratdьqьnь gərmyşdyr.

Dabaqda göstərdijimiz qorujuçu immunizasija ysullarь əsas jeri dutmamalьdьr. Mymkyn qədər dabaqь dairəjə buraqmamaq lazьmdьr. Əgər bu hal mymkyn olmajьrsa, o zaman hejvanlarьn birdən xəstələnib, ejni vaqtda saqalmasьna diqqət jetirmək lazьmdьr. Juqarьda göstərdijimiz faqtlar ajdьn göstərir ki, hali-hazьrda dabaqa qarşь qorujuçu və immunizasijada istifadə edilən vaqsin və immun serumu joqdur. Əgər bunlar myxtəlif şəxslər tərəfindən hazьrlanmьşsa da, bunlarьn noqsan tərəfləri coqdur. Bu vaqsinlərin hazьrlanmasьnda əmələ gələn texniki cətinliklər, vaqsinlərin hazьrlanmasьnda onun qijmətinə tə'sir edir. Jə'ni bunun qijməti başqalarьna nisbətən bir qədər baha tamam olur. Vaqsin və immun serumlarьnьn əsas məqsədləri immunitet jaratmaqdьr, bunlarьn bə'zilərinin jaratdьqlarь immunitetin myddəti həftəjə jaxud bir neçə aja mysavi olduqu momentlər, onlarьn işlədilməsinə mane olur. Dabaqa dutulmuş hejvanlarьn vəzijjətinə diqqət jetirmək, bajtar və sanitarija ysullarьnь aparmaq lazьmdьr. Dabaqlь hejvanlarьn verdikləri məhsullarь tərədiçidən azad (pasterizasija) edib, sonra satьşa buraqmaq lazьmdьr. Dabaqlь hejvanlardan alьnan sydy qəbul etmiş insanlarda, dabaq əmələ gəlir.

Atlarda meningitə bənzər xəstəlik *(Menigo—encephalo-myelitis epizootiqa epuorum).*

Səjlədijimiz xəstəlik də hələ bizə mə'lum olmajan tərədiçi tərəfindən əmələ gəlir. Xəstəlikdəki prosesin əsas tə'siri mərkəzi sinir

sisteminə olduqu ycyn, xəstəlikdən tələfat bir qədər jyksək olur. Bunu myxtəlif jerlərdə myxtəlif adlarla adlandьrьrlar. Bu xəstəlik hələ bu vaqta kibi ətraflь surətdə öjrənilmədiji ycyn, bunun barəsində bir o qədər geniş mə'lumat vermək mymkyn dejildir. Doğrudur axьr vaqtlarda bir coq jerlərdə xysusən, Sovetlər Ittifaqьnda bu xəstəliji öjrənməkdən ətry xysusi eqspedisjalar çalьşьrlarsa da, lakin onlarьn aldьqlarь nətiçə haqqьnda mə'lumat vermək mymkyn dejildir.

Ançaq orasьnь qejd etməlijik ki, ejni mevzu yzərində calьşan eqspedisijalar myxtəlif nətiçəjə gəlirlər. Şybhəsiz ki, məsələ əhəmijjətli olduqu ycyn bu daha əhəmijjətli məsələlərin sьrasьna daxil edilib birinçi nevbədə həll edilməlidir.

Meningitə bənzər xəstəlikdən tələf olmuş atьn materialь ilə adadavşanь və adadavşanьnьn materialь ilə adadavşanь və adadavşanьn materialь ilə at syn'i surətdə xəstəlijə dutulur. Bu iki hejvandan başqa S v i q , ejni materialь Hind donuzu, sьcan, qojun və tojuq kibi hejvanlara ətyryb onlarь xəstələndirmişdir. Lakin bu axьrьnçь hejvanlar at və adadavşanьna nisbətən bir qədər xəstəlijə az həssasdьrlar. Adadavşanь və sьcanlar xəstə hejvanlar ilə bir jerdə qaldьqda xəstələnmişlər. V i t t e , bu qajda yzrə iki sьcan və 4 adadavşanьnda xəstəliji almьşdьr. Bundan başqa haman şəxs ejni xəstəliji iki mejmunda da ala bilmişdir. Təçrybə hejvanlarьnь myxtəlif jollar ilə jə'ni əzələarasь, bilavasitə mərkəz sinir sistemi *intravenos,* dəfələrçə dəri altьna, qarьna ətyrməklə və jem vasitəsilə xəstələndirmək olar. Xalis meningitə bənzər xəstəlikdən tələf olmuş atlarda əmələ gələn xaraqterik əlamətlərin hamьsь, virusu qəbul edib, tələf olmuş təçrybə hejvanlarьndan da alьnmьşdьr. Bejində virusun virulentliji 18—32 gynə kibi qalьr. 57° hərarət virusu 30 dəqiqə və 70° hərarət 10 dəqiqədə tələf edir. Bejnin emulsijasьnь *Faust-Heimschon* aparatьnda qurutduqda 6—8 saatdan sonra xarab olur. Virusu qəbul etmiş adadavşanьnda S v i q , aşaqьdakь əlamətləri gərmyşdyr. Adadavşanьnьn ymumi vəzijjəti pozulur, darьxьr, jemdən qalьr, juqulu olur, xəstə əksərijjətlə qəfəsin bir kynçynə cəkilib, başьnь aşaqь salmьş və gəzlərini jummuş vəzijjətdə oturur. Xəstənin şyuru tədriç ilə itir. Xəstə ölymə jaqьnlaşdьqca psixomotor vəzijjəti pozulur, xəstə hərəkət edərkən fьrlanьr, hansь bir çism olduqunu tə'jin etmədən başьnь ona vurur. Ajaq ystə dura bilmir. Ymumi hərarət 39,0—39,9 dərəçəjə qalqьr. Inqubasija devri həftəjə kibi olur. Xəstəlikdən ajьlmьş at özyny 16 aj xəstəlikdən azad edir. Immunitet möhkəm dejilsə də, lakin spesifikdir. Tələf olmuş hejvanlarьn materialьnь tədqiq edərkən, materialda diplo və stereptoqoqlar tapьlьr. S v i q , xəstəlijin tərəməsində bunlarьn ikinçi novbədə iştirak etdijini qejd etməklə barabar, tərədiçini filtirdən kecən miqroblar sьrasьna daxil edir.

Yrəkysty vəzidə və jumurtalьqda az miqdarda virus varsa da, lakin bunun ən coq hissəsi mərkəzi sinir sistemindədir. Aparьlan

təçribələrdə xəstə heyvanın qan və daxili orqanlarında virus tapılmamışdır. Xəstəliyə qarşı hazırlanmış qoruyucu serum əlverişli olmadığı üçün, hali-hazırda ondan istifadə etməyirlər.

DONUZLARIN TAUNU.

(Pestis suum).

Donuzların taunu da süzülən virus tərəfindən əmələ gələn, olduqca qontaqioz və hemorazi septisemiya formasında davam edən xəstəlikdir. Donuzların taunu bir neçə formada, yə'ni iti, yarım iti və xroniki formada da ola bilər, lakin iti forması az təsadüf edilir. Donuzların taununda xəstəliyə spesifik olmayan *(Bac. suipestifer* və *Bac. suisepticus)* miqroblar ikinçi infeqsiya formasında iştirak edib xəstəlik prosesini daha da çətinləşdirə bilər. Donuzçuluq təsərrüfatının tərəqqi etməsinə donuzların taunu böyük zərər vurur haman zərər yenə də bə'zi yerlərdə davam etmədədir. Lakin axır illərdə aparılan zoogigiyena və peyvəndlər Sovetlər Ittifaqında donuzların taununu çoq azaltmışdır. Azərbaycanda da donuzların taununa təsadüf edilir, ilk əvvəl donuzların taunu 1885-çi ildə Ingiltərədə təsvir edilmişdir və sonra xəstəlik Ərz kürəsinin hər yerinə yayılmışdır.

Etiologiyası. Donuz taununun törədiçisinin tapılması xüsusənda aparılan çoqlu tədqiqatlar hamısı nəticəsiz qalmışlar, yə'ni törədiçini miqrosqop altında görməməklə barabar onun təmiz qulturası alınmamışdır. Bu virusun üzərində daha ətraflı çalışan tədqiqatçılarda U l e n q u t və onun məktəbi olmuşdur. U l e n q u t apardığı tədqiqat sayəsində donuzun tauna dutulduqu günden 5—6 gün sonra göz qapaqının epitelija hüçeyrəsində traxoma xəstəliginde tapılan maddəyə bənzər bir çismin olduqunu görmüşdür. U l e n q u t bu kibi çismləri xəstəliyə dutulmuş donuzlardan başqa bə'zi hallarda (3%) saqlam donuzlarda, da tapırdı. 1910-çu ildə R j u t e r donuzun etiologiyasına dair yeni bir mə'lumatın olduqunu qeyd edir. Donuz taunu virusunun spiroxetdən ibarət olduqunu söyləyir, lakin bunun söylədigi fikir Avropa tədqiqatçıları tərəfindən yoqlanılarkən xəstəlik müəyyən edilməmişdir. R j u t e r söylədigi spiroxeti saqlam donuzlara bir dəfə də olsun tapmamışdır. Bu spiroxetin boyanmasını və onun qıda myhitlərində böslənməsini R j u t e r qeyd edir. P f e y l e r i n söyləməsinə görə 1914-çü ildə onun tərəfindən donuz taununun virusu syn'i qıda myhitlərində böslənmişdir, lakin bu vaqta kibi P f e y l e r bu məsələ xüsusunda heç bir söz söyləməmişdir. Bir neçə il bundan qabaq yenə də Q i n q z və H o f m a n, R i u t e r i n təsvir etdigi spiroxetin donuz taununun törədiçisi olduqunu qeyd edirlər və U l e n q u t u n söylədigi məsələnin doqru olmamasını təsdiq edirlər. Bu şəxslər tərəfindən təsvir edilən spiroxet *(spirochaeta suis)* rus tədqiqatçıları R e g e n s q i, A n d r e-

j e v və M i x i n tərəfindən myajənə edilərkən onlar bunun doğru olduğunu təsdiq edirlərsə də, lakin spiroxetin donuz taunu ycyn spesifik olmamasьnь göstərirlər.

Virusun davamlьlьğь. Soyuq jerdə virus qyvvəsini bir necə aja kibi saqlajьr, halbu ki otaq hərarətində bə'zi hallarda virus öz qyvvəsini itirir. Virusun qyvvəsi sidijə görə zərdabda daha coq qalьr. Virusu bir hejvandan o biri hejvana pasaz etdikdə virusun qyvvəsi zəifləşir.

46° virusu 24 saat, 78° hərarət isə virusu 1 saatdan sonra tələf edir. Ətdə virus 3 aja kibi qala bilər.

Gynəşin dyz şya'larь virusun qyvvəsini 5 saata kibi tələf edə bilməjir. Taunlu donuzun qanьnь qurutduqda (34) virus virulentlijini uzun myddət özyndə saqlajьr. 0,5% qarbol turşusu virusu 12 gyndən sonra tələf edir 1% sylymən bir o qədər jyksək tə'sir edə bilməjir. Ymumijjətlə antiseptiqa xasijjətinə malik olan kimjəvi dərmanlarьn donuz taunun virusuna göstərdigi tə'sir bir o qədər qyvvətli dejildir. Bu virusun patogenligi jalьnьz donuzladьr. Taunun virusu qanda daima tapьlmaqla barabar, orqanizmin hər jerinə jajьlьr. Virusun ən coq olduqu jer sidikdir. Bundan başqa virusu xəstənin gözyndən və burunundan aqan selikli majeində və az miqdarda nəçisdən də tapmaq mymkyndyr. Təbii xəstəlik, cirklənmiş jemlərin və bir coq xəstəlik materiallarьnьn həzm aparatьna kecməsilə əmələ gəlir. Donuz taununda inqubasija devri 4—9 gynə kibi uzanьr, bə'zən göstərilən myddət azalьb coqala bilər.

Donuz taununun əsas əlamətlərinə gəldikdə onun nə formada olmasь xəstəligin nə formada davam etməsindən asьlьdьr. Əksərijjətlə xəstəligin ilk başlanqьcьnda taun şiddətli formada davam edir. Göstərilən formada coq zaman hemorrazi septisemija görynyr. Xəstələrdə ymumi hərarət jyksəlir və ymumi hərarətin coqalmasь ilə əlaqədar olan əlamətlər görynyr. Ymumi hərarətin xəstəlik devrində qalqьb, enməsi xəstəligin nə formada davam etməsindən asьlьdьr. Əksərijjətlə xəstəligin birinçi əlaməti qonjuqtivdən başlanьr, belə qonjuqtivdən səlikli irin aqьr. Qusmaq görynyr, ilk əvvəl xəstə qəbz olur sonralar isə ishala dutulur. Burundan və sidik jolundan bə'zən qan aqьr.

Xəstənin sidigi qьrmьzь rəngə cevrilir. Bu əlamətlərə coq zaman iti formada təsadyf edilir. Taunun uzun syrən formasьnda mə'də-baqьrsaqьn və aq çijərin zədələndigi görylyr. Xəstə özyny coq zəif hiss edir və hərəkətdən qalьr. Iştah kəsilir, lakin suja olan ehtijaç normaja görə coqalьr. Az şiddətli və xroniki formalarda taun donuzlarda həftələrçə syryr. Hansь jerdə daha coq olmasьna əsaslanaraq donuz taununun yc formada olmasьnь qejd edirlər: 1) baqьrsaq 2) dəş və 3) qarьşьq forma.

Patalozi-anatomik dəjişiklikləri hər tək-tək forma ycyn bir dejildir. Xəstəligin diaqnozu da onun patolozi dəjişikliginə görə qojulur.

Taun materialь miqrosqop altьnda tədqiq edilərkən materjalda taun ycyn spesifik olmajan *(b. suipestifer, b. suspesticus, paratyph, və coli communis)* miqroblarьn tapьlmasь, taunun olmamasьnь təsdiq etməməlidir. Diaqnozun qojulmasьnda bə'zən, lazьm gələrsə jeni xəstəlik materialь ilə çavan coşqalarьn joluqdurulmasь mymkyndyr. Joluqdurulmuş coşqalar bir və iki həftənin zərfində tauna dutulurlar. Tauna dutulub saqalmьş donuzlar buna qarşь immunitet qazanьrlar. Donuzlarьn taununa qarşь passiv immunizasijanьn aparьlmasь ilk dəfə 1898-çi ildə P r a j s tərəfindən aparьlmьşdьr. Prajs, taundan ajьlmьş donuzlarьn serumunu çavan xəstə donuzlara ətyrdykdə, onlarьn xəstəlikdən ajьldьqьnь gərmyşdyr. Sonralar Qutir və U l e n q u t kibi tədqiqatcьlar bu ysuli daha da genişləndirmişlər. Passiv immunizasijanьn bir qədər əlverişli olmadьqьnь bildikdən sonra aqtiv immunizasija kecmişlər. Immun serumunun əmələ gətirdigi immunitetin myddəti 4—7 həftəjə mysavi olur. Buna gərə hali-hazьrda donuz taununun immunizasijasьnda ja immun serumu, jaxud qombinasija ysuli immun serumu virus dəxi istifadə edilir.

Donuzlarьn taununa qarşь işlədilən immun serumlarьnьn hazьrlanmasь ilə Ittifaqьn bir coq laboratorijalarь məşqul olur. Immun serumunun hazьrlanmasьnda jalьnьz donuzlar istifadə edilməlidirlər. Taunun virusunu almaq ycyn ilk dəfə donuzu virus ilə joluqdurub, tauna dutulmuş donuz, xəstəligə dair əlamətlərin hamьsьnь göstərdikdən sonra və ymumi hərarətin ən jyksək bir momentində donuzu bytyn qanьnь aseptiqa ysulilə mynasib qablara jьqьb onun yzərində difibrinizasija aparьrlar. Virusu qonservləşdirmək ycyn onun yzərinə fenolqliserin destile edilmiş su ilavə (5,0 qarbol turşusunun qristalь, 20,0 təmiz qliserin və 75,0 destile edilmiş su) edirlər. 95,0 difibrinləşmiş virusun yzərinə 5,0 haman məhluldan tökyrlər.

QOJUNLARЬN CICƏJI.

Cicək tək qojunlarda dejil, başqa hejvanlarda və elə də insanlarda əmələ gəlir. Qejri hejvanlara nisbətən cicək, qojunlar arasьnda daha coq təsadyf edilir. Xəstəlik devrində bə'zən dərinin yzərində və onun tək-tək jerlərində qabarçьqlь—irinli sьzanaqlь səpgilər əmələ gəlir. Qaramalda cicək orqanizmin bə'zi jerlərində olub, onlarda jyngyl formada kecir ki, qojunda, insanda və bə'zi hallarda kecilərdə cicək dərinin coq hissəsini dutur. Qojunlarda cicək aqьr formada davam edir. Hali-hazьrda bizi qojunlarьn cicəgi maraqlandьrmalьdьr, cynky bunun qojunculuq təsərryfatьna verdigi zərər başqa hejvanlarьn cicəginə gərə daha coqdur. Qojunlarьn cicəginə Azərbajçanda da təsadyf edilir. Cicəgin tərədiçisi syzylən miqroblara daxildir. Myxtəlif hejvanlarda əmələ gələn cicəgin virusu bir-birinə olduqça jaqьndьr. Insanьn və qaramalьn cicək viruslarь ejnidir. Qojunun virusu insan virusuna coq jaqьndьr. Kecilə qojun

cicəjinin arasında olan qohumluq, insan ilə qaramalın cicəgi arasında olan qohumluqa oqşajır.

Qojun və bə'zi hallarda qaramal cicək zamanında, epiteli hyçejrələrində və onların arasında olan zədələnmiş dəridə xysusi çisimçik əmələ gəlir ki, bunu ilk dəfə gərən P a ş e n olmuşdur, ona gərə çisimçik haman şəxsin adı ilə adlanır. Ilk əvvəllər P f e j f e r və R i e c k , cicək tərədiçisinin baqterija joq, protoozoadan ibarət olduqunu qejd edirdilər, daha başqa bir tədqiqatçılar (Q a l m e t t və Q u e r e n) cicək tərədiçisinin tapılması yzərində calışarkən limfada xırda bir dənəçigin olduqunu qejd etməklə barabar onu cicəgin tərədiçisi dejə hesab edirdilər. Tərədiçinin tapılması xysusunda aparılan tədqiqatın miqdarça coq olmasına baqmajaraq, cicək tərədiçisinin tapılması problemi hələ də bu vaqta kibi həll edilməmişdir. Cicək virusunu dərı yzərində olan qabarçıqdan, zədələnmiş epiteli hyçejrəsindən, jaraların qartmaqından və bə'zi hallarda qandan belə almaq mymkyndyr. Cicəjə dutulmuş hejvanlarda ymumi hərarət jyksəlir. Cicək səpgilərinin əmələ gəlməsi bir həftəjə kibi syryr, tojuqda bu vaqt daha uzun syryr. Xəstənin gəz, burun və aqız səlik pərdəsində qataral proses əmələ gəlir, bunda başqa janaqın və udlaqın səlikli pərdəsində qırmızı ləkələrə təsadyf edilir. Bu vəzijjət 1—3 gyn davam etdikdən sonra dəri yzərində girdə qırmızı ləkələr əmələ gəlir, bu ləkələrin gərynməsi coq tyksyz jerlərdə olur, buna gərə bu ləkələrə janaqlarda, dodaqlarda, gəzyn yzərində və ətrafında, jelinin yzərində və budun ic tərəfində təsadyf edilir. 1—2 gyndən sonra qırmızı ləkənin orta hissəsində girdə dyjymyn əmələ gəlməsi gərynyr. Bu qisim dyjymlər az bir zaman icərisində irilənib gəj-sarı irinli sızanaqa cevrilir. Cicəgin diaqnozu göstərilən əlamətlərə gərə tə'jin ediləçəkdir. Cicəgə qarşı hali-hazırda immunizasija aparılır. Cicək xəstəligindən alınmış limfanı, qojunun dərisini bir neçə jerdən qırxdıqdan sonra onu haman jerlərə ətyryb 10—11 gyndən sonra irinli sızanaqdan limfanı jıqıb ovina sifətində işlədirlər.

KITABЬN ICINDƏKILƏR

	Səh.
Bir neçə söz	3
Myəllifdən	4

YMUMI MIQROBIOLOGIJA

Giriş	6
SSR Ittifaqьnda bajtarlьq miqrobiolgijasь	9
Miqrobiologijanьn tarixi	10
Sistematiqa	18
Miqroorqanizmlərin morfologijasь	18
Miqrosqop və onun quruluşu.	20
Miqroblarьn quruluşu	24
Baqterijalarьn qilafь	24
Qapsula	25
Baqterijalarьn protoplazmasь	25
Baqterijalarьn nyvəsi	26
Baqterijalarьn sporu	26
Baqterijalarda hərəkət orqanlarь	28
Baqterija hyçejrəsinin bəlynməsi	31
Şəklin sabit olmamasь və involusija	31
Şya'lь gəbələklər	32
Saplь və qьçqьrma gəbələkləri	32
Protozoalarьn morfologijasь	32
Bojalarьn hazьrlanmasь texniqasь	33
Tək-tək bojalarьn hazьrlanmasь	33
Miqrob preparatlarьnьn hazьrlanmasь və bojanmasь	34
Miqroblarьn fiziologijasь	37
Baqterijalarьn qidalanmasь	39
Baqterijalarьn tənəffysy	40
Azot dəvəranь	43
Oqsidləşdiriçilər və reduqsija	44
Enzimlər	45
Baqterijalarьn əmələ gətirdikləri zəhərlər	45
Piqmentlər	46
Baqterijalarda hərəkət və işьq.	46
Coqalma	47
Baqterijalara olan başqa fizik tə'sirlər.	47
Hərarətin tə'siri	47
Işьqьn tə'siri	48
Baqterijalarda qьçьqlanma	48
Sterilizasija	49
Qida myhitləri	50

Səh

Materialların qida myhitlərinə əkilməsi 51
Sterilizasijanın nev'ləri 53
Təmiz qulturanın alınması 56
Miqrobların təbiətdə jajılması 57
Havanın miqroflorası 58
Sujun baqterioloji tədqiqi 60
Infeqsija haqqında ymumi mə'lumat 62
Infeqsijanın bədənə daxil olması joiları 63
Xəstəliklərin gizli devri 66
Miqrobların virulentliji 67
Baqteriofagizm 69

IMMUNITET

Anadan gəlmə immunitet 71
Qazanılmış və ja əldə edilmiş immunitet 72
Immunitet nəzərijjələri 73

ANTIGENLƏR VƏ ANTITERLLƏR

Antigen və antitellərin kimjəvi tərkibləri 78
Antitellərin jetişməsi 80
Antigen və antitellərin birləşməsi 84
Opsoninlər və tropinlər 88
Baqteriolizinlər 91
Amboseptorların və ja sensibilizatorların xysusijjəti 92
Qomplementin xysusijjəti 93
Antitoqsinlər 94
Biolozi reaqsijalar 96
Aqlutinasija 96
Reaqsijadakı proseslər 100
Prisipitasija 101
Qomplementlərin birləşmə reaqsijası 104
Anafilaqsija 107
Antiserum və vaqsinlərin hazırlanması. 112
Xemoterapija 114
Patogen və irin əmələ gətirən qoqlar 115
Stafiloqoqlar 115
Streptoqoqlar 118
Irin batsili 119

XYSUSI MIQROBIOLOGIJA.

Qarajara *(Anthrax)* 121
Xəstəligin əlamətləri 127
Qarajara xəstəlijinin mybarəzəsində aparılan bajtarlıq-sanitar tədbirləri. . 135
Jaman şiş 136
Piccə (Emfivematoz) qarbunqulu 138
Hemorrazi septisemija 143
Ev və vəhşi hejvanlarda hemorrazi septisemija 146
Tojuqların vəbası 150
Insanlarda taun 155
Manqo *(Malleus)* 156
Qomplementin titrasijası 173
Baş təçribə 178
Qonqlutinasija reaqsijası 179
Atların limfatik damarlarında jaralı iltihablar 183